AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# SMOMPK: AZƏRBAYCAN FOLKLORU MATERİALLARI

## 2-ci cild

BAKI – 2019

**Layihə rəhbəri:** **Muxtar Kazımoğlu (İmanov)**
AMEA-nın həqiqi üzvü

**Tərcümə və transliterasiya edən:** F.ü.f.d, dosent **R.Xəlilov**

**Tərtib edənlər:** F.ü.f.d, dosent **Rza Xəlilov**
F.ü.f.d, dosent **Afaq Xürrəmqızı**
F.ü.f.d, dosent **Aynur Hüseynova**

**Rəyçi:** F.ü.f.d, dosent **Güldanə Pənahova**

**SMOMPK: Azərbaycan folkloru materialları, 2-ci cild.** Bakı, Elm və təhsil, 2019, -264 səh.

folklor.az

S $\frac{4603000000}{N-098-2019}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2019

## 13-cü buraxılış, 1892-cı il

# QRİQOROV N. TATEV KƏNDİ. MAKEDONİYALI İSGƏNDƏR HAQQINDA TATAR[1] ƏFSANƏSI[2]

Böyük İsgəndərin başında buynuz vardı. Makedoniyalı padşah bunu adamlardan gizlin saxlamaq istəyərək onun saçını qırxıb qurtaran hər bir dəlləyin başını vururdu ki, o, İskəndər Zülqərneynin buynuzu haqqında xalq arasında danışmasın.

Bir dəfə padşah əmrinə görə bri dəllək padşahın üzünü və başını qırxmağa gəlir. Dəllək işini qurtarıb və buraya gəlmiş dəlləklərin öldürüldüyünü bilib o, İskəndərə yalvarır və xahiş edir ki, onu öldürməsin və ona and içir ki, heç bir yerdə, heç kimə bu haqda bir söz də danışmayacaq. Padşah dəlləyin andlarına onu sağ-salamat buraxır ki, çıxıb getməsin.

Dəllək doğurdan da heç bir yerdə Böyük İsgəndərin haqda bir söz belə danışmırdı. Bu işin üstündən bir müddət keçəndən sonra dəllək hər keçən gündən sonra get-gedə daha çox şişən qarnında daha güclü sancı hiss edir. Dəllək bunu özünə onunla izah etdi ki, o sirrini heç kimə açmamışdır. O, bu dərddən sağalmaq üçün çöllü biyabana çıxdı, orada bir quyu tapdı və pıçıltı ilə dedi:

– İskəndər Zülqərneynin buynuzu var.

Dəllək bu sözləri deyən kimi bir yüngüllük hiss etdi ki, ağrı yüngülləşdi, qarnının şişi anında çəkilib getdi.

Bir neçə gündən sonra dəlləyin sirrini dediyi həmən quyudan adam boyundan hündür bir qamış bitib çıxdı. Bir çoban

---

[1] Topludakı yazıların adlarında və mətnlərdə işlənmiş “Tatar” sözü “Azərbaycan” kimi oxunmalıdır (Tərtibçilər).

2. Bənna Cavad Məmməd oğlunun dilindən yazılmışdır. Bu əfsanə padşah Midasın sirri haqqında klassik nağılın (bax. Ovidinin Metamor ph.11-ci kitab) variantıdır.

sürüsünü otara-otara gəlib bu yerə çıxdı. O, quyudan çıxan qamışı görüb özünə lazım olan qədər qamışdan kəsib götürdü. Çoban həmən qamışdan bir tütək düzəltdi, o, tütəyi ağzına aparıb çalan kimi tütəkdən uca səslə dəlləyin quyuya dediyini dedi:

– İskəndər Zülqərneynin buynuzu var.

Günlərin bir günü İskəndər Zülqərneynin başının adamları ilə bu yerlərə şikara çıxmışdı. Birdən o, tütəyin səsini eşitdi:

– İskəndər Zülqərneynin buynuzu var.

O, saat yəqin etdi ki, bu söz yazığı gəlib vurmadığı həmən dəlləkdən çıxıbdı. İskəndər Zülqərneynin dəlləyin namərdliyindən şübhələnib o, əmr etdi ki, onu saraya gətirsinlər. Dəllək hüzuruna gələndə o, qəzəblə xəbər alır:

– Sən nə cürətlə mənim sirrimi dünyaya yaymısan. Çobanlar da bilir ki, mənim başımda buynuz var. Sənin cəzan nədir?

Dəllək nə qədər and aman elədisə, nə qədər Allaha and içdisə bəs bu sirri quyudan başqa heç kimə açmayıb, İsgəndər Zülqərneyin inanmadı. O, əmr etdi ki, namərd dəlləyin başını vursunlar.

## BABALYANTS A.
## BAKI ŞƏHƏRİNDƏ YAZILMIŞ ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

### 1. ULU BABA İBRAHİM HAQQINDA ƏFSANƏ

Kəbə İbrahim tərəfindən tikildikdən sonra ərəblər tək Allaha pərəstiş etməkdən yayınaraq bütlərə sitayiş etməyə başladıqda Allah İbrahimə əmr etdi ki, onları yanılmadan çıxarsın (qurtarsın).

Kəbədə bütlər böyüklüyünə görə düzülüşdü. Qabaqda ən kiçikləri, arxada isə ən böyükləri, hamısının da başında, ən görünən yerdə isə ən böyük və ən hörmətli büt dururdu.

İbrahim bütlərin ilahlar olmadığını sübut edərək xalqı inandırırdı ki, bütləri tərk etsinlər, xalq onu heç eşitmək də istəmirdi. Bir dəfə bütün kahinləri əylənmək üçün şəhər ətrafına yola düşdülər və Kəbədə heç kim qalmadı. İbrahim baltanı götürdü, baş bütdən başqa hamısını doğradı, baltanı böyük bütün çiyninə qoydu və getdi. Kahinlər gəldilər, bütlərin vəziyyətini gördülər ki, bu, İbrahimin işidir. İbrahim onları inandırdı ki, əgər baltanı birinci büt tutarsa, deməli, bütün bunları o etmişdir. Kahinlər bu cavaba fikir vermədən İbrahimi camaat qarşısında yandırmaq üçün özü ilə odun gətirməyi əmr edərək xalqı meydana çağırdılar.

Xalq yığıldı və çoxlu odun gətirildi. Kahinlər fikirləşirdilər: "Bu odunlarla nə etməli? Əgər odunları kənarlara düzüb İbrahimi də onların arasına atsaq, onda od uzun müddətə gedib ona çatmaz". Odunları qüllə şəklində qalamaq, İbrahimi isə onun ən yüksək yerinə qaldırmaq və orada yandırmaq qərara alındı. Edama hazırlıqlar başlandı. Padşah qızı və əyanlar hündür bir yerdə oturaraq edama hazırlıqlara tamaşa edirdilər.

Tonqal yandırdılar, alov hər tərəfdən yüzlərlə ilan kimi yuxarı çıxırdı, İbrahim isə lap yuxarıda dizləri üstə Allaha yalvarırdı və bu vaxt möcüzə baş verdi! Bu tamaşaya baxan padşaha elə göründü ki, alovun ortasında uca meyvə ağacları və çoxlu kolları olan gözəl bir bağ var. Heyrətlənmiş padşah gözlərinə inanmaq istəmirdi, o, qızından və əyanlardan xəbər aldı ki, onlar da tonqalın alovunda onun gördüyünü görürlərmi? Məlum oldu ki, onlar da padşahın gördüyünü gördülər. Xalq da təəccüb içində idi. Nəhayət, şahzadə qız atasına deyir ki, o, İbrahimin yanına getmək istəyir. Atası ona deyir:

– Sən bu alovun içindən necə keçəcəksən, axı, sən yanarsan?

Şahzadə qız alovda ölməli olsa belə İbrahimin yanına getmək istəyirdi. Elə ki o, tonqala yaxınlaşdı, o saat alovun

ortasından yol açıldı, şahzadə qız bu yolu tutub heç bir zərər görmədən İbrahimə çatdı, sonra yol yenə də yox oldu, yalnız alovun ortasında İbrahim və şahzadə qızın gəzişdikləri və sevinc içində söhbət etdikləri bağ görünürdü. Elə bu vaxt şahzadə qız (bu sonralar İbrahimin arvadı olan Sara idi) İbrahimə elan etdi ki, atası razı olmasa da onun arvadı olmaq istəyir. İbrahim padşahı cansız bütləri buraxıb, tək, qadir Allaha iman gətirməyə dəvət edərək şahzadə qızı onun yanına göndərdi, lakin padşah onu edamdan azad etsə də, kahinlərin məsləhətinə görə onun təklifini rədd etdi.

## 2. MÜDRİK SÜLEYMAN HAQQINDA ƏFSANƏ

Müdrik Süleyman padşah taxtına oturanda onun dilini bildiyi bütün məxluqlar − dördayaqlı heyvanlar, quşlar, balıqlar, həşəratlar və digərləri öz padşahlarının taxta oturmağını təbrik etmək üçün yığışıb hədiyyələrlə gəldilər. Süleyman qabaqcadan bunu bilib taxta oturdu və əziz qonaqları gözlədi. Qısa bir vaxtda o qədər qonaq gəlmişdi ki, gələn qonaqların ucu-bucağı görünmürdü. Qonaqlar sıra ilə padşaha yaxınlaşır, baş əyir, müəyyən edilmiş yerə hədiyyələri qoyur və çıxıb gedirdilər. Bu vaxt qan-tər içində olan qarışqa ağzında cırcıramanın böyük bir ayağı taxta qalxdı, oradan da Süleymanın əlinə çıxdı və öz hədiyyəsini padşahın əlinə qoydu. Təəccüblənmiş Süleyman qarışqanın zəhmətsevərliyinə və onun yükünə baxaraq zarafatca xəbər aldı:

– Kim bizdən daha böyükdür?

– Əlbəttə, mən! – qarışqa cavab verdi.

– Bu necə olur?

– Hər şeydən əvvəl ona görə ki, sən padşah və müdriksən, amma sənə layiq olmayan taxtda oturursan, mən isə yazıq həşəratam və sənin − böyük çarlığın padşahı, hökmranı üstündə otururam. İkincisi, əgər bir kəs sənin iradənə qarşı

hərəkət edərsə, sən o saat onu cəzalandırmağı əmr edirsən, halbuki məni nə qədər narahat edirlərsə, əziyyət verirlərsə, mən səbr edirəm və dözürəm. Nəhayət, sən başqa insanlar kimi bir neçə saat işləyib, işlədiyindən də iki dəfə artıq dincəlirsən, mən isə bütün həyatımı istirahətsiz, yorulmadan işdə-gücdə keçirirəm.

## 3. BÖYÜK PYOTR HAQQINDA RƏVAYƏT

Şiə məzhəbinə mənsub olan qubalı Sultan Əhməd xan sünni məzhəbinə mənsub olan Hacı Qaib bəy Alpanın[1] gözəl qızına evli idi. Sultan Əhməd xan bir neçə dəfə arvadının yanında sünnülərin müqəddəs saydığı xəlifə Öməri təhqir etmiş, danışığında ona qarşı hörmətsizlik etmişdir. Arvadı buna dözmədi və nəhayət, atasına, o da öz növbəsində qazıya xəbər verdi. Qazı bunu eşidib kobud xandan intiqam almaq üçün əmr edib bütün sünni bəylərə yığışmaq əmri verdi. Dərhal hər yerdən sünnilər yığıldı və Sultan Əhməd xanın üstünə getdilər. Sultan Əhməd xan qızmış sünnilərə müqavimət göstərmək halında olmadığını görüb qadın libası geyİndi və arvadları arasında gizləndi. Sünnilər nə qədər çalışdılarsa, onu tapa bilmədilər. Nəhayət, gördülər ki, bir neçə arvad gedir, amma onların arasında birisi özünün kişi yerişi ilə seçilir.

Həmin dəstə sünnilərə çatanda gördülər ki, bu elə xanın özüdür, elə oradaca onu və onun arvadlarını, doğram-doğram etdilər. Bütün ailədən Əhməd xanın azyaşlı kiçik oğlu sağ qaldı, sədaqətli nökərlərdən biri onu öz kürkünün altında gizlədərək xilas etdi.

Bu qorxunc qırğın vaxtı[2] Böyük Pyotr Xəzər dənizinin şimal sahilində idi. O, çaxnaşmalardan xəbərdar olub, özünün cəsur döyüşçülərilə rəqibləri barışdırıb qarmaqarışıqlığı

1. Alpan və ya Alfan –Quba yaxınlığında bir aul.
2. Alpan və ya Alfan-Quba yaxınlığında bir dul.

dayandırmağa tələsdi. Pyotr ordu üçün 800 baş mal-qara və özü üçün gözəl cinsdən olan at aldı. Şamxal Pyotru qarşılayaraq onu evinə təsrif gətirməyi və duz-çörəyindən yeməyini xahiş etdi. Pyotr Şamxalın təklifini qəbul etdi və qiyamçıları barışa dəvət edərək onlara məktub göndərdi. Məktub bu sözlərlə qurtardı: "Mən böyük padşah olduğum qədər mənə qulaq asanlar və məsləhətlərimi qəbul edənlər üçün də mərhəmətim bir o qədər böyükdür, lakin nə qədər mən böyüyəmsə, mənim təkliflərimi qəbul etməyənlər üçün də cəzalarım bir o qədər böyükdür". Pyotrun məktubu və qətiyyəti sayəsində düşmənlər barışdı. Pyotr Sultan Əhməd xanın oğlunu çağırdı və onu Qubaya xan təyin etdi, onun kiçik yaşlı olmağını nəzərə alıb, gənc xanın yetkinlik yaşına çatmasına qədər hamının ona tabe olacağı bir qəyyum da təyin etdi. Beləliklə, Pyotr hər yerdə öz yaxşı əməllərini yayaraq, qubalılara sakit, sülh içində yaşamalarını əmr edərək öz dövlətinə qayıtdı.

İran şahı Nadir çoban oğlu idi. O, zəkası, cəsarəti ilə seçilirdi və bunların sayəsində İranda ən yüksək vəzifələrə çatmışdı. Onun müasiri olan şah Təhməz isə xalqı idarə etməkdə zəif idi. İran xalqı ondan narazılıq edərək yekdilliklə Nadirdən xahiş edirdi ki, Təhməzi taxtdan salsın və İranın idarəsini öz üzərinə götürsün. Nadir, – Mən adi çoban oğlu və öz padşahının nökərlərindən biri olaraq necə cürət edib onun əlindən taxtı ala bilərəm? – deyərək uzun müddət imtina edirdi.

Lakin xalq öz xahişində israr edirdi, şahın özü də zəifliyini hiss edərək Nadirdən bu vəzifəni öz üzərinə götürməyi xahiş etməyə başladı:

– Mən taxtda qalıb, xalqımın mənə görə əzab çəkdiyini görməkdənsə, mənim üçün taxtdan məhrum olub xalqımın firavanlıqla yaşamağını görmək yüz dəfə daha yaxşıdır.

Nadir taxtı qəbul etməyə məcbur edildi. Bu vaxt Xorasan padşahı Məlik Mahmud İranın daxili hərc-mərcliklərindən

və zəifliyindən istifadə edərək ona müharibə elan etdi. İran təkbaşına düşmənin öhdəsindən gələ bilməyəcəyindən rus çarı Böyük Pyotra müraciət etdi, Araz çayınadək olan torpaqları vəd edərək ondan kömək istədi. Böyük Pyotr ona müdafiə vəd etdi və tezliklə orduları ilə İrana gəldi. Məlik Mahmud İranın qüdrətli müttəfiqindən qorxaraq İranı tərk etdi və Xorasana qayıtdı. Onda Nadir Pyotra onun yardımına ehtiyac olmadığını deyərək, İranı tərk etməsini təklif etdi. Öz müttəfiqinin təklifindən heyrətə düşmüş Böyük Pyotr qəzəblə cavab verdi:

– Bu necə ola bilər? Mən uzaq şimaldan sizə yardıma gəlmişəm və sizin düşməni qorxudaraq onu sizin vətəndən uzaqlaşdırdım, İndi isə siz öz vədinizi unudursunuz! Yox, mən buna razı olmaram!

Onda Nadir Pyotra Qafqazı götürməyi təklif etdi, Pyotr cavab verdi ki, Qafqaz İrana aid deyil, olmayıb, müstəqildir. Böyük Pyotr bir çox mübahisədən sonra şahdan böyük məbləğdə pul, çox sayda qaramal və at alaraq Rusiyaya qayıtdı. Qayıdarkən yolda Quba sakinləri "Yer üzünün padşahı doğdu, göy üzünün padşahı batdı!" qışqıraraq onu sevinc içində qarşıladılar. Padşah onlara təşəkkür etdi və onların xoş arzuları ilə müşayiət edilərək sonra Rusiyaya yönəldi.

## 4. ŞAH ABBAS HAQQINDA RƏVAYƏT

### 1.

Şah Abbas Tiflisi fəth edib biri o birinin qarşısında yerləşməklə müsəlmanlar üçün məscid, xaçpərəstlər üçün isə kilsə tikdirdi, bu məbədləri təmin etmək üçün isə hər birinə qırx dükan təhkim etdi. Şah məscidin üstündə belə bir yazı yazdı: "Məndən sonra bu şəhərdə hökm sürən müsəlman padşahlardan xahiş edirəm ki, onlar qonşuluqdakı kilsənin hüquqlarını müdafiə etsinlər". O, kilsənin üstündə isə aşağıdakı yazını yazdı: "Burada hökm sürəcək xaçpərəst padşah-

lardan xahiş edirəm ki, mənə hörmət olaraq qonşuluqdakı məscidin hüquqlarını müdafiə etsinlər”.

Sonralar Tiflis İranın hökmranlığından azad olduqdan sonra Şah Abbasın tikdiyi kilsə getdikcə daha da zənginləşdi, məscidi isə kasıblaşdı. Belə ki, xaçpərəstlər ona aid olan dükanları ondan almışdılar. Böyük Pyotr Tiflisdə olanda bu məscidin əhvalatını bilib, şah Abbasın məscidə verdiyi dükanları dərhal ona qaytardı, onları idarə etmək hüququnu isə o zamankı müctəhidə verdi. O vaxtdan bəri Böyük Pyotrun mərhəməti sayəsində məscid heç bir şeyə ehtiyac hiss etmədi.

**2.**

Şah Abbas öz dövlətinin müxtəlif yerlərində min karvansara tikmək əmri verdi, lakin bu işi yerinə yetirməli olan podratçı yalnız doqquz yüz doxsan doqquz karvansara tikmişdi. Şah podratçının başısoyuqluğunu bilib onu öz yanına çağırtdırdı və qəzəblə dedi:

–Sən necə cürət edib əmrimi yerinə yetirmədin və öz şahını aldatdın!? Mən əmr edəcəyəm ki, səni elə İndicə edam etsinlər!

Podratçı sakitcəsinə cavab verdi:

– Ey qüdrətli şah, icazə ver, müdafiəm üçün iki söz deyim, sonra isə mənimlə nə istəsən, edərsən.

Şah ona danışmağa icazə verdikdə podratçı dedi:

– Mən min karvansara ona görə tikmədim ki, min sözü qısadır, asan tələffüz ediləndir və buna görə də çox az adam ona gərəkən diqqət yetirəcək, halbuki doqquz yüz doxsan doqquz sözü o qədər də asan və tez tələffüz edilmir və bununla belə sənin qüdrət və zəkandan doğan heyrət və təəccübə səbəb olacaq.

Şah Abbas ağıllı podratçını iş tərzinə görə təriflədi və mükafatlandırıb razılıqla buraxdı.

## 3.

Bir dəfə Şah Abbas öz adəti üzrə şəhərdə gəzərkən gördü ki, bir gənc dəmirçixanada heyranedici bir qeyrətlə çəkic vurur. Şah Abbas gəncin gücünə, qüvvətinə təəccüblənərək öz-özünə düşündü: “Onun ya çoxlu pulu, ya gözəl məşuqəsi, ya da gözəl arvadı olmalıdır ki, onun güc, qüvvətini oyandırır” və nəyin bahasına olursa-olsun, bu işin mahiyyətini öyrənmək qərarına gəldi.

Ertəsi gün o, dəmirçixanaya gəldi və iş qurtaranadək gözləməyə başladı. İş qurtaran kimi əbasını çiyninə saldı və dəmirçixanadan çıxdı. Şah gənc oğlanın dalınca getdi. Bir müddətdən sonra o, alçaq bir qapının qarşısında dayandı və qapını döyməyə başladı, qapının taqqıltısına o qədər gözəl və cavan bir qadın çıxdı ki, – mən şaham, yetmiş arvadımdan heç birinin belə gözəlliyi yoxdur, amma bu kasıbın mənim bütün arvadlarıma dəyən gözəl arvadı vardır”, – deməkdən özünü güclə saxladı.

Ertəsi gün şah dərviş paltarı geyinib gənc oğlanın evinə yola düşdü və onun qapısının yanında oxumağa başladı. Gözəl arvad bu vaxt evdə tək idi, o, çıxarıb dərvişə bir parça çörək verdi. Dərviş dedi:

– Gözəl qız, mənə çörək lazım deyil, mən uzaq ölkələrdən gəlirəm və daha çox dincəlməyə möhtacam. Bir yaxşılıq elə, mənə öz evində bir guşəcik ver ki, mən dincələ bilim.

Dəmirçinin arvadı yalançı dərvişi səliqəli-sahmanlı bir otağa gətirdi, yataq hazırladı və qəlyanaltı verdi.

Şah ona dedi:

– Mən istərdim ki, mələyəbənzər gözəl mənimlə birlikdə qəlyanaltı yesin.

Dəmirçinin arvadı qızararaq dedi:

– Dərviş baba, mən utanıram, sən bunu necə deyə bilərsən. Özün üçün dincəl, öz yolunla çıx get!

Onda şah dərviş paltarını üstündən atdı və dəbdəbəli padşah paltarında göründü. O, dəmirçinin arvadına dedi:

– Gördüyün kimi mən dərviş deyiləm, şaham, məni buraya sənin gözəlliyin cəlb etmişdir. Mənə ağır gəlir ki, mənim yetmiş arvadımdan heç biri sənin gözəlliyinin kiçicik bir hissəsinə belə sahib deyil, mən bura gəldim ki, səninlə vaxt keçirəm və sən mənim istəyimi yerinə yetirməlisən!

Dəmirçinin arvadı onun qarşısında diz çökdü, xahiş etməyə, yalvarmağa başladı ki, onu tərk etsin və getsin. Lakin şah, – Ya mən elə burada ölməliyəm, ya sən mənim istəyimi yerinə yetirməlisən, – deyərək heç nə eşitmək istəmədi. Dəmiçinin arvadı dedi:

– Əgər belədirsə, ey böyük şah, mənə izin ver, ən yaxşı qəlyanaltını hazırlayım ki, əvvəlcə necə lazımdır əylənək.

Sonra o, mətbəxə keçdi, on iki yumurta bişirdi, hər birini müxtəlif rənglərə boyayaraq gətirib masanın üstünə qoydu və qonağına dedi:

– Belə ki, şah məni çox sevir, qoy mənə izin versin, mən öz əllərimlə yumurtanı soyum və ona verim.

Şah izn verdi. O, əvvəlcə qırmızı yumurtanı götürdü, soydu və padşaha verdi. O, yumurtanı yedikdən sonra dəmirçinin arvadı ondan xəbər aldı:

– Şah, bu yumurtanın dadı necə idi?

Şah dedi:

– Adi idi, yumurta dadı var idi.

Dəmirçinin arvadı ona başqa rənglə boyanmış, soyulmuş yumurta verdi və onu yeyəndə xəbər aldı:

– Bəs bu yumurtanın dadı necə idi?

Şah təəccüblə dedi:

– Elə birinci yumurtanın dadı kimi.

Sonra o, üçüncü, dördüncü, beşinci və i.a. yumurtalara da şahı qonaq etdi və hər dəfə eyni sualı xəbər aldı, şah isə eyni cavabı verirdi. Nəhayət, bu suallardan əsəbiləşmiş şah dedi:

– Bu nədir, sən məndən elə eyni şeyi xəbər alırsan? Əlbəttə, yumurtanın yumurta dadı olmalıdır, başqa dad yox.

Gənc qadın dedi:

– Ey böyük şah, mən sevinirəm ki, şah bunu bilir, on iki müxtəlif rəngli yumurtanın dadı tamamilə eyni olduğu kimi, qadınlar da zahirən bir-birlərindən fəqlənsələr də, onların kişilərə verdikləri kef isə eynidir.

Bu müqayisədən heyrətə düşmüş şah tez yerindən qalxdı, dərviş libasını geyİndi, bir kisə qızıl verdi və tələsik namuslu ev sahibəsinin evindən çıxıb getdi. O elə tələsirdi ki, öz kürkünü də onun yanında unutdu.

Axşam onun əri gəldi və yad kürkü görüb arvadından onun kimin olduğunu xəbər aldı. Arvadı onun evdə olmadığı vaxt başına gələnlərin hamısını ona danışdı, lakin əri ona inanmadı və çox kədərlənib arvadına baxmaq belə istəmədi. Gənc qadın öz anasından xahiş etdi ki, o, şahın yanına getsin və şahı onların evinə çağırsın. Qadın elə israr etdi ki, onun anası istəmədən saraya getdi və xahiş etdi ki, şaha çatdırsınlar ki, hansısa qadın onu bir dəqiqəliyə yanına çağırır. Nökərlər getdilər və şaha çatdırdılar ki, filan yerdə yaşayan bir qadın xahiş edir ki, vacib bir iş üçün onun yanına təşrif gətirsin. Şah o saat gözəlin yanına yola düşdü və qadın ona ərinin hərəkətindən danışdı. Onda Şah Abbas gözəlin kədərli ərinə yaxınlaşdı və hər şeyi ona nəql edərək xahiş etdi ki, namuslu və nəcib arvadını heç bir şeydə günahlandırmasın. Şah beləcə dəmirçini sakitləşdirib ona pul verdi və qadının ona verdiyi dərsdən razı halda evinə qayıtdı.

***Zaqafqaziya Müəllimlər Seminariyasının***
***şagirdi A. Babalyants***

## QİYASBƏYOV N.

## ŞAH ABBAS VƏ FƏRƏC (nağıl)

Belə nəql edirlər ki, Şah Abbas (Allah ona rəhmət eləsin) öz rəiyyətlərinin hal-əhvalını, nöqsanlarını öyrənmək istəyəndə təğyir libas olub dərviş libasında şəhəri gəzməyə çıxardı. Bir dəfə bu gəzintilərin birind gəzə-gəzə gəlib bir yerə yetişdi və burada evlərin birindən gələn musiqi sədalarını və müğənnilərin səsini eşitdi. Şah pəncərəyə yaxınlaşdı və gördü ki, qulağa xoş gələn musiqi və ruhu oyandıran mahnıların eşidildiyi ev olduqca kasıbdır, burada döşəməyə xalı yerinə həsir döşənib, həsirin üstündə bir nəfər oturub, çalğıçı müğənnilər isə quru yerdə oturub ev sahibini əyləndirirlər. Şah Abbas bunu görüb evə girdi və ev sahibinə baş əyib ondan xahiş etdi ki, gecələməyə ona yer versin. Ev sahibi onun kasıb dərviş olduğunu görüb razılıq verdi. Gecəyarısı olmamış çalğıçı və müğənnilər ev sahibindən bir qran[1] alıb onunla sağollaşıb getdilər. Şah ev sahibi ilə ikilikdə qalıb, ondan xəbər aldı ki, bu qədər kasıb ola-ola çalğıçı və müğənniləri evinə çağırıb onlara necə pul xərcləyir. Ev sahibi dedi:

– Ey baba dərviş, mən, doğrudan da, kasıb adamam, mənim tək məşğuliyyətim başmaq təmir etməkdir. Günə iki qran qazanıram, bir qran yeməyə, yerdə qalanını isə məni hər gecə əyləndirən çalğıçı və müğənnilərə verirəm.

Yalançı dərviş buna inana bilmədi, amma adı Fərəc olan ev sahibi and içib onu inandırdı. Onda şah Fərəcə dedi:

– Əgər birdən şahın ağlına gəlib sənə bu sənəti işlətməyi qadağan etsə, onda sən nə edərsən?

Ev sahibi dərvişin sualına cavab verib dedi:

1. Qran – iran pul vahidi, tümənin onda birini təşkil edir.

– Sən necə də axmaqsan? Doğrudanmı, şah belə əhəmiyyətsiz peşələr barədə düşünə bilər?!

Səhər şah evin sahibi ilə sağollaşıb çıxıb getdi. Ertəsi gün isə şah başmaqların təmirilə məşğul olmağı qadağan edən əmr verdi, carçılar şəhəri gəzib şahın fərmanını xalqa çatdırdılar. Yazıq Fərəc hələ heç bir qran belə qazanmamış sənətinin qadağan edilməsi xəbəri onu ildırım vururmuş kimi vurdu. O saat gecəki qonağının sözlərini xatırladı, amma çarçı gəlib bizi əlindən alanadək başmaqları durmadan təmir etdi.

Fərəc ac qalmamaq üçün özünə köhnə bir bardaq tapdı, onu təmir etdi, bardaqda su daşıyıb satmağa başladı. Beləliklə, həmin gün iki qran qazana bildi. O, bir qrana özünə yemək-içmək aldı, o biri qranı isə həmişə olduğu kimi onu əyləndirən çalğıçı və müğənnilərə verdi.

Şah onun evinə yaxınlaşıb dünənkindən daha şad səslənən çalğı sədaları eşitdi. Şah evə girdi və qonaqcıl ev sahibi onu qarşılayıb evə dəvət etdi. Gecəyarısı çalğıçı və müğənnilər ondan bir qran alıb çıxıb getdilər, o, qonağına müraciətlə dedi:

– Bilirsən nə oldu? Şah bu gün başmaq təmirilə məşğul olmağı qadağan etdi.

Dərviş yalandan təəccübləndi:

– Doğrudanmı? Bəs sən çalğıçı və müğənnilərin pulunu haradan qazandın?

Fərəc köhnə bir bardaq tapdığını və beləliklə də, onunla su satıb iki qran qazandığını ona nəql etdi. Yalançı dərviş ondan xəbər aldı:

– Əgər şah bununla da məşğul olmağı qadağan etsə, onda sən nə edərsən?

Fərəc qorxdu ki, şah doğurdan da, ona çörək pulu qazandıran bu məşğuliyyəti də qadağan etdirə bilər, odur ki, qonağından xahiş ki, bir də belə qorxulu şeylərdən danışmasın.

Səhər dərviş ev sahibi ilə əvvəl olduğu kimi sağollaşıb getdi. Fərəc isə öz işi ilə məşğul olmağa başladı. Yazıq heç yarım qran qazanmağa macal tapmamışdı ki, şahın çarçıları gəlib şahın su satmağı qadağan etdiyini deyərək onun bardağını parça-parça etdilər. Yazıq çaş-baş qaldı, bilmədi nə etsin. Lakin ehtiyac adama hər şeyi öyrədir. O, qəbiristanlığa tərəf qaçdı və gördü ki, ölünü basdırmaq üçün bura gətirirlər, o, camaatın qabağını kəsib dedi:

– Mən qəbiristanlığı icarəyə götürmüşəm.

Camaat ondan yaxa qurtarmaq üçün ona bir qran yerinə iki qran verdi. Fərəc evə gəldi, axşam düşəndə isə çalğıçı və müğənniləri yenə dəvət etdi. Şah dərviş libası geyinib bu axşam da Fərəcin evinə getdi ki, bu gecəni necə keçirəcəyini baxıb görsün. Şah onun evinı gələndə Fərəc yenə əvvəlki kimi onu qarşıladı, müğənnilər oxuyur, ev sahibi isə onlara qulaq asıb həzz alırdı. Şah otağa girdi, amma ev sahibi bu dəfə onu qəbul etmək istəmədi və ona hirslənib kobudcasına dedi:

– Məgər mənim bu daxmamdan başqa dünyada özgə bir yer yoxdur ki, sən hər gün bura dadanmısan?!...

Dərviş cavab verdi ki, ondan başqa bir kimsəni tanımır və heç kimdən bir kömək gözləmir. Fərəcin ona yazığı gəldi, amma bir şərtlə ki, əvvəl dediklərini bir daha deməsin. Dərviş razı oldu. Çalğıçı və müğənnilər ev sahibindən bir qran alıb getdikdən sonra dərviş Fərəcdən ona nədən hirsləndiyini xəbər aldı. Fərəc dedi:

– Sən mənim evimə bədbəxtlik gətirirsən, sənin dünən, o biri gün dediklərinin hamısı yerinə yetir. Sənin yenə nəsə bəd bir şey deyəcəyindən qorxaraq səni evə buraxmaq istəmədim.

Fərəc ona necə pul qazandığını nəql etdi. Şah Abbas onu dinləyib dedi:

– Sən vəzir olmağa layiqsən.

Fərəc dərvişin dediklərinə çox sevİndi, düşündü ki, onun bu sözləri də yerinə yetəcək.

Səhər dərviş ev sahibilə əvvəl olduğu kimi sağollaşıb getdi, Fərəc isə qəbiristanlığa yollandı. Yazıq ora çatar-çatmaz şahın adamları onu tutub saraya gətirdilər. O, şahın hüzurunda duranda şah hirslə ondan xəbər aldı:

– Sən nə cürətlə adamlara ölülərini basdırmağa icazə vermirsən. Mən sənə bu iş üçün icazə vermişəmmi?

Fərəcin qorxudan canına lərzə düşdü, yerində donub qaldı, axırda birtəhər ürəklənib dedi:

– Qibleyi-aləm, bağışla məni, uşaqlarıma yazığın gəlsin, ehtiyac üzündən bu hiyləyə əl atdım. Əlimdən gələn sənətlərin hamısını sən qadağan etdin, aclıqdan ölməmək üçün ehtiyac məni buna öyrətdi.

Şah ona dedi:

– Yaşamaq üçün sənin başqa heç bir vəsaitin, varın olmadığı üçün səni əyanım təyin edirəm.

Şah bunu deyib qılıncını öz üzərindən götürüb onun çiynindən asdı.

Fərəc axşamadək sarayda qaldı, axşam cibiboş evinə qayıtdı. O, çalğıçı və müğənnilərin pulunu vermək üçün başqa bir yol tapmayıb öz qılıncının qızıl tiyəsini iki qrana satdı, onun yerinə isə taxtadan tiyə aldı.

Şah Abbas həmən gecə yenə təğyir olub dərviş libası geyİndi və Fərəcin evinə yollandı və burada yenə çalğıçı və müğənniləri gördü. Çalğıçılar dağılıb getdikdən sonar Fərəc dərvişə təşəkkür etdi ki, onun dedikləri bu dəfə də yerinə yetdi. Amma onun zərərinə deyil, xeyrinə. Fərəc ona xəbər verdi ki, şah onu əyan təyin edib. Onda dərviş xəbər aldı:

– Şah sənə çoxmu pul bağışladı?

Fərəc dedi:

– Bir qəpik də bağışlamadı.

Dərviş təəccüb içində xəbər aldı:

– Onda sən çalğıçı və müğənnilərə necə pul verdin? Sən ki axşama kimi sarayda idin?

Fərəc cavab verdi ki, şahın qılıncının qızıl tiyəsini satıb yerinə taxtadan tiyə alıb və o, taxta tiyəli qılıncı öz qonağına göstərdi. Onda dərviş dedi:

– Əgər sabah şah sənə əmr etsə ki, sən müqəssirlərdən kiminsə boynunu vurasan, onda nə edəcəksən?

Fərəc dərvişə qəzəbləndi, onu döydü və evindən qovdu. O, dərvişin dediklərinin yerinə yetəcəyini düşünərək bütün gecəni yatmadı.

Doğrudan da, ertəsi gün şah əmr etdi ki, o, bir cinayətkarın boynunu vursun. Onda Fərəc dedi:

– Qibleyi-aləm, mən bu vaxtadək heç kimin başını vurmadığımdan əmr et ki, onun boynunu bu dəfə bir kimsə vursun ki, mən ondan baxım öyrənim.

Amma şah razı olmayıb əmr etdi ki, Fərəc özü cinayətkarın boynunu vursun, əks halda onun özünün başı vurulacaq. Fərəc özünü itirməyib əllərini göyə qaldırdı və dedi:

– Ya Allah, əgər bu adam müqəssirdisə, mənə onun başını bir qılınc zərbəsilə vurmaq üçün güc ver, yox əgər elə deyilsə, qılıncımın tiyəsini taxtaya çevir!

O bu sözləri deyib qılıncını siyirdi. Və əlbəttə ki, qılıncın tiyəsi taxtadan idi. Hazır olanların hamısı böyük bir təəccüb içində idi, yalnız işdən xəbərdar olan şah özünü gülməkdən saxlaya bilmədi və o, hər şeyi hamıya nəql etdi, o vaxtdan şah Fərəcə ömürlük təqaüd kəsdi və o, əvvəlkindən də şad-xürrəm yaşayıb dövran sürdü.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetirməsi N.Qiyasbəyov Yelizavetpol quberniyasının Qazax qəzasında Əli Səlim oğlunun dilindən yazdı.***

## MAHMUDBƏY MAHMUDBƏYOV

## AŞIQ QƏRİB[1] (dastan)

Təbrizdə Əhməd adında varlı bir tacir yaşayırdı. Onun Xanı adında arvadı və Rəsul adında on altı yaşlı oğlu və on dörd yaşında Şəhrəbanu adında qızı var idi.

Günlərin bir günü Əhməd xəstələndi, təbiblər nə qədər çalışsalar da, onu müalicə edə bilmədilər və o öldü. Bütün dostlar, tanışlar onu dəfn etdilər və üç gün yas saxlayıb dağılışıb getdilər.

Rəsul Əhmədin böyük var-dövlətinin varisi və sahibi oldu. Təbrizin lotuları[2] bu işdən xəbər tutdular və fürsətdən istifadə etmək qərarına gəldilər. Bir gün onlar tacir libaslarını geyib Rəsulun yanına gəldilər, özlərini mərhumun əsl dostları kimi təqdim edib ondan üzr istədilər ki, alış-veriş işləri səbəbiylə yasda iştirak edə bilməmişlər. Beləcə, onlar bir neçə gecə dalbadal Rəsulu ziyarət edir və hər dəfə onu xoş söhbətlərlə əyləndirirdilər. Elə ki onlar onun ürəyini ələ aldıqlarından əmin oldular, ağıllarındakını həyata keçirməyə girişdilər. Bir gün səhər onlar Rəsulun yanına gəlib, atasının qəbrini ziyarət etməyə dəvət edirlər. O razılaşır. Onlar qəbiristanlıqdan geri qayıdanda onu bir könülaçan yerə aparırlar və bir kasa şərbətə qonaq edirlər. Rəsul əvvəlcə şərbətdən imtina edir. Amma yoldaşları onu yola gətirirlər və o, içən kimi o saat könlü açılır. Sonra ona ikinci, daha sonra üçüncü kasa şərbəti verdilər. Müxtəlif ədviyyatlardan hazırlanmış şərbət onun başını o qədər xumarlandırır ki, o, öz yoldaşlarından xahiş edir ki, müğənni və rəqqasələri çağırsınlar. Həmin an müğənnilər də, rəqqasələr də gəldilər və elə bir nəşə başladı ki, Rəsul atasının ölümünü belə unudub

---

1.”Aşıq Qərib” dastanı Bakı quberniyası Şamaxı qəzasının Tircan kənd sakini Aşıq Orucdan yazıya alınmışdır.

2. Lotu-hiyləgər. Təbriz və İsfahan lotuları məşhurdurlar.

ortaya düşüb rəqs etdi, sağa, sola qızıl sikkələr paylamağa başladı və on beş dəqiqənin içərisində yanında olan bütün pulları paylayıb qurtardı. Lotular onun pulunun qalmadığını görüb kiçik qonaqlığı dayandırırlar. Rəsul yalançı dostlarından sabahkı gün də belə bir əyləncə təşkil etmələrini xahiş etdi.

Lotular bu minvalla tam qırx gün boyunca Rəsulu qəhvəxana və başqa əyləncə yerlərinə aparıb gəzdirdilər və beləliklə, o son qəpiyinədək özünün bütün varını xərclədi. Lotular Rəsuldan faydalanmağa daha bir şeyin qalmadığını görüb onu rahat buraxdılar. Gənc oğlan yalnız o vaxt yalançı dostlarının kim olduqlarını başa düşdü.

Evdə bir parça çörəksiz oturmaq onun üçün çətin idi və o, anasının məsləhəti ilə bir misgərə şagirdlik etdi. Bir gün misgər içmək üçün Rəsuldan ona su verməsini tələb etdi, amma Rəsul çəkicin səsindən eşitmədi, misgər əmrini təkrar etdi, üçüncü kərə əmr etdi, Rəsul huşsuzluqdan suyu ona vermədi, misgər hirsləndi və onu işdən qovdu.

Misgərin qovduğu Rəsul dərzinin yanında işə düzəldi. O, dərzinin bütün parçaları elə hey ölçüb-biçdiyini görüb dərziliyin ən asan iş olduğunu və bu işi dərzidən heç də pis görməyəcəyini düşündü. Bir dəfə Rəsul usta olmayanda fürsətdən istifadə edərək bir parça götürüb açdı və öz-özünə, – usta gələndə bu sənəti tez öyrəndiyimə görə məni tərifləyəcək, – düşünərək ölçüb-biçməyə başladı. Dərzi gəldi və şagirdinin nə etdiyini görüb özündən elə çıxdı ki, az qala onu öldürəcəkdi.

Rəsul bundan sonra bir başmaqçıya şagird oldu, bu işdən də bir şey çıxmadı.

Bir dəfə o, işsiz-gücsüz veyillənərkən bir qəhvəxananın yanından ötürdü və aşıqların orada saz[1] çalıb oxuduqlarını gör-

1. Saz – aşıq müğənnilərin zəruri ləvazımatı olan metal telləri olan beştelli musiqi aləti. Onu sağ əlin şəhadət və başbarmaqların ucları ilə tutulan taxta lövhəcik (təzənə) vasitəsilə çalırlar.

dü. Bu onun elə xoşuna gəldi ki, onlara şagird olmaq qərarına gəldi. Aşıqlar onu məmnuniyyətlə özlərinə şagird etdilər. Çox keçmədən görünməmiş gözəllikdə olan bir oğlanın filan qəhvəxanada işləməsi haqda xəbər şəhərə yayıldı və hamı ora gəlməyə başladı. Bir xeyli vaxt keçdi, Rəsul isə heç cürə nə oxumaq, nə də sazda çalmaq öyrənə bildi. Müştərilər elə düşünürdülər ki, aşıqlar onu özləri üçün güclü rəqib gördüklərindən ona bu sənəti qəsdən öyrətmirlər, müştərilər aşıqlara dedilər ki, əgər qısa vaxtda aşıqlar Rəsula sazda çalmağı və oxumağı öyrətməsələr, qəhvəxanaya gəlməyəcəklər. Aşıqlar canla-başla Rəsulla məşğul olmağa başladılar, amma onun heç bir musiqi öyrənmək bacarığı yox idi və heç nə öyrənə bilmirdi. Bir gecə musiqi dərsindən sonra aşıqlar Rəsulu danladılar və musiqi bacarığı olmadığından sabah onu qəhvəxanadan qovacaqları ilə hədələdilər. O, gizlicə qəhvəxanadan çıxdı, dizi üstə düşüb Allaha, peyğəmbərə dua etməyə başladı. Həmin gecə Qədr[1] gecəsi idi və buna görə də onun duası eşidildi. Rəsul dizi üstə dua edərək elə burada da mürgülədi və yuxuladı. Yuxuda Xıdır İlyasın ona bir kasa şərbət içməyi təklif etdiyini və onun isə tabe olaraq içdiyini gördü.

Xıdır ona deyir:

– Bundan belə sən aşıqsan və Qərib adlanacaqsan, barmaqlarının arasından bax, bu, tiflisli Bəhram bəyin qızı Şahsənəmdir. O, sənin sevgilin olmaq üçün seçilib.

O, gələcək sevgilisinin gözəlliyindən valeh olub huşunu itirdi...

Səhərin mehi, sərini onu özünə gətirdi və o, aşıqların hələ yatmaqda olduğunu görüb, qəhvəxanaya yollandı.

Həmin gün qəhvəxananın həmişəki müştəriləri

---

1. Qədir gecəsi Ramazan ayında olur. Xalq inancına görə bu gecə insanın bütün istəkləri yerinə yetir, yalnız cənnətin və səmaların qapılarının açılmasını gözləmək lazımıdr. Qədir gecəsinin Ramazan ayının hansı gününə təsadüfən etdiyi dəqiq məlum deyil.

yığılanda aşıqlar adəti üzrə çalmağa və oxumağa başladılar. Rəsul da bu dəfə çalıb-oxumaq istədi. O, müştərilərdən birinə yaxınlaşıb onun üçün aşıqların birindən saz almasını təvəqqe etdi. O, canla-başla onun sözünü yerinə yetirdi. Rəsul sazı götürüb çalmağa başladı. Hamı, xüsusən də aşıqlar diqqətlə dinləməyə başladılar.

**Nəğmə 1**

Qədir gecəsində bir dilək dilədim,
Verdi maqsudimi bir Allah mənim.
Mən dilək dilədim, Haqq qəbula yetirdi,
Ərənlər verdilər muradım mənim.

Özümü bir üzü maha yetirdim,
Qətrədim, qətrədim aha yetışdim .
Bir ərizə yazdım şaha gətirdim,
Ərizəmə qol çəkdi gözəl şah mənim,

Ərənlər Qəribə əta verdilər,
Dolu doldurub duta verdilər
Şahsənəmi ona buta verdilər.
Tiflis oldu doğru rah mənim.

Bu nəğmə elə bir hisslə oxundu ki, hamı həzdən qışqırdı. Pullar yağış kimi onun üstünə səpələnməyə başladı. Aşıqlar öz aralarında baxışdılar və pıçıldaşdılar: “Bu bizdən deyil, müqəddəs ərənlər ona belə şirin oxumağı və saz çalmağı öyrətmişlər. O, burada oxumağa davam etsə, çörəyimizi əlimizdən alacaq, onu birtəhər buradan qovmaq lazımdır”.

Günlərin bir günü qəhvəxanada müştərilərdən heç kim olmayanda aşıqlar Qəribə sabah Tiflisə yola düşəcəklərini dedilər, belə ki, orada hər bir oxunan bənd üçün aşığa bir tümən[1] verirlər. Qərib buna olmazın dərəcədə sevİndi və onu

1 İran tüməni – 3 rübl, Tiflis tüməni -10 rubl, Şamaxı (Şirvan ) tüməni– 6 rubl.

da özlərilə götürməklərini təvəqqe etdi. Onlar razılaşdılar və səhər şəhər qapısının yanında toplanmağa və oradan yola düşmək qərarına gəldilər. Qərib anasından xeyir-dua almaq üçün evə gəldi və belə oxumağa başladı:

**Nəğmə 2**

Başına döndüyüm gülyüzlü ana,
İndi mən Tiflisə varmalı oldum.
Od tutub cismim sərasər alışar,
Ana, mən Tiflisə varmalı oldum.

Səninlə mən edərəm məhəbbət sazı,
Dilərəm duadan unutma bizi.
Tiflisdə görmüşəm bir ala gözü ,
Ana, mən Tiflisə varmalı oldum.
Anası belə oxudu:

**Nəğmə 3**

Başına döndüyüm, qurban olduğum[1],
Oğul, aparmasan bizi, qarğaram səni
Oduna yandığım, büryan olduğum,
Oğul, aparmasan bizi, qarğaram səni.
Oğlu buna cavab verdi:

**Nəğmə 4**

Rəqiblər var sağ və solda,
Sevdigimin gözü qalıbdır yolda.
Necə aparım səni bu sovuqda
Ana, mən Tiflisə varmalı oldum.

Anası aşağıdakı sözlərlə cavab verdi:

---

1. Başına döndüyüm, qurban olduğum –qurbanın təqdim edilməsi mərasimini göstərən bədii ifadə.

**Nəğmə 5**

Öldürmə sən yazıq xanını,
Yolunda qoyubdur baş və canını.
Aparaq özümüzlə Şəhrəbanını,
Oğul, aparmasan qarğaram səni.

Qərib yeni bir şeirlə ona cavab verdi:

**Nəğmə 6**

Qərib deyərlər mənim adıma,
Yetməmişəm əsla muradıma.
Şahsənəm düşübdür İndi yadıma.
Ana, mən Tiflisə varmalı oldum.

Anası Qəribi güclə yola gətirdi ki, onu və Şəhrəbanını özü ilə götürsün. Onlar özlərinin köhnə şey-şüylərini satdılar və səhər şəhər qapısına tərəfə gəldilər. Amma orada aşıqlardan heç kim yox idi. O, ana-bacısını burada buraxıb qəhvəxanaya gəldi öyrənsin ki, nə səbəbdən onun yoldaşları yola çıxmağa hazırlaşmırlar. Amma onlar heç nə olmamış kimi ona İndi qış olduğunu və yola çıxmaqdan vaz keçdiklərini, ona gəlincə isə onun artıq yola çıxa biləcəyini dedilər, ona bir karvansaranı da nişan verdilər ki, oradan Tiflisə gedən karvana çatmaq olar. Qərib onların nişan verdiyi karvansaraya gəldi və tiflisli Manaf bəyin başçılığı altında yola çıxmağa hazırlaşan bir böyük karvan gördü. Ona yaxınlaşıb yalvarmağa başladı ki, onları karvana götürsün. Qərib belə oxudu:

**Nəğmə 7**

Başına döndüyüm, qurban olduğum,
Bəy, Tiflisə bir səfərim var mənim.
Oduna yandığım büryan olduğum,
Bəy, Tiflisə bir səfərim var mənim.

Gör, sinəmin söhbətini, sazını,
Gözəllərin qəmzəsini, nazını,
Mən sevmişəm Bəhram bəyin qızını,
Bəy, Tiflisə bir səfərim var mənim.

Ərənlər Şahsənəmi Qəribə duta verdilər,
Dolu doldurub duta verdilər.
Dərdi ondan da ziyadə verdilər.
Bəy, Tiflisə bir səfərim var mənim.

Qəribin şirin səsi Manaf bəyə xoş təsir buraxdı, o dedi:

– Sən Bəhram bəyin kim olduğunu bilirsənmi? O, mənim qara daşımdır. Onun qızı Şahsənəm Şahvələdə nişanlıdır. Amma mən görürəm sən adi adam deyilsən, sən haqq aşığısan[1]. Əgər sən Şahsənəm haqqında belə oxuyursansa, Tiflisə yola düşək, mən sənin üçün əlimdən gələni edəcəyəm.

Onda Qərib dedi:

– Anamla bacım da mənimlə yola düşürlər, onlar məni şəhər qapısında gözləyirlər.

Manaf bəy cavab verdi:

– Narahat olma, onlar üçün də minib getməyə bir şey olacaq. Bax budur, sənə bir at, min və yola düşün gedək. Yolda sən bizə nəğmələr oxuyarsan.

Karvan yola düşdü. Şəhər qapısının yanında Manaf bəy digər sərbəst atı Qəribin ana və bacısına verdi. Qərib şəhərdən çıxarkən oxudu:

---

1. Haqq aşığı – öz poetik vergisini Allahdan alan müğənnilər belə adlanırlar. Onlar sənətlərinə görə aşıqlardan fərqlənirlər, haqq aşığı müqəddəs şəxsdir, onu incitmək böyük günahdır, belə aşıq öz oxuması ilə axan seli dayandırır, yırtıcı heyvanları ram edir, ən qısa zaman kəsimində böyük məsafələri qət edir v.s. Yalnız aşıq deyil, onun sevgilisi də müqəddəs şəxs sayılır, o da həmçinin haqq aşığıdır.

**Nəğmə 8**

Tərlan quşum yoxdur indu avladam,
Köhlən atım yoxdur mənim oynadam,
Qərib deyər qutana bax qutana,
Canım qurban dostuna yetənə.
Qismət olsa bir də gəlləm vətənə,
Tərk eylərəm vətən səni bir zaman.

Karvan gecələməyə dayandı. Manaf bəy o qədər iltifatlı idi ki, Qəribə və onun qohumlarına ayrıca çadır verdi. Gecənin yarısından çox keçmiş Qəribin anası yuxudan oyandı və gördü ki, oğlu yavaşcadan göz yaşı axıdır.

**Nəğmə 9**

Anası deyir:

Başına döndüyüm, qurban olduğum,
Ey güli-xəndan nədən ağlarsan ?
Oduna yandığım büryan olduğum,
Ey güli-xəndan, nədən ağlarsan?

x) Allahdan poetik vergi alan aşıqlar belə adlanarlar, onlar adi aşıqlardan fərqlənirlər. Haqq aşığı müqəddəs şəxsdir, onu incitmək böyük günahdır. Belə aşıqlar nəğmə ifa edərək böyük seli dayandırır, heyvanları ram edir, qısa vaxtda böyük məsafə qət edir və yalnız aşıq özü deyil, onun sevgilisi də müqəddəs şəxs hesab olunur, o da haqq aşığıdır.

**Nəğmə 10**

Qərib deyir:

Yatmışdım, gəldi girdi yuxuma,
Yar ilə oynar oldum, ağlaram.
Oyandım, qəflətən, yardan ayrıldım
Ayrılığa peşman oldum, ağlaram.

**Nəğmə 11**

Anası deyir:

Alçaqdan hündürə saray yapdığım,
Nəzir ilə müshəf ilə tapdığım,
Ərənlər camından bir av qapdığım,
Ey güli-xəndan, nədən ağlarsan?

**Nəğmə 12**

Qərib deyir:

Bir quşdum, dövr eylədim havada,
Atam öldü, yetim qaldım yuvada.
Canım çıxar mən yetincə murada,
Nə sızlar quş oldum ağlaram.

**Nəğmə 13**

Anası deyir:

Öldürdün bu yazıq Xanını,
Yolunda qoyub baş və canını.
Oyatma, bacın Şəhrəbanını,
Ey güli-xəndan, nədən ağlarsan?

**Nəğmə 14**

Qərib deyir:

Ərənlər Qəribə əta verdilər,
Dolu doldurub duta verdilər.
Dərdi ondan da ziyadə verdilər,
On dərd olub beş min ağlaram.

Səhər karvan yoluna davam etdi. Tiflisə çatmamış bir günlük yol qalarkən birdən Manaf bəy qardaşından məktub alır ki, bəs onun gətirdiyi mal qiymətdən düşmüşdür. Karvanın ağzını geriyə döndərməkdən və İranın başqa şəhərində malını satmaqdan başqa çarəsi qalmamışdı. Manaf bəy deyir:

– Qərib, biz burada ayrılmalıyıq.Tiflisə az alıb.Bu yol

birbaşa ora gedir. Tiflisə yola düşün! Allah qoysa, çox keçməz gəlib çıxaram. Heç kimə ürəyini açma, yoxsa Şahvələd səni öldürər. Qərib qohumlarına gecələməyə yer düzəldib, Tiflisə baxmaq üçün yaxınlıqdakı bir dağa qalxdı. O, Tiflisi görüb oxudu:

**Nəğmə 15**

Görükən Tiflis dağları,
Görünərmi, görünməzmi?
Şahsənəmin otaqları.
Sidq ilə çağıraram şahların şahı,
Silinsin könlümün qalmasın pası.
Şeyx Sənanın qəbri[1] kürüncəsi,
Görünərmi, görünməzmi?
Qəribin vəfalı yarı,
Götür könlümdəki qubarı,
Ağam deyən yar diyarı ,
Görünərmi, görünməzmi ?

Səhər tezdən onlar yola düşdülər və günortaya Tiflisin qapısına çatdılar. Burada onların tuşuna bir atlı və bir dəstə yolla gedənlər çıxdı. Qərib atlıya yaxınlaşdı və oxudu:

**Nəğmə 16**

Axtara-axtara gəlib tapmışam,
Şəhri-Tiflis didicəyim budurmu?
Gələndən, gedəndən xəbər bilmişəm ,
Şəhri-Tiflis didicəyim budurmu?

---

1. Müsəlmanlar Müqəddəs Davudun Tiflisdəki monastrını Şeyx Sənanın məqbərəsi hesab edirlər. Müsəlmanlar arasında belə bir rəvayət vardır ki, çoxsayda müridi olan Şeyx Sənan Tiflisə gəlmiş və burada bir gürcü qızına vurulmuşdur, o, xristianlığı qəbul etdikdən sonra qız ona ərə getmişdir. Şeyxin şagirdləri bunu bilib onun doğrudanmı xristianlığı qəbul etməsini öyrənmək üçün Tiflisə gəlirlər. Hələ şəhərə girmədən onlar sanki “Allahdan başqa ilah yoxdur, Məhəmməd isə onun peyğəmbəridir” deyən zəng səsini eşidirlər. öz şeyxlərinin nəinki müsəlman olaraq qaldığına, bu təlimi ətrafdakılara da ötürmüş olduğuna əmin olub geri qayıdırlar. Şərq şairləri özlərinin məhəbbət qəsidələrində bu şeyxi xatırlayırlar.

Baxça bunda, heyva bunda, nar bunda,
Namus bunda, qeyrət bunda, ar bunda.
Bəhram deyən bir qohum var bunda.
Şəhri-Tiflis didicəyim budurmu?

Qərib deyərlər adıma,
Yetməmişəm mən muradıma,
Şahsənəm düşüb yadıma,
Şəhri-Tiflis didicəyim budurmu?

Atlı (bu isə Şahsənəmin nişanlısı Şahvələd idi) onun üstünə qışqırdı:

– Ay səni evsiz-eşiksiz avara, sən nə cürət edib Şahsənəmin adını çəkdin?

O, Qəribi öldürmək üçün üstünə atıldı. Amma yoldan keçənlər Şahvələdi saxladılar və dedilər :

– Sən nə üçün ona hirslənirsən?! O aşıqdır, aşıqlar ağıllarına gələni söyləməkdə sərbəstdirlər.

Yoldan keçənlər ona bir neçə mis pul verdilər və yollarına davam etdilər. Qərib öz qohumları ilə birgə bir məscidin həyətinə düşdü. Çox keçmədən yağış yağdı və hava soyudu. Qərib qohumlarını orada buraxıb şəhərdə bir rahat gecələmə yeri axtarmağa getdi.

O, hündür bir evin qapısına gəlib çıxdı. Həmin evin sahibi bahalı əyin-başlı tacir qapıda örtünün altında dayanmışdı. Qərib ona yaxınlaşdı və oxudu:

**Nəğmə 17**

Başına döndüyüm gülüzlü ağa,
Canım ağa, anam məsciddə qaldı.
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Canım ağa, anam məsciddə qaldı.

Gəlmişəm qapına bir yer verəsən.
Düşmüşlərin halına yetəsən,

Anam ölsə, günahına batasan,
Canım ağa, anam məsciddə qaldı.

Yağar bir yandan yağmur ilə qar,
Anam, həmşirəm bana baxar,
Neçə ildir qəhrimi çəkər,
Canım ağa, anam məsciddə qaldı.

Tacir Qəribin oxumasına heç bir fikir vermədi. Kənarda bir neçə cavan adamlar durmuşdular. Tacirin kömək istəyən aşığa olan laqeydliyini görüb elə hirsləndilər ki, az qala onu döyəcəkdilər.

– Tam bir saatdır haqq aşığı sənin qabağında durub səndən gecələməyə yer istəyir, sən də elə bil heç onu eşitmirsən.

Qonşular güc-bəla ilə onu hirslənmiş cavanların əllərindən aldılar. Bu vaxt xeyirxah adam tapıldı. Qərib və qohumlarına gecələməyə yer verməyə razı oldu.

Bu Şahsənəmin atası Bəhram bəy idi. O, qonaqlarını qonaq otağına gətirdi və ev adamlarına əmr etdi ki, onlara plov bişirsinlər. Plov hazır olanda qarabaş Ağcaqız onu podnosa qoyub qonaqlara gətirdi. Şahsənəm atasının qonaqlarının kim olduğuna maraq göstərərək o da Ağcaqızın dalınca qonaq otağına getdi. Ağcaqız otağa girdi, o isə qapının yanında qaldı. Plov veriləndə Qəribin ana və bacısı axşam yeməyinə başlamaq istəyərkən Qərib onları dayandırdı və dedi:

– Bir az gözləyin, qoy qarabaş qız getsin, biz acıq və acgözlüklə yeyəcəyik, o isə bunu Bəhram bəyə danışacaq.

Qarabaş qız otaqdan çıxdı və getmək istəyərkən Şahsənəm qapının arxasında onu saxlayıb dedi:

– Bir az gözləyək, ürəyim elə döyünür...Bu cavan oğlan yuxuda Xıdır İlyasın mənə göstərdiyidir.

Ana və bacı axşam yeməyinə başladılar, Qərib yenə onları dayandırdı:

– Bir az gözləyin, mənə sazımı verin, ürəyim qaynayır,

onu sakitləşdirmək istəyirəm.

İş onda idi ki, Qərib qapının arxasından Şahsənəmin zülflü üzünün yarısını görmüşdü və ona valeh olmuşdu. Qərib oxudu:

**Nəğmə 18**

Pəncərədən ayıl-mayıl baxan yar,
Apardın ağlımı başdan eylədin.
Şirin canımı eşq oduna yaxan yar,
Alışdırdın məni cismi-atəşdən eylədin.

Boynuna taxmış heykəl bağını,
Mən əməm həm dilini, həm dodağını.
Bulud kimi kəsmiş ay qabağını,
Sevdiyim örümcəyini saçdan eylədin.

Qərib gülünü dəstə-dəstə dərmişlər,
Dəribən sinə üstə sərmişlər.
Əcəb vaxtda ixtilata gəlmişlər.
Ayırdın çörəkdən, aşdan eylədin.

Şahsənəm qarabaş qıza dedi:

– Buradan gedək, onlar acdırlar, qoy axşam yeməyini yesinlər .

Səhər Qərib sazını götürdü və yaxınlıqdakı qəhvəxanaya yemək pulu qazanmağa getdi. Qəhvəxanada ondan təveqqə etdilər ki, öz vətənini tərif etsin və o belə oxudu.

**Nəğmə 19**

Dinləyin ağalar, sizə tərif eyləyim,
Açılır baharda gülü Təbrizin.
Toyda, bayramda atlas geyirlər,
Üzülməz al-yaşılı[1] Təbrizin.

1 .Al-yaşıl rənglər. Şərqdə sevilən rənglərdir.

Təbrizin ətrafı bağdır, meşədir.
Içində oturan bəydir, paşadır.
Səkkiz yüz məhəllə, dört yüz küçədir.
Çarşısı, bazarı yüzdür Təbrizin.

Pəhləvanlar orada qurşanır,
Cümlə bəzirgan orada əylənir.
Üç yüz altmış yükü birdən bağlanır,
Əldən ələ gəzər malı Təbrizin.

İpəgi Hinddən bükülür gəlir ,
Buğdası, düyüsü əkilir gəlir.
Qoyunu Muğandan çəkilir gəlir.
Gürcüstandan gəlir balı Təbrizin.

Ərənlər dolunu su içib gəlmişəm.
Eşq dəryasını keçib gəlmişəm,
Mən Qəribəm, vətən mədhin etmişəm,
Mənəm İndi Rüstəm Zalı Təbrizin.

Qəhvəxananın müştəriləri birağızdan onun oxumasını bəyəndilər. Amma burada olan yerli aşıqların xoşuna gəlmədi və onlar bundan inciyib, onu deyişməyə çağırdılar. Qərib dedi:

– Mən kasıb Qəribəm və aşıqlar arasında naşıyam. Mən sizlərlə, çoxlu dostları olan təcrübəli aşıqlarla deyişməyə cəsarət edərəmmi ?

Amma bu vaxt Bəhram bəy qəhvəxanada tanış olmayan bir səs eşidib, bu qədər şirin səslə oxuyanın kim olduğunu öyrənmək üçün qəhvəxanaya girdi. İşin nə yerdə olduğunu bilib Qəribə dedi:

– İltifatlı qonaq, qorxma, deyişməyə başla, mən sənin arxandayam.

Qəribə etməyə bir şey qalmadı və o razılaşdı. Aşıqlar təklif etdilər ki, birinci Qərib başlasın. O, sazını götürdü və oxumağa başladı:

**Nəğmə 20**

Dinləyin ustadlar, xəbər sorayım,
Əlsiz sazı siz necə çalarsız?
Gögdə yıldızlar mənim tavarım,
Sizi çoban etsəm, onu necə güdərsiz?

Nədən qurulub dünyanın binası?
Qəribin sualın dinlər hamısı,
O nədir var on iki qapısı,
Sizlər, əlbət, bir gün ondan keçərsiz.

Aşıqlar öz aralarında baxışdılar və onlardan heç kim Qəribə cavab verməyə ürək etmədi. Müştərilər Qəribə təvəqqe etdilər ki, o, suallarına özü cavab versin. Qərib aşağıdakı cavabı verdi:

**Nəğmə 21**

Əgər arifsiniz, ustadlar, biliniz
Əlsiz saz çalmağa kaman deyərlər,
Gögün üstündəki yıldızlar üstə
Aydır, çobanlar belə deyirlər.

Kaf nundan qurulub dünya binası,
Qəribin sualın dinlər hamısı.
O ildir, var, on iki qapısı.
Ömrümüz olardan keçər deyirlər.

Hörmətdən salınmış aşıqlar bir-bir qəhvəxanadan çıxdılar. Öz qonağına görə məğrur olan Bəhram bəy isə onun əlindən tutub evinə yollandı.

Qərib Tiflisdə yaxşı yerləşdi. O, qısa vaxt içində qəhvəxanada oxumaqdan xeyli məbləğ yığıb Bəhram bəyin evinin yaxınlığında kiçik bir evcik aldı və orada ana və bacısı ilə sərbəst yaşadı. Bəhram bəy onlara hər cür köməklik göstərirdi. O, tez-tez evində məclislər təşkil edir, Qərib öz oxumağı ilə qonaqlara həzz verirdi. Şahsənəm isə pərdənin arxasında oturub Qəribi dinləyirdi. Başqa vaxtda da Bəhram bəy qızın əl-qolunu

bağlamırdı. Onun evinin arxasında bir bağ var idi, Şahsənəm çox vaxt qarabaş qız Ağcaqızla ora gedir və Qəribi də dəvət edirdi. Qərib gizli bir yerdə oturub ona eşq nəğmələri oxuyur, qarabaş qız isə onları gözləyirdi ki, bir kimsə onları görməsin.

Bəhram bəy bu görüşlərdən xəbərdar idi, amma onun heç ağlına gəlmirdi ki, onun qızı və varlı Şahvələdin nişanlısı evsiz-eşiksiz aşığı sevə bilər və özünün həyatı ilə tamamən ona borclu olan Qəribin ağlında buna bənzər fikirlər ola bilər. Amma o, bilmirdi ki, talelər kitabında yazılmışdır ki, onun qızı və təbrizli aşıq bir-birlərini sevəcəklər və o özü buna yardım edəcəkdir. Talenin təqdiri də beləcə yerinə yetdi. Şahsənəm və Qərib bir-birlərinə o qədər könül bağladılar ki, dünyada olan hər şeyi unutdular. Qərib hər zaman onun haqqında düşünür, əgər bir gün onu görməsəydi, özünü bədbəxt hesab edərdi. Axı o, müxtəlif adlar altında yalnız onu tərənnüm edirdi. Qız bununla kifayətlənməyib Qəribi dilə tutmağa başladı ki, atasından onu istəsin, yoxsa ola bilsin ki, onu başqa adama ərə verəcəklər.

Qərib anasından təvəqqe etməyə başladı ki, o, Bəhram bəyin yanına getsin və onun qızını istəsin. Anası bundan dəhşətə gəldi, Qəribə dedi:

– Mən Bəhram bəyə bunu necə deyə bilərəm ki, qızını mənim oğluma ərə versin? O bu sözlərə görə nökərlərə əmr edər ki, məni otaqdan qovsunlar. Bəhram bəy bizə qarşı bu vaxtadək o qədər xeyirxah idi. Onun hüsnü-rəğbətinin qədrini bilmək lazımdır.

Oğlu anasını inandırmağa başladı ki, Bəhram bəy çoxdan onların qarşılıqlı məhəbbətindən xəbərdardır və bu elçilikdən inciməyəcək. Anaya oğlunun təvəqqesinə güzəştə getməkdən başqa bir şey qalmadı. Ertəsi gün o, Bəhram bəyin yanına getdi. O, özünün rədd cavabı ilə Qəribin ürəyinə dəymək istəməyərək qızını 1000 tümən süd pulu qarşılığında Qəribə verməyə razı oldu. O, inanırdı ki, Qərib tələb olunan

pulu vermək iqtidarında deyil və buna görə də öz niyyətindən imtina edəcək. Qərib Bəhram bəyin bu cavabını bilib, tələb olunan məbləği qazanmaq üçün qürbətə yollanmaq qərarına gəldi. O, yola hazırlaşmağa başladı və vidalaşma vaxtı oxudu:

**Nəğmə 22**

Başına döndügüm gülyüzlü ana,
Gedim qürbət eli gəzim bir zaman.
Bir gözəlin sevdası var başımda,
Gedim qürbət eli gəzim bir zaman.

**Nəğmə 23**

Ana:

Oğul, yürəgimi deşdin mənim,
Qürbətə getməklə ağlatma məni.
Ağlımı başdan eylədin,
Qürbətə getməklə ağlatma məni.

**Nəğmə 24**

Oğul :

Rəhm eylə, qoy gedim mən,
Eylədim Haqqa əmanət səni.
Bacım Şəhrəbanı bəs hanı?
Gedim qürbət eli gəzim bir zaman.

**Nəğmə 25**

Ana:

Oğul, mərhəmət sənə xudadan gələ,
Ayrılığın qəmi yürəgim dələ.
Bir az gözlə, həmşirən gələ,
Qürbətə getməklə ağlatma məni.

**Nəğmə 25**

Bacı gəldi və oxudu:

Qurban olum, gülyüzlü qardaş,
Qürbətə getməklə ağlatma bizi.
Sən gedərsən düşər başıma daş,
Gedib qürbətə ağlatma bizi.

**Nəğmə 27**

Qərib bacısına:

Qəm eyləmə, gözüm bacı,
Sağ olsun Sənəmin saray tacı.
Yürəgimə sən qoydun acı.
Qürbət eli gedəm gəzəm bir zaman.

Qərib onlarla vidalaşdı və sazını onlara verəndə dedi:

– Qoruyun, bu mənim xəzinəmdir, əgər onun bircə teli qırılsa belə bilin ki, mən sağ deyiləm.

Qərib oradan birbaşa Bəhram bəyin bağına Şahsənəmlə vidalaşmağa gəldi. O, orada çox gözlədi və onu gözlərkən mürgülədi. Bu vaxt isə Ağcaqız oradan keçirdi, o, Qəribi gizlicə sevirdi və onu yatmış görüb ona yaxınlaşdı və astadan oxumağa başladı.

**Nəğmə 28**

Uca dağlar başından
Avcı, avçı, maral gəldi dur.
On dört ya on beş yaşında,
Avçı, avçı, maral gəldi dur.

Dolan sərv ağacı, dolan,
Yoxdur sözümdə yalan,
Alagözlü canımı alan,
Avçı, avçı, maral gəldi dur.

Ağca qız bilər fəndini,
Aç sinəmin bəndini.

Əmə mənim dodaqlarım qəndini,
Avçı, avçı, maral gəldi dur.

Qərib hələ yuxulu-yuxulu belə şirin oxuyanın onun sevgilisi olduğunu düşünərək Ağcaqızın ağuşuna atıldı. O isə buna sevinib onu bərk-bərk qucaqladı. Bu vaxt isə kolun arxasından Şahsənəm çıxdı və onları bu vəziyyətdə görüb, az qala özündən gedəcəkdi. Otun üstündə oturub acı-acı göz yaşları tökdü. Qərib nə qədər özünə bəraət qazandırdısa da, xəyanət etmədiyinə onu inandıra bilmədi. Qərib oxumağa başladı:

**Nəğmə 29**

Bir bəri bax, yüzün görəyim,
Gedim yar əglənəm, bəlkə, gəlməyəm, gəlməyəm
Rum diyarında səndən gözəli,
Sevəm yar, əglənəm, bəlkə, gəlməyəm.

Yaxşı olar hər igidin vətəni,
Qınamazlar dost köyündən ötəni.
Qızıl gül yerinə qara tikanı,
Qucam yar, əglənəm, bəlkə, gəlməyəm.

Qısa atdı mən Qəribin daşını,
Gözlərim axıtdı qanlı yaşını,
Əcəl yastığına qoyam başımı,
Öləm yar , əglənəm, bəlkə, gəlməyəm.

Şahsənəm dözmədi, özünü Qəribin ağuşuna atdı və dedi:

– Sən məni tərk edirsən?!

Qərib cavab verdi:

– Nə etməli, sənin atan 1000 tümən süd pulu tələb edir, bu məbləği mən haradan tapım? Mən onu uzaq ölkədə qazanmalıyam. Şahsənəm dedi:

– Mən atamı toyumuzu etmək üçün yola gətirərəm.

Qərib cavab verir:

– Yox, mən buna razı ola bilmərəm. Kim bilir, bəlkə, sən sonra məni məzəmmət edəcəksən ki, mən sənin evinə dilənçi kimi ayaq basmışam. Mən yeddi il dünyanı gəzməyə və tələb olunan süd pulunu qazanmağı özümə söz vermişəm. Əgər sən buna razısan, and iç ki, yeddi il məni gözləyəcəksən. Əgər mən təyin edilmiş vaxtda geri dönsəm, sən mənim olacaqsan, əgər dönməsəm, sən sərbəstsən.

Onların hər ikisi and içdi və vidalaşmağa başladılar. Şahsənəm vidalaşma vaxtı belə oxudu:

**Nəğmə 30**

Başına döndügüm, qurban olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən.
Oduna yandığım, büryan olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən.

**Nəğmə 31**

Qərib:

Əgər mövlam mənə ömür versə,
Ağlama sevgilim, yenə gələrəm.
Əcəl mənə aman versə,
Ağlama, sevgilim, yenə gələrəm.

**Nəğmə 32**

Şahsənəm:

Qürbət olan ellərdə qalar.
Maral sərxoş olsa, çöllərdə qalar.
Sən gedirsən, gözüm yollarda qalar.
Get, Qəribim, sağlıq ilə gələsən.

**Nəğmə 33**

Qərib:

Qərib deyir, halım yamandır.
Uca dağlar başı dumandır.

Ayrılığı bizə verən mövlamdır.
Ağlama, sevdigim, yenə gələrəm.

**Nəğmə 34**

Şahsənəm:

Şahsənəməm, belə yazaram.
Kabab kimi bağrın başım duzlaram.
Ölənədək yolunu gözlərəm,
Get, Qəribim, sağlıq ilə gələsən.

Onlar bir-biri ilə üzüklərini dəyişdirib qucaqlaşdılar və ayrıldılar. Qərib yola düşdü və çox gəzib dolaşdıqdan sonra Ərzuruma çatdı. O, Ərzurumda bir qəhvəxanaya girdi və Ərzurumu belə tərənnüm etdi:

**Nəğmə 35**

Dinləyin, ağalar, tərif eyləyim,
Söylənir cahanda şanı Ərzurumun.
Yeddi iqlim[1] arasında tay tapılmaz,
Söylənir cahanda şanı Ərzurumun.

Xoşdur qayətdə abu-havası.
Dörd yanında gəzir bülbül sədası.
Vardır ərənlərin onda duası.
Bənzər cənnətə hər yanı Ərzurumun.

Mən Qəribəm, gəlmişəm bu vətəndə,
Qəriblik yaman olur baş yastığa yetəndə.
Yaxşı olur qərib bülbül ötəndə,
Gül gülüzardı hər yanı Ərzurumun.

---

1. Müsəlman coğrafiyaşünasları qədim dünyanı yeddi yaşayış hissəsinə bölürlər. Birinci hissəyə ekvatordan Sudanadək, ikinciyə Sudandan Misrədək olan, üçüncüyə Misirdən Suriyayədək , dördüncüyə Suriyadan Qara dənizin cənub sahillərinədək, beşinciyə Qara dənizin cənub sahillərindən onun şimal sahillərinədək, altıncıya Russiyanı, yeddinciyə isə şimal qütbünədək olan torpaqları aid edirlər.

Qonaqsevməz ərzurumlular gəlmə bülbülü az mükafatlandırdılar və o, yoluna davam edib çıxıb getdi. Qərib Hələbə gəlib çıxdı, burada aşıq kimi deyil, sadə bir müştəri kimi qəhvəxanaya girdi və özü üçün qəhvə istədi. O, bir fincan qəhvəsini içib ora bir qızıl sikkə saldı. Qəhvəxanın sahibi Dədəoğlu buna o qədər sevİndi ki, ona ortaq olmağı təklif etdi. Qərib razı oldu və ona qəhvə və qənd almaq üçün pul verdi. Axşam Dədəoğlu evinə getdi, o isə qəhvəxanada gecələməyə qalıb, xidmətçilər ilə qəhvəxananı nizama saldı.

Səhər Dədəoğlu gəldi və gözlərinə inanmadı, qəhvəxana elə sahmana salınmışdı ki, şəhərin birinci dərəcəli qəhvəxanalarından geri qalmırdı. Onda Qərib sazı götürdü və oxumağa başladı:

**Nəğmə 36**

Cuş eylədi dəli könlüm,
Gəldim sənə Hələb şəhri.
Ayrı düşdüm vətənimdən,
Gəldim sənə Hələb şəhri.

Ayrılmışam mən qönçə gülümdən,
Dili şirin dilbərimdən.
Ala gözlü yarımdan,
Gəldim sənə Hələb şəhri.

Qərib söylər dərdinə dildən.
Çarə dilər dərdinə sizdən.
Səbr eylərəm hər nə gələrsə, Haqdan.
Gəldim sənə Hələb şəhri.

Qərib oxuduğu vaxt yoldan ötüb keçənlər onun gözəl səsini eşidərək qəhvəxanaya girirdilər, bir çox müştərilərə hətta yer də çatmırdı.

Dədəoğlunun qəhvəxanasının işləri yaxşı gedirdi, hər kəs oraya qəhvə içməyə və gəlmə aşığı eşitməyə tələsirdi, belə ki, tez

zamanda birinci dərəcəli qəhvəxanaları belə kölgədə buraxdı.

Bir dəfə oraya yerli paşanın göndərdiyi xərac toplayanlar gəldilər. Qəribin oxuması onların çox xoşuna gəldi və onlar paşanın yanında olanda onun aşıqlarına Dədəoğlu qəhvəxanasına bir aşığın gəldiyini və o aşığın onların hamısını "cibinə" qoyacağını xəbər verdilər. Onlar bu sözlərdən inciyib Dədəoğlunun qəhvəxanasına deyişməyə gəldilər. Onlardan biri sazı götürdü və aşağıdakı nəğməni oxumağa başladı:

**Nəğmə 37**

Sən gəldin bu meydana,
Bu meydanda ərka olur, yol olur.
Mən bir şahinəm, sallam səni caynağa.
Bu xüsusda qovğa olur, söz olur.

**Nəğmə 38**

Qərib buna belə cavab verdi**:**

Ustam bənlik ilə girmə meydana,
Bənlik edən axırda mürd olur.
Aşıqlıq dediyin qıldan nazikdir,
Özün ondan qurtaran, mərd olur.

**Nəğmə 39**

Aşıq:

Dəniz kimi gəlmisən cuşa
Nədir səndəki ehkam, əndişə.
Bu atəşdə ayaqların tutulsa,
Çox açılma, söyləyən dil lal olur.

**Nəğmə 40**

Qərib:

Ustam, kamilisən otur yerinə,
Daralarsan, ot təpərəm dərinə.

Əgər aşıqsan, xor baxma pirinə,
Pirinə xor baxan aşıq mürd olur.

**Nəğmə 41**

Aşıq:

Ərənlər əlindən dolu içmişəm,
Bulanıq çayları girib keçmişəm.
Bu meydana girib candan keçmişəm,
Bu aşıqlıqda başqa hal olur.

**Nəğmə 42**

Qərib:

Mən Qəribəm, çıxmam doğru yolumdan,
Kəm kəlam çıxarmam əsla dilimdən.
Quş olsanız, qutarmazsız əlimdən,
Əlimdən qurtaran aşıq mərd olur.

Aşıq artıq deyişməyəcəyinin işarəsi olaraq sazını yerə qoydu. Amma Qərib dedi:

– Bu vaxtadək siz başlayırdınız, mən də cavab verirdim, İndi isə mən başlayacam, siz cavab verin. Qərib sazını əlinə aldı və başladı:

**Nəğmə 43**

Dinləyin, ustadlar, xəbər sorayım,
Əvvəl aşıqlıq kimdən icad olmuşdur?
Başınıza olmaz işlər qılayım,
O, kimdir ki, qəmdən azad olmuşdur?

Ustadlar, bilirsizmi elmin başını.
Nə ilə kəsərlər göz yaşını.
O, nədir kəsər öz başını,
Bunu bilən aşıq ustad olmuşdur.

Bu Qərib söylədi sizə sualını
Qüdrəti-Yəzdandan bulub kamalını,

Əvvəldən icad edib xuda dünyanı,
Dünya nə ilə abad olmuşdur.

Aşıqlardan heç kim Qəribə cavab verməyə ürək eləmədi. Onda suallarına özü cavab verdi:

**Nəğmə 44**

Dinləyin, ustadlar, budur sualımın cavabı
Əvvəl aşıqlıq Züleyxadan icad olmuşdur.
Dinləyin sözümü, etməyin hicabını
Cənnətdə Adəm qəmdən azad olmuşdur.

Səbr deyərlər elmin başını,
Təvəkkül ilə kəsər göz yaşını.
Buluddur kəsərlər öz başını.
Buları bilən aşıq ustad olmuşdur.

Aşıq Qərib söylədi sualını,
Eşq dəryasını keçib buldu kamalını.
Əvvəldən icad edib xuda dünyanı,
Elm hilm ilə dünya abad olubdur.

Hörmətdən düşmüş aşıqlar qonşu qəhvəxana sahiblərinin təhriki ilə Qəribdən paşaya şikayət etdilər. Paşa ondan cavab istədi.

Qərib dedi:

– Ey paşa, mən günahkar deyiləm ki, sənin aşıqlarına qalib gəldim, onlar özləri məni deyişməyə çağırdılar.

Paşa onda Qəribin vətəni haqqında xəbər aldı, onun Təbrizdən olduğunu bilib əmr etdi ki, vətənini tərənnüm etsin. Qərib başladı:

**Nəğmə 45**

Dinləyin, ağalar, sizə söyləyim,
Yaman müşkil oldu işi Təbrizin.
Elə gördüm göydən odlar yağar,
Yanar dağı, daşı Təbrizin.

Təbrizin çorməsidir bərk qabla,
Yığılmışdı Ləşkər orda, cəng ola.
Kimi əsir oldu, kimi qula,
Görüldü qara duşu Təbrizin.

Aşıq Qərib çəkər zar ilə ahı,
Belə cəngi dünya görməmiş dahı.
Vanın bəgi ilə Gilin şahı,
Bular ilə görüldü işi Təbrizin.

Qəribin oxuması paşanın xoşuna gəldi, onun sevgilisinin olub-olmamasını xəbər aldı. Qərib buna nəğmə ilə cavab verdi:

**Nəğmə 46**

Arzu ilə çıxmışam diyari-qürbətə,
Ağlaram-sızlaram, kimsəm yox mənim.
Yazıq düşdüm mən eldən ellərə,
Ağlaram-sızlaram, kimsəm yox mənim.

Cavan yaşımda tərk eylədim vətənim,
Çox zəif olub mənim bu tənim.
İndə Hələb olub məskənim,
Ağlaram-sızlaram, kimsəm yox mənim.

Aşıq Qərib yanıq-yanıq söyləsin,
Enib eşqin dəryasın boylasın,
Haqq səni dövlətli daim eyləsin,
Ağlaram-sızlaram, kimsəm yox mənim.

Paşa Qəribə ona aşıqların sırasına qatılmağı təklif etdi. Amma Qərib belə şərəfi rədd etdi və dedi:

– Böyük paşa, mən Dədəoğlu ilə ortağam, əgər istəsəniz, mən gecələr sənə oxuyaram, günortalar isə qəhvəxanada oxuyacağam.

Paşa buna razı oldu. Qərib Hələbdə xoşbəxt həyat sürməyə başladı, o öz oxumağı qarşılığında çoxlu pul alırdı,

qəhvəxanada ona çoxlu pul gətirirdi. Qərib paşanın evində oxuyanda paşa və onun yaxınları ona yaxşı bəxşişlər verirdilər.

İş elə gətirdi ki, Şahvələd öz ticarət işləri üçün Hələbə gəlməli oldu. O, Dədəoğlunun qəhvəxanasına girdi və Qərib ondan qohumlarına məktub aparmağı təvəqqe etdi. O, razı oldu, amma yolda Qəribin öz qohumlarına nə yazdığını öyrənmək üçün məktubu açdı və oxudu. Qərib öz məktubunda Şahsənəmə salamlarını göndərir, tez bir zamanda geri qayıdacağını və Allahın köməyi ilə onunla toy edəcəyini vəd edirdi. Şahvələd bütün bunları bilib məktubu param-parça etdi və Aşıq Qəribin planını dağıdacağına and içdi. Bax gör o nə fikirləşdi. Onun Kəloğlan adında bir nökəri var idi. Şahvələd ona bir dovşan öldürməyi, bir köynəyi onun qanına bulaşdırmağı, Tiflisə gəlib çatanda isə Qəribin anasına oğlunu yolda quldurların öldürdüklərini xəbər verməyi, sübut olaraq qanlı köynəyi göstərməyi tapşırdı. Sadiq nökər öz ağasının əmrini dəqiqliklə yerinə yetirdi. Yazıq Xanı oğlunun ölüm xəbərini alıb acı-acı ağladı, Şahsənəmə xəbər verməyə getdi. O, onun yanına gələndə belə oxudu:

**Nəğmə 47**

Başına döndügüm, gülyüzlü Sənəm,
Ağla Sənəm, öldü Qərib gəlmədi.
Gecə-gündüz sevdasına yandığım,
Öldü, Sənəm, Qərib gəlmədi.
Buna cavab olaraq Sənəm oxudu:

**Nəğmə 48**

Qurban olum, ay qoca anam,
Necə ağlamayım, Qərib gəlmədi.
Daşlar düşdü mənim başıma,
Necə ağlamayım, Qərib gəlmədi.

Şahsənəm Kəloğlanı yanına çağırdı ki, təfsilatı ilə ondan Qəribin ölümü haqqında xəbər alsın. O, Şahvələdin əmr

etdiyini ona nəql etdi. O dedi:

– Yox, inanmıram, bunlar hamısı düşmənlərin uydurmasıdır. Mən onu təyin edilmiş vaxtın sonunadək gözləyəcəm. Əgər sən yalan söyləyirsənsə, Allaha yalvarıram, qoy səni öldürsün.

Onun lənətlədiyi Kəloğlan yerə ölü yıxıldı və o inandı ki, Qərib sağdır və təyin olunmuş vaxtda gələcək.

Amma Xanı bununla sakitləşmədi, oğlu üçün ümidsizliklə qəm çəkməkdə və ağlamaqda davam etdi, çox keçmədən kor oldu.

Bu vaxt isə Bəhram bəy qızını Şahvələdə ərə getməyə məcbur edirdi. Toyun vaxtı üç aydan sonraya təyin edilmişdi. Bir gün Şahsənəm Xanın yanına gəldi və onu və Şəhrəbanını özü ilə götürdü. Onlar yoldan keçənlərdən Qəribi xəbər almaq üçün şəhər qapısına tərəf getdilər. Bu vaxt bir karvan gəldi. Xanı karvan başçısının yanına getdi ki, oğlunu xəbər alsın. Onu dilənçi bilib sədəqə vermək istədilər. Lakin o rədd etdi və oxudu:

**Nəğmə 49**

Bir sözüm vardır ağalara,
Gözdən oldum, "oğul, oğul", – deyə mən.
Qurban olum xəbər verən canlara,
Gözdən oldum, "oğul, oğul", – deyə mən.
Bir yanım yapışmış ocaq başına,
Yaxam dayanmayır gözüm yaşına.
Gözüm görmür gedəm yollar başına,
Mən dərdli Xanıyam, gecə-gündüz ağlaram.
Qəribin xəbərin səndən soraram.
Ondan sonra bu dünyanı neylərəm,
Gözdən oldum, "oğul, oğul" deyə mən.
Gözdən oldum, "oğul, oğul", – deyə mən.

Başçı ona cavab olaraq oxudu:

**Nəğmə 50**

Ana, Əhməd Xocadır mənim adım,
Səni gördüm ərşə çıxdı fəryadım.
Əvvəl sail saydım, xəta eylədim.
Nişanın söylə, tapım oğlun gəlsin.

**Nəğmə 51**

Xanı:

Nə söyləyim çoxdur mənim dərdim,
Doqquz ay bətnimdə onu gəzdirdim.
Heyf ki, onu İndi itirdim,
Gözdən oldum "oğul, oğul" deyə mən.

**Nəğmə 52**

Tacir:

Lazım olsa mal ilə satın alaram,
Köhlən atımı altına çəkərəm.
Adını söylə, hər yerdəsə taparam.
Xəbər ver, oğlunu tapım gəlsin.

**Nəğmə 53**

Xanı:

Fələk vurdu bir daş mənim başıma,
Baxmazmısan gözdən axan yaşıma.
Qəribin firqəti düşüb başıma,
Gözdən oldum, "oğul, oğul"– deyə mən.

**Nəğmə 54**

Tacir:

Yüklənib karvanım buradan gedim
Ətraf aləmi cövlan edim.
Gözüm ana, əhd və aman edim,
Taparam Qəribi, göndərrəm gəlsin.

**Nəğmə 55**

Şəhrəbanı tacirə yaxınlaşdı və oxudu:

Ay ağa, budur sənə sözüm,
Çoxdan yoldadır gözüm.
Qəribdir qardaşım, həm iki gözüm,
Söylə qardaşıma, durmasın, gəlsin.

**Nəğmə 56**

Tacir:

Heç kimsə bilməz mənim halımı,
Xərc edərəm kisəmdəki varımı.
Yetməzsə, sataram olan malımı,
Taparam, yollaram Qəribi gəlsin.

**Nəğmə 57**

Şahsənəm yaxınlaşdı və oxudu:

Gəlişin haradandır, ay bəzirgan başı,
Alıb satırsan nə dürlü qumaşı.
Axıtdım gözümdən qanlı yaşı,
Söylə Qəribimə, durmasın, gəlsin

**Nəğmə 58**

Tacir:

Gəlmişəm sorarsan Təbriz elindən,
Alıb sataram dünya malından.
Axıtma qanlı yaşı gözlərindən,
Söylərəm Qəribə, durmasın, gəlsin.

Tacir ondan Qəribin kim olduğunu xəbər aldı və biləndə ki, onun sevgilisidir, oxudu:

**Nəğmə 59**

Bir oğlum var, səni ona alayım,
Neyləyib axtarırsan o xəbərsizi?!
Sənə gözəl toylar eylərəm,
Neyləyib axtarırsan o xəbərsizi?!

**Nəğmə 60**

Şahsənəm:

Sözünü bilmədin, bəzirgan başı,
Uğrunda tökmüşəm qanlı yaşı.
Başıma düşüb ayrılıq daşı,
Söylə Qəribimə durmasın gəlsin.

**Nəğmə 61**

Tacir:

Atımı minib yola gedəcəyim,
Sözlərini eşidib ərşə çıxdı fəryadım,
Həzlə eylədim heç yoxdu mənim övladım.
Söylərəm Qəribə durmasın gəlsin.

**Nəğmə 62**

Şahsənəm:

Atını minib yola gedərsən,
Haqq yoluna sınıq könül tikdirərsən.
Ya Hələbdə, ya Misirdə taparsan,
Söylə Qəribimə durmasın gəlsin.

**Nəğmə 63**

Tacir:

Qızım, Əhməd Xocadır mənim adım,
Hər nəyim varsa, yolunda satım.
Altına çəkərəm köhlən atım,
Söylərəm Qəribinə, durmasın, gəlsin.

**Nəğmə 64**

Şahsənəm:

Qəribə söylə, gülünü dərirlər,
Dəribən sinə üstə sərirlər.
Şahsənəmi Şahvələdə verirlər,
Söylə Qəribimə, durmasın, gəlsin.

Şahsənəm dedi:

– Üzüyü götür, hara getsən, onu fincana sal və onda şərbət payla, kim özünü üzüyün sahibi olduğunu desə, həmən adam demək Qəribdir.

Və Şahsənəm ona Qəribin vida üzüyünü verdi. Tacir öz karvanına yük vurub yoluna davam etdi. O, İranın, Türkiyənin bir çox şəhərlərində oldu və hər yerdə camaatı şərbətə qonaq etdi, lakin heç yerdə, heç kim özünü üzüyün sahibi adlandırmadı. Axırda o, Hələbə gəlib çıxdı. Burada da ona Qəribi tapmaq nəsib olmadı. O özünün bütün malını satdı və artıq bu şəhəri tərk etməli oldu. Lakin o, bir dəfə bir küçədən keçəndə gördü ki, bir neçə oğlan uşağı oynayır və onlardan bir qədər kiçiyi başçı seçilmişdir. Tacir buna təəccübləndi. Kiçik yaşlı başçı ona dedi:

– Ağıl yaşda deyil, başdadır. Budur, aşıq Qərib hələ gəncdir, amma bir çox qoca aşıqlara qalib gəlibdir.

Əhməd dedi:

– Bu pulu al, mənə aşıq Qəribi göstər!

Oğlan onu Dədəoğlunun qəhvəxanasına gətirdi. Əhməd həmən adamın onun axtardığı adam olduğuna əmin olmaq üçün burada da adamları şərbətə qonaq etməyə başladı. O, fincanı Qəribə gətirəndə vidalaşma vaxtı Şahsənəmə bağışladığı üzüyü dərhal tanıdı və başa düşdü ki, sevgilisi onu axtarır. O, fincandan üzüyü götürdü və tacirə belə oxudu:

**Nəğmə 65**

Başına döndüyüm gülyüzlü xoca,
Canım xoca, harda gördün Sənəmi?
Nə gündüzüm gündüzdür, nə gecəm gecə.
Aman xoca, harda gördün Sənəmi?

**Nəğmə 66**

Tacir:

Axtara-axtara gəlib tapmışam,
Dur ayağa, vətən sarı sən yeri.

Könül tikmişəm, Kəbə tapmışam[1].
Dur ayağa, vətən sarı sən yeri.

## Nəğmə 67

Qərib:

Bu sinəmdə dürlü-dürlü yaralar,
Təbib əl verməsə, dərdə nə çarələr.
Sevdigim qırmızı geymiş, yoxsa qaralar?
Aman xoca, harda gördün Sənəmi?

## Nəğmə 68

Tacir:

Qayib itmiş səni ararlar,
Ölmüş sanıb hər gələndən sorarlar.
Anan, bacın, Sənəm geymiş qaralar.
Dur ayağa, vətən sarı sən yeri.

## Nəğmə 69

Qərib:

Bizim ellər baharmıdır, yazmıdır?
Gögdə uçan durnamıdır qazmıdır?
Şahsənəm gəlinmidir, qızmıdır?
Aman, xoca, harda gördün Sənəmi?

## Nəğmə 70

Tacir:

Mən gələndə sizin ellər yaz idi.
Gögdə uçan durna degil, qaz idi.
Şahsənəm gəlin degil, qız idi.
Dur ayağa, vətən sarı sən yeri.

---

1 . Kiminsə könlünü sakitləşdirmək müsəlmanlar arasında Kəbəni tikmək qədər müqəddəs iş sayılır.

## Nəğmə 71

Qərib:

Necə girdin, Tiflis bağına?
Baxdınmı heç sağ və soluna?
İndi Qərib gedər dostunun yanına,
Aman xoca, harda gördün Sənəmi?

## Nəğmə 72

Tacir:

Mən Xoca Əhmədəm, girməmişəm Tiflis bağına
Baxmamışam orda sağ və soluna,
Kor olmuş ağlamaqdan oğlunu,
Dur ayağa, vətən sarı sən yeri.

Axırda tacir dedi:

– Mən gedəndə toya ancaq üç ay qalmışdı, İndi isə bir neçə gün qalır.

Qərib yola hazırlaşmağa başladı. Onda çoxlu cürbəcür parçalar var idi, o, gəlin və onun qohumları üçün müxtəlif hədiyyələr alıb saxlamışdı. Qərib bütün bunları yığıb-yığışdırıb Tiflisə çatdırmaq üçün Əhmədə verdi, özü isə xurcununu qızıl sikkələrlə doldurdu və paşa ilə vidalaşmağa getdi. O, paşanın qabağında durub belə oxudu:

## Nəğmə 73

Paşam, mərhəmət eylə halıma,
"Gəlsin", deyib ismarlamış yar məni.
Eylə ehsani-mürüvvət halıma,
Genə bahar oldu, durna düzüldü,
Eşitmişəm Sənəmin bağrı üzüldü.
Şahsənəmdən bizə məktub yazıldı,
"Gəlsin", deyib ismarlamış yar məni.
Qərib deyər dərdini dildən,
Çarə dilər dərdinə səndən.

Mən aldırmışam yarımı əldən,
“Gəlsin”, deyib ismarlamış yar məni.

Paşa onun üstünə qışqırdı:

– Sən isə heç kimin olmadığını deyirdin. İndi məlumdur ki, sevgilin vardır. Belə yalana görə səni zindana həbs edəcəyəm.

Qərib dedi:

– Böyük paşa, hər şey sənin əlindədir, amma zəhmət çəkin, bir də məni dinləyin.

Paşa dedi:

– Yaxşı, oxu!

Qərib başladı:

**Nəğmə 74**

Gileyim vardır çərxi-fələkdən,
Fələk ilə düşmən oldum ağlaram.
Qorxuram ki, həsrət qalam yarıma,
Dünyada şaşqın oldum ağlaram.

Bizim ellər dağıstandır, virandır,
Hər muradı verən qadir mövlamdır,
İndi yollar qışdır, borandır,
Arzükeşi-vətən oldum, ağlaram.

Yiğit olan sirrini gizlər,
Cigərcigin kabab edib duzlar.
Eşq sözünü qəlbində bəslər,
Gəldigimə peşman oldum, ağlaram.

Paşanın ürəyi yumuşaldı, onu pullarla mükafatlandırdı və cins at bağışladı. Qərib paşanın əlindən öpdü və qəhvəxanaya gəldi, hamı ilə vidalaşdı və yola düşdü. Şəhərdən çıxıb atını qamçıladı. At çox bərk sürətlə yerindən qopdu. Lakin bu da ona az görünürdü, o, atı bir də qamçıladı. At var gücünü yığıb külək kimi çapırdı. Qərib üçüncü dəfə atı qam-

çıladı. Axırda at taqətdən düşdü və cansız halda yerə yıxıldı. Qərib piyada qaldı, xurcununu çiyninə alıb öz yolu ilə getdi. O gəlib bir çayın kənarına çıxdı, baxıb gördü ki, çayı keçə bilmir, sazı əlinə alıb oxudu:

**Nəğmə 75**

Sidqinən çağırram şahların xasını,
Qəribəm, vətənə sən yetir məni.
Ya xətimən-nəbi, ümmət ağası,
Qəribəm, vətənə sən yetir məni.

Bir yanım dağ almış, bir yanım duman,
Qalmışam piyada, halım çox yaman.
Yetiş imdadıma, Xızır əl-aman,
Qəribəm, vətənə sən yetir məni.

Qəribəm, söylərəm ağdan, qaradan,
Məni Haqq qurtara bu bəladan.
On səkkiz min aləmi yaradan,
Qəribəm, vətənə sən yetir məni.

O, bir müddət kömək gözləyərək durdu, lakin onun gəlmədiyini görüb çaya atılmaq istəyəndə birdən ağ atın üstündə gedən bir nəfəri gördü və ona dedi:

– Oğlan, nə etmək istəyirsən[1]?

Aşıq cavab verdi:

– Ölmək istəyirəm.

Atlı dedi:

– Əgər belədirsə, düş bura gəl, mən səni öldürüm.

Aşıq cavab verdi:

– Mən sənin dalınca necə gələ bilərəm, sənin atın yel kimi uçur, mən isə xurcunla yüklənmişəm.

---

1. Hekayətin bu yeri sözü-sözünə nağılın Lermontov redaksiyasından iqtibas edilmişdir, belə ki, axırıncı bu yerdə aşıq Orucun versiyası ilə tamamilə oxşarlıq təşkil etməkdədir.

– Doğrudur, öz xurcununu yəhərimdən as və dalımca gəl.

Aşıq Qərib nə qədər qaçmağa çalışsa da, geri qaldı.Atlı xəbər aldı:

– Nədən sən belə geri qalırsan ?

– Mən necə sənin dalınca gələ bilərəm, sənin atın fikirdən də sürətlidir, mən artıq yorulub əldən düşmüşəm.

– Doğrudur, arxadan atıma min və hər şeyi olduğu kimi söylə. Sən hara getməlisən?

Aşıq cavab verdi:

– Heç olmazsa, Ərzuruma çataydım.

– Gözlərini yum!

O, gözlərini yumdu.

– İndi aç!

Aşıq baxır və qarşısında Ərzurumun divarlarının ağardığını, minarələrinin parıldadığını görür. Aşıq dedi:

– Ağa, keç günahımdan, mən səhv etdim, mən Qarsa getməli olduğumu demək istəmişdim.

Atlı cavab verdi:

– Odur ki, mən sənə xəbərdarlıq etdim ki, sən mənə düzünü deməlisən. Yenə gözlərini yum. İndi aç.

Aşıq gördüyünə, buranın Qars olduğuna inanmır. O, dizləri üstə çökdü və dedi:

– Ağa, günahkaram, sənin nökərin Qərib üç dəfə günahkardır. Amma sən özün bilirsən ki, əgər adam səhərdən yalan danışmağı qərarlaşdırırsa, o günün sonunadək yalan danışmalıdır. Həqiqət isə budur ki, mən Tiflisə getməliyəm.

Atlı hirslə dedi:

– Sən gör nə kafirsən! Nə etməli, səni bağışlayıram. Gözlərini yum.

Bir dəqiqə keçmiş dedi:

– İndi gözlərini aç.

Aşıq sevincindən qışqırdı. Onlar Tiflisin qapısının

yanında idilər. Aşıq Qərib atlıya səmimi qəlbdən təşəkkür edib xurcununu yəhərdən götürərək ona dedi:

– Ağa, əlbəttə, sənin yaxşılığın böyükdür, amma daha böyük iş gör. Əgər mən İndi söyləsəm ki, bir günün içində Hələbdən Tiflisə gəlmişəm, heç kim inanmaz, odur ki, mənə hər hansı bir sübut ver!

– Əyil, atımın nalının altından bir topa torpaq götür və qoltuğuna qoy! Əgər sənin sözlərinə inanmasalar, əmr et ki, sənin yanına yeddi il ərzində kor olmuş bir qadını gətirsinlər, sən bu torpağı onun gözlərinə sürt və o qadın görməyə başlayacaq.

Aşıq ağ atın nalın altından bir parça torpaq götürdü, lakin başını qaldırdıqda atlı və at artıq gözdən itmişdilər. Onda Qərib ürəyində inandı ki, onun hamısı Xıdır-İlyas (Müqəddəs Georgiy[1]) idi.

Aşıq Qərib gecə yarıdan keçmiş evini axtarıb tapdı. O, "Ana, ana aç! Mən Allah qonağıyam, üşümüşəm və acam, gəzərgi oğlunun xatirinə, məni içəri burax", – deyərək titrək əli ilə qapını döyür. Qarının zəif səsi ona cavab verir:

– Gecələmək üçün varlıların və böyük adamların evləri vardır. Səhər toy məclisi var, ora get! Sən orada gecəni kefin istəyən kimi keçirə bilərsən.

Qərib cavab verdi:

– Ana, mən burada heç kimi tanımıram və buna görə də xahişimi təkrar edirəm. Gəzərgi oğlunun xatirinə, məni içəri burax!

Onda Qəribin bacısı anasına deyir:

– Ana, mən durub ona qapını açaram.

Qarı cavab verir:

– Yaramaz qız, mən yeddi il sərasər ağlamaqdan kor olduğum üçün sən gənc adamları qəbul etməyə hazırsan.

---

1. Müsəlmanlarda Müqəddəs Georgiy Xıdır İlyas deyil, Carcizdir.

Lakin qız onun məzəmmətinə fikir verməyərək durub qapını açdı və Aşıq Qəribi içəri buraxdı. O, içəri keçib salam verdi, oturdu və gizli həyəcanla ətrafa baxmağa başladı. Və baxıb görür ki, onun incə səsli sazı tozlu örtünün içində divarda asılmışdır. O, anasından xəbər almağa başladı:

– Sizin evin divarından asılan nədir?

Anası cavab verdi:

– Sən hər şeyi bilməyə çalışan qonaqsan. Sənə burada verilən bir parça çörək bəsİndir, sabah da səni yola salacaqlar.

O, etiraz etdi:

– Mən artıq sənə demişəm, mən sənin oğlunam, sən isə mənim doğma anamsan, bu isə doğma bacımdır, ona görə də xahiş edirəm ki, divardan asılanın nə olduğunu mənə izah edəsiniz.

Qarı ona inanmayaraq hirslə cavab verdi:

– Bu, sazdır, saz!

– Saz nə deməkdir?

– Saz o deməkdir ki, sazda çalır və nəğmə oxuyurlar.

Aşıq Qərib təvəqqe edir ki, o, qızıya sazı divardan götürməyə və ona göstərməyə icazə versin.

Qarı cavab verdi:

– Olmaz, bu saz mənim bədbəxt oğlumundur. Budur, artıq yeddi ildir ki, o, divardan asılı qalıbdır və heç bir canlı əli ona toxunmayıb.

Lakin onun bacısı yerindən qalxdı, sazı divardan götürdü və qardaşına verdi. Onda Qərib gözlərini göyə qaldırdı və belə bir dua etdi:

– Ey böyük Allah, əgər mən arzuladığım məqsədə çatmalıyamsa, onda mənim yedditelli sazım axırıncı dəfə olduğu kimi ahəngli olacaq. O, barmaqlarını mis tellərə vurdu, tellər dilə gəldi və o oxumağa başladı:

**Nəğmə 76**

Yeddi il keçirmişəm Hələb yazını,
Mən Qəribəm, mən Qəribəm, mən Qərib.
Mən çalaram oğlunun sazını,
Mən Qəribəm, mən Qəribəm, mən Qərib.

Onda anası oxudu:

**Nəğmə 77**

Çox gözlədim bu yerlərin yazını,
Əcəba, gəlibmi Qəribim mənim?
Mən vermişəm sənə oğlumun sazını,
Əcəba, gəlibmi Qəribim mənim?

Qərib:

**Nəğmə 78**

Ana, yollarda çox sular keçdim,
Qərib ellərdə yaxşıca pişdim.
Şükür gəldim, Vətən suların içdim,
Mən Qəribəm, mən Qəribəm, mən Qərib.

Anası:

**Nəğmə 79**

Çay suları durulmayıb axar,
Mənim cigərcigim odlara yaxar.
Biçarə Şahsənəm yollara baxar,
Əcəba, gəlibmi Qəribim mənim?

Qərib:

**Nəğmə 80**

Qürbət elləri gəzəndir Qərib,
Çarə etsin dərdimə təbib.
Şahsənəm yarımı görmək olsun nəsib
Mən Qəribəm, mən Qəribəm, mən Qərib.

Anası:

**Nəğmə 81**

Təbrizdən bir çift bala gətirdim,
Gətiribən burda başa yetirdim.
Birini viran olmuş Tiflisdə itirdim.
Əcəba, gəlibmi Qəribim mənim.

Qərib:

**Nəğmə 82**

Anamın adı Xanlar Xanı,
Bacımın adı Şəhrəbanı.
Oğlun Qəribəm, sən məni tanı.
Mən Qəribəm, mən Qəribəm, mən Qərib.

Anası:

**Nəğmə 83**

Adımı sorsan, Xanlar Xanıyam,
Gözlərim yoxdur, açam, səni tanıyam.
Nə kor tale, nə bəd iqbal anayam.
Əcəba, gəlibmi Qəribim mənim.

Ancaq anası bunun onun oğlu olduğuna inanmaq istəmirdi, amma bacısı Şəhrabanı onun qardaşı olduğuna inandı. Həyətdə kiminsə addım səsləri eşidildi. Qarı Qəribə yalvarmağa başladı ki, pərdənin arxasında gizlənsin ki, onu saz çalan görməsinlər və şəhərdə onlar haqqında yalan-palan danışmasınlar. Həmən anda Şahsənəm padnosda plov gətirən Ağca qızın müşaiyətində otağa girdi.

Şahsənəm qarıya müraciətlə dedi:

– Ana, budur, sənə toy plovu gətirmişəm.

Qarı acı eyhamla dedi:

– Hə, görünür, sən əhd etmişdin ki, ərə gedəndə Qəribin kor anasına plov yedirdəsən!

Şahsənəm dedi:

– Yox, əziz anam, sənin Qəribinə and olsun ki, mən heç kimin arvadı olmayacağam, mən bu gecə həyatıma qəsd etməyi qərarlaşdırmışam. Mənim cibimdə zəhər, paltarımın altında isə xəncər var. Mən bura sizinlə axırıncı dəfə söhbət etməyə gəlmişəm.

O, dərindən ah çəkdi və sakitcə oxudu:

**Nəğmə 84**

Başına döndügüm gül yüzlü ana,
Ölməyəydi, bir də balan gələydi.
Oduna yandığım gül yüzlü ana,
Ölməyəydi, bir də balan gələydi.

Lülə-lülə zəhərləri içərəm,
Xəncər alıb bağrım biçərəm.
Tezlik ilə bu dünyadan köçərəm.
Üstüm torpaqlanmamış bircə Qərib gələydi.

Şahsənəm qələm tuta qaşımı,
Ay rəqib gəlib silsin yaşımı.
Diz çöküb, məzara qoya başımı,
Məzar daşım qoyulmamış Qərib gələydi.

O, dərddən doyunca ağlayıb otaqdan çıxdı. Həmin saat pərdənin arxasından çıxan Qərib onun dalınca getdi. Amma qız elə tez gedirdi ki, Qərib ona çata bilmirdi. Şahsənəmi dayandırmaq üçün Qərib oxudu:

**Nəğmə 85**

Gedən, gedən, bir bəri bax, bəri bax!
Ay mənim gözəl Sənəmim, Sənəmim!
Canımı odlara yaxan bəri bax!
Ay mənim gözəl Sənəmim, Sənəmim!
Gögdən uçdu yaşılbaşlı,
Ağlar, ağlar ay mənim Sənəmim, Sənəmim!

Duman dağları bürürmü ola,
Gözlərim yaşları silirmi ola,
Qəribin qədrini bilirmi ola,
Mənim gözəl Sənəmim, Sənəmim!

Şahsənəm nəğməni eşidib və hər hansı utanmaz kişinin ona oxuduğunu fikirləşərək addımlarını daha da sürətləndirdi və evlərin arxasında gözdən itdi. Qərib otağa girdi və doyunca plov yedi, doyunca yeyib yerindən qalxdı və dedi:

– Hə, mehriban ana! Mən sazımı götürürəm, toya yollanıram və nə qazansam, sizə bağışlayacağam.

– Yox, nə olursa olsun, oğlumun sazını sənə verməyə razı olmaram. Bu ondan mənə xatirə olaraq qalan yeganə ən qiymətli əşyadır. Əgər sən sazla çıxıb getsən, səni kim tapacaq?!

Qərib cavab verdi:

– Bax xurcunum sənə əmanət olsun, o, ağzınadək qızıl sikkələrlə doludur.

Qarı xurcununu əli ilə yoxladı və həqiqətən, onun qızıl sikkələrlə dolu olduğuna inandıqdan sonra sazı Qəribə verməyə razılıq verdi.

O, Şəhrabanıya müraciətlə dedi:

– İndi isə, əziz bacım, toy edilən evi mənə göstər.

Və Şəhrəbanı onu Şahvələdin evinə gətirdi. Şahvələd Qəribin təyin edilmiş vaxt mütləq Tiflisə gəlməyini əvvəlcədən hiss edərək qapıda çoxlu qarovulçu qoymuşdu ki, onlar heç bir yad adamı içəri buraxmasınlar. Amma Qərib cəldlik göstərib evə keçə bildi. O, qoca bir adamın qarovulçu olduğu yeri seçdi, bir yumruq zərbəsi ilə onu yerə sərdi və mağara girdi.

Qərib ora girəndə dedi:

– Salam əleyküm!

Yaxınlıqda olanlar ona cavab verdilər:

– Əleyküm-salam!

Şahvələd mağarda yad bir aşığı görüncə ilan çalmış kimi yerindən sıçradı. Onun yad adamı içəriyə buraxmamaq barədə olan əmrinə baxmayaraq, onu içəriyə buraxanın kim olduğunu öyrənmək üçün qarovulçuların üzərinə getdi. Nə etməli, aşığı qovmaq olmazdı. Şahvələd kədərli öz yerində oturdu. Bu vaxt qonaqlar aşıqdan onlar üçün bir şey oxumağını tələb etdilər. Şahvələd onun Aşıq Qərib olub-olmadığını öyrənmək üçün xəbər aldı:

– Adın nədir?

Qərib cavab verdi:

– İndi görərsən.

Şahvələd dedi:

– Nə qəribə addır, birinci dəfədir belə ad eşidirəm. Qərib izah etdi:

– Anam mənə hamilə olanda və doğuş ağrılarından əziyyət çəkəndə, qonşular isə mamaçadan Allahın ona oğul yoxsa qız verdiyini xəbər aldıqda cavab verib: “İndi görərsən”.

Və o vaxtdan məni bu adla çağırırlar.

Amma qonaqlar ondan oxumağını tələb etdilər və Qərib bunu oxudu:

**Nəğmə 86**

Dün gecə Hələb şəhərində,
Misir piyaləsin içdim də gəldim.
Yeridim, yetişdim bir şahsuvara,
Onun pişvazına düşdüm də gəldim.

Dalımı verdim bir daş qalaya,
Qədir Allah əcəb yetdi haraya.
Fərat çayı düşdü araya,
Qır atın tərkinə mİndim də gəldim.

Ərzurumda qıldım günortamı,
Əda eylədim Qarsda ikİndini,

Tiflisdə qıldım axşam namazını,
Xızır atına mİndim də gəldim.

Axşam qaralmış gəldim xanəmə,
Duyurmadım sirrim anam, bacıma,
Eşq xəncərini vurdum sinəmə,
Türlü yaralarımı açdım da gəldim.

Ərənlərin əli məni tutmuşlar,
Aşnalar, dostlar məni unutmuşlar,
Eşitdim Sənəmi gəlin etmişlər,
Toyun Hələbdə duydum da gəldim.

Bir əl vurun aşıq girsin oyuna,
Mən qurbanam, qamətinə, boyuna,
Mən Qəribəm, gəlmişəm Şahsənəmin toyuna,
Canımdan, başımdan keçdim də gəldim.

Pərdənin arxasında rəfiqələri ilə oturan Şahsənəm həya və utancaqlığı unudub, özünü Qəribin ağuşuna atdı və hissiz onun dizləri üstünə düşdü. Bunu görüb coşmuş Şahvələd xəncərini sıyırdı, ikisini də elə yerində dəlib-deşmək istədi. Amma Manaf bəy onun tutub saxlayaraq dedi:

– Sakit ol, hər kəs öz taleyini axtarmalıdı. Şahsənəm sənin qismətin deyilmiş və sən onu məcbur etməməli idin. Öz taleyinə tabe ol. Qoy Şahsənəm Qəribə ərə getsin, sən isə özünə varlı, gözəl ərlik qız taparsan.

Şahvələd sakitləşdi və öz yerində oturdu. Şahsənəm isə özünə gələrək pərdənin arxasında gizləndi. Onda hamı Qəribdən, doğrudan da, Xıdır İlyasın atıyla bir günə Hələbdən Tiflisə gəlmiş olduğunu sübuta yetirməsini tələb etdilər.

Qərib onlara dedi:

– Yeddi il görməyən bir kor arvadı yanıma gətirin, mən onu sağaldacağam.

Qəribin anasını gətirdilər. Qərib Xıdırın atının nalının altından götürdüyü torpaq topasını qoltuğundan çıxartdı, onu suda həll etdi və anasının gözlərinə sürtərək dedi:

– Xıdır İlyasın aşıqlara nə qədər mərhəmətli olduğunu bilin!

Elə həmin dəqiqə qarının gözləri görməyə başladı. Hamı Qəribə inandı və o, sevinərək Şahvələdə dedi:

– Mənim bacım Şahsənəmdən heç də geri qalmır, onun cehizi isə daha çox olacaq. Əgər istəyirsən, elə bu gecə onunla sənin toyunu edərik.

Şahvələd razı oldu. Onların toyunu etdilər və Qəribin qırx gün, qırx gecə davam etmiş toyuna başladılar. Xoca Əhməd də öz karvanı ilə toyun axırına gəlib Tiflisə çıxdı. Qərib dostlara və gəlinə hədiyyələri paylayaraq onları belə tərif etdi:

**Nəğmə 87**

Qurban olayım, aman yar Sənəm,
Nazlı-nazlı gəl qarşıda dur, Sənəm.
Bir-bir libasların tərif eyləyim,
Geyin sallan, tapsın gözüm nur, Sənəm.

Sənəm, səndən ötrü Haqdan etdim diləyi,
Üç tümənə almışam darayı kömləyi.
Yüz tüməndir qolunun bilərzigi.
İnci ilə düzdürmüşəm gey, Sənəm.

Əlli tümənə almışam dibanimtənə,
Layiqdir geyəsən sərv boylu tənə,
Yüz tümənə, bir tirmə almışam genə,
Bunlar yaraşar sənə, gey, Sənəm.

On tümənə almışam zərnişan qurşağı,
Bir tüməndir ağız yaşmağı.
Beş tüməndir ayaqların başmağı,
Qızıldan nal vurdurmuşam, gey, Sənəm.

Yar sənə götürmüşəm Hələb hənası,
Ağ əllərə yaraşır yax, Sənəm.
Mən Qəribəm, ərənlər yetişib dadıma,
Haqq vasil eylədi məni muradıma,

Çəkdigim müsibətlər düşməz dəxi yadıma,
Gülüşəlim, oynaşalım, gəl, Sənəm.

***Kalva kənd məktəbinin müəllimi***
***Mahmudbəyov yazdı.***

## M.QULİYEV.
## "TATAR NƏĞMƏLƏRİ"

### 1. Yaylaxla aranın deyişməsi

**1. Dağ:**

Nə qaralırsan, ay qaralan aran?
Səndən gələn ağır ellər məndədir.
Ağır sürü, kəllə mallar məndədir.

**2. Aran:**

Nə lovğalanırsan, ay lovğa dağlar?
İsti hava, hamar çöllər məndədir.
Sənə gedən heyvan dırnaqdan olur,
Ustad-ustad nallar, karlar məndədir.

**3. Dağ:**

Yazın əvvəlində suyun qızar,
Titrətmə, qızdırma uşağın ürəgin üzər.
Gözəllər, məhbublar mənimlən gəzər,
Xırda, xırda aşan yollar məndədir.

**4. Aran:**

Sulu, sünbüllü, güllü bağlarım,
Şam içində şölə çəkər yağlarım.

Bostandakı ala çiçək tağlarım,
Qarpız, xiyar, türlü təpələr məndədir.

**5. Dağ:**

Mən dağ idim, xırda meşəli dağlar,
Aranın lətdisi "su" deyib ağlar.
Üstü gözəl otlu asma bulaqlar,
Sənə gedən boz bulandıq sular mənimdir.

**6. Aran:**

Mən aranam, sağ məndə, sol məndə,
Zərbaft məndə, yaşıl məndə, al məndə.
Şeyda bülbül cəh-cəh vuran bağ məndə,
Yanı ala xarlı qızılgüllər məndədir.

**7. Dağ:**

Mən yaylaq idim həndən-məndən,
Sinəmdə bitdi bir güli-xəndan.
Olubdur mənimlə neçə-neçə loğman,
Türlü-türlü hallar məndədir.

**8. Aran:**

Səndə var yanı yaralı qayalar,
Səndən enib gələn mənə vay eylər.
Baş-başa çatalı sarı tayalar,
Xırmanda çövrülən vəllər mənimdir.

**9. Dağ:**

Mən istərəm kütah edəm sənlə bəhsimi,
Sənə baxıb ötürmərəm köksümü.
İkimizdən də yaxşıdır yazın mövsümü,
Yanı yarsız yaman hallar məndədir.

## 2. Yerlə göyün mübahisəsi

**1. Yer:**

Yer ilə Göy gedər bəhsə,
Yer deyər: bir hikmətim var mənim.
Üstümdə axan dəryayi-ümman,
Əlvan-əlvan çiçəklərim artıqdır.

**2. Göy:**

Gök deyər: Gəl eyləmə bu billah.
Yüz min nəbim çağırır Allahı.
Buludlarım dəryalarım tənqahı.
Çiçəklərindən yulduzlarım artıqdır.

**3. Yer:**

Yer deyər: "Neçə-neçə padşahlar tutmuşam
dəstimdə,
Neçəsinin də durmuşam qəsdində.
Neçə yüz min nəbi yatıbdır üstümdə,
Yulduzlarından Kəbeyi-beytil-lahım artıqdır.

**4. Göy:**

Göy deyər: " Mən istəyirəm küləgi,
Kəbənə vurram nurdan dirəgi.
Cənnətə göndərrəm yüz min mələgi,
Yeddi qapı bir cənnətim artıqdır".

**5. Şikəstə Abbas[1]:**

Şikəstə Abbas deyər: "Zarı-zarı ağlaram
Sinəmi eşq odu ilə dağlaram.
Hər ikinizin hörmətin saxlaram,
İkinizdən də bir Allahım artıqdır"

---

1. Şikəstə Abbas –tatar xalq şairi. Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi – M. Quliyev yazdı.

## A.İSMAYILOV.

## ARI HAQQINDA NƏĞMƏ[1]

Altı min ləşkərim altı sarayda,
Hər birisi gedər onun Sərkara.[2]
Sirrini bilmək olmaz elmi-ğayıbdır,
Hər birisi gedər onun Sərkara.

Güzəban [3] gülləri dutubdur dəstə,
Çəkibdir şanların bir-birün üstə.
Allahın heyvanı sən şirə istə,
Sövd eyləməz hər biri gedər onun Sərkara.

Çəkibdir şanların laybalay,
Yetirsə şahcuva[4] edər haqqı-say.
Hər birisi gedər onun Sərkara.

İxlas ilən qulluq edəllər xana,
Yasavul düzülüb mərdi-mərdanə,
Çəkibdir şanaların tamam çarxanə,
Hər birisi gedər onun Sərkara.

Arı genə qaş-qabağın alıbdır,
Mövlam şirə verib çün damaqlandırıb.
Səsindən bilirəm yaxşı dolanıb,
Əfəndi, arını mən yaxşı gördüm.

Ərzə gedən müdam tapar xanını,
Mömin tanır öz sübhanını.
Ağar duban yaxşı çəkir şanını
Əfəndi, arını mən yaxşı gördüm.

---

1. Bakı quberniyasının Şamaxı şəhərində yazılmışdır.
2. Sərkar – Bakı quberniyasının Şamaxı şəhərində yer adıdır.
3. Güzəban – bal verən çiçək.
4. Şahçu – xaçabənzər taxta

Xəbər alma, qurtardı arının yazı,
Xorasanda çün verirlər niyazı.
Tamam ermənilər götdü dəryazı,
Əfəndi, arını mən yaxşı gördüm

Bir çəm gəlib Alpoutun[1] dağına,
Dolanırdı həm sağına, həm soluna.
Arı gedər Yeddi Günbəz[2] dağına
Əfəndi, arını mən yaxşı gördüm.

Yaxşı olur Mədrəsənin[3] bağları.
Bar gətirir çün onun bu dağları.
Atılıb qızğın çəkir şanları
Əfəndi mən arını yaxşı gördüm.

Mən Babayam[4], çağıraram "Ya Tanrı!"
Açılıbdır qızılgülün nəkbarı.
Naxışkar otağı mötəbər salı,
Hər burunu gedər onun Sərkara.

***Zaqafqaziya Müəllimlər Seminariyasının***
***tələbəsi – A.İsmayılov.***

---

1. Alpout − Bakı quberniyasının Şamaxı qəzasında dağ adı, bu dağ ətəyində yerləşən kəndin adından verilmişdir.
2. Yeddi Günbəz– Bakı quberniyasının Şamaxı Qəzasında dağ adı. Onun yeddi Günbəzi olduğundan belə adlanır.
3. Mədrəsə − Bakı quberniyasının Şamaxı qəzasında üzümlüklərin çox olduğu və şərabçılığın inkişaf etdiyi erməni kəndi.
4. Baba– bu nəğmənin müəllifi.

## TATAR NAĞILLARI VƏ RƏVAYƏTLƏRİ

### 1. QORXAQ

Biri var idi, biri yox idi, keçmiş vaxtlarda tənbəl bir qorxaq var idi. O, evli idi. Bir gün axşam vaxtı ər və arvad pəncərənin qabağında oturmuşdular, birdən arvadı ərinə dedi:

– A kişi, bax küçədə bir qızıl parçası düşüb qalıb, get onu götür gəl!

Qorxaq küçəyə çıxdı və bir şey tapmadı, çünki arvadı onu aldatmışdı. Arvadı qapını bağladı və ərinin bütün yalvarışlarına baxmayaraq onu içəri buraxmadı.

Qorxaq arvadının inadını görüb və onu bu vəziyyətə gətirib çıxaran qorxaqlığını lənətləyib baş götürüb getdi.

Bir az getmişdi ki, qızıl yüklü bir dəvəyə rast gəldi. O, baxıb gördü ki, dəvələr sarvansızdır, qorxaqlığından o, dəvələrə toxunmayıb ötüb keçdi. Birdən yolda bir adam ona rast gəldi və ondan xəbər aldı:

– Sən yolda bir karvan gördünmü?

Qorxaq dedi:

– Görmədim, amma rəmmal olduğumdan mən onları tapa bilərəm.

Karvanın sahibi ona dedi ki, əgər onun dəvələrini tapsa, onda yüz əşrəfi alacaq. Qorxaq bunu eşidib dedi ki, dəvələr filan meşədədir. Dəvələrin sahibi qorxağın dediyi yerə gedib dəvələrini həmən yerdən tapdı. O, geri qayıdıb vəd etdiyi pulları rəmmala verdi.

Bir gün qorxağın yaşadığı vilayətin padşahının qızıl üzüyünü oğurladılar, rəmmallarını yığdı ki, onun üzüyünün kimin oğurladığını öyrənsinlər. Onların heç biri bunu tapıb öyrənə bilmədilər.

Bu vaxt dəvələrin sahibi padşahın hüzuruna gəlib onun ayaqlarına düşdü və dedi:

– Qibleyi-aləm, mən bir dəfə qızıl yüklənmiş dəvələrimi itirmişdim və bir rəmmal onları tapdı. Əgər sən rüsxət versən, mən gedib onları tapan rəmmalı sənin hüzuruna gətirərəm.

Padşah əmr etdi ki, həmin rəmmalı gətirsinlər. Dəvələrin sahibi qorxağın yanına gedib onu padşahın hüzuruna gətirdi. Padşah əvvəlcə qutuya bir kəpənək qoymuşdu ki, rəmmalı yoxlasın. O, rəmmala dedi:

– Əgər sən bu qutunun içində nə olduğunu bilsən, onda üzüyü kimin oğurladığını da biləcəksən.

Padşah qutunu qorxağa verən kimi o, arvadını öz dilində məzəmmət etməyə başladı:

– Eh, Pipil[1] sən məni qonşuların gözləri qabağında yerə vurdun, gör nə işlə məşğul olmağa başladım.

"Pipil" sözü padşahın dilində "kəpənək" imiş. Padşah bu sözü eşidib sevincindən ucadan dedi:

– Sən, doğrudan da, böyük rəmmal imişsən, sən üzüyü tapacaqsan.

Qorxaq padşahdan möhlət alıb getdi. Sən demə, padşahın üzüyünü onun vəzirlərindən biri oğurlayıbmış. Həmin vəzir padşahın sözlərini eşidib işin üstünün açılacağından qorxaraq yalançı rəmmalın yanına gəlib onun qulağına dedi:

– Ey böyük rəmmal, məni bu bəladan qurtar, üzüyü götür, padşahın kor qazına ver, o udsun.

Qorxaq vəzirin sözlərini eşidib çox sevİndi və ona söz verdi ki, padşaha heç bir söz deməyəcək. O, kor qazı tutub ona verdi ki, üzüyü udsun.

Müəyyən olunmuş vaxtda padşah qorxağı çağırıb dedi:

– Hə, qardaş mənim üzüyümü tap!

---

1. Pipil – gürcü dilində kəpənək deməkdir. İsm. Əfəndiyev.

Rəmmal dedi ki, padşahın kor qazını gətirsinlər, elə ki, padşahın əmri ilə kor qazı gətirdlər, o, qazı kəsdi və onun çinədanından padşahın üzüyünü çıxartdı.

Padşah şadyanalıq edib bir məclis düzəltdi. O, qorxağa ürəyi nə istəyirsə, bağışladı.

Bir neçə gündən sonra padşah hamama getdi. Bu vaxt qorxaq padşahın ona verdiyi ata minıb, atını çaya tərəf sürdü. O, hamamın yanından keçib gedəndə qorxaq bərkdən qışqırdı, at diksinib onu üstündən yerə atdı və o, bərk əzildi. Padşah qorxağın qışqırığına hamamdan hövlnak çıxdı, o, hamamın astanasından elə yenicə bayıra çıxmışdı ki, hamam uçdu. Padşah qorxaqdan xəbər alanda ki, niyə belə bərkdən qışqırdın, qorxaq cavab verdi:

– Qibleyi-aləm, hamam uçdu və mən bilirdim ki, sən hamamın içindəsən, mən atdan sıçradım və qışqırdım ki, sən hamamdan daha tez çıxasan.

Padşah qorxağın onun həyatını qurtardığını görüb ona çoxlu hədiyyə, ənam və bahalı libaslar verib evinə buraxdı.

Qorxaq var-dövlətlə evinə, arvadının yanına qayıtdı.

Bundan sonra onlar uzun illər, xoşbəxt, şad-xürrəm ömür sürdülər və arvadı ərinin qorxaqlığına artıq deyinmirdi.

Göydən üç alma düşdü: biri mənim − söyləyicinin, digəri qulaq asanların, üçüncüsü də Allahın.

***Zaqafqaziya Müəllimlər Seminariyası***
***tatar şöbəsinin şagirdi İsmayıl Əfəndiyev***
***Nuxa şəhərində yazıya aldı.***

## 2. VARLI ƏZİZ VƏ ONUN QULU MİRZƏ HAQQINDA

Çox keçmişlərdə bir şahlıqda Əziz adında varlı və məşhur tacir yaşayırdı. Onun bir gözəl-göyçək, qəddi-qamətli qızı vardı. Əziz hər şeydən çox sevdiyi tək qızının gözəlliyi ilə fəxr edirdi. Bir gün o, Mirzə adı verdiyi bir qara qul aldı.

Əziz qulunun çox vicdanlı, işini gözəl bilən bir adam olduğunu gördüyü üçün onu çox sevirdi.

Bu arada tacirin qızı ayla-günlə böyüdü və ərlik qız oldu. Bir gün bir fikir Əzizə rahatlıq vermədi, görəsən, qızı kimə ərə gedəcək. Əziz bu məsələni çox götür-qoy etdi və axırda qərara gəldi ki, hamının gələcəyini bilən Mələikənin (mələyin) yanına getsin.

Əziz onun yanına gəlib ayaqlarına düşdü və ona yalvarmağa başladı ki, o, qızının taleyini ona açsın. Mələikə onun xahişini yerinə yetirdi və dedi ki, onun qızı sevimli quluna ərə gedəcək. Əziz bu sözlərdən quruyub qaldı. Tacir qızının qula ərə getməsini özünə təhqir sayırdı. O, qəm-qüssə içində öz hərəmxanasına qayıdıb gəldi və bədbəxt qulun başını necə batırmaq haqqında fikirləşməyə başladı. O, çox uzaqlarda Şərqdə yaşayan qardaşı Zöhraba bir məktub yazıb təvəqqe etdi ki, əgər Mirzə sağ-salamat onun yanına gəlib çatsa, birtəhər onun başını batırsın. Əziz ürəyində fikirləşirdi ki, Mirzə yolda, bəlkə də, öləcək. Əzizin qardaşı Zöhrab məşhur müdrik adam idi, onu dünyanın hər yerində tanıyırdılar və onun müdrikliyi adamları çox təəccübləndirmişdi. Mirzəyə sevimli ağasından ayrılmaq çox çətin idi. Əzizin qızı qulu çox sevirdi və o, məhəbbətinin bir nişanəsi olaraq öz qızıl üzüyünü ona bağışladı.

Sədaqətli qul yolda cox əziyyət çəkdi, amma o buna fikir verməyib çalışdı ki, məktubu Zöhraba çatdırsın. Günlərin bir günü Mirzə meşədən keçərkən böyük bir qollu-budaqlı ağacın kölgəliyində oturdu ki, bir az dincini alsın. Ətraf yamyaşıl idi, havadan gül-çiçəyin ətri gəlirdi. Bu gözəlliyin arasında bir çılpaq ağac Mirzənin diqqətini çəkdi, ağac çox kədərli, yarpaqsız dayanıb durmuşdu. Birdən ağac adam səsi ilə yalvardı:

– Ey yolçu, mənə öz sirrini aç, söylə hara gedirsən?

Mirzə cavab verdi:

– Müdrik Zöhrabın yanına gedirəm.

Ağac birdən yenə dedi:

– Mənə yazığın gəlsin, Şərqin müdrik adamını mənim dərdimdən hali et! Bax ətrafımdakı bütün ağaclar yaşıl yarpaqlarla örtülüdür, bircə mən çılpaq durmuşam.

Mirzə ona vəd etdi ki, onun xahişini yerinə yetirəcək və yoluna davam etdi.

O, az getdi, üz getdi, Allah bilir nə qədər yol getdi, bir müddətdən sonra o, bir kiçik çayın qırağına çatdı. Kiçik çay burada yaxınlıqda duran bir qayadan axırdı. Birdən qaya tərəfdən bir səs gəldi:

– Ey yolçu, hara gedirsən?

Mirzə cavab verdi:

– Şərqin müdrik adamı Zöhraba qardaşının yazdığı məktubu aparıram.

Qaya fəryad etdi:

– Ey cavan yolçu, mənə yazığın gəlsin, xahişimi yerinə yetir, ondan xəbər al ki, mənim göz yaşlarım nə vaxt quruyacaq. Bax, gördüyün bu kiçik çay göz yaşlarımdan əmələ gəlmişdir.

Mirzə vəd etdi ki, onun istəyini yerinə yetirəcək. O sanki yol getmirdi, uçurdu və nəhayət, məqsədinə çatdı, Zöhrabın sarayına gəldi. Müdrik adam Əzizin yanından elçi gəldiyini bilib onu yanına çağırtdırdı. Mirzə gəldi və ehtiramla baş əyib ona öz ölümü haqqında yazılan məktubu verdi. Zöhrab məktubu oxuyub qula baxdı və onda günahsız gənc oğlana qarşı rəhm hissi oyandı. Əmr etdi ki, otaq hazırlasınlar. Yazıq qul onun üçün hazırlanmış otağa gəlib uzun, ağır səfərdən əldən düşmüş, yorğun-arğın halda özünü birtəhər yatağına çatdıra bildi, o saat dərin yuxuya gedib yatdı.

Ertəsi gün səhər yeməyindən sonra Zöhrab və Mirzə gəzməyə çıxdılar. Mirzə ağaca və qayaya verdiyi vədini xatırladı və onların xahişini müdrik adama çatdirdı. Bu vaxt onlar

fəvvarənin yanında dayandılar. Fəvvarənin şəfalı xüsusiyyətini bilən müdrik Zöhrab Mirzəyə əmr etdi ki, hovuza girib çimsin, o, müdrik adamın əmrini yerinə yetirdi. Görək nə oldu? İndi Mirzə artıq qara qul deyildi, o, ağdərili, qaragözlü, qovaq kimi qəddi-qamətli bir cavan oğlan idi. Zöhrab onun gözəlliyinə valeh oldu və saraya qayıtmaq istədi. Onlar saraya qayıdanda Mirzə ağac və qayadan söz saldı, Zöhrab dedi:

– Ağacın kökünün altında və qayada xəzinələr var, Əzizin yanına qayıdanda sən bu xəzinələri qazıb çıxardarsan, onda qayanın göz yaşları quruyacaq və ağac isə digərlərindən daha yaxşı gül açacaq.

Zöhrab evinə qayıdıb qardaşı Əzizə məktub yazdı və Mirzəni xeyir-dua ilə geriyə, Əzizin yanına yola saldı.

Mirzə çox getdi, az getdi, bunu Allah bilir, nəhayət, onun qayıtmasını səbirsizliklə gözləyən qayanın üstündəki torpağı qazımağa başladı və birdən onun beli bir yığın qızıla, gümüşə və daş-qaşa dəydi. Mirzə qonşu kəndə qaçıb getdi, özünə köməkçilər tutdu, tapdığı qiymətli şeyləri bir neçə qatıra yüklədi və yoluna davam etdi.

Mirzə çox getdi az getdi, axır gəlib ağaca çatdı. Mirzə burada əvvəlkindən də daha böyük xəzinə tapdı.

Bir müddətdən sonra o, Əzizin yaşadığı şəhərdən elə də uzaq olmayan bir şəhərciyə gəlib çatdı. Əzizə bir şahzadənin adından məktub yazdı və özü isə şahlara layiq libaslar geyinib başının adamları ilə şəhərə tərəf yol aldı. Əziz məktubu alıb dərhal yalançı şahzadəni qarşılamağa getdi və çox nəvazişlə onu qəbul etdi. Qonağın görünməmiş var-dövləti onu təəccübləndirdi. Əziz yalancı şahzadədən xahiş etdi ki, onun qızını alsın. Qız razı oldu. Qırx gün, qırx gecə toy oldu.

Toydan sonra Mirzə Zöhrabın yazdığı məktubu qayınatasına verdi. Məktubda isə yazılmışdı.

“Əziz qardaş, taledən qaça bilməzsən! Zöhrab”.

Göydən üç alma düşdü, biri söyləyiciyə, biri dinləyənə, üçüncüsü də pay istəyən dərvişə.

***Cavanşir qəzasının Mamırlı kəndində Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi Musa Quliyev yaziya aldı.***

## 3. BÖHTANÇI

Çox uzaq keçmişlərdə Ərəbistanda qul alveri ilə məşğul olan bir tacir vardı. Bir gün o, satmaq üçün bazara bir qul çıxardı. Qul çox gözəl qəddi-qamətli idi və ilk baxışdan da yaxşı xeyirxah adama bənzəyirdi. Bir nəfər qulu görüb bəyəndi və onun sahibinə yaxınlaşıb qulu neçəyə satdığını xəbər aldı.

Tacir dedi:

- Doxsan qəpiyə.

Ağa tacirin bu cavabına çox təəcübləndi və fikirləşdi ki, qulun sahibi axmaq adamdır ki, belə bir qulu doxsan qəpiyə satır, halbuki ən pis qul bir neçə onlarla rubla satılır. Ağa bu işə sevinib qulun sahibinə onun istədiyindən də çox pul ödədi, qulu götürüb öz evinə yollandı. O qədər sevİndi ki, satın aldığı qulun heç xasiyyətinin necə olduğunu soruşmağı unutdu.

Qulun yeni sahibinin öz ərini çox sevən bir arvadı var idi.

Bir gün qul xanıma deyir:

– Sən heç bilirsən sənin ağan nə arzulayır?

Xanım cavab verir:

– Bilmirəm.

Qul sözünə davam edib deyir:

– Ağa, özünə bir gəlin tapıb və yaxın vaxtlarda onunla evlənəcək.

Bu xəbər yazıq arvadı mat qoydu, o, acı-acı ağladı. Qul ona dedi:

– Ağla, mən qul olsam da adamam, əgər sən mənim məsləhətlərimə əməl etsən, sənin dərdinə əlac edəcəyəm.

Xanım söz verdi ki, onun bütün tapşırıqlarını yerinə yetirəcək və hətta ona kömək edərsə, ona çoxlu pul verməyi və onu azad etməyi də boynuna götürdü. Qul xanıma dedi ki, ərinin saqqalından bir neçə tük götürüb gətirsin, o, möcüzəli bir dua vasitəsi ilə ondan bir həmayil hazırlayacaq və bu həmayil də ağanı məcbur edəcək ki, o yalnız onu sevsin və hər şeydə ona qulaq assın, belə ki, əri onun icazəsi olmadan heç nə edə bilmək iqtidarında olmayacaq.

Xanım quldan xəbər aldı:

– Mən ərimin saqqalından bir neçə tükü necə götürməliyəm?

Qul cavab verir:

– Çox sadə, bir iti bıçaq hazır et, ağa yeyib-içdikdən sonra yatanda ona yaxınlaş və bir saqqalından bir neçə tük kəs!

Xanım yaxşı məsləhət üçün qula təşəkkür etdi. Ertəsi gün isə xanım evdə olmayanda qul ağasına deyir:

– Ey hökmdarım, xanım səni öldürmək istəyir, o, münasib bir fürsət axtarır ki, cinayət işini həyata keçirsin. Əgər buna inanmırsan, sabah nahar yeməyindən sonra yatanda özünü yatmış kimi göstər, onda sözlərimin nə qədər doğru olduğunu görərsən.

Ertəsi gün ağa adəti üzrə nahar yeməyindən sonra yatmağa uzandı, arvadı isə bundan istifadə edərək, əlində bıçaq ərinin yataq otağına girir və bıçağı onun çənəsinə tərəf yönəldir. Əri qəzəb içində yerindən sıçrayıb arvadını doğram-doğram edir. Qul o saat ölənin qardaş və qohumlarının yanına qaçıb getdi və qışqırmağa başladı ki, ağası heç bir günahı olmayan və bu qədər də qohum-qardaşı olan günahsız arvadını öldürdü. Ölənin qardaş və qohumları qaçıb gəldilər və ağanı öldürdülər.

Bütün bu bədbəxtliklərin günahı olan cani isə bu qarışıqlıqda ağanın pul və qiymətli əşyalarını yığıb-yığşdırıb qaçıb getdi.

*Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi*
*Azad Aslanov Şuşa şəhərində yazıya aldı.*

## 4. XƏSİS

Qazax qəzasının Dilican yaylağının yaxınlığında kiçik dağ çayının ətəyini yuduğu çox da böyük olmayan bir dağ vardır. Xalq belə deyir ki, çox qədimlərdə bu dağda yonulmuş böyük bir bina varmış. Bu binanın qızılla dolu çoxlu otaqları da varmış. Ucu-bucağı olmayan çəmən və çöllərlə əhatə olunmuş bu bina bir qarıya məxsus idi. Bir gün bir əməlisaleh səyyah gecə vaxtı bu binanın yanına gəlib xahiş etdi.

– Xeyirxah nənə, mənə − səyyaha bir mərhəmət göstər, Allah qonağına bir gecəliyə yer ver!

Qarı cavab verib dedi:

– Allaha da qurban olum, onun qonağına da!

Qarı bunu deyib onu içəri buraxdı. Səyyah çox ac idi və gözləyirdi ki, belə varlı ev sahibəsi onu yaxşı yedirdəcək. Amma səyyahın gözlədiyi kimi olmadı. Qarı yer üzündəki bütün padşahlardan da varlı olsa da o, son dərəcə xəsis idi, günlərlə yemək yeməzdi, qorxardı ki, ona az görünən var-dövləti azalar və hətta yeməyə belə heç bir şeyi olmaz. Gecəyarısı ev sahibəsi ac qonağa bişirilmiş hansısa bir heyvancığazı gətirir. Qonaq çox fikirləşdi, görəsən, bu nə heyvandır, amma bilə bilmədi. Axır aclıq üstün gəldi, səyyah yeməyə hazırlaşırdı ki, Allahdan bir səda gəldi ki, səyyaha verilən yemək pişik ətindən hazırlanıb. Səsi eşidib müqəddəs adam əllərini göyə qaldırdı və dedi:

– Allahım, səndən bir şey istəyirəm, səyyaha var-dövlətinin heç milyonda birini belə fəda etməyən xəsis qarının bütün var-dövləti daşa çevrilsin.

Kiçik çayın dağın ətəyini yuduğu yerdə elə bu vaxtadək ikişahılıq və ya gümüş beşqəpiklik böyüklüyündə daşlar görünməkdədir, onların bir tərəfində günəşin təsviri, digər tərəfində isə sağ pəncəsində qılınc tutmuş şirə bənzər nəsə vardır. Bu daşların göründüyü yerin yaxınlığında, binanın həyəti hesab edilən hamar meydançada sanki daşa çevrilmiş dəvə heykəli vardır. Xalq deyir ki, bu həmin o dəvədir ki, qarının çoxsaylı otaqlarının açarlarını daşıyırmış, o da müqəddəsin duasına görə daşa çevrilmişdir.

***Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi Osman Qayıbov Qazax qəzasının Salahlı kəndində yazıya aldı.***

## 5. XARXALI

Biri var idi, biri yoxdu, Xarxalı adında oğlu olan bir qarı vardı. Qarının dolanmağa heç bir vəsaiti olmadığından o, kənd əhalisindən təvəqqe etdi ki, onun oğlunu özlərinə çoban götürsünlər. Kəndlilər yazıq qarının xahişini canla-başla yerinə yetirdilər. Amma onun tənbəl oğlu sürünü otarmaq yerinə səhərdən-axşamadək yatırdı, heyvanlar isə tez-tez itib-batırdı. Axır kənd əhalisinin səbri tükəndi və onlar tənbəl çobanı öldürmək qərarına gəldilər. Amma onlar Xarxalını nə qədər axtardılarsa, onu heç cür tapa bilmirdilər. Onda kəndlilər yazıq çobanın komasını yandırdılar.

Xarxalı evə qayıdanda yalnız tüstülənən xarabalıq gördü. Çoban acı-acı ağladı, nə edə bilərdi. O, qoca anasından kiçik, bir parça qızılının olub-olmadığını xəbər aldı. Anası bir köhnə sandıqçanın dibində iki kiçicik qızıl parçası tapdı və onları oğluna verdi. Xarxalı qızılı torbanın cibinə qoydu, sonra yanmış evinin kömürünü çuvala yığdı, çuvalı çiyninə atıb kənddən çıxıb getdi. O, günortaya gəlib bir çaya çatdı, çayın o biri tərəfində iki qız dayanmışdı. Xarxalı onlardan

xahiş etdi ki, çaydan keçməyə ona kömək etsinlər. Qızlar ona köməyə gəldilər. Onların üçü də çayı keçəndə Xarxalı qəsdən kömürü dağıtdı. Kömür çaya dağıldı. Xarxalı çaydan keçib ağlamağa və qışqırmağa başladı ki, guya qızlar onun qızıllarını çaya dağıdıblar. Qızlar nə qədər desələr də ki, onun çuvalındakı qızıl yox, kömür idi, Xarxalı qışqırmağa və ağlamağa davam etdi və qızların ardınca onların kəndinə getdi. Burada o, taxtapaşun üstündə əyləşmiş qocalara və mollalara rast gəldi. Xarxalı onlara şikayətini etdi. Onlar dedilər ki, o, çuvalını silkələsin, əgər oradan bir qızıl dənəciyi də yerə düşsə, demək, o, doğru danışır və qızlar o an qızılla dolu bir çuval qaytarıb verməlidirlər. Xarxalı çuvalı silkələdi və anasından götürdüyü iki kiçik qızıl parçası çuvaldan yerə düşdü. Onda qızların ata-anaları istər-istəməz ona bir çuval qızıl verdilər.

Xarxalı bir çuval qızılı götürüb kəndinə gəldi və yerlilərinə elan etdi ki, bəs filan kənddə hər çuval kömürə bir çuval qızıl verirlər və sübut olaraq qızılla dolu çuvalı göstərdi. Kənd əhalisi ona inandı, onlar öz evlərinə od vurub yandırdılar və ertəsi günü torbaları kömürlə doldurub yola düşdülər. Gəldikləri yerdə onlara nəinki qızıl verdilər, əksinə yaxşıca kötəklədilər və onları dəli bilib qovdular.

Xarxalının yerliləri and içib, sözü bir yerə qoydular ki, bu yalançını öldürsünlər və kəndə gəlib onu axtarmağa başladılar. Hiddətlənmiş kəndlilər yalançını tapmayıb onun yazıq anasını öldürdülər.

Bir neçə gündən sonra Xarxalı evə qayıdanda başına gələn bədbəxtlikdən xəbər tutdu. Yetim qalmış Xarxalı bir müddət dərd çəkəndən sonra yeni hiylələrə girişdi. O, anasının meyitini eşşəyə qoydu və qonşu kəndə yola düşdü. Sahibi çox varlı olan bir evin yanında dayanıb anasının meyitini götürdü, onu divarın yanına söykədi. Özü isə pilləkənlə yuxarı qalxdı və evə daxil oldu. Ev sahibi ilə görüşüb ona qonaq oldu. Bir

vaxtdan sonra o, ev sahibinin qızından təvəqqe etdi ki, o, aşağı düşüb divarın yanında duran anasını evə çağırsın. Qız qonağın anasının dalınca getdi. O, qarının əlindən tutdu və onu güləruzlə özünə tərəf çəkməyə başladı, qarı isə yerə yıxıldı. Ev, sahibinin qızı qorxdu və qışqırdı. Onun qışqırığına ata-anası və qonaq həyətə çıxdılar. Qonaq anasının yerdə uzanmış meyitini görüb ağlamağa başladı. Ev sahibləri polisin onun qonağının səsini eşidəcəyindən qorxu yalvarmağa başladılar ki, o, qışqırmasın və ona çoxlu pul verəcəklərini vəd etdilər.

Xarxalı yenə də bir dolu çuval qızıl aldı və öz kəndinə yola düşdü və onları inandirdı ki, filan yerdə meyitləri pulla satın alırlar və bir meyitin qarşılığında bir çuval qızıl veririlər. Onlar ona inanıb öz qoca ata və analarını öldürdülər və onların meyitlərini də özləri ilə götürüb Xarxalının göstərdiyi kəndə yola düşdülər. Amma bu kəndin də sakinləri onları kötəklədilər və qovdular.

Xarxalının yerliləri kəndlərinə qayıdıb onu axtarmağa başladılar. Nəhayət, onu tapdılar. Xarxalı arxasına baxmadan onlardan canını qurtarmaq üçün qaçdı, onlar da dalınca düşdülər. O, yolda böyük bir qoyun sürüsünü otaran çobana rast gəldi, onun dalınca qaçanları göstərib dedi:

– O adamlar sənin üçün gəlirlər və səni öldürmək istəyirlər, tez soyun, öz paltarını mənə ver, mənimkini isə özünə götür ki, onlar səni tanımasınlar və çıx get!

Çoban baxdı və ona tərəf qaçan dəstəni gördü, qorxdu və tələm-tələsik Xarxalının paltarını geyinib arxasına baxmadan qaçmağa başladı. Dəstə gəlib Xarxalıya yetişdi və onu çoban bilib, onlardan qaçan mənfur adamı görüb-görmədiyini xəbər aldılar. Xarxalı qaçan çobanı göstərdi və dəstə onun dalınca qaçmağa başladı. Çoban dənizə çatdı, dəstənin ona çathaçat olduğunu görüb fədakarcasına özünü suya atdı. Kəndlilər onun dənizdə boğulduğunu görüb razı halda evlərinə qayıtdılar.

Bir neçə gündən sonra Xarxalı heç nə olmamış kimi öz kəndinə qayıtdı, özü də bir böyük qoyun sürüsü ilə. Yerlilər onu sapsağlam görüb çox təəccübləndilər, axı o, onları görə-görə özünü dənizə atmışdı və onlar heç cürə başa düşə bilmədilər ki, kəndə o, necə qayıda bildi.

Xarxalı onlara danışdı ki, dənizdə saysız-hesabsız qoyun sürüləri var və o belə böyük sürünü ordan gətirmişdir. Sakinlər ona inandılar və bir-birinin ardınca özlərini dənizə atdılar.

Beləliklə, Xarxalının sözlərinə inanmayan kənddə qalan iki molladan başqa onların hamısı dənizdə batdılar. Amma yalançı axırıncı düşmənlərini də öldürmək üçün bir vasitə tapdı. Xarxalı bu mollalardan təvəqqe etdi ki, onu bir çox adamların ölümündə günahkar kimi öldürsünlər. Mollalar razı oldular. Xarxalı özü üçün çox da dərin olmayan bir qəbir qazdı, ora endi və orada qaldı, mollaların hər birinə bir tapanca verdi ki, eyni vaxtda ona atəş açsınlar. Mollalar Xarxalının məsləhətinə görə qəbrin iki əks tərəfində durdular və onun işarəsi ilə titəyi çəkdilər. Atəş açılan anda Xarxalı tez çömbəldi və mollalar bir-birlərini öldürdülər. Beləliklə, Xarxalı tam bir kəndin sahibi oldu.

***Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi B. Nəsirsultanov Nuxa qəzasının Bum kəndində yazıya aldı.***

## 6. MƏLİK MƏMMƏD

Bir padşahın qırx oğlu var idi, ən kiçiyinin adı Məlik Məmməd idi. Onlar böyüyüb başa çatanda atalarından təvəqqe etdilər ki, öz vilayətlərindən qırx bacı tapsın ki, onlarla evlənsinlər. Padşah bu işi çox götür-qoy etdi, nəhayət, onlara icazə verdi gedib özləri üçün gəlin axtarıb tapsınlar. Şahzadələr hazırlaşıb yol tədarükü gördülər. Padşah onlara xeyir-dua verdi və dedi:

– Oğullarım, heç vaxt nə köhnə, uçuq binada, nə çöldə, nə də otlaqda gecələməyin.

Şahzadələr and içdilər ki, atalarının nəsihətinə əməl edəcəklər, ona təzim etdilər, əlindən öpdülər və yola düşdülər.

Onlar dağlarda, çöllərdə durmadan at çapdılar. Gecə düşdü. Yoldan bir qədər aralıqda köhnə bir minarə vardı. Sən demə, bu minarə ağ divin imiş. Qardaşlar uzun yoldan sonra yorulduqlarından atalarının nəsihətini unudub, elə burada gecələmək qərarına gəldilər. Onlar burada çadırlarını qurub rahatca yatdılar. Yalnız bircə Məlik Məmməd yatmırdı, o, başları üzərində təhlükə olduğunu bilirdi. O, qılıncını sıyırıb qarovul çəkməyə başladı. Birdən gecənin qaranlığında güclü səs-küy eşidildi. Ağ div gəlib çıxdı, o, əlində yeddi dəyirman daşının keçirilmiş olduğu bir əmud tutmuşdu. Div uzaqdan şahzadəni görüb acıqla qışqırdı:

– Ey bəni-insan, mənə Ağ div deyirlər, səni günorta axtarırdım, sən isə axşam əlimə düşdün.....Özünü gözlə!

Bu sözü deyər-deməz bir daş şahzadənin başı üzərindən güllə kimi vıyıldadı və torpağın dərinliyinə girdi. Div yan atan kimi Məlik Məmməd öz növbəsində qulaylandı və var gücü ilə özünün böyük qılıncı ilə divin başına bir zərbə endirdi. Div haylayaraq yerə yıxıldı:

– Bir də, bir də[1].

Məlik Məmməd cavab verdi:

– Mən bir dəfə doğulmuşam, bir dəfə də vururam.

Div ölüb, cəhənnəmə vasil oldu. Şahzadə onun meyitini bir yanda gizlətdi və yatdı.

Səhər qardaşlar yuxudan oyananda gördülər ki, şahzadə hələ də yatır, onu yuxudan oyatdılar. Məlik Məmməd gecə vaqe olanlardan qardaşlarına bir söz də demədi və onlar yollarına davam etdilər.

Ertəsi gün gecə qardaşlar Məlik Məmmədin başına gələnlərdən xəbərsiz olub, yenə də uçuq binada gecələməli oldu-

---

1. Xalq inancına görə, divlər ikinci zərbədə yenidən dirilirlər.

lar. Bu bina da Qara divin imiş. O da çox keçmədi ki, gəlib çıxdı, Ağ div kimi Məlik Məmmədə meydan oxudu. Məlik Məmməd onun qardaşının başına gətirdiyini bu da başına gətirdi.

Üçüncü gecə Məlik Məmməd qırmızı divi öldürüb yatmaqda olan qardaşlarını tərk etdi, özü isə gecələməyə qaldıqları binanın yan-yörəsini gəzməyə çıxdı. O, bir az aralıda zaman-zaman alışan böyük bir alov gördü. Bu, şahzadəni çox təəccübləndirdi və elə həmin yerə yollandı.

O, heç bir verst[1] belə getməmişdi ki, birdən bir qoca cadugər gördü. Cadugər yolun qırağında oturmuşdu, əlində iki yumaq vardı: ağ və qara. Şahzadə ədəb-ərkanla ona salam verdi və onun işinə baxmağa başladı. Qoca durmadan qara yumaqdan sapı yenidən sarıyırdı. Bu iş şahzadəni maraqlandırdı və o, ağacdan bu işin səbəbini xəbər aldı. Qoca cadugər ona başa saldı ki, sapını sarıdığı qara yumaq gecədir, ağ yumaq isə gündüzdür. Ağ sap qurtardıqda gecə düşür, qara sap qurtaranda isə gün başlayır. Məlik Məmməd görəndə ki, qara sap qurtarır deməli, tezliklə gündüz olacaq, hava işıqlanacaq və o, vaxtında geri qayıda bilməyəcək. Qocaya dedi ki, sapı sarımasın, qoca razı olmayanda qocanın əl-ayağını bağladı, özü isə yoluna davam etdi. İşıq gələn bir yerə yaxınlaşdı. Burada o, səs-küy, qışqırıq, şənlik səsləri eşitdi və bunun nə olduğunu öyrənmək istədi. Səs-küyün gəldiyi əsas binanın yanında balaca bir evcik var idi. Şahzadə ora girdi və orada bir qarını gördü, ondan öyrəndi ki, bu səs-küy qırx divlə oradakı padşahın qırx qızının toyundan gəlir.

Məlik Məmməd qərara gəldi ki, qırx gəlini özü və qardaşları üçün divlərin əlində alsın. Əsas binanın həyətində böyük bir zəng asılmışdı. Bu zəngin bir xüsusiyyəti vardı, yad adam gələndə zəng çalıb divləri xəbərdar edərdi. Amma şahzadə qarıya pul verdi ki, zəngin çəmini ona öyrətsin. Qarı ona pambığı verdi və öyrətdi ki, ehtiyatla zəngə yaxınlaşsın, onu

1. Verst-1,05km. Bərabər uzunluq ölçüsü

cəld zəngin boşluğuna qoysun və beləliklə də, dilə zəng çalmağa macal verməsin. Şahzadə qarı nə demişdisə, yerinə yetirdi, sonra qılıncını sıyırdı, adaxlı və gəlinlərin olduğu böyük otağın qapısının yanında durdu və divlər çıxdıqca macal vermədən onların hamısını bir-bir öldürdü. O, əsir düşmüş bütün şahzadə qızları rast gəldiyi binada qoyub özü padşahın sarayına yönəldi, saraydakı mərmər daşa qılıncını sancıb qardaşlarının gecələdiyi yerə qayıtdı. Yolda Məlik Məmməd qoca cadugərin əl-ayağını açdı və o, dərhal öz işinə davam etdi. Qardaşlar yuxudan oyandılar, gecənin uzun çəkməsindən şikayət etdilər, gecə isə, sən demə, üç gün, üç gecə davam etmişdi.

Üç gündən sonra qırx şahzadə qızın padşah atası bir fərman verib çətin bir tapşırığın yerinə yetirilməsi üçün qüvvətli adamları öz sarayına çağırtdı. Təyin edilmiş vaxtda igid oğlanlar sarayda toplandılar. Padşah qılıncı mərmər daşdan çəkib çıxardan adama böyük ənamlar verəcəyini vəd etmişdi. Bir çox pəhləvanlar nə qədər çalışdısa, qılıncı mərmər daşdan çıxarda bilmədilər.

Axırda padşaha bir xəbər çatdırdılar ki, bir qarının evində çox güclü qərib adam yaşayır. Padşah əmr etdi, Məlik Məmməd onun hüzuruna gəldi, güc vermədən elə bir həmlədən qılıncı mərmər daşdan çıxartdı. Camaat onun qüvvəsinə təəccübləndi, padşah onun alnından öpdü və ondan nə hədiyyə istədiyini xəbər aldı. Şahzadə ədəbi-ərkanla ona təzim etdi, başına gələnləri, divləri öldürüb şahzadə qızları azad etdiyini ona nəql etdi və axırda padşahdan təvəqqe etdi ki, öz qızlarının ona və qardaşlarına ərə getmələrinə rüsxət versin. Padşahın sevincinin həddi-hüdudu yox idi. O, əziz qonaqlarını çağırdı və çox keçmədən toy etdilər. Şahzadələr toydan sonra padşahdan öz evlərinə getmək üçün rüsxət istədilər. Padşah onları buraxdı və böyük təmtəraqla yola saldı.

Onlar evlərinə qayıdarkən bir çöldə, otlaq yerdə gecələməli oldular, gecəyarısı qanadlı ilan uçub gəldi. Məlik Məm-

mədi alıb uçdu, onun qardaşları isə evlərinə gəlib çatdılar. Qanadlı ilan Məlik Məmmədi padşah-ilanın hüzuruna gətirib çıxartdı. Məlik Məmməd öz qardaşları ilə padşah-ilanın torpağında gecələməyə cürət etdiyindən onu cəzalandıraraq əmr etdi ki, yeraltı dünya padşahının qızı Qırxsaçlı Sənəmi ona gətirsin. Məlik Məmməd ədəb-ərkanla ona təzim edib, razılıq verdi və padşah-ilandan yol üçün nə lazım olduğunu xəbər alanda o, qanadlı ilanın məsləhətinə görə ondan yalnız süfrəsini və çubuq istədi. Bu çubuğu süfrəyə vuranda istədiyin yemək-içməklər süfrədə hazır olardı. Padşah-ilan süfrəni Məlik Məmmədə verəndə ona dedi ki, o nə olursa olsun, onun əmrini yerinə yetirməlidir, yoxsa heç nə onu ölümdən qurtara bilməz, harada olursa olsun, ilanlar onu tapıb öldürərlər. Məlik Məmməd yola lazım olan şeyləri alıb Allaha dua edərək baş götürüb getdi.

Az getdi, üz getdi, gəlib axır bir bulağa çatdı ki, oturub dincini alsın və yeyib-içsin. O, süfrəni açdı və çubuqla onu vurdu. Həmin saat padşahlara layiq yemək-içməklər süfrəyə düzüldü. Məlik Məmməd yeyib-içdi, Allaha şükür etdi, yeməyin qalıqlarını isə haradan peyda olunduğu bilinməyən bir şirə verdi. Məlik Məmməd yoluna davam etmək istəyəndə şir adam kimi dil açıb dedi:

– Şahzadə, ayaq saxla, tükümdən götür, sənə lazım olsam, oda tutub yandır, o dəqiqə yanında olaram.

Şahzadə onun sözünə əməl edib tükündən bir dəstə götürdü yoluna davam etdi. Ertəsi gün Məlik Məmməd yenə süfrəni açdı, çubuqla onu vurdu, oturub yeyib-içməyə başladı. Yeyib-içməyi qurtarandan sonra Allaha şükür edib, yeməyin qalıqlarını burada peyda olmuş qarışqalara tökdü. Şahzadə getməyə hazırlaşanda bir qarışqa dil açıb ona dedi:

– Şahzadə, ayaq saxla, bizlərdən birinin ayağını qopar, ehtiyacın olsa onu oda ver və biz sənin yanına gələrik.

Ertəsi gün o, gündüz vaxtı yemək yeyərkən Zümrüd quşu uçub onun yanına gəldi. Məlik Məmməd yeyib-içdi,

Allaha şükürlər etdi, yeməyin qalıqlarını isə ona verdi. Şahzadə çıxıb getməyə hazırlaşanda birdən Zümrüd quşu adam səsi ilə ona dedi:

– Ey şahzadə, bir ayaq saxla, lələklərimdən birini götür, ehtiyacın olsa, oda ver və mən sənin yanına gələrəm.

Şahzadə onun dediyini edib ondan bir lələk götürdü və yoluna davam etdi.

Məlik Məmməd az getdi, üz getdi, dərə-təpə düz getdi və gəlib yeraltı çarlığa çatır. O, bir qarının evinə gəldi. Sən demə, o, Qırxsaçlı Sənəmin dayəsi imiş. Şahzadə qarını sor-ğu-sual edir və söz arasında ora nə üçün gəldiyini də ona dedi.

Ertəsi gün Məlik Məmməd padşahın hüzuruna gedib gözəl şahzadə qızı istədi. Padşah ona dedi:

– Deyəsən, yaşamaqdan bezmisən.

Padşah bunu deyib Məlik Məmmədi bir qalaya apardı. Burada o, tavandan asılmış doqquz yüz doxsan doqquz adam kəlləsi gördü. Padşah kəllələri göstərib dedi:

– Bax, bütün bunlar qızımı istəyənlərin kəllələridir, əgər sən mənim tapşırıqlarımı yerinə yetirə bilməsən, sənin başınla onların sayı min olacaq.

Şahzadə sözünün üstündə durdu. Padşah ona üç ən çətin tapşırıq verdi ki, yerinə yetirsin, yoxsa boynunu vurduracaq. Şahzadə razı oldu. Padşah ona əmr etdi ki, ertəsi gün onun şiri ilə çarpışmağa hazır olsun.

Məlik Məmməd kefsiz halda qarının evinə gəldi. Birdən öz şiri yadına düşdü, onun tükünü oda tutdu və şir onun yanına gəlib xəbər aldı:

– Nə lazımdır, nə gərəkdir?

Şahzadə dedi:

– Padşahın şiri ilə çarpışmağa hazır ol!

Ertəsi gün padşahın şiri meydanda öz rəqibini gözlə-yərək oynayırdı. Məlik Məmməd gəldi və öz şirini buraxdı.

Məlik Məmmədin şiri o saat padşahın şirini parça-parça etdi. Padşah hirsləndi və yeni tapşırıq verdi. Məlik Məmməd ertəsi gün səhərdən günortayadək şumlanmış sürülmüş tarladan iyirmi beş xalvar[1] səpilmiş darı yığmalı idi.

Məlik Məmməd evə qayıdıb qarışqaları yadına saldı, o saat qarışqa ayağını oda tutub yandırdı və səhər düzlər, çəmənlər qarının evinədək bütün ətraf qarışqalarla örtüldü. Şahzadə qarışqalara əmr etdi ki, günortayadək padşahın tarlasından bir dənəyədək iyirmi beş xalvar darını yığsınlar.

Qarışqalar hərəyə bir dən darıları torpağın altından çıxarmağa və padşahın sarayına daşımağa başladılar. Təyin edilən vaxta darının hamısı yığılmışdı, darını tərəzidə çəkdilər, bir dən çatmırdı, bir axsaq qarışqa bir az keçmiş çatışmayan dəni gətirdi. Bu həmin qarışqa idi ki, şahzadə çəkib onun ayağını çıxartmışdı.

Padşah əvvəlkindən daha çox hirsləndi və axırıncı tapşırığını verdi:

– Ertəsi günə padşahın həyətində havadan tərəzi asılmış olsun.

Məlik Məmməd evə qayıdıb, hal-qəziyyəni qarıya nəql etdi. O, şahzadəyə dedi ki, əgər Qırxsaçlı Sənəmin saçlarından bir hörük əldə edilsə, bunu etmək olar. O, şahzadəyə bu işdə kömək edəcəyini vəd etdi. Şahzadə onda Zümrüd quşunu yadına saldı, o, saat onun lələyini götürüb oda tutub yandırdı və Zümrüd quşu uçub onun yanına gəldi:

– Nə lazımdır, nə gərəkdir?

Məlik Məmməd ona dedi:

– Sabah Qırxsaçlı Sənəmin saçlarından qarının sənə verəcəyi bir hörüyü padşahın bağından aparmağa hazır ol!

Ertəsi gün qarı adəti üzrə padşahın qızının başını yumağa getdi, bu vaxt quş bağa uçub gəldi, yerə qondu. O,

---

1. Xalvar 25 və ya 30 puddur.

qarının cəldliklə kəsdiyi və dimdiyinə verdiyi hörüyü götürüb havaya qalxdı və özü ilə apardı.

Zümrüd quşunun lələklərinin parıltısından gözləri qamaşan və böyük qanadlarının səsindən qulaqları batan şahzadə qız özündən getdi. Qarı bunu görüb özünü yalanda özündən getmiş kimi göstərdi. Padşahın qızını birtəhər özünə gətirdilər və o da öz növbəsində qarını birtəhər özünə gətirdi. Şahzadə qıza baxanda gördülər ki, hörüyünün biri yoxdur, padşah o saat işin nə yerdə olduğunu başa düşdü və doğrudan da, axşama həyətdə havada asılmış tərəzini gördü. Ediləcək bir şey yoxdur, padşah öz sözünü tutdu. Məlik Məmmədə dedi ki, toya hazırlaşsın, özü isə qonaqları məclisə çağırdı. Qırx gün, qırx gecə toy etdilər.

Məlik Məmməd toydan sonra öz nişanlısını götürüb geriyə yollandı. O, az getdi, üz getdi, dərə-təpə düz getdi. Bir dəfə şahzadə bir körpüdən keçməli oldu, körpünün o biri tərəfinə Cansız Kosa bağlanmışdı. O, var qüvvəsi ilə inildəyir və şahzadəyə yalvarırdı ki, onu açıb buraxsın. Məlik Məmmədin ürəyiyumşaq idi. Onun Kosaya yazığı gəldi, baxmayaraq ki, Qırxsaçlı Sənəm onun bütün cinayətlərin bilərək israrla ərini fikrindən daşındırırdı. Məlik Məmməd atından düşdü, Cansız Kosanı açdı və yoluna davam etdi. Şahzadə qızın ürəyinə dammışdı ki, çox keçməz ki, bir hadisə baş verəcək və Məlik Məmmədə tezliklə buradan qaçıb getməyi məsləhət görürdü. Doğrudan da, şahzadə qızın dediyi oldu, Cansız Kosa vaxt itirmədən onları təqib etməyə başladı. Budur, şahzadə qız arxaya dönüb baxır, tozun içində nəsə bir qaraltı görünür. O bildi ki, bu, Cansız Kosadır. Məlik Məmməd və Qırxsaçlı Sənəm var gücləri ilə atlarını çapdılar. O isə get-gedə Məlik Məmmədlə Sənəmə daha da yaxınlaşırdı. Nəhayət, Cansız Kosa şahzadəyə çatıb dəyənək zərbəsi ilə onu atdan yerə saldı, onu ölümcül vəziyyətdə tərk etdi. Şahzadə qızı isə götürdü və atını çapıb getdi.

Bir neçə gün keçdi. Bir dəfə Zümrüd quşu uçarkən yerdə bir meyit gördü və havada dövrələr vuraraq onun yanına endi. Zümrüd quşu onu tanıyıb qanad çaldı, yüksəyə qalxdı və buludlar arasında gözdən itdi. Bir qədər keçmiş o, özü ilə göy çarlığından cənnət suyu gətirdi. Zümrüd quşu gətirdiyi suyu yarımcan şahzadəyə çiləyib onu həyata qaytardı. O, gözlərini açdı və ətrafa baxdı və dedi:

– Mən nə qədər də çox yatmışam!

Zümrüd quşu onu necə tapdığını şahzadəyə nəql etdi və başına gələn hal-qəziyyəni xəbər aldı. Məlik Məmməd hər şeyi yadına saldı və başına gələnləri ona nəql etdi. Zümrüd quşu əhvalatdan xəbərdar olub Cansız Kosanı öldürüb, Qırxsaçlı Sənəmi azad etməyin yolunu Məlik Məmmədə öyrətdi. Zümrüd quşu ona dedi ki, Kosanın ölümü iynənin ucundadır, o iynə isə sərçədədir, o sərçə qəfəsdədir, o qəfəs fildədir, o fil meşədədir. Zümrüd quşu filin hansı meşədə olduğunu və Cansız Kosanın yerini Məlik Məmmədə dedi.

Məlik Məmməd buna çox sevİndi, çünki fili öldürmək və qəfəsi əldə etmək onun üçün heç də çətin deyildi. Məlik Məməd həmən saat qılıncını götürdü və onun axtardığı filin yaşadığı meşəyə getdi. O, filin adətən keçdiyi yerdə gizləndi, fil peyda olan kimi o, pusqudan çıxıb, onun boynuna qılıncla bir zərbə endirdi, filin başı yerə düşdü və öldü. Məlik Məmməd filin qarnını yarıb qəfəsi oradan götürdü, qəfəsin qapısını açıb sərçəni tutdu.

Cansız Kosa bu vaxt həmişə olduğu kimi ovda idi. Şahzadə sərçəni tutan kimi həmin dəqiqə onun başı ağrımağa başladı və tez evinə qayıtdı. Məlik Məmməd sərçəni öldürdü, sərçənin qarnını yarıb iynəni götürdü. Sonra yatadqa xəstə yatan Cansız Kosanın gözü qabağında sehrli iynənin ucunu qopartdı. Cansız Kosa özünü nə qədər ora-bura vursa da, axırda ölməli oldu.

Məlik Məmməd Qırxsaçlı Sənəmi götürüb ilan çarlığına gəldi və onu padşah ilana göstərdi. Padşah-ilan onun görünmə-

miş gözəlliyinə heyran olaraq Sənəmə çox baxdı və baxmaqdan doymadı. Axırda Məlik Məmmədin igidliyini tərif edib dedi:

– Onu özünə götür, mənə lazım deyil, ikiniz də bir-birinizə yaraşırsınız.

Məlik Məmməd şad oldu. Padşah ilana təzim etdi və öz vilayətinə yola düşdü.

Atasının vilayətinə ayaq basanda qarşısına çıxanların hamısının qara libas geyİndiklərini gördü. Çox təəccüblənən şahzadə bunun səbəbini xəbər almağa başladı. Hamı dedi ki, padşah ölən sevimli oğlu üçün yas saxlamağı əmr edib. Məlik Məmməd bunu bilib qarşısına çıxan hər adamı saraya − padşaha onun gəldiyini xəbər verməyə göndərdi. Padşah eşitdiyinə inanmadı, axırda öz əyanları ilə oğlunu qarşılamağa getdi. Ata-oğul görüşüb qucaqlaşdılar, göz yaşı tökdülər.

Çox keçmədən məclis quruldu, axırıncı toyu da etdilər, qırx gün, qırx gecə yedilər, içdilər, şənləndilər.

Şahzadələr öz gənc arvadları ilə yaşayıb muradlarına çatdılar.

***Görüş kənd məktəbinin müəllimi***
***Mkrtiç Sarksyants yazıya aldı.***

## 7. GÜLÇÜ XANIM

Biri var idi, biri yox idi, bir bacı və bir qardaş var idi. Bacının adı Gülçü xanım idi. Subay olan qardaşı öz bacısını çox istəyirdi və onlar rahatca və xoşbəxt yaşayırdılar. Amma çox keçmədən qardaş evləndi və bu vaxtdan onların evi cəhənnəmə çevrildi, qardaşı arvadının baldızdan zəhləsi gedirdi və hər dəfə ərinə deyirdi:

– Onu buradan bir yerə uzaqlaşdır, yoxsa, mən onunla bir yerdə yaşamayacağam.

Ər uzun müddət öz arvadına qulaq asmadı, çünkü sevimli bacısından həmişəlik ayrılmaq ona çox çətin idi. Arvad öz məq-

sədinə çatmaq üçün bir pis niyyətə əl atdı. Gecə vaxtı hamı yatanda o, əlinə bıçaq aldı və beşikdə yatan uşağının başını bədənindən ayırdı, qanlı bıçağı isə yatmaqda olan qızın cibinə qoydu. Səhər hamı yuxudan qalxıb öldürülmüş uşağı gördü. Hamı çaşıb qaldı, axı bu alçaq işi kim edə bilərdi. Hiyləgər qadın dedi:

– Axtaraq, bıçaq kimdə tapılsa, elə həmin adam qatildir!

Hamı razılaşdı. Axtarış aparıldı və qardaş dəhşətə gəldi, bıçaq onun bacısının cibində tapıldı. Gözüyaşlı Gülçü xanım özünə hər nə qədər bəraət qazandırmaq istədisə, bir şey çıxmadı, arvad ərini bu dəfə Gülçü xanımı həyətdən qovmağa məcbur edə bildi.

Qardaş atları arabaya qoşdu və bacını apardı. Arabanı padşahın bağına sürüb bacısını orada buraxdı, özü isə onu görməsinlər deyə tələm-tələsik evinə qayıtdı. Gülçü xanım tək qalıb yavaşca padşahın bağına girdi. Və orada gizləndi. Bu bağda bir alma ağacı var idi və onun üstündə çox gözəl almalar olur. Bağda bir kimsə olmayanda Gülçü xanım gizləndiyi yerdən çıxır, onları dərib yeyirdi. Padşah bir vaxt hiss etməyə başladı ki, almalar hər gün yox olur. Bir müddət keçdi və almalar artıq daha çox yox olmuşdu. O, öz oğlunu çağırdı və ona alma ağacının qarovulunu çəkməyə və oğrunu tutmağı tapşırdı. Şahzadə bu fürsətə çox sevİndi və oğrunu izləyib tutmaq qərarına gəldi. Şahzadə iki gün bir kimsəni görmədi, yalnız üçüncü günü oğrunu tuta bildi. Qız başına gələnləri, padşahın bağına necə gəlib çıxdığını ona nəql etdi. Gülçü xanım dedikcə gözəl idi, şahzadənin çox xoşuna gəldi və taleyindən razı qalıb onu özünə arvadı etdi.

Bir müddətdən sonra Gülçü xanım hamilə qaldı. Günlərin bir günü şahzadə uzaq səfərə çıxmalı oldu. O, yola çıxarkən evdəkilərə əmr etdi ki, əgər oğlu olsa, ona xəbər versinlər. Əri səfərdə olarkən arvadının, doğrudan da, bir oğlu oldu, uşağın qızıl saçları var idi. Padşah çox sevİndi və oğlunu təbrik edərək bir nəfəri məktubla şahzadənin yanına göndərdi.

Padşahın göndərdiyi adam birinci gecə tərs kimi Gülçü xanımın qardaşının evində gecələməli oldu. Onun hiyləgər arvadı qasidin hara və nə üçün getdiyini öyrənib yeni bir fitnə işlədi. Gecə hamı yatanda qasidin cibindən padşahın yazdığı məktubu çıxartdı və onu başqası ilə əvəz etdi. Bu məktubu padşahın adından şahzadəyə yazmışdı: "Oğul, arvadın küçük doğub. Təbrik edirəm".

Səhər qasid şahzadənin arvadının fitnəsindən xəbərsiz yoluna davam etdi. Qasid şahzadənin yanına gəlib hər şeyi sözlə ona çatdırdı, sonra da məktubu verdi. Şahzadə məktubu oxudu və çox təəccübləndi ki, məktubda tamam başqa şey yazılmışdı. O, əvvəlcə çox hirsləndi, istədi ki, atasına yazsın ki, arvadını cəzalandırsın, sonra fikrini dəyişdi, yazdı ki, o, gələnədək nə arvadına, nə küçüyə toxunmasınlar. Qasid geri qayıdanda yenə də Gülçü xanımın qardaşıgildə gecələməli oldu. Gülçü xanımın qardaşı arvadı bu dəfə də məktubu dəyişdirdi və şahzadənin adından yazdı: "Arvadımın doğduğunu onun kürəyinə bağlayın və dərhal onu evdən qovun!"

Ertəsi gün qasid məktubu padşaha verdi. Padşah məktubu oxuyub təəccübləndi: "Gəlin nəyə görə belə gözdən düşüb?!" Nə etməli, uşağı anasının kürəyinə bağladılar və sərbəst buraxdılar.

Yazıq Gülçü xanım Allaha dua edib, baş alıb getdi. Az getdi, üz getdi, dərə-təpə düz getdi, çayı keçib, bir talaya çatdı. Talanın qabağında gözəl bir bina var idi. Gülçü xanım binaya tərəf yollandı, binanın qapıları açıldı və o, oğlu ilə bərabər binaya daxil oldu.

Xeyli vaxt keçdi və çox şey dəyişdi. Bunlar burada qalmaqda olsun, görək şahzadəyə nə oldu? Şahzadə öz vilayətinə qayıtdı və yəqin edəndə ki, arvadı doğrudan da, qızılısaçlı oğlan doğub çox kədərləndi. Şahzadə bununla sakit olmadı, o, nəyin bahasına olursa olsun, öz arvadını və oğlunu tapmaq qərarına gəldi. O, dəmir çarıqlar geyinib, təğyir-libas

olub dərviş libası geyİndi və baş götürüb getdi. O, az getdi, üz getdi, dərə-təpə düz getdi, yolda dərviş libasında bir adama rast gəldi. Bu Gülçü xanımın qardaşı idi. Şahzadə salamlaşıb ondan hara getdiyini xəbər aldı. Yoldan keçən ona dedi:

– Öz bacımı axtarıb tapmaq üçün dünyanı gəzib dolaşıram.

Şahzadə ona dedi:

– İndi ki belədir, gəl bir yerdə gedək, mən də arvadımla oğlumu axtarıram.

Onlar dostlaşıb bir yerdə gəzib dolaşmağa başladılar. Onlar dağlardan, çöllərdən, meşələrdən keçdilər, məqsədlərinə çatmadılar. Şahzadənin dəmir çarıqları uzun səyahətdən artıq deşildi, onlar, nəhayət, gözəl sarayın qapısına tərəf yönəldilər və onlardan biri qapını döydü. Qızılısaçlı bir oğlan, şahzadənin oğlu qapını açdı. Gülçü xanım bu vaxt qapıya çıxdı, o, qəribləri görüb, ərini və qardaşını tanıdı, onları öz evinə apardı. Bir müddət hamı susdu. Şahzadə ev sahibəsindən kim olduğunu, haradan olduğunu xəbər aldı. Gülçü xanım elə bunu gözləyirdi ki, özünü onlara tanıtsın. O, başına gələnləri nəql etdi. Qəriblər çox keçmədən onu tanıdılar, durub onu qucaqladılar, sonra şahzadə qızılısaçlı oğlunu da qucaqladı və heyrət içində öz yol yoldaşının kim olduğun da öyrəndi. Üç gündən sonra onlar tələsik yığışıb evlərinə qayıtdılar.

Şahzadə öz arvadı və oğlu ilə yaşayıb dövran sürməyə başladı, bütün bu bədbəxtliklərin günahkarı − Gülçü xanımın qardaşı arvadını padşahın əmrinə görə vəhşi atların quyruğuna bağlayıb sərbəst buraxdılar, atlar onu dağda-daşda sürükləyib parça-parça etdilər.

***Mkrtic Sarksyants yazdı.***

## 17-ci buraxılış, 1893-cü il

## M.ƏFƏNDİYEV, 2-ci BAKI ŞƏHƏR RUS-TATAR MƏKTƏBİNİN MÜƏLLİMİ

# ŞAMAXI QƏZASI TATARLARININ İNANCLARINDAN

### I
### Göy Günəş və Ay. Ulduzların düşməsi (axması). Cənnət ağacı. Göy qurşağı Günəşin və Ayın tutulması. İldırım və yağış

Şamaxı qəzasının göy haqqında belə bir-birinin üzərində yerləşən mövcud olan yeddi göydən hər biri hər hansı bir belə bir təsəvvür vardır bir-birinin üzərində qübbə şəklində yerləşən mövcud yeddi göydən hər biri gümüş, qızıl, yaqut, almaz və s. kimi qiymətli daş və metaldan ibarətdir. Yerin və göyün sərhədlərini qərbdə arxasında suyun onun da arxasında Qaf dağının, Qaf dağının da arxasında isə əfsanəvi Simurq quşunun yaşadığı başlandığı üfüq təşkil edir. Günəş batanda Qaf dağının arxasında gizlənir və onun ətrafında dövrə vurub səhər yenidən şərqdə görünür, eyni şeyi Ay haqqında da deyirlər.

Göy ilə yer arasındakı məsafə haqqında adı çəkilən qəza sakinlərində demək olar (təqribən) heç bir təsəvvür yoxdur, lakin onların arasında geniş yayılmış bir tapmaca bu məsələ haqqında müəyyən təsəvvür yaradır. Bu tapmaca aşağıdakı məzmundadır:

Min minarə
Dibi qarə
Yüz min çiçək
Bir yapraq.

**Cavabı (budur):** *min minarə – göy* deməkdir və bu göyün yerdən necə uzaq olduğunu göstərir, *dibi qarə – yeri*, *yüz min çiçək – ulduzları*, *bir yarpaq* isə *ayı* göstərir.

Yağış və ya qar yağmamışdan qabaq göy açılır, yağıb qurtardıqdan sonra isə bu məqsəd üçün təyin edilmiş qapıcı – mələk tərəfindən göy yenidən bağlanır.

Günəş və Ay canlı əşyalardırlar (cisimlərdirlər) Ay kişidir, Günəş isə qadındır. Xalq arasında belə bir əfsanə vardır ki, bir dəfə ay və Günəş kimin isə gecə çıxması haqqında mübahisə etdilər. Ay Günəşə dedi: “Sən qadın olduğun üçün, sənə gündüz görünmək ayıbdır, çünkü kişilər səni görərlər”. Günəş buna belə cavab verdi: “Heç kim mənə baxmaq iqtidarında olmayacaq, çünkü mənim iynələrim vardır, mənə baxanın gözlərini çıxardaram”. O vaxtdan Günəş gündüz çıxır və ona baxmaq çətİndir. Ayın üzündəki ləkələrin olması bu şəkildə izah edilir: Bir dəfə Ayın anası xamır yoğururmuş, bu vaxt Ay anasının məzəmmətlərinə baxmayaraq dəcəllik edir, ona umanc olurdu. Onun hirslənmiş anası bir parça xamırı Ayın bu vaxtadək üzündən yuya bilmədiyi xamırı onun üzünə tulladı.

Ulduzun axması haqqında xalq arasında belə bir inanc vardır ki, Mələklər şeytanların bir-birinin çiyninə qalxaraq göyə yaxınlaşdıqlarını və onların söhbətlərinə qulaq asmaq istədiklərin sezdikdə bundan acıqlanaraq əllərinə birinci düşən ulduzu götürür və şeytanlara atırlar və onların hər tərəfə qaçıb həlak olur. Başqa bir inanca görə isə göydə hər bir insanın həyat ulduzu adlanan bir ulduzu vardır, insan öldükdə, onun ulduzu da ölür yerə düşür.

Bundan əlavə nəql edirlər ki, cənnət də hər yarpağı hər hansı bir insana mənsub olan bir ağac vardır, bir adam öləndə həmən adamın yarpağı ağacdan düşür, bu vaxt ağacdan düşən yarpaq bəzən yad (başqa) yarpaqlara da toxunur, bu vaxt həmin yarpaqların yer üzündəki sahibləri qulaqlarında cingilti səsi eşidirlər, belə olduqda onlar məlum duaları oxumalıdırlar.

Göy qurşağı gələcək yaxşı məhsulların nişanəsidir. Hansı ildə ki, göy qurşağı tez-tez görünür bu o deməkdir ki,

həmən il yaxşı məhsul olacaq. Göy qurşağı görünəndə onun rəngləri ilə cicimin rəngləri arasında oxşayış olduqda xalq deyir: “qarı nənə işi uzatdı” yəni qoca nənə toxunmasını uzatdı. Sud Yolu şimaldan cənuba uzandığından o, xalq arasında Məkkə yolu adlanır çünki dindarlar şimaldan cənuba isti qamətində buradan Məkkəyə gedirlər.

Günəşin və Ayın tutulması və müxtəlif kometaların (quyruqlu ulduzların) görünməsi yaxınlaşmaqda olan bədbəxtliyin əlamətidir, belə ki, onlar iki böyük dövlət arasındakı ola biləcək müharibədən qabaqcadan xəbər verirlər. Bununla bərabər deyirlər ki, görünür yer üzündə insanlar çoxlu günah işlər günah işlər görmüş və bununla da Allahı acıqlandırmışlar. Tutulma başlayan kimi sakinlər öz evlərinin damlarına çıxır, tüfənglərdən atır, taxta ilə mis tavaları vurur və ümumiyyətlə səs-küy qaldırırlar. Tutulma qurtardıqdan sonra isə belə hadisələr üçün irəlicədən təyin edilmiş duaları oxuyaraq Allaha ibadət edirlər.

Göy ona görə guruldayır, mələk Cəbrail göydə özünün “Rəf-rəf” atının belində çapır, ildırım isə onun qamçı vurmasından əmələ gəlir.

Tufan ilk başlayan vaxt yağan yağış suya suyu müalicəvi hesab edilir. Tufan vaxtı balıqqulağılar ağızlarını açır və onlara düşən yağış suyunun damcıları sonra mirvarilərə çevrilirlər.

Yağışın mənşəi haqqında aşağıdakı inanc vardır ki, buludlar göydən dənizə enir, süngər kimi suyu özlərinə hopdurur, yenidən göyə qalxır və yağış şəklində yerə boşalırlar.

Ümumiyyətlə, xalq təbiətin bütün hadisələrini Allahın qüdrəti ilə izah edir.

## II
## Qulyabanı Suadam Damdabaca ilə görüşlər haqqında hekayət

Şeytan xalq inancına görə qulyabanı uca boyludur və onun bütün bədəni uzun tüklərlə örtülüdür. Bütün qulyabanılar at

belində getməyi çox sevirlər. Onlar çöllərdə otlayan atlar minir və bədbəxt atlar əldən düşüncəyə qədər çapırlar. Atların sahibləri qulyabanını tutmaq və onu cəzalandırmaq üçün atların belinə qətran sürtür və onları çölə buraxırlar. Qulyabanı heç bir şeydən şübhələnməyərək atın belinə yapışır və o nə qədər çalışsa da, azad ola bilmir. Beləliklə, atın sahibi qulyabanını tutur və onu cəzalandırır, döyür qulaqlarından dartır və s.

Qulyabanın bədəninə iynə sancılması bu onun üçün ən böyük cəza sayılır, çünki o, bu iynəni təkbaşına öz bədənindən nədənsə, çıxarda bilmir. Qulyabanı onun bədəninə iynə sancan kəsin itaətkar qulu olur. Qulyabanı qul olmaqdan qurtulmaq üçün öz sahibindən gizlin hər hansı bir oğlan və qızdan alma verəcəyini vəd edib iynəni bədənindən çıxartamağı xahiş edir. İynə bədəndən çıxarılan kimi o, anında gözdən itir.

Qulyabanılardan başqa Suadam deyilən məxluq da vardır. Hər ikisinin arvad və uşaqları vardır. Suadamlar beldən yuxarı insanlara, beldən aşağı isə balığa bənzəyirlər.

Altıncı və üçüncü günlər gec gecə vaxtı çimmək olmaz, çünki bu vaxt Suadamları qorxuda bilərlər.

Damdabacalar bütün həyətlərdə yaşayınca lakin onlar böyük sayda köhnə evlərin, məscidlərin dəyirmanların xarabalıqlarında yaşayırlar.

Axşamdan keçmiş həyətə isti su tökmək olmaz, çünki təsadüfən, damdabacaların uşaqlarını yandırmaq olar, belə olarsa, onlar bunun qarşılığında intiqam almağa başlarlar.

Adı çəkilən qəza sakinləri bu xurafatla bağlı çoxlu hekayətlər bilirlər, onlardan bir neçəsini misal olaraq gətirim.

Hal-hazırda Şamaxı şəhərində yaşayan bir kəndli nəql edirdi ki, o, bir dəfə geç gecə vaxtı öz kəndində çıxmış və Şamaxıya yollanmışdı. Yolun yarısında bir dəya yollanmışdı. Yolun yarısında bir dəyirman varmış. Gecə çox qaranlıq və o, yolu azacağından qorxaraq gecənin yarısını bu dəyirmanda keçirmək

qərarına gəldi. O, dəyirmanda elə yenicə yerləşmişdi ki, ona tanış olmayan onlarla adam bir-birinin ardınca ora daxil oldular, zurna çalmağa yıxılanadək rəqs etməyə, əylənməyə və müxtəlif meyvələr yeməyə başladılar. Onlar bizim söyləyicinidə incitmədilər, onu meyvələrə qonaq etdilər. Bir qədər vaxt keçdikdən sonra söyləyicinin sözlərinə görə onun şəxsən özünün insan cildinə girmiş pişiyi dəyirmana girdi, başqaları ilə birlikdə ustalıqla rəqs etməyə başladı. Səhərə yaxın onların hamısı ondan gizlin gözdən itdilər (yox olub getdilər). Gecə şahidi olduğu səhnədən dəhşətə gəlmiş söyləyici Şamaxıya getməkdən vaz keçdi və öz kəndinə qayıtmaq qərarına gəldi. O, öz evinı gələndə, yemək yeməyə oturdu, bu vaxt onun pişiyi də adəti üzrə onun yanında oturdu. O, pişiyi görüb çığırdı: "Ay səni lənətə gəlmiş pişik, köhnə dəyirmanda nə edirdi?" O, çığırırkən pişik elə həmən an yox olub getdi və bir daha onun yanına qayıtmadı.

Başqa bənzər hadisə bir Şamaxılının başına gəlmişdi. Bir dəfə o, ovda yubandı, geri qayıdanda güclü yağış yolda onu yaxaladı və o, bilmədi ki, hara getsin. Bu vaxt o, Şamaxı qəbiristanlığının yanından keçirdi, birdən o, hansısa günbəzdən gələn zurna səsini eşitdi. O, ötüb getmək istədi, lakin onun qarşısına tanış adamlar hətta yoldaşlarından bəziləri çıxdılar və ondan xahiş etməyə başladılar ki, onların yanına günbəzə gəlsin. Bizim söyləyici onların xahişinə görə günbəzə girdi və qarşısında açılan mənzərədən dəhşətə gəldi. Siz nə üçün belə bir gecə vaxtı bura yığışmışsınız? deyə o, öz yalançı yoldaşlarından xəbərdardı. Onlar cavab verdilər ki, onlar günorta bağa əylənmək üçün zurna ilə gəlmişlər, lakin güclü yağış yağdı və onlar günbəzdə gizlənməyə məcbur oldular. Qonağı əyləndirmək üçün onlardan biri o vaxtlar məşhur olan müğənni Qədimi dəvət etməyə getdi. Bir qədər vaxtdan sonra aşıq Qədimin yerinə söyləyiciyə mənsub olan qara pişik günbəzə girdi, o dal ayaqları üstə qalxdı və həmən an aşıq Qədimə çevrildi və oxu-

mağa başaldı. Bu yerdə söyləyici dərk etdi ki, onun yanında fövqəada nə isə baş verir. Səhərə yaxın onlar hamısı söyləyicidən gizlin yox olub getdilər. O evə dönüb özünün qara pişiyini gördü və ona dedi:" – Ay pişik sən gecə günbəzdə aşıq Qədimin rolunu oynayırdın!" Söyləyici hələ bu sözünü qurtarmamış pişik gözdən itdi və bir daha onun yanına qayıtmadı.

Xalq arasında belə hekayətlər son dərəcə tez-tez rast gəlinir.

Dünyanın yaranması insanaların və müxtəlif xalqların mənşəi, insaların öz aralarında hansı dildə danışmaları və s. haqqında xalqın yalnız dinə əsaslanan baxışları vardır.

Şeytan və ya İblis bəşəriyyətin barışmaz düşmənidir, o hər yerdə və hər tərəfdə insanı təqib edir, ona zərər vurmağa çalışır və onu haqq yolundan çıxardır. Şeytanlar bir dizin o birisi ilə sadəcə sürtünməsindən çoxalırlar, onlar hər dəfə bir an içində torpaqdan böyüyən kimi böyüyürlər. Şeytanlar hər yerdə yaşayırlar və hər tərəfdə görünürlər. Bir kimsə xeyir iş görmək niyyətində olduğunda şeytan həmən onun yanına gəlir və var qüvvəsi ilə onu bundan daşındırmağa çalışır.

## III
## Ovsunçuluq. Cadugərlik və fala baxmaq bədnəzər. Türkaçarəçilik. Xalq təbabətindən bəzi şeylər

Təsvir edilən ərazidə başlıca olaraq bu bacarığı irsən əldə etməyib Allah vergisi olaraq sonradan alırlar. Onlar başlıca olaraq insanın gələcəyinin necə olacağını qabaqcadan xəbər verməklə məşğul olurlar.

Cadugərliklə (ovsunluqla) və fala baxmaq ilə çox nadir hallarda qaraçı qadınlar, hərdən bir isə mollalar məşğul olurlar.

Fala baxmağın bir çox üsulları vardır, lakin ən yayılmış lobyanın dənələri ilə fala baxmaqdır (bu üsulu təqribən bütün qadınlar bilir), peşəkar falçı qadınlar isə qoyun kürəyi, kiçik

güzgü və ya hər hansı bir qabdakı su vasitəsi ilə gələcəkdən irəlicədən xəbər verirdilər. Fala baxmanın (açmanın) bu növlərindən başqa kitablarla fala baxma da vardır.

Öz taleini öyrənmək bilmək istəyən şəxs falçı qadına bir neçə qəpik verir, çünki bunlarsız qabaqcadan demə sanki düz olmayacaqdır. Falçı qadın pulları alıb və cibindən qoyun kürəyini və ya kiçik güzgünü çıxardıb hər şeydən əvvəl ziyarətçinin özünün və valideynlərinin adlarını xəbər alır, sanki bunlarsız fala baxma mümkün deyildir. Bundan sonra o, müştərinin gözlərinə, sonra isə kiçik güzgüyə diqqətlə baxıb gələcəkdən xəbər verməyə başlayır. O, ustalıqla ziyarətçinin həm yaşına, həm də cinsinə uyğunlaşır. Əgər öz gələcəyini öyrənmək istəyənlər gənc adamlardırlarsa, onda o, onların gələcəyini xoş rənglərlə təsvir edir və başlıca olaraq məhəbbətdən danışır, əgər onlar yaşlı adamlardırlarsa, onda onlara maddi vəd edir. Bəd nəzərdən əmələ gələn bəla cadugərliyin təzahürlərindən biri sayılır. Xalq inanır ki, bir çox ailələr vardır ki, onlarda bəd nəzər irsən valideynlərdən uşaqlarına keçir. Bəd nəzərin zərərli təsirindən qorunmaq üçün demək olar ki, təqribən hamı üzərində həmayıl, tilsim şəklində əsgilərə tikilmiş nə isə yazılar daşıyır, onları hətta ev heyvanlarının boynuna da taxırlar.

Xalqın düşüncəsinə görə yalnız insanlar deyil, hətta cansız əşyaları da gözə gətirmək olar. Hər hansı bir şeyin xəstəliyi və korlanması..... bəd nəzəri olan insanın həmən əşyanı təriflənməsindən sonra baş verir. Bu kimi zərərli qabiliyyətə həm kişilər, həm də qadınlar sahib ola bilərlər. Halbuki, bu qabiliyyətin dərəcəsi müxtəlif adamlarda müxtəlif ola bilər. Elə gözlər var ki,anında xətər yetirirlər, elələri də var ki, yavaş təsir göstərir. Pis gözü olan şəxs kiminsə evini ziyarət etdiyində, ev sahibi öz uşaqlarını onun pis gözündən qurtarmaq üçün onun başmağının altından bir qədər torpaq götürür, onu suda həll edir o torpağı uşaqlarının bədənlərinin bəzi yerlərinə sürtür.

Gözəl-göyçək uşağa göz dəyməsin deyə valideyinləri ailə üzvlərinin paltarından bir parça kəsirlər, bu parçaları bir ovuc duzla uşağın başının ətrafında dolandırırlar və sonra onları ocağa atırlar.

Kişi ara həkimləri və qadın ara həkimləri cadugər və falabaxanlardan onunla fərqlənirlər ki, birincilər ikincilərdən fərqli olaraq sadə xalqın daha böyük dərəcədə etimadına sahibdirlər. Məsələn, əgər bir qadın doğmursa və ya kimsı epilepsiya xəstəliyinə yuxusuzluğa mübtəla (tutulmuşsa), və ya kiminsə gözünə o saat ara həkiminə müraciət edirlər, o, onları həm müxtəlif bitki mənşəli dərmanlarla, həm də dualarla müalicə edir. Axırıncılar onun tərəfindən kağız parçalarına yazılır və xəstələrə verilir, onlar da ara həkiminin göstərişinə görə onları öz paltarına tikirlər.

1891-ci ilin yayında hansısa ətraf kəndindən Şamaxıya bir məşhur qadın ara həkimi gəlmişdi. Müxtəlif səbəblərdən uşaqları olmayan qadınlar kömək üçün ona müraciət etməyə başladılar. Ziyarətçi qadınlar ona hər şeydən əvvəl beşqəpiklik sikkə verirdilər, çünki onsuz ruhlar qadın ara həkiminin özünə heç bir şey xəbər vermirlər. Qadın ara həkimi aldığı sikkəni yastığın altına qoyub yatmağa uzanırdı və onun sözlərinə görə ona yuxuda ziyarətçi qadının arzusunun yerinə yetirəcəyi və yetməyəcəyinin xəbərini verirdilər.

Qadın ara həkimləri çox vaxt onlara müarciət edənlərdən qara toyuq tələb edirlər ki, toyuğun qanı ilə onun sümüklərinin üstünə gərəkən duanı yazsınlar, əgər adam varlı isə, onda qoyun kürəyi tələb edirlər, lakin eləsini ki, ona qəssab bıçağı toxunmamış ola, başqa sözlə ona bütöv bir qoyun gətirməlidirlər ki, o, onun kürəyində dualar yazsın.

Ciddi xəstəliklər vaxtında ara həkimlərinə müraciət edirlər. Ara həkimləri diş ağrısına qarşı bunu məsləhət görürlər: ağrıyan dişin oyuğuna həşiş və ya üzüm müvafiq hissə-

sinə həşiş zəfəran və qara toyuğun yağından olan qarışıq sürtmək, hərçənd onlar bu xəstəliyi hansısa ieroqliflər qara toyuğun yumurtası üzərində yazılmış dua ilə müalicə edirlər.

Lakin buna baxmayaraq xalq təbabəti başlıca olaraq uğurla hər cür yara, çıxıq və sümük sınıxlarını müalicə edən ev, ara cərrah və sınıqçılarının əllərində toplanmışdır.

Daxili xəstəliklərdə təqribən həmişə sol dirsəkdəki venadan qan buraxırlar. Dişlər ağrıyanda dodaqlardan boyundan və ya dilin altından qan buraxırlar. Revmatizmləri, hər cür şişləri və dəri üstü xəstəlikləri zəlilər vasitəsi ilə müalicə edirlər.

Göz xəstəliklərini qadın cinsindən olan uşaq əmizdirən qadının südü ilə və ya yumurta sarısı ilə müalicə edirlər, hər gün xəstənin gözlərini südlə yuyur və həmən süddə isladılmış az pambığı gözlərin üstünə qoyurlar.

## IV
## Xalq əyləncələri: xoruz döyüşləri və itlərin dalaşması

Bakı quberniyası Göyçay qəzası Lahıc kəndi əhallisinin bəzi milli əyləncələrini, həmçinin onların "Ramazan Bayramını" keçirməsini təsvir edim.

Xoruz və itlərin döyüşü lahıcları milli əyləncəsidir. Təqribən hər bir varlı evdə iplə bağlanmış "ları" cinsindən olan xoruz görmək olar. Bu xoruzlar çox güclü olur və onları satın almaq üçün böyük məbləğlər ödəyirlər, onlar son dərəcə səylə bəsləyirlər, onlara yeməyə yalnız buğda və quyruq yağı verirlər, bilicilərin rəyinə görə arpadan xoruzun sinəsi korlanır.

Xoruz döyüşləri adətən beşinci günlər bütün əhali işlərdən azad olduqları vaxt təşkil edilir. Bu məqsədlə hər mahir döyüşçü nüfuzu olan xoruz gətirirlər adətən heç vaxt uduzmamış ki, belə xoruz döyüşür. Bu döyüş maraqlananlardan

ibarət böyük kütlənin toplandığı son dərəcə maraqlı eyni zamanda da dəhşətli tamaşa təşkil etməkdədir.

Tamaşaçılar yığıldıqda (toplandıqda) cəm olduqda xoruzların sahibləri döyüşçüləri səhnəyə buraxırlar. Xoruzlar azğınlıqla bir-birinin üstünə atılırlar, çox vaxt onlardan biri öz rəqibinin pipiyini və ya dilini yeyir, döyüş bəzən bir saatdan artıq çəkir, zərbədən sonra üçüncü zərbə gəlir, döyüş vuruşanlardan birinin geri çəkilməsinə qədər davam edir. Belə olduqda qalibi uca tərif qışqırıqları ilə salamlayırlar.

Lakin bəzən belə də olur gözləri qandan tutulmuş rəqiblər elə bir qeyzə gəlirlər ki, geri çəkilmək haqqında düşünmürlər onda hər ikisi yerə ölü düşür.

Xoruzların döyüşü totalizatorlarsız ötüşmür ara pula bəzən 10 rubla çatır.

İtlərin döyüşü daha dəhşətli mənzərə təşkil etməkdədir. Hər varlı lahıclının son dərəcə yaxşı yedirdikləri bir, iki, bəzən isə üç bahalı itləri olur. Bu itləri evi gözləmək üçün saxlayırlar, lakin bəzən onların sahibləri onların bir-birlərini necə gəmirdiyinə tamaşa edirlər.

İtlər döyüşməsi imkan olduqca uzun sürsün deyə onlar bir iplə bağlayırlar.

## 18-ci buraxılış, 1894-cü il

## KALAŞEV A. VARDAVAR
## (Yelizavetpol quberniyası Çaykənd kəndi)

Məqalənin müəllifi müxtəlif qaynaqlara dayanaraq "Vardavar" sözünün qızılgül parıltısı mənasına gəldiyini yazaraq ermənilər tərəfindən eyni adlı bayram hər ilin avqust ayının 6-da yunan allahı Afroditanın şərəfinə təşkil etdiklərini yazır. Yunan mifologiyasına Afrodita köpüklü dəniz dalğalarından yaranmış qızdır və o, gözəlliyinə görə güllərin şahı adlanır.

Müəllif ulu bayramın Nuxanın bəzi kəndlərdə və xüsusən də Çaykənddə geniş qeyd edildiyini yazır.

Nuxada qız və oğlanlar adətən bayramdan bir gün əvvəl ayrı-ayrı dəstələr şəklində düzlərə çıxıb gül yığır və kiçik gül dəstələri bağlayırdılar. Ertəsi gün səhər isə ev-ev gəzir və "gülüm" mahnılar oxuyur və ev xanımları gül dəstələri verib əvəzində onlar yumurta, yağ, meyvə və s. kimi qida məhsulları alırdılar.

Çaykəndə də qız və oğlanlar şənbə günü Vardavar bayramı ərəfəsində gül yığır və hamı üçün bir dənə gül dəstəsi bağlayırlar. Həmin gün qız və oğlanlar ayrı-ayrı dəstələr şəklində oturub nəğmələr oxuyur və bir-biriləri ilə yarışırlar, şeirləşirlər. Bu nəğmələrin böyük hissəsi ifaçılar tərəfindən adətən döşdən oxunur, tez-tez tatar dilində də nəğmələr oxunur şeirlər adətən, dörd misralı olub reçitativlə söylənir, nəqarətlər darıxdırıcı və son dərəcə monotondur.

Hər şeirdən sonra aşağıdakı nəqarətlərdən biri oxunur:

1. Can, gülüm, can, can!
   Özün Şirvannı, sultanın qızı ( 2 dəfə)
   Yerin çiçəgi, gögün ulduzu.

Gənclər tatar dilində oxumağa başlayırlar.

1. Vırtıvorı gələcəkdi,
   Can, gülüm, can, can!

Süfrəni salacaqdı,
Can, gülüm,can, can!
Hər kəsin yarı yoxtı,
Bəyənib alacaqdı.

Qızlar cavab verirlər:

2. Çaradaxta otımanam,
   Yaman söz götimənəm,
   İlan vırsa,…………………
   Sənnən əl qoymanam
3. Gənclər:
   Arannan gəldim yalqız,
   Qolun boynımnan sal, qız!
   Hamı cüt-cüt yatallar,
   Mən necə yatım yalqız?
4. Qızlar:
   Arxalığın iki qat,
   Birin saxla, birin sat.
   Əgər mənim yarımsan,
   Gecə gəl, qoynımda yat.
5. Gəncləri bulağın başı mənəm,
   İçində daşı mənəm.
   A sova gələn tər qızlar.
   Gecə yoldaşın mənəm.
6. Qızlar:
   Otırıbsan daş üstə.
   Qələm qaşım qaş üstə.
   Sən havaxt göz eylədin,
   Mən demədim: "baş üstə"

**KALAŞEV A. YAKIMOV A.**

# TATAR MƏTNLƏRI
## (Nuxa səhər sakini Abdulla Əfəndiyevin dilindən yazıya alınmışdır).

## I
## BEŞİK NƏĞMƏLƏRİ

1. Layla, balam, layla!
O küş-küş, balam, layla!
Layla diyim, yatasan,
Qızılgülə batasan.
Qızılgül mən oleydim,
Kölgəmdə sən yatasan.

2. Laylası var aşı-daşı,
Məməsi var-mərmər daşı.
Körpə balam-cənnət quşu
Anası-qarabaşı, atası-çollər quşu.
Layla, balam, layla!

3. Balam kiçihdi-qoy böyük olsun.
Dört yanını güllər bürüsün.
Layla diyim, sən yatasan,
Qızılgüllərə batasan.
Layla, balam, layla!

4. Layla diyim yatasan,
Qızılgüllərə batasan.
Qızılgüllər mənim olsun,
Kölgəsində yatasan.
Layla, balam, layla!

5. Sən yatasan beşiində,
Mən oturum keşiində,
Qul-qarabaş eşiində.
Layla, balam, layla.

6. Sənə qurban ellərdən
Küləklərdən, yellərdən.
Allah balamı sağ iləsin,
Ağır aylardan, illərdən.
Layla, balam, layla.

7. Sənə qurban bircə mən!
Bir sən söylə, bir də mən.
Kölə qurban bir olsa,
Sənə qurban bir də mən.
Layla, balam, layla!

## AĞILAR

1. Dağlarda qar səsi var,
Yağıbtı girvəsi var.
Burda bir cavan ölüptü.
Ellərinən yası var.

2. Qoy bunu qardaş ağlasın ,
Qam-qardaş ağlasın.
Burda bir cavan ölüptü.
Tamam dağ-daş ağlasın.

3. Yeri, yeri, şanə yeri
Zülfləri şanə yeri .
Yüz min aləm yığılsa,
Verməz bir ana yeri.

4. Hərifi kəmər-ağlar,
Ana diipti "göyərçin"
Tapta qonar-ağlar.

5. Əzizim çay keçəndə,
Sən də gəl, çay keçəndə.
Mən də səni qarğaranı,
Günün affay keçəndə.

Bütün Zaqafqaziya tatarlarının adətinə görə ailə üzvlərinin birinin ölümündən sonra mərhumun dəfnində 10-15 gün ərzində onun bütün qohumları, qonşuları və ya tanışları yığılır və ölən adam üçün ağlayırlar. Göstərilən (gətirilən) nəğmələr burada iştirak edənlərdən yalnız biri tərəfindən ifa olunur, qadınların digərləri isə uca səslə hönkürtü və oxşamalarla onu müşayiət edirlər.

6. Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında,
Qurumaz göl bilirdim.

7. Xoş gəldin qonağımız,
Sizə qurban canımız.
Bizdən əhval sorışsan,
Budur əhvalımız

8. Əzizim gəldim sizə,
Qərib dimiyin bizə.
Qəribin bir canı var
O da qurbandır sizə

9. Bostanda tağım ağlar,
Basma-yarpağım ağlar.
Nə qədər sağam ağlaram,
Ölləm torpağım ağlar.

10.Gəl, gedax baş bulağa,
Su yeriyər xoş bulağa.
Bir sən di, bir mən,
Tökək qan yaş bulağa.

11. Bişirim, aşım, səni!
Töküm, qan yaşım səni!
Götürüm hara gedim,
Balalı basım səni?

12. Əzizim qaralıptı,
Yağıptı-qaralıptı
Bacadan bir daş düşdü,
Ocağım qaralıptı.

13.Mən səni hardan alım?
Giləni nardan alım.
Qocalar gətirməz, bəzirganlar satmaz.
Mən səni hardan alım?

14.Köhnəgin abı dögil,
Giimsən-abı dögil,
Sənin o cavan canın,
Qara yerin babı dögil.

## UŞAQ NƏĞMƏLƏRİ

**A. (Adətən onu qocalar və ya qarılar kiçik uşaqları əyləndirmək üçün oxuyurlar)**

Bir qarı getdi buz üstə.
Tarappadan dəgdi buz üstə,
Dedi: “A buz, sən nə bərksən!”
Dedi: “Mən bərk olsam, məni gün əritməz”.
Dedi: “A gün, sən nə bərksən!”
Dedi : “Mən bərk olsam, üzümü bulut tutmaz”.

Dedi: “A bulut, sən nə bərksən!”
Dedi: “Mən bərk olsam,mənnən yağış keçməz”
Dedi: “A ot, sən nə bərksən”!
Dedi: “Mən bərk olsam məni qoyun yeməz”!
Dedi: “A qoyun, sən nə bərksən”!
Dedi: “ Mən bərk olsam, mənnən yağ olmaz”
Dedi: “A yağ, sən nə bərksən!”
Dedi: “Mən bərk olsam, məni siçan yeməz”
Dedi: “A siçan, sən nə bərksən!”
Dedi: “Mən bərk olsam, məni pişik yeməz”
Dedi: “A pişik , sən nə bərksən!”
Dedi: “Mən bərkəm-duraram,
Bığlarımı buraram.
Yük üstə yaylağım var,
Təndir üstə qışlağım var”.

***Bax:«Народное обучение у Закавказских татар». А.Захарова, Сбор. матер. для опис. мест.***

**B. (Qızlar oxuyurlar)**

Əlimi biçax kəsipti.
Dəstə bıçax kəsibdi
Yağ gətirün yağlıyax,
Bal gətirün –ballıyax.
Dəsmal gətirin dəsmallayax
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar;
O gülün birsin üzeydim,
Tellərimə düzeydim.
Qardaşımın toyunda,
Otırıp, dərıp suzeydim.

**Günəşi dəvət**[1]

Dedu-qodu dursana!
Çömçəni doldursana!
Qodunu yola salsana!
Allah! Allah! (xorla).
Qadı palçığa batmıştı
Qarmaladım çıxarttım,
Qızıl qaya dibindən
Bir qırmızı gün çıxarttım.
Allah ! Allah! (xorla).
Qaratoyuq qanadı
Kim vurdu, kim sanadı?
Eşiq-eşiq gəzəndə
Baldırımı it daladı.
Allah! Allah! (xorla)
Dağda dana bəyirdi,
Yengə ona yüyürdü.
Yengə ona çatıncan,
Gəlin bir oğlan qayırdı.
Allah! Allah! (xorla)
Verənin oğlu olsun ,
Verməyənin qızı olsun,
Adı Fatma olsun ,
Qaşları çatma olsun,
O, da çatlasın, ölsün
Allah ! Allah! (xorla).

---

1 Bax"Günəşə dəvət", SMOMPK, IX bur,səh.128

## TAPMACALAR (TAPPACALAR)

1. İki qardaş qaçır, ikisi də qovur, qiyamətə kimi qovsalar, çata bilməzlər. ***(Arabanın dörd təkəri)***

2. Bizim öydə iki gəlin var, ikisi də bir boyda .***(Qapılar)***

3. Bizim evdə bir kişi, üç dişi var. ***(Üç ayaq)***

4. Burdan vur at qılıncı Dəhnədə (Nuxa uyezdində kənd) oynar ucu. ***(İldırım)***

5. Bizim eşiyə bir ağac yıxılıp nə burnu, nə dudağı. Bir quş gəldi onu yedi nə dili var, nə dodağı. ***(Qar və günəş)***

6. Bir öküzüm var-quyruğunnan tutmamış töliyə girməz. ***(Qaşıq)***

7. Qızıl ləyən , qızıl tas – birin götü, birin bas. ***(Günəş və ay)***

8. Biz bizidik, otuz iki qızdıx – büzüldük, bir taxçaya düzüldük. ***(Dişlər)***

9. Alçax kişi çəpər örür. ***(Biz)***

10. Alçax dağdan qar yağır. ***(Ələk)***

11. Dayım uzun-qurşağı gödək. ***(Çay və Körpü)***

12. Mən gedərəm, o da gedər. ***(Kölgə)***

13. Mən gedərəm, o qalar. ***(İz ayaq izi)***

14. Atdan hündür, itdən alçax. ***(Yəhər)***

15. Adamda var,adı yox. ***(Bığlar arasında məsafə)***

16. Çati içər,dana köpər. ***(Tağ və balqabağ)***

17. Dördü yerdə, dördü göydə. ***(Buynuzlu mal-qara aşağıda dörd ayağı,yuxarıda iki qulağı və iki buynuzu)***

18. Biri içəridə,biri çöldə ***(Ölü torpaqda, çöldə isə onun xeyirli və şər işləri)***

19. Uzun-uzun dərvişlər bizim eşiyə gəlmişlər,o qədər oynamışlar,xurt-xaşıl olmuşlar. ***(Yağış)***

20. Qal! Qal! diyərəm qalmaz, qalma! qalma! diyərəm-qalar. ***(Dodaqlar)***

21. Mən baxaram, o qaçar. ***(Qulaq)***

22. Yol içində qazan qaynar. ***(Qarışqa yuvası)***

23. Yol içində bir cam qatıq. ***(Ay)***

24. Yol içində yoğun qarı. ***(Təndir)***

25. Qöödən düşdü,yapıştı. ***(Ay)***

26. Sarı saqqal,uzun hoqqar, onu tapmayan olsun çaqqal. ***(Qarğıdalı)***

27. Babam attan düştü, donu bənttən düşdü. ***(Yaşıl qabığlı qoz)***

28. Ağaş başında sarı yumağ. ***(Heyva)***

29. Yonduqca yoğunlaşır, kəstikcə uzanır. ***(Quyu)***

30. O yanı çəpər, bu yanı çəpər , içində at çapar. ***(Nehrə)***

31. Öz qavrını özü qazar. ***(İpəkqurdu)***

32. Bir bardaxda iki su. ***(Yumurta)***

33. Bir toppa dilim tappasan gənə diim. ***(Mal-qaranın dərisi altındakı qurd)***

34. Bazarda satılmaz, tərəzidə çəkilməz,baldan şirin, yeməy olmaz. ***(Yuxu)***

35. Ağaş başında bir torba un. ***(İydə)***

## MƏSƏLLƏR

1. Qızıldan çarıq giisən, gənə adı çarıqdı.
2. Arxalı köpək qurt basar.
3. Eşşək nə bilir xurma nədi.
4. Kor ya burda,ya Bağdatta.
5. Xəncəl yarası sağalar, dil yarası sağalmaz.
6. İt nədi ki, yunu nə ola?
7. İttə yuxa yeyər, türməyini bilsə.
8. Tülkü tülkülügünü bildirincə, dərisini boğazından çıxardallar.
9. Əl-əli yuyar, əl də üzü.
10. İstiyənin bir üzü qara, vermiyənin iki üzü qara.

11. Eşşək eşşəgi boş qaşıyar.
12. İt itin ayağını basmaz.
13. Toxun acdan xəbəri olmaz.
14. Adam adama gərəkdi.
15. Ac touq yuxusunda darı görər.
16. İt hürər karvan keçər.
17. Eşşəgə dedilər: Mərifətini göstər! – yıxıldı külə ağnadı.
18. Quş var ətini yiyəllər, quş var ət yidirəllər.
19. Pişiyin ağzı ətə çatmaz, diyər: “ Nə iylənir!”
20. Dəliyə hər gün bayramdı.
21. Qarğa qaz yerişini yerisə yanılar.
22. Adam var adamlar naxışıdı, adam var eşşək ondan yaxışıdı.

***Cəbrayıl qəzasının Xatunbulağ kənd sakini İrza Mirzəyevin dilindən yazıya alınmışdır.***

## AĞILAR

***(Ana özünün ölmüş uşaqlarına ağı deyir)***

1. Qızılgül kəsən oldu,
Dərmədim həşəm oldu.
Sənnən ayrılannan bəri,
Ağlamaq peşəm oldu.

2. Sən gedən bir il oldu,
Verana bağlar gül oldu.
Vəədə verdin gəlmədin,
Bu nə yalan oldu!

3. Mixəng əkdirən dəsinən,
Dərmədim həvəsinən,
Mənim balamnan eliyənin
Günü keçsin yasınnan.

4. Müxəng əkdim talxındı,
Xəstə köylüm bax İndi.
Mən ki, balamnan oldüm,
Sakit olsun xala İndi!

5. Bağımda turac bannar,
Onun dilin kim annar?
Balam əlimnən getdi,
Qoymayın müsurmannar.

6. Şirvanın küçələri,
Bannamaz beçələri.
Mən sənsiz necə yatım,
Bu uzun gecələri.

## UŞAQ NƏĞMƏLƏRİ

### A. Qış vaxtı oğlanlar yerlərində tullanaraq və nəfəslərilə öz əllərini qızışdıraraq xorla oxuyurlar

Üşüdüm hay üşüdüm!
Dağdan alma dışıdım.
Almacığazım yedilər,
Mənə çırım saxladılar.
Mən cırımnan bezaram,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı onun erkəçi?
Erkəçi qaya başında,
Hey elədim-gəlmədi
Sivit tökdüm-yemədi.
Sivit qazanda qaynar,
Qəmbər bucaxda oynar,
Qəmbər getdi oduna,

Qarğı batdı buduna,
Qarşı deyil-qamışdı.
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata.
Tat mənə darı verdi,
Darını səpdim quşa
Quş mənə qanat verdi.
Qanatdandım uşmağa.
Haq qapısın aşmağa.
Qapıçı qapı toxur,
İçində bilbil oxur
Mənnən kiçik qardaşım,
Tarı kəlamın oxur.

**Aşağıdakı oyun vaxtı oxunur. Adətən uşaqlar, ayaqların uzadaraq dairə şəklində otururlar**

Onlardan biri bu əsnada o, hər sözü tələffüz edərək bu nəğməni oxuyur, növbə ilə əlini yoldaşlarının dizinə qoyur. Nəğmə oxuyanın əli "qıraq" sözünü tələffüz edərkən kimin dizinin üstündə olarsa, həmən adam üzü aşağı üstə yerə uzanmalıdır, yoldaşlardan hər biri isə bir dəfə yumruqla onun kürəyinə vurmalıdır. Bundan sonra bu şəkildə davam edir, bu dəfə isə vurulan oğlan oxuyur.

İgnə, ignə
Ucu dügmə.
Bal-ballıca,
Qotur keçi,
Happan, huppan,
Yırıl, yırtıl,
Su iç, qurtul.
Əmim oğlu
Üzü buğlu

Haldurum dedi,
Huldurum dedi,
Göyə bir ağac attı
Kərki sapı,
Gül butağı,
Motala motal,
Tərs motal.
İl atar,
Qaymaq atar

Ağ quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim.

Qarğa qara,
Durna qara,
Çəmbər çıraq
Çıx qıraq!

**Kiçik qızlar tərfindən oxunur**

A qza, qza, Nərgizə!
Cehizin qötü, gəl bizə:
Bizdən gedək Tərbizə,
Tərbiz xarab olub,
Dəmir dar olub,
Dəmirçinin qızları,
İtə ələk olub.

**Hər iki cinsdən olan uşaqlar daşlardan çəpər düzəldirlər özləri isə onun içində dairə şəklində oturur və bu nəğməni oxuyurlar**

A teşti, teşti, teşti!
Vurdum Gilanı keçdi.
İkicə xoruz dalaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü.
Çaydan göyərçin uşdu,
Göyərçin – alabaxda
Yuvası qəlbi taxda.
O qızın ala gözdəri
Mənim oleydi.

## TAPMACALAR (TAPPACALAR)

1. Əhtim palıt bitti şabalıt.
Ortadan bir zoğ çıxtı-nə palıtdı, nə şabalıt ***(Qatır)***
2. Babamın bir donu var – qattamaq olmaz,
İçi dolu əşrəfi – sanamaq olmaz ***(Göy və ulduzlar)***
3. Dağdan gəldi dağ kimi,
Qolları var budaq kimi.
Əgilir su içməgə,
Bağırır oğlaq kimi. ***(İpək dolayan cihazın nazim çarxı)***
4. Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yığar, gətiri,

Üçü vırar, dağıdı. ***(Yay, yaz, payız və qış ayları)***

5. Bir tabaq almast,
Sanamaq olmaz. ***(Ulduzlar)***
6. Suya girər-dağılar,
Sudan çıxar-yığılar. ***(At quyruğu və qadın saçları)***
7. Körpünün altında dört düdük. ***(İnək əmcəkləri)***

## MƏSƏLLƏR

1. Yaxşılıq elə, at dəryaya, balıq bilməsə – xalıq bilər.
2. Ağac bar gətirəndə başın aşağı tikər.
3. Əgri otur, düz danış.
4. Ət yeyən quş dimdigindən məhlim elər.
5. Yoldaş yoldaşınan tən gərək, tən olmasa, gen gərək.
6. Zəhmətsiz bal yeməzlər.
7. Cücəni payızda sanallar.
8. Cücəni çalağannan sora sanallar.
9. Qonşuya ümid olan şamsız qalar.
10. Allah saxlayanı qurt yeməz.
11. Keçiyə qurt dəgməsə, Kəəbəyə gedər.
12. Qurtdan çoban olmaz.
13. Yaz əkinçi, qış-dilənçi.
14. Yoldaşın kiçigi olunca, donqızın böyügü ol.
15. Köpək qaya kölgəsində yatar, elə bilər öz kölgəsidi.
16. Qurtdan olan qurt olı, əgər adamınan da böyüsə.
17. Atı at yanında bağlasan, həmtəng olmaz, həmxuy olar.
18. Piyada attıya gülməsə, bağrı çattar.
19. Hərə kosaya bir tük versə, o da saqqalı olar.
20. Qurt tükünü dəyişsə, xasiyyətini dəyişməz.
21. Gül istəyən tikanı da istəmək gərək!
22. Eşşəgim, ölmə yaz gələr, yonca bitər!
23. Bu günün işin sabaha qoyma.
24. Yalquz əldən səs çıxamaz.
25. Azı bilmiyən çoxu da bilməz.

26. Lalın dilin anası bilər.
27. Uşaq ağlamasa süt verməzlər.
28. Tərlan yerin çalağan tutmaz.
29. Çidanı cibdə gizdəmək olmaz.
30. Ceyranın qaçağın elə gördüm, ətinnən zəhləm getti.
31. Toyuq ölsə – bir cəngə tüktü, dəvə ölsə dərisi yüktü.
32. İnək buzovın ayağın basmaz.
33. Ata baxma, dona baxma –içindəki cana bax!
34. Varın verən utanmaz.
35. Tazının yiyəsi varsa, dovşanın da Allahı var.
36. "Halva, halva" deməknən ağız şirin olmaz, yağınan balı gərək olsun.
37. Ağac nazikliginnən sınsa, adam yoğunığınnan sınar.
38. Şərti şumda kəs, xırmanda payalaşma.
39. Dərə xəlvət olanda tülkü də bəg olur.
40. Haq haqqı kəssə, Allah hər ikisini kəsər.
41. Cəht elə dost qazan, düşmən ocaq başında.
42. Qaçan da Allahı çağırır, qovan da.
43. Mərdi qova-qova, namərd eləllər.
44. Daldan atan topıqdan vırar.
45. Əkinçi ol, biçinçi olma.
46. Qara qızdan xatın olmaz, boz eşşəkdən qatır olmaz.
47. Mən irazı, qız irazı, qələt eliyir qazı.

***Yelizavetpol səhər sakini***
***Həsən Kərimovun dilindən yazıya alınmışdır.***

## TAPMACALAR (TAPPACALAR)

1. Mən gedirəm beləsinə,
Qara gözün məhləsinə .
Quştarda necə quştu ki,
Süt verir balasına? ***(Yarasa)***
2. Suya girər – lilləni,

Sudan çıxar – dilləni. ***(Zəncir)***
3. Bizim övdə bir kişi var,
Köndələn yatışı var. ***(Yığılmış yataq)***
4. Bizim övdə bir kişi var ,
Ağzında iki dişi var. ***(Maşa)***
5. Bizim evdə dört kişi var ,
Dördi də bir boyda. ***(Otağın dörd küncü)***
6. Bir tabax alma,
Sabaxa qalmaz. ***(Ulduzlar)***

***Cəbrayıl qəzası Mirzə Camallı kənd sakini Salman Şərifbəyovun dilindən yazıya alınmışdır.***

## AŞİQİN NƏĞMƏLƏRİ (şikəstələr)

1. Qızılgül olmiyeydi,
Saralub, solmiyeydi.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmiyeydi.

2. Eləmi baxça-nanə?
Bağ dolu, baxça-nanə!
Həsrət çəkən ay gözlərim,
Doyunca bax canana.

3. Araz axar lilindən,
Baş aşmanam dilindən.
Sən yeylaxdan qar göndər,
Mən Araspar gülündən.

4. Yarın bağında üzüm əskəri,
Difar dibindən həzin səs gəli.
“Sağ ol gəl! Var ol, gəl!
Həmeşə mehman ol, gəl!”

***Əreş qəzası Ağcayazı kənd sakini, Əhməd Məlikovun dilindən yazıya alınmıdır.***

Bu nəğmə təqribən bütün Zaqafqaziya diyarının hər yerində müxtəlif variantlarda ifa edilir. O (nəğmə) deyilənə görə 1884-cü ildə Şuşa qəzasının Xoruzlu düzündə qaçaqlar tərəfindən öldürülən Urustanın bacısı tərəfindən qoşulmuşdur.

Gəlin gedək Xorızdının düzünə, düzünə.
Ay güllə dəyif Urustamın dizinə.
Xəbər getsin Cavad xanın qızına, qızına.
Ay nicə qıydın, Urustamı öldürdün?
Zalım oğlu, beydin oğlu, şam-çırağı söndürdün!
Namuradı öldürdün!

A çılıft Xorızdının çiçəgi, çiçəgi,
Ay qana batıf Urustamın birçəgi.
Yığılıftı Cavad xanın gööçəgi, çööçəgi.
Ay niyə qıydın Urustamı öldürdün?
Zalım oğlu, beydin oğlu, şam-çırağı söndürdün!
Namurad öldürdün!
Gedin anama diyin – ağlamasın düşkündü, düşkündü.
Ay güllə dəgən Urustama üç gündü.
Qannı kökü dəryalardan daşqındı, daşqındı.
Ay nice qıydın, Urustamı öldürdün?
Zalım oğlu, beydin oğlu, şam-çırağı söndürdün!
Namuradi öldürdün!

***Yelizavetpol qəzası, Yuxarı Ayıblı kənd sakini İskəndər Şərifovun dilindən yazıya alınmışdır.***

## VİDA NƏĞMƏLƏRİ

1. Əzizim, oyanasan,
Qızılgülə boyanasan.
Öpdüm məxmər gözdərinnən,
Şirin yuxudan oyanasan.

2. Bu dərədən xan gedər,
Açma yaram, qan gedər.
Həkim-cərrah neyləsin,
Əcəl gəlsə, can gedər.

3. Əziyəm qalasuz,
Şəhər olmaz qalasız.
Çünki mən gedərgi oldum,
Siz sağlıqnan qalasuz.

4. Gedərəm gedən olsa,
Dərdimi bilən olsa.
Yazaram o qannı kağıza,
İrana gedən olsa.

5. Aşıq naçar ağlama!
Dərdin keçər ağlama!
Qapını bağlayan fələk,
Həlbət açar ağlama!

**A.Kalaşev**

## TATAR NƏĞMƏLƏRİ

## GÜNƏŞİ DƏVƏT[1]

1. Gün, çıx, çıx, cıx,
Kəhər atı min çıx.
Oğlun quyudan uçdu,
Qızın təndirə düşdü,
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür çıx.

2. Gün getdi su içməgə,
Qırmızı don biçməgə,

1. Şuşa şəhəri sakini Mir Haşım Vəzirovun dilindən yazıya alınmışdır.

Gün çıxıbdı-yetirəcək,
Qarı yerdən götürəcək,
Keçəl qızı götürəcək,
Saçdı qızı gətirəcək.
Duman qaç, qaç.
Səni qayadan asallar

**Uşaq oyununu müşayət edək və Ərzurumdan gəlmiş zaqafqaziyalılar arasında yayılmış nəğmə (ermənilərinin türk ləhcəsi)**

Əlim, əlim, kəpənək,
Küldən çıxan kəpənək.
Kəpənəgin içinə,
Süleymanın saçına,
Getdim Hələb yoluna,
Saldım-soldum soluna.
Hələb yolu-cam bazar,
İçində meymun gəzər.
Meymun bəni qorxutdu,
Qulaxlarım sağırttı
Sağım-solum sarmusaq,
Salla bunu, çək şunu.

*Yazıya alan İoakimov A.*

**Ərzurum mənşəli Zaqafqaziyalılar arasında yayılmış uşaq oyununda ifa olunan nəğmə (Axalsıx ermənilərinin türk şivəsi)**

Əlim, əlim kəpənəg,
Güldən çıxan kəpənəg,
Kəpənəgin içinə,
Süleymanın saçına,
Qatdım Hələp yoluna,
Saldım-Saldum soluna;
Hələp yolu-cam bazar,

İçində meymun gəzər,
Meymun bəni qorxutdu,
Qulaxlarım şağırttı.
Salım-solum sarmuşağ,
Salla bunu, çək şunu.

**Oyunun təsviri**

Adətən ana, nənə və ya dayə uşağla oynayırlar. Uşaqcığaz hər iki əlin yanbayan ananın dizləri üstünə qoyur. Ana isə baş barmağı ilə növbə ilə onun gah bir, gah da o biri əlinə toxunaraq nəğmənin sözlərini heca ilə tələffüz edir. Sonuncu çək şunu sözündə o, uşağın əlinə vurur, uşaq isə tez əlini çəkərək, əlini gizlədir. Hər iki əl gizlədilərkən, ana onları əlinə alıb öpür və qoxulayaraq deyir: “qızılgül, bənövşə, süsən” və.s.

***İrəvan quberniyası xalq məktəbləri müfəttişi İoakimov A.***

## GÜNƏŞİ ÇAĞIRMA

1. Gün çıx, çıx, çıx,
 Kəhər atı min çıx.
Oğlun qayadan düşdü,
Qızın təndirə düşdü,
Keçəl qızı qoy evdə,
Saşdı qızı götür, çıx!

2. Gün getdi su içməgə,
Qırmızı don biçməgə,
Gün çıxındı-yetirəcək,
Qarı yerdən götürəcək,
Keçəl qızı götürəcək
Saçdı qızı gətirəcək
Duman qaç, qaç.
Səni qayadan asallar.

## 19-cu buraxılış, 1894-cu il

# ZAQAFQAZİYADA TATAR XALQ ƏDƏBİYYATI

## A. NAĞILLAR

## 1. RÜSTƏM VƏ FATMA

### Toplayıcıdan bir neçə söz

Bizim kənddə İskəndər adında bir aşıq (müğənni) yaşayırdı. O, miliyyətcə kürd idi, lakin o, öz doğma, ana dilində deyil, tatar (Azərbaycan) dilində oxuyur və nağıllar danışırdı. Balaca oğlundan və arvadından ibarət olan kiçik ailəsi olan İskəndər ehtiyacsız bir həyat sürürdü. Iskəndər aşıqlıq sənətilə məşğulluğu payızda başlayır və martın sonunda qurtarırdı, yazda və yayda isə o, əkinçiliklə ilə məşğul olurdu. Kəndlilərdən kiminsə torpağını yarı şərtlər əsasında icarəyə götürür, pambıq və ya başqa bir şey əkirdi. Payızda əkinçilik işləri qurtaran vaxtı oktyabrın sonundan martın sonunadək kəndlilər üçün uzunmüddətli (davamlı) istirahət çağı başlayır. Bu vaxt bizdə əməlli-başlı soyuqlar olanda kəndlilər günlərini pəyələrdə keçirirlər. Onlardan hər birində sobalı otaq kimi bir şey qurulur və burada sobadan və buradakı ev heyvanlarının sıxlığından əmələ gələn heyvani hərarət nəticəsində isti olur.

Bu "miyanə"lərdə (bizdə pəyələrdəki otaqlar belə adlanır) son dərəcə müxtəlif məsələlər haqqında söhbət etmək üçün istidə kişilər qadınlar və uşaqlar yığışırlar. Qadınlara kişilərin söhbətlərinə qarışmağa izin verilmədiyindən, onlar səssiz-səmirsiz tikişlə və ya başqa bir işlə məşğul olurlar, kişilər isə özlərilə çaxır gətirir, söhbət edə-edə, hərdənbir yerli ifa yerli tədbirlə demiş olsaq "boğazqurumasın" deyə çaxır içirlər. O Qəmərli kəndlilər hər dəfə belə axşam qonaqlıqlarına nağıllar oxuyan və ya söyləyən Aşıq İskəndəri dəvət edirdilər, əlbəttə, aşıq bunun müqabilində haqq alırdı, amma

pullarla deyil həmişə demək olar ki, buğda ilə məsələn “Aşıq Kərəm” və “Əsli nağılı” üçün təqribən xalvar[1] buğda alındı.

Bizim Aşıq İskəndər Məhəmmədin qanunu ciddi şəkildə yerinə yetirmirdi, o, həvəslə çaxır və araq içir və o, çaxıra möhtac olmasın deyə yerli kəndlilər hər evdən payızda onun üçün beş tilan[2] toplayırdılar. Buna görə də Aşıq İskəndərin evində hər vaxt çaxırla dolu bir neçə karas dururdu..

Bir dəfə bizim qocalar Aşıq İskəndərdən xahiş etdilər ki, o, uşaqlara bir nağıl danışsın. Əgər o, uşaqlara faydalı olan yaxşı bir nağıl danışsa, ona əlavə olaraq bir pud buğda və un vəd edilmişdi. Budur bir dəfə axşamçağı öz böyük sazı (balalaykası) ilə gələn uşaqların toplandığı miyanaya yanımıza aşıq İskəndər bir az sazda çaldı, Rüstəm və Fatma haqqında aşağıdakı nağılı danışdı.

* * *

İranın valilərindən biri olan Muradxanın sarayı Ararat dağının döşündə yerləşirdi. Sarayın sol tərəfində hər cür meyvə ağacları olan bağ salınmışdı, sağ tərəfində isə əsgərlər və xan sarayının keşikçiləri üçün ayrılmış kazarmalar yerləşirdi. Xanın uşaqları-doqquz yaşlı oğlu Əskər və yeddi yaşlı qızı Güllü və beş yaşlı Səfa bu bağı çox sevirdilər.

Aşağıda sarayın qarşısında şəhər salınmışdır, onun qazmaları, dar və əyri küçələri və o qədər də təmiz olmayan küçələri xalqın hələ maariflənmədiyini göstərməkdə idi.

Bir dəfə xan yeməkdən sonra dincəlirkən onun baş cangüdəni bağa girdi və xana yaxınlaşıb, onun qarşısında diz çökdü. Xan əllərini sinəsinin üstündə çarpazlayaraq özünün sadiq cangüdəni Heydərin onun dincliyini pozmasından nə isə mühüm bir hadisənin baş verdiyini başa düşdü və xəbər aldı:

---

1. Xalvar-25-30 pud.
2. Tilan -24 funt çaxıra, karas isə 20 tilan tutan bardaqdır.

– Heydər, nədir, nə olub ki, günün bu vaxtı qarşımda durursan? Xanlığımda bir bədbəxt hadisəmi olub?

– Hökmdarım sənin qüdrətli rəhbərliyin altında bütün xalq rifah içində yaşayır və hər saat sənə uzun ömür bəxş etməsi üçün Allaha dua edir. Cürət edib sənə xəbər vermək istəyirəm ki, burada sığınacaq və himayə tapmaq ümidilə bir nəfər qonşu ölkədən qaçmış bir adam bu gün yanıma gəlmişdir.

O, mənim yanımdadır. Əmr edərsənmi onu sənin yanına gətirim?

– Hə, Heydər, mən İndi saraya gedəcəyəm, onu mənim yanıma gətir. Mən onun layiq olduğunu, edam və ya mükafat seçmək üçün özüm onu dİndirməliyəm.

Heydər ayağa qalxdı və qaçqını saxladığı otağa getdi, xan isə nökərlərə onun qəlyanını götürmələrini əmr edib saraya tərəf yönəldi. Çox keçmədən Heydərin bir neçə dəqiqə bundan əvvəl haqqında bəhs etdiyi tanış olmayan adam onun qarşısında durdu. Tanış olmayan adamı altmışa yaxın yaşı vardı. Onun başı və uzun saqqalı tamamilə ağarmışdı, amma o, hələ də olduqca sağlam və gümrah görünürdü. Onun bahalı üst-baş və ədaları göstərirdilər ki, o, İranın ali zümrəsinə mənsubdur. Bu cəhət xanı onunla davranmağa məcbur etdi.

Xan ondan xəbər aldı:

– Mənə bir de görüm sən kimsən və səni nə bizim xanlığımıza gəlməyə vadar etmişdir?

Tanış olmayan adam dedi:

– Qüdrətli xan, sənin müdrik başına and içirəm ki, mən bədbəxt ulduz altında doğularaq həyat öz özlərinə dinc, sakit daldalanacaq yer tapmayan və ölənədək müxtəlif vəziyyətlərlə mübarizə edən insanlar sırasına mənsubam. Mən müxtəlif dövlətlərdə olmuşam, lakin son vaxtlarda Əfqanıstanda Əyyub xanın uşaqlarınının müəllimi vəzifəsini yerinə yetirərək onun yanında xidmət verir.

Xan ona müraciət etdi:

– Mənə bir de ki, müdrikliyi və ədaləti barədə mənə çox söylənilən Əyyub xandan qaçmağa səni nə vadar etmişdir.

Tanış olmayan adam yenidən dedi:

– Hökmdarım, icazə ver dərdim başdan ayağa sənə danışım, bəlkə onda sən öz köməyini mənə əsirgəməzsən. Əyyub xan yaltaq adamlarla əhatəyə alınmışdır. Onlar son vaxtlarda xəzinədarlıqda oğruluq aşkar etmişlər və xanın qarşısında məni oğruluqda ləkələmişlər. Özümü təmizə çıxartmaq imkanım olmadığı üçün mən qaçırtmağa məcbur oldum. Böyük peyğəmbər Məhəmmədin başına anda içirəm mən bu işdə tamamilə günahsızam və mən əminəm ki, nə vaxtsa, Allah amansızcasına məni incidənləri töhmətləndirəcək.

Xan dedi:

– Yetər, sözlərindən və baxışlarından görürəm ki, belə bir iş sənin əlindən gəlməz. Mən sənə həyat bəxş edirəm və səni öz himayəmə götürürəm və Mənim xanlığımda sənin başından bir tük belə düşməyəcək, mənim sarayımda yaşa, özünə istədiyin bir məşğuliyyət seç! Mənə yalnız söylə adın nədir?

Tanış olmayan adam dedi:

– Sənin müti nökərinin adı Rüstəmdir. Ağam, sənə öz minnətdarlığımı bildirmək üçün sözlər tapa bilmirəm və mən işimlə öz təşəkkürümü bildirməyə çalışacağam. Mən sənin sarayında boş qalmaq istəməzdim, əgər sənin uşaqların varsa, icazə ver onlarla məşğul olum. Bu mənim üçün alışılmış işdir və üstəlik çox xoşuma gəlir və mən sənin uşaqlarına Müqəddəs Quranı oxumağı öyrədə bilmək müyəssər olsa, xoşbəxt olardım:

Xan dedi:

– Çox sevİndim, sənin bu işə olan sevgini görüb mən uşaqlarımın tərbiyəsini məmnuniyyətlə sənə tapşırıram. Heydər, Rüstəm bəyi evə apar və onu uşaqlarımla tanış et! Bundan sonra o, mənim müşavirim olacaq, əmrimi hamıya çatdır!

Söhbət əsnasında qapının yanında duran Heydər irəli gəldi təzim edib Rüstəm bəylə dışarı çıxdı. Xan yaxşı əhval ruhiyyədə idi. Əyyub xanın müşavirinin onun dəstək və himayəsində olması onun mənlik və heysiyyətinə zövq verirdi və mümkün olduğu qədər bu adam özünə yaxınlaşdırmaq və özünün birinci müşavirlərindən biri etmək qərarına gəldi. Xan özünün bu sevinci ov yoldaşlarının hamısını yanına çağırdı və onlara elan etdi ki, sabah ova getməyə hazır olsunlar. Nökərlər xandan əmr alıb tüfəngləri təmizləməyə və ov alətlərini hazırlamağa başladılar. Xanın sarayı xüsusi bir canlanmada idi.

Bu arada Heydərin köməkliyi ilə xanın uşaqları ilə tanış olmuş Rüstəm bəy özü üçün ayrılmış evə getdi, o, heç vaxt ayrılmadığı kitablarını nizama salaraq xanın uşaqlarına necə təlim-tərbiyə verəcəyi haqda düşünməyə başladı.

Ertəsi gün xan başında böyük bir dəstə ilə və çoxsaylı ov itləri ilə ova çıxdı. Rüstəm bəyi o, evdə saxladı ki, saraya baxsın və bir gün dincəlsin. Rüstəm bəy buna çox sevİndi. O, dərslərinin planını tərtib etdi və sonra bağa gəzməyə getdi. Gözəl bir səhər idi. Hava şəffaf idi. Bağda gəzərkən o, xanın uşaqlarını gördü, onların qarşısında yalınayaq bir oğlan dayanmışdı, onlar növbə ilə onun çiyinlərində altında durduqları ağacdan qırx addım aralıda duran cökə ağacınadək gəzirdilər. Bu vaxt vaxtaşrı Əskərin əlindəki qamçının zərbələrini hiss edirdi. Adı Əli olan bu oğlan xanın mehtərinin oğlu idi.

Rüstəm bəy bu oyunu görüb çox uşaqlara yaxınlaşdı, əlini onun çiyinlərinə qoyub xəbər aldı:

– Oğul, mənimlə getmək istəmirsənmi, bəlkə evində səni iş gözləyir. Biz isə bəy və xanımlarla gəzməyə gedəcəyik.

Əli Rüstəm bəyə təşəkkür etdi və onlardan bir neçə addım aralanıb var gücü ilə qaçmağa başladı. Rüstəm xanın uşaqları ilə tək qalıb onları böyük bir ağacın kölgəliyində oturmağa dəvət etdi və xəbər aldı:

Uşaqlar, siz bu oğlanın çiyinlərində çoxmu gəzdiniz?

Əskərin kiçik bacısı Şəfa dedi:

– Bir saat olardı, ürəyi yumşaq bəy, əgər sən bizə mane olmasaydın, biz oyunumuzu belə tez qurtarmazdıq.

Əskər lovğalandı:

– Mən onu necə də yaxşı qamçıladım, təəccüblənirəm ki, mən onu qamçı ilə vuranda o, heç qışqırmır, sanki, o, ağrı hiss etmir.

Güllü etiraz etdi:

– Əskər, məgər sən görmədin onun gözyaşları necə axırdı? O, çox ağrıyır, lakin o, qul olaraq öz ağalarının iradəsini yerinə yetirməlidi, bax, elə buna görə də o, qışqırmır.

Rüstəm bəy xəbər aldı:

– Uşaqlar, siz necə düşünürsüz, o, mənə və ya sizə oxşayırmı?

Güllü heyrət içində dedi:

– Əlbəttə oxşayır, bizdə olduğu kimi onun da başı, gözü, əlləri, ayaqları var.

Rüstəm bəy dedi:

– Əgər sizdən birini belində uşaqları daşımağa məcbur etsələr, bu sizə xoş gələrmi?

Əskər dedi:

– Əlbəttə yox, biz axı xan uşaqlarıyıq!

– Yox, uşaqlar, bizim hamımızı yaradan Allahın qarşısında biz hamımız bərabərik.Ən yaxşısı biz sabah Əli ilə bizimlə eyni bir addam kimi oynamağı sınayaq. Onda baxarıq, sizə daha nə xoş gəlir bu uşağı döyməkmi, incitməkmi, yoxsa onunla qardaş kimi rəftar etmək?

Rüstəm bəyin təklifi uşaqlara bir qədər qəribə göründü. Lakin yeni tərbiyəçinin istəyini yerinə yetirərək onlar ertəsi gün Əlini bağa dəvət etməyi və onunla bir yoldaş kimi oynamağa söz verdilər.

Bu söhbətdən sonra uşaqlar tərbiyəçilə birlikdə qalxdılar yavaş-yavaş saraya tərəf yollandılar. Uşaqlarla dərslər üçün ayrılmış otaqda onlar yemək gözləyirdi. Rüstəm bəy yedikdən sonra dincəlmək üçün öz otağına keçdi. Bağda uşaqlarla olan söhbət onu sevİndirdi və o, yaxın vaxtlarda Əskəri, Güllünü və Şəfanı kəndli uşaqlarını özlərinin qulları hesab etmək adətindən azad etməyi ümid edirdi.

Xanın ovdan gəlməsindən xəbər verən sümsünün səsi bağın dalından gələndə artıq axşam düşürdü. Bütün saray əhli çaxnaşmaya düşdü. Hamı xanı qarşılamağa çıxdı və adət üzrə sağ salamat gəliş münasibətilə təbrik etməyə çıxdı. Rüstəm bəy sarayın qapısında onu qarşıladı və atdan düşməyə ona kömək etdi. Xan özünün ov yoldaşlarının hamısını ov quşlarına qonaq etmək üçün şama dəvət etdi.

Murad xanla ovda olan bəylər tez toplaşdılar və bahalı xalıların üstündə oturub xanı, onun atını, ov itini bir sözlə ona məxsus olan hər şeyi tərif etməyə başladılar. Xan öz bəylərinin təriflərindən vəcdə gəlirdi və o, da eyni təfərrüatlı xoş sözlərlə onlara əvəzini verirdi.

Murad xan qonaqlarının hamısının təriflədikləri atının haqqında onlara aşağıdakı əhvalatı danışdı.

– Bəylər, xatırlayırsınız, mən Təbrizdən qayıdan ili bu atı gətirdim. O vaxt Təbrizdə dövlət işlərilə bağlı olaraq Təbriz olarkən oraya buxara əmiri gəlib çıxdı. O, İndi gerçəkdən tövləmin yaraşığı olan bu atı özü ilə gətirmişdi və onu bizim hərbi nazirə bağışlamaq istəyirid, lakin xoşbəxtlikdən mənim özümə buxara əmrindən almaq və naziri belə bir qiymətli şeydən məhrum etmək müyəssər oldu.

Qonaqlardan biri ona dedi:

– Hökmdarımız, izn ver səndən xəbər alım, belə bir incini əldə etmək sənə necə müyəssər oldu?

Xan sözünə davam etdi:

– Bax, iş belə oldu, bizim qaragöz gözəl qızlarımız gənc Buxara xanının xoşuna gəlmişdi və o, nəyin bahasına olursa, olsun, üç gənc iranlı qızları özü ilə götürüb vətəninə qayıtmaq istəyirdi. Mən bunu bilib özümü ona təqdim etdim və dedim ki, əgər o, bu atı mənə versə, mən ona üç gözəl qız verməyə hazıram. Xan mənim şərtimlə razılaşdı və o, vaxtdan mən yer üzündəki heç bir xəzinəyə dəyişməyəcəyim bu atın belində gəzirəm.

Xan bunu deyib özündən razı halda başını qaldırdı və sözlərinin necə təsir etdiyini öyrənmək üçün qonaqlara baxdı.

Bəylər xandan bu əhvalatı dəfələrlə eşitdiklərinə baxmayaraq İndi də onu bir yeni xəbər kimi həyəcanla dinlədilər. Yalnız bu vaxtadək susan Rüstəm bəy dedi:

– Qüdrətli xan, sənin atının gözəlliyinə və onun digər yaxşı ləyaqətlərinə qarşı bir sözüm yoxdur, lakin rəyimcə bizi kimi insan olan qızları ata dəyişmək düz deyildir. Qızları ata dəyişmək onları heyvana bərabər tutmaqdır, lakin bizim müdrik Allahımız qadını kişinin qabırğasından yaradaraq göstərmək istəmişdir ki, o, kişilə bərabərdir.

Rüstəm bəyin sözləri qonaqları çox təəccübləndirdi, onlardan heç biri xana bu sözləri söyləməyi özünə rəva bilməzdi. Xan söhbəti ört-basdır etmək üçün dedi:

– Mərhəmətli Rüstəm bəy, bu söhbəti burada kəsək, artıq qonaqlığa başlamağın vaxtı gəldi.

– Müsəlmanlara spirtli içkilər qadağan edilirsə də şəxslər buna fikir vermədilər və xristianlar kimi onlar da içirlər. Murad xanın məclisində də əvvəlcə müxtəlif içkilər gətirdilər və qonaqlar içdilər, sonra əllərini yudular və şam etməyə oturdular. Şamdan sonra qonaqlar xana gecəniz xeyrə qalsın arzulayıb evlərinə getdilər.

Rüstəm bəyin uşaqlarla xan bağındakı söhbətinin üstündən üç il keçdi. Uşaqların oyunlarını o, elə təşkil etmişdi ki, Əli və digər kəndli uşaqları da burada iştirak edirdilər.

Əskər, Güllü və Səfa yavaş-yavaş Əli və digər uşaqlarla yaxın təmas qurmağa başladılar və nəhayət tamamilə dəyişdilər. Onlar digərlərinə öz qulları kimi baxmaqdan əl çəkdilər, Əskərlə Əli arasında hətta sırf qardaşlıq əlaqələri quruldu. Bir gözəl may səhəri Əskər bağda gəzməyə çıxdı. O, bir qədər gəzdikdən sonra bir çəmənlikdə oturdu və hər şeyi bir anlığa unutdu. Əskər dərin düşüncələrə dalmışkən şad və gülümsəyən Əlinin ona yaxınlaşdığını hiss etmədi. Əli dedi:

– Əskər xan, necə də gözəl bir səhərdir, adam elə bağlarda dolaşmaq istəyir. Gedək gəzək, yoxsa çox keçməz ki, gün yandırmağa başlayacaq və onda açıq havada oynamaq olmayacaq.

Əskər dedi:

– Gedək, bu gün mən də gəzmək və qaçmaq istəyirəm. Bir qulaq as, gör quşlar bağda necə də yaxşı oxuyurlar. Əli, bilirsənmi, sən gələnə kimi mən nə barədə fikrə getmişdim?

Mən bağa gəzməyə çıxanda elə bu vaxt bülbül ötməyə başladı, onun ötməsini eşidib məftun oldum. Birdən hündür qovaq ağacının başından uzunayaq hacıleyləyin səsi eşidildi. Mən onun səsini eşidib fikirləşməyə başladım, nədən bülbül belə gözəl ötür, hacıleylək isə belə pis səs çıxarır?

Əli dedi:

– Əskər xan, mən də bağlarda və meşələrdə gəzərkən tez-tez çalıquşlarının oxumasına qulaq asıram. Şübhəsiz bülbül onların arasında birinci yeri tutur, onu səsi məftun edir. Xalam qoca Fatma bülbülü qızılgülün aşiqi adlandırır. Əskər xan, istəyirsən sabah qoca Fatmanın yanına gedək və ondan xahiş edək ki, o, bizə bülbül barədə bir şey danışsın, o, olduqca çox nağıllar bilir.

Əskər dedi:

– Yaxşı, biz özümüzlə həmçinin Güllünü və Şəfanı götürərik və bir yerdə qoca Fatmanın yanına gedərik. Amma,

Əli, bir mənə de, doğurdanmı bəylər ona elçi düşüblərmiş və o, onlardan hər hansı birinə ərə getmək istəməmişdir.

Əli dedi:

– Bəli, mənim anam danışırdı ki, qoca Fatmanın onaltı yaşı olanda çox gözəl bir cavan oğlan evlənmək təklifi etmişdir. Fatma ona ərə getməyə razı imiş. Fatmanın adaxlısı Məkkəyə bizim böyük peyğəmbərin qəbrinə səcdə etməyə getmişdir və o vaxtdan bəri ondan bir xəbər ətər yoxdur. Fatma isə onu gözləmiş, eləcə də qız qalmışdır.

Uşaqlar bülbül haqqında nağılları dinləmək üçün ertəsi gün qoca Fatmanın yanına getmək üçün sözləşib sevincək bağda qaçışmağa başladılar, sonra onlar xan sarayının yaxınlığındakı meşəyə getdilər, çayda çimdilər və günortaya yaxın evə qayıtdılar.

Ertəsi gün Əskər, Güllü, Şəfa və Əli gerçəkdən də qoca Fatmanın yanına yollandılar. Onlar onun yanına gəlib xahiş etməyə başladılar ki, o, onlara bülbül haqqında bir nağıl danışsın. Əskər isə öz tərəfindən xahiş etdi ki, əgər o, bilirsə, nədən bülbül belə yaxşı oxuyur, hacıleyləyin isə belə pis səsi var. Qoca Fatma qonaqlarını gülərüzlə qarşıladı, onları ətrafında otuzdurdu və danışmağa başladı:

– Əziz uşaqlar, əvvəllər mən sizin atanız qüdrətli Murad xanın yanında mehtər olan qardaşımla Xoy vilayətində yaşayırdıq. Qardaşım əkinçiliklə məşğul olurdu. Mən isə işlərində ona kömək edirdim və boş vaxtlarımda qonşularımız üçün xalça toxuyurdum. Uşaqlıqdan bir yerdə böyüdüyümüz Rüstəm varlı qonşulardan birinin oğlu onaltı yaşım olanda, məni istədi, mən məmnuniyyətlə razı oldum. Çünki hələ uşaqlıqdan Rüstəmlə dostluq edirdim. Amma Rüstəm Məhəmmədin qəbrinə səcdə etmək üçün Məkkəyə getdi və biz nişanlananda Rüstəm tez-tez bizim evə gəlirdi, bir dəfə axşam mən, qardaşım və Rüstəm xalçanın üstündə oturmuşduq öz aramızda söhbət edirdik. Mənim ni-

şanlım bizə bülbül və hacıleylək haqqında xoşuma gələn bir nağıl danışdı. Əziz uşaqlar, bu nağılı İndi mən sizə danışacağam:

– Çox qədim zamanlarda əcdadlarımız bütpərəst idilər, onlar özlərinin insanlarla əlaqədə olan çoxlu tanrı və tanrıçalara etiqad edirdilər.

Tanrı və tanrıçalar sevimlilərindən biri o vaxtlar İran da şahlıq edən bizim Xosrov olmuşdur. Bu şah düşmənləri üzərində çoxlu qələbələrilə şöhrət tapmış, dövlətinin sərhədlərini genişlənmişdir, tanrıların şərəfinə bir neçə məbəd tikdirmişdi və hər il qurbanlar kəsirdi. Tanrılar onu sevir, onu himayə edir və hətta tez-tez ona qonaq olurdular.

Bir dəfə Xosrov şah misirlilərə qarşı böyük yürüş təşkil etdi. Yürüşə çıxmazdan əvvəl o, vətəninin tanrılarına qurbanlar kəsdi və ona qurbanlar kəsdi və düşmənlər üzərində qələbə çaldığı halda böyük ziyafət verəcəyini və bütün tanrı və tanrıçaları dəvət edəcəyini əhd etdi. Şah yürüşə yola düşdü və tanrıların köməyilə çox keçmədən sağ-salamat ordusu ilə Misrə çatdı. Burada düşmən ordusunun saysız-hesabsız çoxluğuna baxmayaraq onun üzərində tam qələbə çaldı və məğlub olanlardan böyük bac xərac toplayıb geri döndü.

Xalq və təbəələrin hamısı şahı təntənəylə qarşıladılar, gənc oğlanlar mədhiyyələr oxuyurdular. Şah öz paytaxtına qayıdıb vəd etdiyi qonaqlığa hazırlaşmağa başladı. Göstərilmiş gün qonaqlar toplaşdılar və yer üzünə gecə düşən kimi qonaqlıq məşəllərin işığında bağda müğənnilərin oxuması, qonaqlıq və müxtəlif musiqi alətlərində çalmaları müşayiətilə başladı. Musiqiyə hamilik edən bəzi tanrılar da oxuyurdular.

## "MÜRĞİ-GÜLİ-XƏNDAN" QUŞU HAQQINDA

Bir vaxtlar bir padşah yaşayırmış. Bu padşahın tək vəliəhdi-oğlu varmış. Padşah oğlunu ürəkdən sevirdi, heç razı olmazdı ki, kiçik bir şimal küləyi onun bədəninə toxunsun. Oğlu

cahil olub qalmasın deyə o, vaxtında onun üçün molla dəvət etdi. Dərs aldıqdan sonra, oğlanın on beş yaşı olanda padşah oğlunu o vaxtın məşhur pəhləvanlarına tapşırdı ki, gənc şahzadə onlardan pəhləvanlıq sənətini öyrənsin. Məlikməmməd necə ki, şahzadəni adlandırırdılar az-az böyüdü, kişiləşdi. Yusif Misri kimi gözəl, Loğman kimi ağıllı, qəhrəman kimi qüvvətli, cəsur və cəld oldu. O, da ürəkdən və nəvazişlə atasını çox sevirdi.

Bir gün padşah ovdan qayıdarkən möhkəm xəstələndi. Dünyanın hər yerindən həkimlər gəldi, hər kim nə qədər çalışdısa, onun dərdinə bir çarə edə bilmədi, onun halı gündən günə pisləşdi.

Bir gün padşahın yanına bir dərviş gəldi, o, padşahın bu halını narahatçılığını görüb ona bir məsləhət verdi:

– Qibleyi-aləm, heç bir həkim sənə kömək etməyəcək, hətta loğman Əflatun dirilib gəlsə belə sənin dərdinə dərman tapmayacaq. Yalnız bir çarə var ki, sənə onunla kömək etmək olar o da Mürği-Güli-Xəndan quşudur. Bu quş oxuyanda ağızından insanı öz xoş iyi ilə ağıldan ətirli qızılgül dəstələri atır. Əgər sən o quşu ən qısa müddətdə öz otağında saxlasan o, otağını gözəl, xoş ətirlə dolduracaq və özün xoş nəğmələri və cəh-cəhi ilə sən tamamilə sağalacaqsan və bundan sonra ömrün boyu xəstələnməyəcəksən. Lakin bu quşu qorxunc divlər qoruyur və onu onlardan almaq çox çətİndir.

Dərviş bu sözləri deyib gizlicə yox oldu, onun hara yox olduğunu heç kim öyrənə bilmədi.

Bu arada padşahın halı getdikcə ağırlaşdı. Şahzadə dərvişin sözlərini yadında saxlayıb tələbələrini yığıb dərvişin sözlərindən onları xəbərdar etdi və onlara elan etdi ki, kim Mürği-Güli-Xəndan quşunu gətirsə və ya onun yerini desə ona öz şahlığının yarısını verəcək.

Camaat bir müddət götür-qoy etdikdən sonra hamısı bir səslə ona dedi:

– Qibleyi-aləm başımız sənə sadağa olsun, biz birinci dəfədir biz quşun adını eşidirik onun kimin olduğunu da bilmirik.

Camaatın bu sözündən qanı qaralan şahzadə dedi ki, bu quş lap yerin tərkində, dənizin dibində də olsa, onu tapıb gətirəcək.

Padşah oğlunun bu niyyətindən xəbər tutub ondan xahiş etdi ki, bu fikri başından çıxarsın, atasını bu halda tərk etməsin, ölməkdirsə, qoy oğlunun yanında ölsün. Qoca atası oğlunu yolundan döndərə bilmədi.

Şahzadə qohum-qardaşla, əyanlarla görüşüb, atasını onlarla tapşırıb, Allaha təvəkkül edib yola düşdü.

Şahzadə quşun yerini bilmədən baş götürüb dalını-qabağını düşmədən az getdi, üz getdi, dərə-təpə düz getdi. Nəhayət, uzun yol, isti hava və aclıq şahzadəni əldən saldı. Bir ağacın kölgəsində daldalanıb yemək yeyib içdi. Sonra da möhkəm yuxuya gedib yatdı.

Şahzadə yuxudan oyandıqdan özündən bir az aralıda işartı gördü, tez işıq gələn tərəfə yönəldi. Bir qədər getdikdən sonra qanadlı eybəcər bir div gördü, bu divin bir nəfəsindən meşə və dağları əsim-əsim əsirdi. Məlikməmməd bir istədi divin gözünə görünmədən gizlənsin, div bu vaxt böyük bir ocaq qalayıb bütöv bir camış bişirirdi ki, yesin. Div onu görüb çox sevİndi dedi:

– Ey bəni adam, bizim yerlərə çox xoş gəlmisən nə yaxşı oldu gəldin.

Çoxdandı adam əti yeməmişdim. Yeməyimi yeyib sənin də ətindən dadaram.

Məlikməmməd cəsarətlə divə yaxınlaşıb uca səslə qışqırıb ona dedi:

– Ey div, sus hərzə-hərzə danışmaqdansa dilini bağla, əlini aç, onda bilinər kim dadlı yemək yeyəcək!

Məlikməmmədin bu cəsarəti divi hövsələdən çıxardı. O, yerindən qalxıb qəzəb içində Məlikməmmədin üzərinə atıldı.

Onların arasında qızğın döyüş başladı, üç gün, üç gecə güləşdilər. Nəhayət, şahzadə Allaha üz tutub kömək istədi, Allah da ona kömək etdi Məlikməmməd divi yerə çırpıb sinəsinə oturdu qılıncını çəkib başını kəsmək istəyəndə o, yalvarışlı bir səslə, gözlərində yaş şahzadədən aman istədi:

– Ey bəni-adəm, məni öldürmə, sənə bunun əvəzində xidmət edərəm, ona qədər gücüm var sənə nökər olaram!

Şahzadə divə bura gəlməyinin səbəbini ona dedi. Vaxt itirmədən div ona qoşulub Murği-Güli-Xəndan quşunu axtarmağa yola düşdülər. Div şahzadəni çiyninə mİndirib apardı.

Çox getdilər az getdilər bunu Allah bilir, nəhayət div çox uçmaqdan yorulub böyük bir şəhərinin yaxınlığında durdu. Məlikməmməd divi buraxdı dincəlsin, ov edib yeyib içsin.

Div Məlikməməddən ayrılanda ona başından bir neçə tük verib dedi:

– Mənim tükümü harada oda tutsan, mən o saat həmən yerə gələcəyəm.

Şahzadə divin tüklərini cibində gizlədib şəhərə yollandı.

Bu şəhərdə gördüyü onu çox qorxutdu. Bu gözəl şəhərdə bir ins-cins yox idi, hər yerdə insan meyitləri ilə dolu idi, ayaqüstə güclə duran adamlar da var idi. Şahzadə çox gəzdikdən sonra ayaqüstə güclə duran bir nəfərə rast gəldi. Məlikməmməd ondan xəbər aldı:

– Bir de görək bu şəhərdə nə olub, şəhərin əhalisinə nə olub?

O, dərindən bir ah çəkib dedi:

– Ah, cavan oğlan, bizim əkin yerlərimiz qonşu adadadır. Bu il yaxşı əkib becərmişdik, Allahın köməyilə də yaxşı məhsulumuz da olmuşdu. Məhsulumuzu gəmiyə yüklədik bura gətirək, gəmi dənizdəikən dənizdən bir böyük polad əl çıxıb bir zərbə ilə gəmini vurub parça-parça etdi. Bundan sonra cürət edib adaya gedənlərin də başına həmən iş

gəldi. Padşahımız, nə qədər arzuman pəhləvanlar göndərdisə hamısını şil-küt edib öldürdü. Bu əl dənizdə peyda olan çoxu öldü, hələlik qalanlar da mənim kimi ayaq üstə güclə durur.

Məlikməmməd şəhərin əhalisindən xəbər tutub oradan düz padşahın sarayına getdi. Bu vaxt padşah öz vəzir vəkili ilə oturub dərin fikir içində idilər elə fikirləşdilər bu bəladan əhalini necə qurtarsınlar. Məlikməmməd padşaha ədəb ərkanla təzim edib dedi:

– Qibleyi-aləm, sizin bədbəxtlikdən xəbər tutub sizə kömək etmək, dənizdəki düşməninizi öldürmək qərarına gəldim, qoy gəmiləriniz dənizdə rahat üzsün. Amma, mənim bir şərtim də var, gərək mənə Mürgi-Güli-Xəndan quşunu tapmaqda kömək edəsiniz.

Padşah mehribanlıqla onu qəbul etdi, onun gözəlliyinə, qəddi-qamətinə valeh olub dedi:

– Ah kaş ki, onu məhv etmək mümkün olaydı, bədbəxtlikdən onu nə qılnc kəsir, nə də pəhləvan öldürə bilir.

Məlikməmməd dedi:

– Qibleyi-aləm, narahat olma, sizi o qəddar düşməndən azad etmək mənim işimdir, siz də mən gələnə kimi o quşu tapıb gətirməyi və ya heç olmazsa onun yerini öyrənməyi vəd etsəniz çox yaxşı olardı.

Padşah Məlikməmmədin sözlərinə təəccüblənsədə onun şərtinə razı oldu.

Padşah əmr etdi ki, bir neçə gəmi bütün tədarükü və işçilərilə yola hazır olsun ki, Məlikməmmədi müşayət etsin.

Məlikməmməd də gəmilər də yola düşüb, gəlib əkin yerinə çatdılar. Gəmilləri taxılla yükləyib geri qayıtmağa başladılar. Məlikməmməd gəminin burnunda durub səbirsizliklə düşməni gözləyirdi.

Birdən qorxunc bur tufan qalxdı, dənizin üzü qaraldı, dəniz qaynamağa başladı suyun, içindən nəhəng polad əl çıxdı.

Gəmilər əli görüb dayandılar, əli onları vurmağa artıq hazır olanda Məlikməmməd hər iki əli ilə onu bərk-bərk tutub özünə tərəf çəkdi. Bir Allahı və onu Peyğəmbərini köməyə çağırdı. Əl nə qədər çalışdısa Məlikməmmədin əllərindən çıxa bilmədi və gurultu ilə qırıldı və həmən anda da tufan yatdı və su sakitləşdi, gəmilər yollarına davam etdilər. Bu vaxt dənizədən bir gözəl quş çıxdı və Məlikməmmədə qızıl üzük ataraq adam səsilə dedi:

– Ey mənim xilaskarım, mən "Fərəhban" bağlarının sahibi pərilər padşahının qızıyam. Zalım div məni qaçırdıb qohumlarımı gözüyaşlı buraxmışdı. O, qaçırdığı gündən məni ac-yalavac dənizin dibində saxlayırdı. Divin canı onun polad əlində idi, sən o əli sındıranda onu da öldürdün, məni də azad etdin. Sən əgər bizim yerlərə gəlsən, mənim sənə böyük kömyim dəyə bilər.

O, bu sözləri deyib uçdu. Quşa onun danışığına təəccüblənən Məlikməmməd üzüyü cibinə qoyub gəmi səfərinə davam etdi.

Bu arada dənizin sahilindəki qaravulçular gəmilərin təhlükəli yerdən uzaqlaşdıqlarını görüb tez padşahı muştuluğlamağa getdilər. Padşah böyük ordu və əyanları ilə Məlikməmmədi qarşılamağa getdi. Əhali şadyanalıq içində dənizin sahilinə tökülmüşdü, hər yerdə qurbanlar kəsdilər, musiqi çalındı. Məlikməmməd gəmidən enib padşahı salamladı və təbrik etdi. Padşah onu ürəkdən qucaqlayıb saraya gətirdi neçə gün qonaqlıq etdilər Məlikməmmədə çoxlu hədiyyələr bağışladılar.

Məlikməmməd atasını yadına salıb padşaha təklif etdi ki, vədi yerinə yetirsin.

– Mürği-Güli-Xəndan quşunu ona çatdırsınlar çünki evə, xəstə atasının yanına qayıtmağın artıq vaxtı çatmışdır.

Padşah hələ Məlikməmməd səfərdən qayıdanadək quşu əldə etməyə çox çalışdı, amma bir şey edə bilmədi. Padşaha öz vədindən imtina etmək çox çətin idi. O, çoxsaylı əhalinin və saray adamlarının qarşısında Məlikməmmədə dedi:

– Sən mənim torpağımı məhv olmaqdan azad etdin, buna görə də mən sənə öz adıma görə bunun əvəzini verməliyəm. Mənim tacımı qəbul et, rəiyyətimi idarə et, sən varisim olmağa layiqsən, mənim varisim olan tək bir qızım var onu, özünə kölə et.

Məlikməmməd belə bir mükafatdan imtina etdi. O, padşaha səfərinin səbəbini danışaraq yalnız bir şey istədi ki, quşu ona versinlər.

Məlikməmməd axır ki, padşah və pəhləvanlarının ona Mürği-Güli-Xəndan quşunu tapa bilməyəcəklərinə inandıqdan sonra yola düşdü, şəhərdən çıxanda padşah vəzirləri və xalq onu yola saldı.

Məlikməmməd dağın ətəyinə çatıb kiçik bir od qaladı və divin tükünü oda atdı. Birdən yer titrədi daş uğuldadı və onun sədaqətli yol yoldaşı ildırım sürətilə dağdan aşağı endi. Məlikməmmədi yola salanlar divi görüb qorxuya düşdülər kim qorxudan öldü, kim baş götürüb qaçdı. Məlikməmməd isə divə minib yoluna davam etdi.

Div çox uçdu, az uçdu, bunu Allah bilir, o, rahatlıq bilmədən gecə-gündüz uçdu və nəhayət səsli-küylü bir şəhərin yaxılığında dayandı. Div Məlikməmmədə bir neçə tük verdi. Məlikməmməd devi buraxıb özü şəhərə gəldi.O, çox dolaşıb gördü ki, şəhər olduqca gözəldir, amma şəhər əhli böyükdən kiçiyə hamı qara libas geyinmişlər, heç kimin üzü gülmür hər yer qara rəngə boyanmışdır, küncdən bucaqdan ağlamaq, inilti səsləri gəlir. Məlikməmməd çox öz-özünə düşündü, çox götür qoy etdi ki, görəsən bu şəhərin əhalisinə nə baş verib, niyə üzləri gülmür, hamı yas libası geyinib? Nəhayət, o, qoca bir kişidən öyrəndi ki, onların padşahının qızını Kavtar-Kürsü oğurlayıb qaçırmış və yaxınlıqda olan mağarada gizlətmişdir. Kavtar-Kürsü padşahın onun üstünə göndərdiyi bir çox pəhləvanları və qoşunları öldürmüşdür. Məlikməmməd qocadan

təvəqqe etdi ki, onu padşahın hüzuruna aparsın. Qoca onu padşahın sarayına apardı. Məlikməmməd padşaha təzim edib dedi:

– Qibleyi-aləm, mən sənin qızını qaçırdan Kavtar-Kürsünü öldürmək və sənin qızınıda ondan azad etmək istəyirəm.

Padşah dedi:

– Mən özüm bu lənətə gəlmiş Kavtar-Kürsü ilə bacara bilməmişəm. Onun üstünə o qədər adlı-sanlı pəhləvanlar, qoşunlar göndərmişəm amma bir şey edə bilməmişəm. Hər dəfə onlar onun mağarasına yaxınlaşanda oradan alov qalxmış və mənim pəhləvan və qoşunlarım kül olmuşlar. İndi sən təkbaşına onun üstünə getmək istəyirsən!

Məlikməmməd dedi:

– Qibleyi-aləm, böyük Allahın köməyilə şahzadə qızı qurtaracağam.

Padşah dedi:

– Əgər sən onu mənə sağ-salamat qaytarsan, şahlığımın yarısını səninlə bölüşəcəyəm.

Məlikməmməd dedi:

– Mənə heç bir şahlıq lazım deyil, mənim bir istəyim var. Əgər mən sənin qızını azad etsəm, sən də mənə Mürği-Gülü-Xəndan quşunu gətirərsən və ya onun yerini mənə göstərərsən.

Padşah bu şərtə razı oldu. Məlikməmməd vaxt itirmədən özü ilə əllərində kürək qırx fəhlə götürdü ki, onlar mağaranın yolunu yanmış adamların külündən təmizləsinlər. O, Kavtar-Kürsünün olduğu yerə yaxınlaşan kimi o, odlu nəfəsi ilə onun bütün yoldaşlarını yandırıb kül elədi. Yalnız Məlikməmməd salamat qaldı, çünki o dua oxumağa macal tapdığından sehr ona təsir etmədi. Məlikməmməd yoldaşlarının ölməyinə baxmayaraq yoluna davam etdi. Birdən o, qarşısında qaranlıq bir mağara, mağarada isə qoca, eybəcər Kavtar-Kürsünü gördü. Onu burnu dizinə qədər uzanmışdı dişləri başından yuxarı dikəlmiş-

di, qalın meşə kimi yalnız bir gözü saçları görünürdü o da əmgəgində (təpəsində) idi, onun burnundan və ağzından od püskürürdü. O, ona tərəf gələn adamı görüb heybətli səslə qışqırdı:

– Cavan oğlan, özünə və öz qohumlarına yazığın gəlsin geri qayıtmağa tələs, yoxsa səni diri-diri aşıracağam.

Lakin Məlikməmməd ona sözünü qurtarmağa imkan verməyib onu oxla vurdu, ox düz onun sinəsinə sancıldı o, heç bir həyat əlamətləri olmadan yerə yıxıldı. O, Kavtar-Kürsünü cəhənnəmə vasil edib mağaraya girdi və burada iki gözəl qız gördü. Qızlar qalın zəncirlə buxovlanmışdılar (zəncirlənmişdilər, bağlanmışdılar). O, dərhal qılıncı ilə onların zəncirlərini parçaladı, onları yerdən qaldırdı. Gözəl qızlar özlərinə gəlib cəld mağaradan çıxıdlar, onlardan biri Məlikməmmədin əlindən tutub dedi:

– Mən həmişə yaşıl "Fərəhbanı" bağının sahibi pərilər padşahının qızıyam. O, məni qaçırdıb bu bədbəxt şahzadə qızla bu mağarada qapadı, biz ikimiz burada cəhənnəm əziyyəti çəkmişik. Əgər sən atamın vilayətinə gəlsən sənin bu işinin əvəzinə verəcəyəm.

Bu sözləri deyəndən sonra o, bir kənara çəkildi xatirə olaraq Məlikməmmədə bir qızıl üzük atdı, gözəl bir quşa çevrildi, qanad çalıb uçdu getdi.

Məlikməmmədlə şahzadə qız saraya tərəf yollandılar, burada padşah və şəhər əhli kiçikdən böyüyə Məlikməmmədə dua edib onun səbirsizliklə gəlməyin gözləyirdilər. Bütün şəhər onun qarşılamağa çıxmışdı, padşah əmr etmişdi ki , hamı yasta libasını çıxarıb bayram libası geyinsinlər. Padşah böyük dəbdəbə ilə onu və qızını saraya apardı.

Məlikməmməd bir neçə gün burada şadyanalıqla gün keçirdi, günlərin bir günü xəstə atası yadına düşdü, dedi:

– Qibleyi-aləm, mən öz vilayətimə qayıtmalıyam, məni orada xəstə atam gözləyir. Mənə vəd etdiyin quşu mənə gətir. Bir dərvişin dediyinə görə yalnız bu quş atamı sağalda bilər.

Padşah Məlikməmmədə dedi:

– Əziz şahzadə, sən Kavtar-Kürsü ilə vuruşanda mən kiçikdən böyüyə bütün rəiyyətimə tapşırdım sən dediyin quşdan mənə bir xəbər versinlər heç kim mənə ondan bir xəbər vermədi. Sən gəl bu daşı ətəyindən tök, bizim vilayətdə qal, mənim varisim də yoxdur, bu gün mən sağam, sabah isə bəlkə mən olmayacağam. Mən sənin bu işinə görə sənə öz şahlığımı və ən yaxşı şeyi – tək qızımı da bağışlayaram.

Məlikməmməd dedi:

– Allah Təala uzun illər səni və çarlığını qorusun. Mənə heç mülklər lazım deyil. Atamın çarlığı heç də səninkindən geri qalmır. Əgər hakimiyyət məni maraqlandırsaydı vətənimi qohum-qardaşımı tərk etməzdim. Mən atama söz vermişəm ki, nə olursa olsun bu quşu hətta yerin dərinliyində, dənizin dibində də olsa tapacağam.

Bundan sonra Məlikməmməd sarayı tərk edib yoluna davam etdi. Bir meşəyə yaxınlaşıb devin tüklərini çaxmaq daşına vurdu və anında onun sədaqətli nökəri yanında hazır oldu. Məlikməmməd başına gələnləri ona nəql etdi və ondan tələb edti ki, onu Fərəhbanı bağına aparsın. Dev bir qədər fikrə getdi, lakin bu dəfə də ağasının tələbinə tabe oldu. Dev şahzadəni çiyinələrinə mİndirib birbaşa Fərəhbanı bağına tərəf uçdu. O, uzun müddət və ya az uçdu bunu Allah bilir, nəhayət qiymətli daşlarla örtülü olan bir dağın ətəyində durdu. Burada dev Məlikməmmədin ayaqlarına düşüb yalvarıcı bir səslə dedi:

– Ey mənim hökmdarım, bu devlərin və pərilərin mülkləri arasında sərhəddir, məlum şərtə və anda görə mən pərilər torpağına bir addım belə basa bilmərəm, yoxsa, məni tikə-tikə edərlər.

Bu sözlərdən sonra Məlikməmmədə uzaqdan Fərəhbanı bağını göstərib onunla həmişəlik vidalaşdı və geriyə öz yuvasına getdi.

Məlikməmməd tək qalıb heç halını da pozmadı O, dağları ötüb keçdi və qarşısında heç yerdə olmayan və hər tərəfdən gümüş divarlarla çevrələnmiş bir bağ gördü. O, bağın divarına kəmənd atıb kəməndlə divara qalxıb elə onun gözəl bir bağa endi. Məlikməmməd bu gözəl bağı gəzə-gəzə gəlib bağın ortasına çıxdı burada qızıldan yeddi mərtəbəli saray var idi. Məlikməmməd sarayın otaqlarını gəzdi-dolaşdı amma bir inc-cins görmədi. Bir qədər keçmiş qulaqlarına sehrli musiqi sədaları incə səslərin nəğmələri gəldi. O, tez qızılgül kollarının arxasında gizləndi və ona yaxınlaşan sazəndələr dəstəsini gördü. Sonra isə o, saray tərəfə gedən çoxlu gözəl qızlar gördü. Bu qızların qabağında bir qız gedirdi, o biri qızlar isə onun dalınca düşüb saraya qədər onu yola saldılar. Qızlar bir otağa girib qapıları bağladılar. Məlikməmməd də saraya girib bir yerdə gizləndi, o, burdan gözəllərin incə səslərini eşidirdi. Birdən səs-küy, musiqi səsləri, hər şey sakitliyə qərq oldu. Gözəl qızlardan biri ayağa qalxıb əlində şərbətlə dedi.

– Əziz rəfiqə və bacılarım, bu şərbəti məni dənizin dibində əsir saxlayan zalım devdən azad edən bəni-insanın sağlığına içirəm. Mən ona xatirə nişanı olaraq öz qızıl üzüyümü verdim. Əgər o, bizim yerlərə gəlmiş olsa, ehtiram olaraq mən onun üçün nələr edərdim.

Ondan sora başqa bacı ayağa qalxdı və burada olanlardan xahiş etdi ki, onu qaçırdıb qaranlıq mağarada saxlayan Kavtar-Kürsünün əlindən qurtaranın sağlığına içsinlər. Nəhayət, üçüncü gözəl qız bacılarının sözlərinə dinləyib dedi:

– Əgər bizim nə vaxtsa bizim torpağa gəlsələr, burada saxlasın ki, onlar da bizimlə birlikdə bu həmişəyaşıl bağın havasından ləzzət alsınlar və mən onların bütün arzularını yerinə yetirməyə hazıram. Lakin bacılarım təəssüf ki, insanlar üçün bu bağa gəlmək çox çətİndir. Məgər siz bilmirsiniz ilan öz qarnı ilə onun divarlarının altından sürünüb keçməyə cürət etmir, başqa

ölkələrin quşları öz qanadları ilə bu bağın üzərindən uçub keçə bilmirdilər. Bundan sonra adi insan ona necə yaxınlaşa bilər?

Bu əsnada Məlikməmməd qapını açıb otağa girdi. Pərilərin hamısı onun gözlənilməz gəlişindən yerlərindən dik atıldılar, onlar artıq Məlikməmmədin üzərinə atılmağa hazır idilər. Məlikməmməd kim olduğunu onlara söylədi və söylədiklərinə sübut kimi onların ona verdikləri qızıl üzükləri də göstərdi.

Pərilər öz üzlüklərini tanıyıb çox sevİndilər, onun üçün elə bir qonaqlıq düzəltdilər ki, o, heç yuxusunda da belə məclis görməmişdi. Yeməkdən sonra pərilər onu dövrəyə alıb xahiş etdilər ki, o, onlara öz sərgüzəştlərindən səfərlərinin səbəbindən danışsın. Məlikməmmədə başdan ayağa hər şeyi onlara nəql etdi, bu əsnada Mürği-Güli-Xəndan quşundan da bəhs etdi.

Pərilər Məlikməmədin sərgüzəştlərini dinləyib ona məsləhət gördülər ki, bu qəribə quşu əldə etmək fikrindən daşınsın, çünki bu fikir yerinə yetiriləsi deyil.

Məlikməmməd dedi:

– Mən özümə əhd etmişəm ki, nə olursa olsun onu əldə etməliyəm və o quşsuz doğmalarımın yanına qayıtmayacağam.

Pərilər elə ki, gördülər Məlikməmmədi fikrindən daşındıra bilməyəcəklər onlar onun axtradığı quşun harada yaşadığı yerləri dedilər. Onlar dedilər:

– Bağımızın şimal küncündə qaranlıq özünə yuva tikdiyi uca bir ağac var. Hər il bu qartal öz balalarını nəzarətsiz buraxanda onun balalarını yeyir. Əgər sən onu öldürsən, qartal bunun müqabilində səni Mürğ-Güli –Xəndan quşunun olduğu yerlərə səni aparar.

Məlikməmməd vaxt itirmədən qartalın yuvasının olduğu ağacın olduğu yerı getdi. O, yerə gəlib çatdığı vaxt qartalın balalarını yemək üçün ağaca qalxırdı. Bu vaxt Məlikməmməd onu oxla vurdu böyük gurultu ilə yerə düşdü, Məlikməmməd

isə onu qılıncı ilə doğram-doğram edib onları qartalın balalarına atdı, özü isə sakitcə ağacın altında yatdı.

Məlikməmməd ağacın altında yatmaqda olsun eşit qartaldan. Qartal uçub gələndə Məlikməmmədi gördü elə bildi ki, balalarını öldürən odur, tez caynaqlarına böyük daş alıb göyə qalxdı ki, onu ordan Məlikməmmədin üstünə atsın. Qartalın balaları bunu gördükdə ona qışqırdılar ki, bu adama əl toxunmasın, çünki o, onları xilas etmişdir və başını ona göstərdilər. Qartal bunu görüb fikrini dəyişdi, o, Məlikməmmədin üstündə dövrə vurub qanadları ilə günəşin yandırıcı şüalarını qabağını Məlikməmməd qartalın qanadlarının hərəkətində əmələ gələn güclü küləkdən oyanıb ondan xahiş etdi ki, Mürği-Güli-Xəndanı tapmaqda ona da o, Məlikməmmədin xahişini böyük həvəslə yerinə yetirməyə razı oldu. O, özünün balaları və özü üçün kifayət qədər azuqə hazırlayıb və Məlikmmədi öz belinə mİndirib yola düşdü.

O, uzun müddət və ya az müddət uçdu Allah bilir, o, yeddi sulu dənizdə yeddi adlı dənizin üstündən keçdi, nəhayət düzdə dayandı. Qartal bir söz demədən buraxdı yenə göyə qalxıb uçub getdi, bir müddətdən sonra uçub gəldi və Məlikməmmədə dedi:

Mürği-Güli-Xəndan bir gözəl qızın quşudur, heybət devlər də bu gözəl qızın

keşiyini çəkirlər ildə yalnız bir dəfə onlar qırx günlük yuxuya gedirlər, İndi onlar dörd gündür ki, dərin yuxudadırlar. Mən bunu devlərin evlərinin darvazasına vurulmuş lövhədən İndi öyrəndim. Devlər yatmasaydı quşu əldə etmək heç mümkün olmazdı. İndi sən bu cığırla gözəl bir saraya rast gələnə kimi get. Gözəl qız da onun keşikçiləri də İndi yuxudadılar. İki qorxunc şir də qızın sarayının keşiyini çəkir onlar gecə-gündüz sarayın ətrafında gəzib bir adamı ora yaxınlaşmağa qoymurlar. Hətta quşlar da quşluğuynan onların

qorxusundan sarayın üstündən uçub keçə bilir, nə də ilanlar sarayın divarları altından sürünüb keçə bilir.

İndi isə bu iki ət parçasını götür elə ki, saraya çatdın onlardan bir bir şirə, digərini isə o birisinə ver. Onda onlar səni içəri buraxarlar. Saraya daxil olduqda çarpayısında yatan qızı qəfəsdə isə Mürği-Güli-Xəndanı görəcəksən. Qəfəsi ehmalca götür və tez mənim yanıma gəl, mən burada səni gözləyəcəyəm.

Məlikməmməd qartaldan iki ət parçası alıb yola düşdü. O, qartaldan bir qədər aralandıqdan sonra bir saray gördü sarayın qabağında iki şir onun keşiyini çəkirdi. Məlikməmməd hər birinə bir parça ət atdı, özü isə tez saraya daxil oldu. Burada o, gözəl bir otaqda qızıl çarpayıda dərin yuxuda yatan qızı gördü. O, sakitcə qəfəsi yerindən götürdü, yatan qıza yaxınlaşdı, qızın barmağından qızıl üzüyünü çıxartdı, onun alnından öpdü və tez qartalın yanına qayıtdı. Məlikməmməd qartala dedi ki, onu öz vilayətinə çatdırsın. Qartal onu belinə mİndirib yola düşdü.

Bir neçə vaxtdan sonra Məlikməmməd artıq atasının vilayətində idi. Məlikməmmədin gəlməsinə onu ölmüş hesab edən qohum-qardaş və rəiyyət çox sevİndi. Məlikməmməd dərviş söylədiyi kimi qəfəsdə quşu xəstə atasının yanına qoydu. Quş oxumağa başladı, quş oxuduqca ağzından qızılgül dəstələri atardı. Qızılgüllərin xoş ətri otağı və quşun valehedici səsi otağı bürüdü. Çox keçmədi padşah tamam sağaldı.

Bu arada qız qırx günlük yuxudan oyandı. Mürği-Güli-Xəndan quşunu və qızıl üzüyünü yerində görməyən qız durub bədənnüma aynasına baxanda alnında Məlikməmmədin öpüşündən qalan ləkəni gördü. Bütün bunlardan həyəcanlanan qız bütün devləri yanına çağırdı. O, onlara hal-qəziyyəni danışıb əmr etdi ki, dərhal quşu və onu oğurlayanı tapıb gətirsinlər və vəd verdilər ki, quş və oğrunu harada olsa belə tapıb gətirsinlər. Devlər qızdan möhlət alıb hərə bir tərəfə dağılışdı ki, oğrunu tapsın.

Bir dəfə Məlikməmməd bir məclisdə əlində qəfəsdə quş öz səfərindən danışanda birdən haradansa bir nəhəng dev gəldi, bir əlilə qəfəsi o biri əli ilə Məlikməmmədi tutub bir anda gözdən itdi. Məclisdəkilər mat-məəttəl qaldılar.

Devlər Məlikməmmədi və quşu qızın yanına gətirdilər. Qız Məlikməmmədi görüb bir könüldən min könülə ona vuruldu, özünü saxlaya bilməyib dedi:

– Ey vicdansız insan, sən necə cürət edib mənim evimdə belə oğurluq etmisən? Sən məsələni olduğu kimi mənə danış!

Məlikməmməd məsələnin necə olduğuna başdan ayağa ona danışdı. Qız Məlikməmmədin hekayətini dinləyib onu daha çox sevdi və ona təklif etdi ki, onunla evlənsin. Məlikməmməd qızın təklifinə sevinə-sevinə razılıq verdi və yalnız tələb etdi ki, bura toya onun qohumları da gətirilsin. Məlikməmmədin arzusu qısa zamanda yerinə yetirildi. Məlikməmmədin ata və anası onlara xeyir dua verərək onun gözəl qızla toyunu bayram etdilər, toydan sonra Məlikməmməd və onun qohumları gəlindən xahiş etdilər ki, geriyə öz vilayətinə aparsınlar. Onda qız devlərdən birini onların üzərində hökmdar təyin etdi və onları bundan sonra məcbur etdi ki, and içsinlər ki, bir daha insanlara xətər yetirməyəcəklər, hətta onların gözlərinə belə ziyan görünməyəcəklər və özünün bütün devlərilə görüşüb vidalaşdı. Sonra o, yetərincə var-dövlət götürüb devlərə əmr etdi ki, onu Məlikməmmədi onun qohumlarını öz vilayətlərinə çatdırsınlar və devlər bir anda onun əmrini yerinə yetirdilər. Padşah bir də oğlunun toyunu bayram etdi, böyük qonaqlıq düzəltdi hamı Məlikməmmədin toyunda yedi, içdi, kef etdi.

Qoca padşah oğlu və gözəl gəlinilə xoşbəxt yaşamağa başladılar o, ölərkən taxtını sevimli oğlu Məlikməmmədə verdi.

***Vəndam kənd məktəbinin nəzarətçisi A. Ağababayev.***

## MOLLA QASIM

Atası Şahzadə Nəsrullah öləndə Molla Qasımın on dörd yaşı vardı. İrandan qovularan Tikmədaşda atası ilə yaşayan Qasımın atası tərəfindən himayəsində buraxılan dayısı Qara qazıdən başqa bir qohumu yox idi. Lakin şəhər qazısı olan dayısının işi çox olduğundan o, bacısı oğluna az fikir verirdi və yazıq yetim taleyin qədərinə buraxılmışdı. Qasımın tək sevinci hər səhər getdiyi məktəb idi. Lakin onu dərsdən çox məktəbə bağlayan onunla həmin məktəbdə oxuyan Tikmədaşın hakimi Əli xanın qızı gözəl Mələksima idi. Qasım Mələksimaya vurulmuşdu. Mələksima da ona laqeyd idi. O, Mələksimaya mahnılar qoşur, o isə alçaqdan bu mahnıları ona oxuyurdu. Bir yerdə dərs oxumaq onlar üçün xoş idi. Lakin onların bu şadlığı uzun sürmədi. Müəllim onların məhəbbətindən xəbər tutdu və bunun nəticəsi olaraq xanın mərhəmətindən məhrum olmaq və onun qəzəbinə gəlmək istəməyərək ona bu haqqda çuğulluq etdi. Əli xanın Qasıma qəzəbi tutdu və Mələksimanı öz oğluna elçiliyini edən vəzirin sözü ilə onu edam etməyi əmr etdi. Lakin xanın yaxın adamları onu bu fikirdən daşındırdılar. Qasım şah nəslindəndir, şahzadələri edam etmək yaxşı deyil. Onlar deyirdilər, "yaxşısı, budur ki, əmr et onu bir müddətə zindana atsınlar, bəlkə orada ağıllanar". Xan məsləhətçilərə qulaq asdı və Qasım zindana salındı. Sevgilisindən ayrılıq ona ağır gəldi və o, öz dərdini aşağıdakı şeirdə açıb söylədi:

### 1-ci nəğmə

Mən ki vəfa görmədim fani dünyada,
Ya Rəbb, mənim xanımanım necə oldu?
Gövhərləri sözlərim, xoş bəyaxlarım
Sərvi boylu xuramanım necə oldu?

Bir gün olar fani dünya başıma daralar[1],
Yanımda mənim, ya Rəbb, kimlər kar alar?
Nazılı yarımın gül rəngi saralar.
Dili-şirin, xoş güftarım necə oldu?

Xəstə Qasımam[2], kəsilif təbim,
Qızılgül tək çəkilif gülabım,
Cüzülgəş Quranım, qızıl cildli kitabım,
Üstü zərli qələmdanım necə oldu?

Zindanın yanından keçən müəllim Qasımın səsini eşidir və xana çuğulluğa gedir:

– Böyük xan! Qasım zindanda ağıllanmaq və ehtirasını unutmaq yerinə ağlını tamam itirib və mələk kimi Mələksima haqqında biabırçı mahnılar oxuyur.

Xan o saat əmr etdi ki, Qasımı gətirsinlər və edam etsinlər. Bu dəfə əyanlar onu müdafiə etməyə cürət etmədilər. Bu varada Qara qazının əmrincə onun nökərləri bütün şəhərdə Qasımı çoxdan axtarırdılar. Onun edama götürüldüyünü görüb nökərlər qazıya xəbər verməyə qaçdılar. O, vaxt itirmədən xanın yanına gəldi və xandan tələb etdi ki, bacısı oğlunun edamını ləğv etsin:

– Xan! Qasımı edam etməyə necə cəsarət edirsən? Axı, o, şah nəslindəndir, sən isə adi xansan.

– O, mənim şərəfimi təhqir edib – qızıma vurulub – xan cavab verdi.

– Burada sənin şərəfinə heç bir təhqir yoxdur, – qazı etiraz etdi, qızını Qasımdan daha əsilnəsəbli və nəcabətli kimə ərə vermək istəyirsən?

– Ən nəhayət, sənin bacınoğlu dəli olmuş və sən buna əmin ola bilərsən. Müəllimin sözlərinə görə o, daima hansısa yuxulardan və vəhvlərdən danışır -deyə xan dedi.

---

1 Yəni ölüm yaxınlaşar
2 Yəni ruh mənəvi cəhətdən şikəst (əlil) olmuş könlü qırıq olan

Qazı bu əsnada xanın hüzuruna gətirilən bacısı oğluna dedi:
– Əli, xana xəbər vermişlər ki, sən dəli olmuşsan.
O, cavab əvəzinə oxudu:

**2-ci nəğmə**

Qədir gecəsində bir mətləb dilədim,
Tərəhhüm elədi mövlam mənə
İki kimsədən nur bəyan oldu,
Aşkar göründü aftab mənə,
Açıldı ruza ali rövşən oldu.
Cam ələstidən Haqq məni sirab eylədi,
Yarımın didarı məni məst eylədi,
Onnan endi bir xab mənə.
Səhsənib qalıxdım o xab məstən.
Hər mətləbim var idi dilədim Haqqdan,
Nagahan bir səs gəldi hatifdən,
Dedi: "Nə yatıfsan? Bir oyan" mənə!
Xəstə Qasımam, dəst-ras oldum,
Şahımın üzün görüb, kəmər-bəst oldum,
Rah eşqdə mən məst oldum,
Orda bəyan oldu dört kitab[1] mənə.

– Səncə, budurmu dəlilik? – deyə qazı xana müraciət etdi. Müqəddəslər ona aşıqlıq vergisi vermişlər, sən isə onu dəli adlandıraraq edam etmək istəyirsən.

Qara qazı bacısı oğlunun əlindən tutdu və apardı. Qasım dayısıgildə yaşamağa başladı, dayısı özü ona dərs verirdi və ciddi nəzarət edirdi ki, o, xanın qızı ilə görüşməsin. Üç il belə davam etdi. Qasım qəddi-qamətli bir gənc oldu və dayısının yanında bütün elmlərə sahib oldu. Mələksima məktəbdə oxu-

1. Tövrat, Zəbur kitabı, İncil və Quran-biliyin tamlığı (tamamlığı). Biliyin bütövlüyü.

mağa davam etsə də, onun ərə verilmək vaxtı gəlib çatmışdı və buna görə də o, məktəbi bir az sonra buraxmalı idi.

Günlərin bir günü Qara qazı xəstələndi və öldü. Bu, Qasıma böyük dərd oldu. Gənc oğlan üçün dərd nə qədər böyük olsa da, bununla yanaşı özünü sərbəst hiss etdi və Mələksima ilə görüşmək fikrinə düşdü.

Qasım bazara getdi bir sazbəndin dükanına girib dedi:

**3-cü nəğmə**

Usta sazbənd, gözlərinə fidayət!
Sənnən bir saz istərəm, amma saz ola.
Dİndirəndə əmran[1] dilini söyliyə,
Vəhşi bülbül tək xoş avaz ola.

Usta onu adi müştəri bilib ona ortabab bir saz verdi. Qasım onu gözdən keçirdi və onu ustaya qaytararaq dedi:

**4-cü nəğmə**

Yamanı yamana, yaxşını mərdə,
Tərifin edərəm hər düşən yerdə;
Danışmıyıb əyri, vurıya pərdə,
Gözəllərin onda işvə, naz ola.

Xəstə Qasımam, söz söylərəm mən bəyan,
Nətər tər cəsəddə dayanmış bu can.
Qiymətni xəbər alsan, tamam on tümən,
Nə onnan artıx, nə az ola.

Usta qarşısında kim olduğunu biləndə ən yaxşı sazını ona verdi. Qasım sazı götürüb məktəbə getdi. Məktəbin qapısında durub sevgilisini çox gözlədi, o isə elə bil qəsdən görünmürdü. Nəhayət, Qasım dözməyib pəncərədən tullanıb məktəbə girdi, Mələksimanın paltarının ətəyindən tutdu. Başqa uşaqlar qışqırışaraq hərə bir tərəfə dağılışdılar, müəllim

1. Əmran dili-yəhudi dili

Qasımı Mələksimanın yanında görüb xana xəbər verməyə qaçdı. Mələksima yalvararaq dedi:

– Qasım, sən nə etdin? Axı müəllim xana xəbər verməyə qaçdı. Sən Allah, çıx get! Gözlərinə qurban olum!

Qasım dedi:

– Getməyəcəyəm! Qoy məni sənin yanında öldürsünlər. Mən gəlmişəm sənin üçün saz çalım, sən isə əvvəlki kimi mənə oxumalısan.

O, çalmağa başladı, Mələksima da oxudu:

**5-ci nəğmə**

Mollamız gedip xəbərə,
Yeri get, başına döndügüm!
Düşərsən xof xətərə,
Yeri get, başına döndügüm!

**6-ci nəğmə**

Mollamız gedif xəbərə,
Getmərəm, başına döndügüm!
Qoy düşüm xof-xətərə,
Getmərəm başına döndügüm.

**7-ci nəğmə**

**Mələksima:**

Bir tərlansan, ayağı bağlı,
Sinəsi yaralı, düğünnü, dağlı;
İndi gələr vəzirin oğlu,
Yeri get, başına döndügüm!

**8-ci nəğmə**

**Qasım:**

Bir tərlanam, ayağı bağlı,
Sinəmdir yaralı, dügünnü, dağlı,

Gəlsə, öldürərəm vəzirin oğlun,
Getmərəm, başına döndügüm!

### 9-cu nəğmə

**Mələksima:**

Ərisin dağların qarı,
Tökülsün çaylara barı,
Sənsən Mələksimanın yarı,
Yeri get, başına döndügüm!

### 10-cu nəğmə

**Qasım:**

Ərisin dağların qarı,
Tökülsün çaylara, barı.
Molla Qasımın yadigarı
Getmərəm, başına döndügüm!

Budur, xanın fərraşları gəldilər və Mələksimanın yalvarış və göz yaşlarına baxmayaraq, Qasımı tutdular və saraya sürüyüb apardılar. Xan əmr etdi ki, onu edam etsinlər. Lakin onun Qasıma qahmar çıxan ağıllı bir məsləhətçisi dedi:

– Böyük xan! Mənə elə gəlir Qasım haqq aşığıdır. Belə aşıqları öldürmək və ya incitmək böyük günahdır. Daha yaxşısı onu bir sınağa çəkməkdir. Əgər o, haqq aşığıdırsa, bağlı gözlərilə Mələksimanı həmyaşıd qızların arasında tanımalıdır. Əgr belə olsa günahdan uzaq olmaq üçün onu bağışlamaq gərəkəcək. İşdi, əgər o, Mələksimanı tanımasa deməli, o, haqq aşığı deyil və onda onu edam etmək olar.

Əli xan ağıllı məsləhətə əməl etdi. Dəsmalla Qasımın gözlərini möhkəmcə bağladılar, Mələksima ilə həmyaşıd olan qırx qız gətirdilər və onları bir sırada Qasımın qabağında düzdülər. Aşıq qızların sırasından keçib Mələksimanın qabağında durdu, aldı görək nə dedi:

Bir nazənin sövmişəm məktəbxanada
Haqq kəlamın dili-əzbərdən oxurdu.
Əlinə almış eşqi-kitabını,
O, mənim dərsimi dil əzbərdən oxurdu.

Mən tanıram yarımı nəfəstən,
Ol səbəbdən könlüm düşməz həvəsdən,
Tutu kimi səda verir qəvəstən,
Bülbül kimi xoş güftardan oxurdu.

Xəstə Qasımam, kömək dilərəm mövladan,
Qəmzələrin aşiqləri alladan,
Həya eylər, hicab eylər mövladan,
Gah gizdində, gah aşkarda oxurdu.

Heyrətlənmiş xan Qasımı edam etməyə cəsarət etməsə də, onu ömrlük boyu zindana saldırdı. Qasımı zindana aparmaq üçün gözlərini açanda o, son dəfə sevgilisinə baxdı və onun başdan-ayağa qırmızı geyİndiyini gördükdə dedi:

**12-ci nəğmə**

Sada düşmüş maral təkdir
Ala gözlüyə bax, bax!
Müjganları sinəmi sipər qılmış,
Keçündür nizə bax, bax!

Hilal əbrun tökər qanım,
Qoşa xaldan qara könlüm;
Geynip al-qumaş yarım,
Çıxıbdır təzə bax, bax!

Qasım deyir, mərmər sinə,
Billur qollar, əllər xına,
İncə belli, gərdan mina,
Bu şahbaza bax, bax!

Qasımı apardılar və zindana saldılar. Onun vəziyyəti ağır idi. Gözətçilər onunla kobud davranırdılar, ona aclıq çəkdirirdilər. Lakin çox keçmədən Mələksima bir lağımatan tapdı, ona çoxlu pul verdi və o, onun evindən zindana gizli yol qazıdı. Qasım bu yol ilə öz sevgilisinin evinə gəlir və onlar gözəl söhbət və mahnılarla günlərini keçirirdilər.

Qasım zindanda sərasər beş il keçirdi. Bu zaman isə atası Mələksimanı vəzirin oğluna ərə getməyə məcbur etməkdə idi. Lakin o, bu haqda heç bir şey eş istəmirdi və o, atasına açıq şəkildə deyirdi ki, Qasımdan başqa heç kimə ərə getməyəcək. Vəzirin oğlu təhlükəli rəqibindən azad olmaq üçün Qasımın işini bitirmək qərarına gəldi. O, gözətçilərdən birini ələ aldı və o, on tümən müqabilində Qasımı zəhərləməyə razı oldu.

Lakin elə həmin gün Əli xanın yanına Nadir şahdan Qasımı onun yanına göndərmək tələbilə bir qasid gəldi. Xan qorxulu şahın əmrinə itaət etməməyə cürət etməyərək Qasımı qasidə təslim etdi.

Nadir şahın 40 aşığı vardı. O, bu aşıqları özü ilə hər gecə məclisə dəvət edirdi. Şah onu fəth etməyə Dağıstana gələndə aşıq Ləzgi Əhməd şahın bütün aşıqlarını məğlub etdi. Şahın əmrinə görə məğlub olmuş bütün aşıqlar zəncirləndilər. Bir çox aşıqlar şahın yanına gəldi, Əhmədlə yarışa girdilər, lakin məğlub oldular. Nadir şah əmr etdi ki, onların da hamısı zəncirlənsinlər. Nəhayət, şahın yaxınlarından biri ona söylədi ki, Tikmədaşda onun bir məktəb yoldaşı böyük şair var ki, Əli xanın qızına olan sevgisinə görə zindana atılmışdır. Əhmədi məğlub edə biləcək, bir adam varsa Nəsrullah şahın oğlu Molla Qasımdır. Bax, buna görə də şah İndi Qasımı tələb etmişdi.

Tikmədaşdan çıxdıqdan üç gün sonra onlar şahın düşərgəsinə gəlib çatdılar. Düşərgəyə daxil olanda Aşıq Əhməd onları qarşıladı və qasiddən gələnin kim olduğunu bildikdən sonra bu sözlərlə onu salamladı:

**13-cü nəğmə**

Xoş gördük, Dədə Qasım!
Ləbindən dodax asım.
Qurtarsan Ləzgi Əhməd əlinnən,
Gedərsən, Dədə Qasım!

**14-cü nəğmə**

Buna Qasım cavab verdi:

Ləzgi Əhməd! Dalını dağa ver!
Çox göyərmə, hirsinə qadağa ver.
Qurtarsan Xəstə Qasım əlindən,
Bir ye, beş sadağa ver!

Şaha Qasımın gəldiyini xəbər verdilər və o, onu öz çadırına çağırdı. Qasım şahı şahzadəyə layiq bir şəkildə salamladı. Qasımın davranışı və qəddi-qaməti şaha yaxşı təsir bağışladı və o, dedi:

– Bilirsənmi səni niyə çağırtdırmışam?

– Bilirəm, əlahəzrət – deyə Qasım cavab verdi.

– Əhmədlə yarışa girməyə cəsarət edərsənmi? – deyə şah xəbər aldı.

Buna Qasım belə cavab verdi:

**15-ci nəğmə**

Üç gündür çıxmışam o Tikmədaşdan,
Qapına gəlmişəm onun əlindən[1].
Ayağın toprağı qiblə qapıdan,
Sızlıyaram giribanı əlimdə.

Vəhşi bülbül tək yaman ağlaram,
Sinəm başını dügünlərəm, dağlaram,
Ləzgi kimi yüz aşığı bağlaram,
Əgər olsa süxəndanım əlimdə.

---

1 . Yəni sənin üçün canımı verməyə hazıram.

Xəstə Qasımam, kəsilif tabim,
Qızılgül tək çəkilif gülabım,
Cüzülgəş Quranım, qızıl cildli kitabım,
Üstü zərri qələmdanım əlimdə.

Şah dedi:

– Bütün bunlar yaxşıdır. Lakin sən mənə düz söylə, Əhmədlə yarışmağa qərarlısanmı?

Qasım cavab verdi:

– Qərarlıyam.

– Bilirsənmi, mən atamın qəbrinə and içmişəm ki, Əhmədə məğlub olan hər aşığı edam edim.

– Bilirəm, əlahəzrət.

Şah dedi:

– Sənə yazığım gəlir. Əgər özünə arxayın deyilsənsə yarışdan imtina et və mənim yanımda yaşa, mən səni Əli xana verməzəm.

Qasım dedi:

– Allahın köməyi ilə və siz əlahəzrətin sayəsində ümid edirəm düşməni məğlub edəm.

– İndi ki, qərara gəldin, işə başla, lakin əvvəl bir də ustalığını bizə göstər.

Qasım sazı alıb dedi:

**16-cı nəğmə**

İstərəm bir şey bünyad eyliyəm,
Şahım, sənə məlum olsun kamalım.
İgirmi səkkiz hərif hüccə eyliyəm,
Nə seçə müşteyid, nə bilə alim.

Mən bir hərifəm övlər yaradaram,
Göyərəndə dağ olsa da, basaram,
Boş qüftara hacax qulax asaram.
Dəryayi-Qulzuma tir minayəm.

Leyliyə fərzəndə, Məcnuna qardaş,
Şirinə həmtayam, Fərhada[1] yoldaş,
Adım Xəstə Qasım, mənzilim Tikmədaş.
Əsil ilə xunkaram, nəsil ilə məhələm.

Şah dedi:

– İndi sən yarışa girə bilərsən, lakin məğlub olsan məndən aman gözləmə!

Aşıqlar yarışa başladılar. Şahın və ordusunun tərifindən sonra Əhməd Qasımdan soruşdu ki, yarışı kim açacaq? Qasım birincilikdən imtina edib dedi ki, o, üstünlüyü düşməninə verməyə adət edib.

### 17-ci nəğmə

**Əhməd başladı:**

Sənnən xəbər alım, ey Dədə Qasım!
O nə şəhərdir, yerdən ərşə yolu var?
O nə qurtdur, quzular ilə gəzər,
Qurt quzuyu yeyə bilməz – feli var?

### 18-ci nəğmə

**Qasım cavab verdi:**

Sənə xəbər verim, a ləzgi Əhməd!
Könül bir şəhərdir, yerdən ərşə yolu var.
Mömün quzudur, şeytan-qurd,
Qurt quzuyu yeyə bilməz – feli var.

### 19-cu nəğmə

**Əhməd:**

O nədir ki, özü var, səri yox?
O nədir ki, ildə doğar, əri yox?
O nədir ki, qanadı var, pəri yox?
Bəs o nədir ki, qanadında xalı var?

---

1. İki məhəbbət dastanlarının qəhrəmanlarının adları.

**20-ci nəğmə**

**Qasım:**

O soxulcandır, özü var, səri yox,
O ağacdır, ildə doğar, əri yox,
Yarasadır, qanadı var, pəri yox,
O kəpənəkdir, qanadında xalı var.

**21-ci nəğmə**

**Əhməd:**

O nədir ki, lalə onu bürüməz?
O nədir ki, yaz-qış qarı ərimız?
O nədir ki, çox-az xaric eləməz,
İnsana elə fitnə qurar, feli var?

**22-ci nəğmə**

**Qasım:**

Tur dağıdır, lalə onu bürüməz,
Şahdağıdır, yaz-qış qarı əriməz,
O şeytandır, çox-az xaric eləməz,
İnsana elə fitnə qurar, feli var.

**23-cü nəğmə**

**Əhməd:**

O nədir ki, özü var, zatı yox?
O nə xələtdir ki, tikişi yox, qatı yox?
O nə şeydir ki, dəvəsi yox, atı yox,
Uzun gedər, bir tökülməz yolu var!

**24-cü nəğmə**

**Qasım:**

O kölgədir, özü var, zatı yox,
Dəri bir xələtdir, tikişi yox, qatı yox,
O, Gün, Aydır, dəvəsi yox, atı yox,
Uzun gedər, bir tökülməz yolu var.

**25-ci nəğmə**

**Əhməd:**

Sənnən xəbər alım, ey Dədə Qasım!
O nə şəhərdir, qal edər?
Nə qumaşdır, satmaq olmaz, alallar?
O nədir ki, dimdigində balalar?
O nədir ki, baldırında balı var?

**26-cı nəğmə**

Əhməd dedi:

– İndi növbə sənİndir.

Qasım dedi:

– Rəqibə ikinci dəfə də üstünlüyü vermək adətimizdir. Yenə də bir neçə sual soruş.

**27-ci nəğmə**

**Əhməd başladı:**

Sənnən xəbər alım, ey Dədə Qasım!
Yeddinci göyün neçə çərxi var?
Ab-həyat Nil mübarəkdən bir xəbər,
Başında neçə bulax, ayağında neçə arxı var?

**28-ci nəğmə**

**Qasım:**

Sənə xəbər verim, a ləzgi Əhməd!
Yeddimci göyün on iki çərxi var.
Ab-həyat Nil mübarəkdən bil xəbər,
Başında otuz bulax, ayağında yetmiş iki arxı var.

**29-cu nəğmə**

**Əhməd:**

O nə dəryadı, ləp vurmaz, bulanar?
O nə bağmandır, on iki bağı dolanar?

O nə şeydir, Allahdan sulanar?
O nə şeydir ki, gecə-gündüz gözdərində yuxu var?

**30-cı nəğmə**

**Qasım:**

Könül bir dəryadır, ləpə vurmaz, bulanar,
O gündür on iki bağı dolanar[1].
Yer üzüdür, Allahdan sulanar,
O daşlardır gecə-gündüz gözdərində yuxu var.

Qanı qaralmış Əhməd sazını yerə qoyub dedi:
– Yetər, daha sual soruşmayacağam.
Qasım dedi:
– İndi növbə mənimdi, sazını al və dinlə!

**31-ci nəğmə**

**Qasım:**

Hökümət məskənində əylənən ləzgi!
Əvvəl mənə aman hudan xəbər ver.
Ərş qabağında meyrac olunan,
Söz nə keçib güftuyundan xəbər ver.

Əhməd nə cavab verəcəyini bilməyərək başını yerə dikdi. Qasım davam etdi:

**32-ci nəğmə**

O, kimdir, açdı zərnişanı oxudu?
O, kimdir, peyğəmbərə kəfən toxudu?
O, kimdir, onun döyründə siqə yoxudu?
Nədən bəs törədi adamlar, xəbər ver!

Bu suallara da Əhməd cavab verə bilmədi və Qasım davam etdi:

1. İlin ayları.

### 33-cü nəğmə

O, kimdir, apardılar qəsaba,
Dalınca getdilər bir neçə əsaba?
Xəstə Qasım yetişibdir hesaba,
Sən də xəbər ver igirmi səkkiz daşda[1].

Əhməd bu suallara necə cavab verməyi bilməyərək qaçmaq yolunu axtarırdı. Onda şah Əhmədi edam etmək əmri verdi. Lakin Qasım ona qahmar çıxıb dedi:

– Böyük şah! Bu təhqir onun üçün ölümdən də betərdir.

Şah Qasımın sözünə qulaq asdı və zəncir vurulmuş bütün aşıqların azad edilməsini əmr etdi.

Şah ona xitabən dedi:

– Hə, şahzadə Qasım! İndi nə istəyirsən məndən istə və mən sənin hər arzunu yerinə yetirərəm.

Qasım dedi:

– Böyük hökmdar! Əgər mümkün olsa, məni Əli xanın yerinə Tikmədaşa hakim təyin et!

Şah əmr etdi ki, Qasımın Tikmədaşa hakim təyin olunması haqqında əmr yazılsın. O, onu şahlara layiq bir şəkildə mükafatlandırdı və öz üləmalarından birinə əmr etdi ki, Qasımı müşayiət etsin və Tikmədaşa varar-varmaz, onun Əli xanın qızı ilə nikahını kəssin.

Tikmədaşa gələn kimi Qasım Əli xanı yanına çağırtdırdı və görk üçün sanki onu incitdiyi üçün onu edam etməyi əmr etdi. Qasımı müşayiət edən alim ondan xahiş etdi ki, onu bağışlasın və Qasım onu bağışladı. İndi Əli xan qızını Tikmədaşın hakiminə ərə verməyə sevİndi və sevinc içində toy hazırlıqlarına başladı.

“Cavanların görüşü” gecəsində Mələksima adəti üzrə oğlanın əlini öpməli idi, lakin o, bunun yerinə üzünü küncə

---

1 Rəqib verilmiş suallara cavab verə bilməyəndə onları vermiş olan aşıq cavab verir. Lakin toplayıcıya bu nağılı söyləyən Aşıq Oruc demişdir ki, O, Qasımın suallarının cavabını bilmir.

çevirib durdu, mərasimi icra etmək istəmədi. Qasım hər nə qədər ona yalvardısa o, onu bir təbəssümlə sevİndirmədi, duruşunu dəyişmədi. O, bununla atasına edilən təhqirin intiqamını alırdı. Qasım istəyinə çatmaq üçün onda qısqanclıq hissi oyatmaq istədi. Mələksimanın Sənəm adında bir qaravaşı vardı, o, bu vaxt qapının yanında durmuşdu. Budur, Qasım sazı götürdü və qaravaşa xitabən dedi:

**34-cü nəğmə**

Gözəllərə gənə gəlhagəl oldu,
Ay allı-yaşıllı Sənəm, gəl!
Ovçu səni görəndə maral baxışlı,
Üzü büdrənmiş (bədirlənmiş) xallı Sənəm, gəl!

Canın ər yolunda pai-əndaz eylə,
Sinəm üstə söybət eylə, saz eylə,
Aşıqına işvə eylə, naz eylə,
İncə belli, siyah telli Sənəm, gəl!

Sənəm bu dəvətə sevİndi, elə Qasımın ağuşuna atılmaq istəyirdi ki, Mələksima ona tərəf qaçıb dedi:

– Ey mənfur cariyə! Sən necə cürət edib ərimi qucaqlayırsan?

O, Qasımı məzəmmət etməyə başladı. Qasım etiraz etdi:

– Sən özün günahkarsan, şala bürünmüsən və mənə də heç qulaq asmırsan. Mən “Sənəm, gəl” deyil, “Sonam, gəl”[1] oxudum. İndi ardına qulaq as.

Xəstə Qasımam, bir söz deyərəm hənəkli,
Ağ üzündə xalın bənəkli.
Nimtənə geyili, qızıl parçalı,
Yüz top birçəkli Sonam, gəl!

***Şamaxı qəzası Tircan kənd sakini Aşıq Orucun dilindən yazıya alan və tərcümə edən Kəlvin Zemski məktəbinin müəllimi Mahmudbəyov.***

1. Sənəm – qadın xüsusi ismidir. “Sonam” isə “mənim Sonam”

## M. MAHMUDBƏY

## ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. İt hürər karvan keçər.
2. İt araba kölgəsində yatar, elə bilər öz kölgəsidi.
3. İt qursağı yağ götürməz.
4. İt iti yeməz.
5. İti sel aparma.
6. İt nədi ki, tüküdə nə ola.
7. İtin dişi donuzun dərisi.
8. Özgələrə it hürər, bizə Mazandaran çaqqal.
9. Atın olməgi-itin bayramıdı.
10. Bəy verən atın dişinə baxmazlar.
11. Özgə atına minən tez düşər
12. Peşəngin axırı torbakeş olar.
13. Eşşəgə min, ata çatıncan.
14. Eşşəg nə bilir zəfəran nədi.
15. Eşşəyə dedilər mərifətini görsət, yıxıldı külə ağnadı.
10. Eşşəyə anqırığı xoş gələr.
11. Eşşəgi minmək bir eyib, düşmək iki eyib.
12. Özü eşşəg çulu məxmər.
13. Darıya girən donquz yabanı özünə qəbul eylər.
14. Qurt nə bilir qatır bahadı?!
15. Qurtun adı “yedi”,yesə də yeməsə də.
16. Qurt karıyanda köpəgin gülüncü olar.
17. Qurtun adı bədnamdı, çaqqal gödən yırtır.
18. Meşə çaqqalsız olmaz.
19. Ölmüş dəvənin dərisi də eşşəgə yükdür.
20. Ölmüş eşşəgi axtarır nalını çıxarmağa.
21. Qoyunu qoyun ayağınnan sanallar (asarlar) keçini keçi ayağınnan.
22. Qurt keçiyə dəyməsə, Məkkəyə gedər.

23. Keçi hayanda? Qaya hayanda?
24. Çobanın könlü olsa təkədən pendir tutar.
25. Öküzün böyüğü pədəgə qalıf.
26. Qonşunu iki öküzdü istəməsən, özün bir öküzdü olmassan
27. Öküzün cütdü-işin bitdi, öküzün taydı-işin zaydı.
28. Dəvə nalbəndə baxan kimi baxır.
29. Anası çıxan ağacı qızı budaq-budaq gəzər.
30. Anasına bax, qızını al, qırağına bax, bezni al.
31. Evdə oturanda kiçik qız, ərə gedəndə böyük qız.
32. Evdə iki arvad olanda, ev süprülməmiş qalar.
33. Arvadı əri saxlar, pendiri dəri.
34. Bəynən qonax olanın darvazası gen gərək.
35. Tox it ac bəydən yaxşıdı.
36. Bir günün bəyligi də bəylikdi.
37. Bildirçinin bəyligi darı coluncandı.
38. Toxun acdan nə xəbəri.
39. Ac elə bilir hamı acdı, tox elə bilir hamı toxdu.
40. Dövləttidən xeyir kordan mazarat.
41. Dövləttiyə bəli diyəllər, kasıba dəli.
42. Vurmadına bax, daşın böyüğün tapır.
43. Qapında al, qapında sat.
44. Şah da bilir – Şirvan sünnüdü.
45. On iki imama yalvarıncan bir Allaha yalvar.
46. On iki imamı yeyib, gözünü axır zamana tikib.
47. Nə tökərsən çanağına, o çıxar qaşığına.
48. Pis olsun, pis de olmasın.
49. Ya dövlət başı, ya quzqun leşi.
50. Ağıl yaşda deyil, başdadı.
51. Dəliyə hər gün bayramdı.
52. Dəliyə yel ver, əlinə bel.
53. Dəlidən doğru xəbər.

54. Dəli qırmızı sevər, gic sarı.
55. El dəli olsa mollaya gedər, molla dəli olsa, kimə gedər.
56. Bir dəli quyuya bir daş atdı, on ağıllı onu çıxarda bilmədi.
57. Yer yiyəsiz qalanda donquz təpəyə çıxar.
58. Dərə xəlvət-tülkü bəd.
59. Qoyun olmayan yerdə keçiyə Kərəməddin ağa deyəllər.
60. Qəriblikdə sallan, misgər bazarda qışqır.
61. Pişigin əli ətə çatmaz, deyər iylənmişdi.
62. Evin xoruzu bayırın toyuğu.
63. İt itnən dalaşdı, yolçunun yolu rast düşdü.
64. Əti yeməz, suyuna əppək doğruyur.
65. Ucuz ətin şorbası olmaz.
66. Ucuzdan baha yoxdur.
67. Qarğa! Məndə qoz var.
68. Özgə danasını bağlayanın çatısı əlində qalar.
69. Kasa düşdü, ya cingildədi.
70. Sənə göyəndiyim dağlar, sənə də qar yağdı!
71. Ağacı acı, dambulu şirin.
72. Bağda ərik varıdı, salam əleyk varıdı, bağdan ərik qurtardı, salam əleyk qurtardı.
73. Dəvənin nəyi düzdü ki, boynu da düz ola.
74. Ac qarnım dinc qulağım.
75. Evində yox urvalıx, könlünnən keçir darğalıx.
76. Hazırın naziri, bişmiş ətin darğası.
77. Koxa mənəm-nobat səndədi.
78. Dəyirmanda dənim yox, şağad üstə başımı niyə yarırsan.
79. Ay mənnən olsun, uldızın gözünə barmağım.
80. İlanın ağına da lənət qarasına da.
81. Tapan tapanın olsa, çöldə çoban bəydi.
82. Dost başa baxar, düşmən ayağa.

83. Hər aşiqin bir dövranı var.
84. Aşıq gördüğün çağırar.
85. Aşıqın sözü qutaranda "yaram, yaram" çağırar.
86. Altmışda zurna oğrənən qəbirdə çalar.
87. Göz görməz üz utanmaz.
88. Kor kora kor deməsə, korun bağrı çattar.
89. Kor gördüğünü deməz, kar eşitdigini.
90. Gözdə olan, köyüldə olar.
91. Gözdən iraq olan, köyüldən iraq olar.
92. Ayi kim gördü? Kor Xaçatur.
93. Ağası gücdü olanın qulu asi olar.
94. Tək əldən səs çıxmaz.
95. Palaza bürün, elnən sürün.
96. Elinən Allah Əkbər.
97. Cərgədən qalan keçəl olar.
98. Şəhəri gördün gözü qıpıq, Sən də ol gözü qıpıq.
99. Keçəl halva yeyər puluna minnət.
100. Musurmanın sonki ağılı.
101. Uşaqlar cəhənnəm, mal qarançadır.
102. Kosanı gün batannan sonra aldatmaq olar.
103. Kosa saqqal götürməyə getmişdi, buğunu da üstəlik qoydu.
104. Kosaya hərə bir tük versə, kosa da saqqalı olar.
105. Yoldan irəli yoldaş, evdən irəli qardaş.
106. Qonşu qonşuynan tən gərək tən olmasa gen gərək.
107. Yolçu yolda gərək.
108. İtinən yoldaş oldun, daşı əldən buraxma.
109. Cəhənnəmə gedən yoldaşını çox istər.
110. Qırılan qoşunnandı, gedilən yoldan.
111. Dəyirman nobatınan işlər.
112. Nə şaha baxır, nə xutkara.
113. Şahın da qaraçıya işi düşər.

114. Tay əyməsə, daş qəribliyə düşməz.
115. Tez durannan tez evlənən peşiman olmaz.
116. Kürə baxanın ağlı olmaz.
117. Qaraya baxanın ağlı az olar.
118. İhtiyara söhbət haramdı.
119. Özgənin malı tülkü, bizim də Qənbərimiz.
120. Bilsəm babam öləcə, qulağı dolusu darıya satardım.
121. Kiminin əvvəli, kiminin axırı.
122. Kiminin əvvəli oluncan, axırı olsun.
123. Nə əkdim, nə biçdim, hazırca kökə tapdım.
124. Əkəndə yox, biçəndə yox, yeyəndə ortax qardaş.
125. Ətə pul verməz, küftənin böyügündən yapışır.
126. Dəyirmanın yaraşığı torba da dar çıxdı.
127. İş işi görsədər.
128. Neynirəm qızıl teşti ki, içinə qan qusaram.
129. Yumurtadan yun qırxır.
130. Cidanı cibdə gizdətmək olmaz.
131. Öz gözündə tiri görməz özgə gözündə deyir qıla bax.
132. Kor burda ya Bağdadda.
133. Burda mənəm, Bağdadda kor xəlifə.
134. Bal istiyən balasın da gərək istəsin.
135. Bal istədin bəlaya düşdün.
136. Balı da sənin bəlası da.
137. Bal satan barmax yalar.
138. Qonaq qonağı söyməz, ev yiyəsi hər ikisini.
139. Qonaq bu ildə burdadı, yınqi ildə sərbəsər.
140. Qonaq ev yiyəsinin tərlanıdı: harda istər, orda bağlar.
141. Kor koru tapar, su çuxuru.
142. Gedənə yoldaş, gələnə qardaş.
143. Cənginin qazandığı ənnigə kirşana gedər.
144. Su da bir yerdə dursa, iylənər.
145. Balıx sudan çıxdı ya öldü.

146. Tısbağanı ya öldür, ya arxası üstə çevir.
147. Tısbağa özü yeriyə bilməz, damını dalına götürür.
148. Tısbağa qınınnan çıxdı, qınını bəyənmədi.
149. Yağışdan çıxdım yağmura düşdüm.
150. Yaşdan çıxdım yalova düşdüm.
151. Yastanmışın yağışdan nə baki.
152. Araz aşığımdan, Kür topuğumnan.
153. Kənkanın vaciaddarı qızıl öküzdü.
154. Gizdində dügə aşkara doğar.
155. Su səngi suda sınar.
156. Vuran igid dayısınnan soruşmaz.
157. Adın nədir? – “Rəşid” can de can eşit.
158. Uzun adamın ağılı topuğundadı.
159. Uzun-dıraz biynamaz xeyrə şərə yaramaz.
160. Qonşu, qonşu, gəl savaşaq.
161. Qonşunun çörəyi qonşuya borcdu.
162. Qonşuya ümüd olan şamsız qalar.
163. Qonşunun şamıynan işıx olmaz.
164. Qonşun pisdi, köç qutar, dişin ağrıyır çək qurtar, başın ağrıyır öl qutar.
165. Beş barmağın beşi də bir təndə deyil.
166. Qeyişmiyən yerdən qan çıxardar.
167. Çıxan qan damarda durmaz.
168. Şeytan başqa, cin başqa.
169. Çörəyi çörəkçiyə ver, bir çörək də üstəlik.
170. Yeməsə, yetər.
171. Hürər tutmaz.
172. Dərziyə köç dedilər, ignəsin yaxasına sancdı, qayçısın belinə.
173. Axan su yolu tapar.
174. Arxa su gəlib, ümüd var, bir də gələr.
175. Tamahkarı yalançı aldadar.

176. Yalançının evi od tutdu, yandı, heç kim inammadı.
177. Arığa batman da yükdü.
178. Nə qoyuna gedir, nə qapıda durur.
179. Dama-dama göl olar, dada-dada heç.
180. Qaşıx qaşıx yığdım, çömçəynən dağıtdım.
181. Çömçə tutan bizə sarıdı.
182. Papaxçının papağı olmaz, çuxaçının çuxası.
183. Çünki oldun dəyirmançı, çağır gəlsin dən haray.
184. Dəyirman öz işin işdər, çaxçax baş ağrıdar.
185. Hər göldən bir qurbağa.
186. Çarıx yırtar, iş odur haqqa var.
187. Əvəl dəvəni usarla, sonra Haqqa ismarla.
188. Hərəkət mənnən, bərəkət sənnən.
189. Kor nə istər? İki göz-biri əyri, biri düz.
190. Ər arvad savaşdı, əbləhlər inandı.
191. Yay gününün yağışı – ər arvad savaşı.
192. Nə ağacdan təndir, nə kürtdən övliya.
193. Pir mənimsə, kəramətini mən bilirəm.
194. Ustadına kəm baxanın gözünnən qan damar.
195. Xain xoflu olar.
196. Oğru it xoflu olar.
197. Dəvədən düşüb, höthötünnən düşmüyüb.
198. Acdıx oyun örgədər.
199. Ac toyux yuxusunda darı görər.
200. Acın qurşağında əppək durmaz.
201. Ac qılıca çapar.
202. Oğru elə bilir hamı oğrudu, doğru elə bilir hamı doğrudu.
203. Biz oğru oldux-aydın.
204. Oğru ol, insafını əldən qoyma.
205. Oğru qalana yanar, ev yiyəsi gedənə.
206. Oğrudan qalanı rəmmal aparır.

207. Oğrunun malı oğruya halaldı.
208. At kimİndi? Minənin.
209. Məscit tikilməmiş kor əsasını dayadı.
210. Qatıx süzülü şorı qalar, ayran süzülü nəyi qalar?
211. Uşax atasının gücünü bilməz.
212. Tüklü motal pendiri yaxşı saxlar.
213. Pulum cibimdə, ağlım başımda.
214. İstərəm dosta varam, əlim boş, üzüm qara.
215. Ağıznan plov bişməz-yağnan düyü gərək.
216. Başmax palçıxsız olmaz.
217. Başmax cütdənəndə bilinər.
218. Kasıb xeyrin bilsə məxmər geyər.
219. Kasıbı dəvə üstündə də büvə vurar.
220. Adamı başdan, ağacı yaşdan.
221. Heç kəs ayranına turş deməz.
222. Ağacın meyvəsi olanda, başını aşağı salar.
223. Bir ağacın kölgəsində bir sürü yatar.
224. Piyada attıya həmişə gülər.
225. Nə əkərsən, onu biçərsən.
226. Çayın daşı, çölün quşu.
227. Hamam suyunan dost tutur.
228. Oddan kül törər.
229. Ot kökü üstə bitər.
230. Mənim bişmiş aşıma su calama.
231. Ağzına çullu tazı sığışmır.
232. Tazıya deyir-tut! Dovşana-qaç!
233. Yıxılana balta çalan çox olar.
234. Yay əkinçi, qış dilənçi!
235. Yay kasıbın həm atasıdı həm anası.
236. Pişik balasın istədiyindən yeyər.
237. Malını yemiyənin malını özgə yeyər.

238. Əbləh odu dünya üçün qəm yey: Tanrı bilir kim qazanar kim yeyər.

239. Keçinin qoturu bulağın gözünnən su içər.

240. Qəssab piy hayında, keçi can hayında.

241. Keçinin əcəli dolanda çobanın ağacına sürtünər.

242. Zirək quş dilinnən tora düşər.

243. Qoyma xaldan xal olmaz, xal özü əsli gərək.

244. Döymə özgənin qapısın, döyəllər öz qapını.

245. Öz qədrini bilmiyən özgə qədrin heç bilməz.

246. Allah dəvəyə qanat versəydi, dam-daşı dağıdardı.

247. Dəvə oynuyanda qar yağar.

248. Yer qatı, göy iraq.

249. Uşağa söz buyur, özün dalınca get.

250. Meyvənin yaxşısını ayı yeyər.

251. Allah dağa görə qar verər.

252. Söhbətin şirin yerində yerməni gəldi: "Allah saxlasın!".

253. Yerməniyə dayı deyərəm işim xatrası içün.

254. Yaxşı oğul nenər ata malını, pis oğul nenər ata malını.

255. Gamışun balasının quyruğu ağ (olar).

256. Əzəldən var idi hüsnü cəmalı, İndi oldu dəli Bayramalı.

257. Gözəlağa çox gözəl idi, çiçək də çıxartdı.

258. Ağa nəzərəm, belə gəzərəm.

259. Yağmasa yağış-bitməz qamış.

260. Harda qamış-orda gamış.

261. Ağanın malı gedər-muzdurun canı.

262. Pis günün ömrü gödək olar.

263. Yaxşı günə dözməyən, yaman günə heç dözməz.

264. Havayı sirkəbaldan şirİndir.

265. Böyüklərdə zor olar-yalan olmaz.

266. Nisyə girməz kisiyə.
267. Bugünki işini sabaha qoyma.
268. Gec kəsər, karı(?) kəsər, bir məzlumun ahı səni.
269. Səbrilə-halva olar ay qorasınan, bəsləsən atlas olar tut yarpağından.
270. Molla Nəsrəddin o qədər ölü oldu ki,bir oyuç halva da yeyə bilmədi.
271. Adam xain olmasa, bağ çəpəri nenər?!
272. Bostanda yemiş olanda, bostançı kar olar.
273. Bağdakı bağmanın malıdır.
274. İt qulağını kəsənnən qorxar
275. İt qulağı əppək eşitdi.
276. Oğrunun yadına daş salma.
277. Quyu qazan əvvəla özü düşər.
278. Gen qazan, dərin qaz-özün düşərsən.
279. Gəryəməzi saxla gərəkli günəcən.
280. Ağac acı-can şirin.
281. Adın nədir? –Daşdəmir-Yumşalısan, yumşalı
282. Şər deməsən, xeyir olmaz.
283. Sabahın şəri axşamın xeyrinnən yaxşıdır.
284. Sabahın yaloyu – axşamın pulovu.
285. Kasıb ət tapanda od tapmaz, od tapanda ət.
286. Doğru söz acı olar.
287. Adamların qorxusunnan doğru söz demək olmur, Allahın qorxusunnan yalan.
288. Qorxulu gözə çöp düşər.
289. Qada cavanı tapar.
290. Hər işimiz qurtarmışdı, qalmışdı saqqal darağı.
291. Nə sən gələsən, nə səfər ayının axır çərşənbəsi.
292. Yağ yağa qoşdu, yarmalar yavan qaldı.
293. Ağacı içinnən qurt yeyər.
294. Ağacı kəsərsən, dibinə düşər.

295. Yer qulaxlı olar.
296. Cücə səbət altında qalmaz.
297. Ağ at arpa yeməz?
298. Nə atı yarğalayana, nə arvadı göyçəyə yoldaş olma.
299. Eşşək üşşəyə borc qaşır.
300. Yaxşı gündə yad yaxşı, yaman gündə vay qohum.
301. Yanan da mən, yaman da mən.
302. El içün ağlayan gözdən olar.
303. Abdal! Qar yağır – durmuşam titrəməyə.
304. Özi içün əriştə kəsə bilməz, özgiyə umac oyar.
305. Dərdi verən, dərman da verən.
306. Əzəl arxı tullan, sonra bərəkəllah de.
307. Suya girməmiş çirmənib.
308. Qəbristana gedən ölü geri qayıtmaz.
309. Sirkə tünd olar öz qabını çatdadar.
310. Özümə usta desünlər, arvadıma usta-zən!
311. Qaz vur qazan doldur, sərçədən nə olaçax.
312. Yeyərsən qaz ətini, görərsən ləzzətini.
313. Halva, halva deməknən ağız şirin olmaz.
314. Oğlan öyünnən xəbər yoxdı, qız öyündə toydur.
315. Balıx istəyən ....... suya qoyar.
316. Bağ qıyana salxım qıymax istəmir.
317. Gözəl eyibsiz olmaz.
318. Gözəl görmək savabdur.
319. Çox tez gəlifsən, bir az qapının dalında dur.
320. Südə gəldiyi yetməz, sərnici də dalında tutur.
321. Xeyrat babamın gərək, toy özümün.
322. Həməşə şaban idi bir qoy ramazan olsun.
323. Hamıya adət, oldu bizə bədət.
324. Yoxsulun üzü qaradır.
325. Ya səysən yaşa, ya doxsan, axrı bir gün yoxsan.
326. Çox gülən çox ağlar.

327. Uşağı oxudar atanın kəsəsi, ananın kasası.
328. Beykarlıqdansa çulfalıx.
329. İşin yoxsa, zamin dur.
330. Hər kimin ilki dursa, mülkdə durar.
331. Yuxarı koymıllar, aşağıda mən oturmıram.
332. Yanında yatdı, palçığa batdı.
333. Kasa aşdan irəli olur.
334. Tək otu, təknə qaşı.
335. Elə köç, köçünə buzoy qatışmasın.
336. Köhnə yurtun qədrini təzə yurtda biləllər.
337. Ölən inək südlü olar.
338. Gəzən ayağa daş dəyər.
339. Gündüz gəzər ovanı, genə sızıllar dabanı.
340. Suyun lal axanı, adamın yerə baxanı.
341. Dolu tüfəng birni qorxudar, boş ikisini.
342. Xancal yarası sağalar, dil yarası sağalmaz.
343. Cücəni payızda sayallar.
344. Gəzən gəzməsə dözə bilməz.
345. Erkəyi hal aparmaz.
346. Südnən girən sümüknən də çıxmaz.
347. Doğru diyənin başı keçəl olur.
348. On ölç bir biç.
349. Öküzün kaşkasını qovallar.
350. El gözü tarazıdır.
351. El ağzı faldır.
352. Saman uçdu-zaman öldü.
353. İgit canlı, ət qanlı.
354. Ov danasınnan öküz olmaz.
355. Qızıldan çarıx geysən, genə adı çarıxdır.
356. Ala qarğa da balasın söyər.
357. Nə üstündə un oldum, nə altında kəpək.
358. Özgələrinki gedə gedə ipək olur, bizim ki köpək.

359. Tərlan yerini sar tutmaz.
360. Qaraquş sümüyü ölçər udar.
361. Qazanc qudurdu, mayasını da yedi.
362. Yad itin quyruğu qıslı olur.
363. Arxalı köpək qurt basar.
364. Dul arvad yetim saxlar, naxırçıya minnət qoyar.
365. Alim olmaq asandır, adam olmaq çətİndir.
366. Aldım qoz, satdım qoz-bizə qaldı çıq-çıq.
367. İki fındıq bir olsa, bir qozun başını yarar.
368. Qaşını düzəltdigi yerdə, gözünü çıxartdı.
369. Az ye bir nökər tut.
370. Biz ağa nökəriyik, badımcan nökəri doğulduq.
371. Kasıb pul tapdı, yer tapmadı qoymağa.
372. Ağır otur,batman gəl.
373. Ağlamıyan uşağa süd verməzlər.
374. Gəmidə oturuf, gəmiçiynən savaşır.
375. Subay idim-sultan idim, adaxlandım xan oldum, öyləndim xandan oldum.
376. Subaylıq sultanlıxdır.
377. Yeyin at özünə qamçı vurdurmaz.
378. Ayı meşədən küsüp meşənin xəbəri yox.
379. Dövə gördünmü? – görmədim.
380. Qoyunun yaxşısı gedib, gici qalıb, adamın yaxşısı gedib bici qalıb
381. Sulusun! Sən yalama, mən yalaram.
382. Qapıya gələn, oçəridə qalar.
383. Yarı hənək, yarı dəyənək..
384. Hənək, hənək-axırı dəyənək.
385. Dostinən ye, iç, alış-veriş eləmə.
386. Sərçədən qorxan darı əkməsin.
387. Əl əli yuvar, əl də üzü.
388. Uçux ev xarabasında bilinər.

389. İstiyənin bir üzü qara, vermiyənin iki üzü.
390. Bostana dadanan eşəgin qulağı və quyruğu olmaz.
391. Burun-qulaq başa sadağa olsun.
392. Sadağa sarıdan çıxmaz.
393. Əvvəla mecidinin içərisi, sonra bayrı.
394. Nə əmmirəm nə də əmmişdirmirəm..
395. Verən əl alan əlin üstündə olar.
396. Küsülü qardaş! Gəl yükü çatax, genə küsüllük olsun.
397. Arım var, arım eşşək arısı!
398. Şah budaqın bağı var, Baratın dəyirmanı.
399. Bağda görsən, budağa sarı.
400. Olmasın xoca Vahidin bir bağ ipəyi!
401. Dadanırsan dolmaya,bəlkə bir gün olmaya.
402. Ardında yaxşı yer eyliyibsən, baqqal armud versə.
403. Yaxşılıqa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıx hər kişinin işi deyil.
404. Bir tikəyi bilmiyən, min tikəyi heç bilməz.
405. Getdim gəzdim İranı, cənnət gördüm Turanı.
406. Güllə mənnən süyüşdü ya yoldaşıma dəydi, ya saman çuvalına.
407. Olan oldu, torba doldu.
408. Ayrana gəl, şora gəl, bundan sonra-cəhənnəmə gəl, göra gəl.
409. Günortadan sonra bal aqcamacan.
410. Bir ac qudurur, bir yalavac.
411. Başına gələn, başmaqçı olar.
412. Qurunun oduna, yaş da yanar.
413. Oxunu atıp, yayını gizləmə.
414. Hər işini bab eylə, görən desin ha beylə.
415. Qul xatasız, ağa...... olmaz.
416. Acığın gəlir çəpər çək, xoşun gəlir qəlyan çək.
417. Toyux anasından süd görmüyüb.

418. Sən bizim nəhrəmizi çalxa, mən gedim bəylik öyünün nehrəsini çalxalamağa.

419. Çıxmıyan cana ümüd çoxdur.

420. Atı at yanına bağlarsan həmrəng olmasada həmxuy olar.

421. Tikə üstündə dost olan, il uzunu küsülü olar.

422. Yanığın nəyi var, yoluğa versin.

423. Çeynənən saqqız çürüyər.

424. At qazanar, eşşək yeyər.

425. Əzizim öyünə get əzilə-əzilə.

426. Köhnə şəhəri çuxurda görüb[1].

427. Dünya bir yorğun oydur, hər gələn bir dəm oyxar.

428. Süleymana qalmıyan görəsən dünya, kimə qalacax?

429. Ovalar-bizə, biz kimə?

430. Ovalar aşırı it hürməz.

431. Köçə-köçdə malını saxla, qaç-qaçda başını.

432. Mən dedim daza-daza, özünü qoydu naza.

433. Ehtiyat şərtdəndir.

434. İyitin iyitdən nəyi artıxdır?-ehtiyatı.

435. İyitlik ondur doqquzu gözə görünməmək, biri qaçmak.

436. Yaxşı iyit dayısına oxşar.

437. Aləm aləm ilə olsa, keçəl xalam ilədir.

438. Ölüm Allahdan, qəbir-vəqif, kəfən-Məmməd Cəfərdən,-niyə ölməmək?!

439. Gözləmədiyim yerdən dovşan çıxar.

440. İştah diş altındadır.

441. Utancağın öyladı olmaz.

442. Aşına, aşına, çıxdı ocax başına.

443. Bayırım........yandırır, içərim özümü.

---

1. Köhnə şəhər-Şamaxı

444. Sambalı xoş, içərisi boş.
445. Nökərin yoxdur, həyətin poxdur.
446. Can sənin cəhənnəm Tanrının[1].
447. Ətin, aşın yeyilsin, qonağın gileyli qalsın.
448. Dərgahın qapısı açıx olanda, köpəyin yuxusu gələr.
449. Mecidin qapısı açıx oldı, itin həyasına nə?!
450. Utanmasan oynamağa nə var.
451. Gülmə qonşuya, gələr başına.
452. Məni sayanın quluyam, saymayanın ağası.
453. Puldan qonşuya pay olmaz.
454. Mən deyirəm axtayam, bu soruşur: "oğlun, uşağın, nəyin var!"
455. Adam var adamların naxışıdır, adam var heyvan onnan yaxşıdır.
456. Örkən nə qədər uzun olsa, doğanaqdan keçər.
457. Ərə getdi, tayım tuşum yerdə qaldı, yasar başım.
458. Naxırçı qızı naxırçı çörəyi arzılar.
459. Hər kəs ocağın odu özünə sarı eşər.
460. Molla halva gördü Quranı unutdu.
461. Yanlış da bir naxışdur.
462. Qaçağan dana muzunu bərkidər.
463. Xəstə tələsir, yemiş öz vaxtındadır.
464. M........ mismar eyliyən Allah var.
465. Nə olsa olsun kür keçmək içində olsun[2].

---

1. Necə istəyirsən elə də elə
2. Günlərin bir günü Gəncə xanı gürcü çarı tərəfindən əsir alınmışdı. Şirvanın, Şəkinin, Qarabağın və Gəncənin xan və bəyləri kürün sol sahilində, Mingəçevir keçidinin(bərəsinin) yaxınlığında toplanıb xanı azad etməyin yolları haqqında məsləhətləşirdilər. Lakin bəylərin çoxu yürüşdə iştirak etmək istəmədilər, yalnız Şəki Şirvan xanı Hacı Çələbi, bir neçə bəylə yürüşdə israrlı idilər. Əks tərəfin rəhbərliyi hörmətli qocanı ─ Hacı Çələbini incitmək istəməyərək, ondan xahiş etdilər ki, onlara öz aralarında məsləhətləşməyə izin versin. "Gedin məsləhətləşin lakin sizin qərarınız necə olursa olsun Kürdən keçmək mütləq

466. Hər oxuyan Molla Pənah olmaz, hər qatırçı Murad.
467. Tat ata mİndi tarısını tanımadı[1].
468. Tatı qoy qonaq ol.
469. Tatın...........
470. Qışqı gücdü olanda tat bacadan kaçar.
471. Keçəl əlac bilsə, öz başına eylər.
472. Tarı mənəm, yağmanam[2].
473. Ağıllınız kimdir? "Qavaqkı zincirri"[3].
474. Əyaminda düşər şəmbəyə Novruz.
475. Ova köçüf, yurf qalıf.
Kəlvin məktəbinin müəllimi Mahmudbəyov.

---

qərarlar arasında olmalıdır" deyə Hacı Çələbi onlara dedi. O vaxtdan Hacı Çələbinin sözləri atalar sözü olmuşdur.

1. Tatarlar Şamaxı uyezdinin Koşun bölgəsində, Şamaxı uyezdi ilə həmsərhəd Quba uyezdinin bir hissəsində və Göyçay uyezdinin bir neçə kəndində (Lahıc və.s) yaşayırlar.

2. "Tarı" sözü hal-hazırda tək Allah mənasını verməkdədir. lakin bu atalar sözündə o ümumiyyətlə Allah mənasında işlənmişdir. "Tarı" sözü bütpərəstlik Allah mənasında bir çox hallarda işlənməkdədir. Məs, çoban sürüsünün söyərkən deyir: "Sənin tarın lənətə gəlsin" və ya "Tarın ölsün", bəzən hətta sürünün tarısını da söyür. Uşaqlar oynamağa çəmənə deyir: "Oynamağa gedin! Elə gözəl hava var ki, tarının özü də oynamaq istər"

3. Dəlilərə zəncir vururlar. Əgər ağlı başında olana zəncir vurmuşlarsa başqaları necə olmalıdırlar? Bu atalar sözünü başqa cür açıqlayırlar.

## 20-ci buraxılış, 1894-cü il

# ZAXAROV A. ZAQAFQAZİYA TATARLARI QADINLARININ EV VƏ SOSİAL MƏİŞƏTİ

Batum peşə məktəbinin müəllim-nəzarətçisi A.Zaxarovun məqaləsində 19-cu əsr Azərbaycan cəmiyyətində azərbaycanlı qadınları burada tutduqları yerdən və onların sosial vəziyyətlərinin dərin və ətraflı təhlilindən bəhs edilir. Müəllif azərbaycanlı qadının həyatının uşaqlıq çağından başlamış evliliyədək olan bütün mərhələlərini təsvir etmiş və məsələ ilə bağlı müəyyən nəticələrə gəlmişdir. A.Zaxarovun məqaləsi həm də folklor və etnoqrafiyamız baxımından əhəmiyyət daşımaqdadır. Müəllif burada Azərbaycan foklor və etnoqrafiyasından bəzi örnəklər də vermişdir. Rus dilindən tərcümədə olan örnəklər böyük ehtimalla elə müəllifin özü tərəfindən Azərbaycan türkcəsindən rus dilinə tərcümə edilmişdir. Belə ki, məqalədə verilmiş (gətirilmiş) bəzi dialoqlardan çıxış edərək belə bir qənaətə gəlmək olar.

Müəllifin Azərbaycan folklor janrlarından inanclar, sınamalar, bayatılar, beşik nəğmələri, vəsfihallar, aşıq yaradıcılığı, dastanlarla və s. bağlı müşahidə və qeydləri maraq doğurmaya bilməz. Xüsusi ilə onun beşik nəğmələri söyləyən bir azərbaycanlı qadınla görüşü və kiçik söhbətinin təsviri təkcə bu nəğmələrin deyil, bayatıların da yaranması mexanizmi, şəraiti cəhətdən də diqqət çəkicidir.

Aşağıdakı Azərbaycan folkor mətnləri rus dilindən sətri filoloji tərcümədə müəllifin müəyyən janrla məsələsi ilə bağlı qeyd və müşahidələri ilə verilir.

## İNANCLAR, SINAMALAR

Tatarlar inanırlar ki, əgər zahıya kişi libası, xüsusilə də, tatarların rəyincə şeytana (tatarlar əmİndirlər ki, uşağın

doğuşu şeytanın isə müdaxiləsi qarışması olmadan baş vermir) yaxın olan kafirin libası geydirilsə, mütləq oğlan uşağı anadan olacaqdır.

* * *

Bir çox yerlərdə kişilər evlərinin yastı damlarının üstünə qalxaraq tüfəng və tapançalardan atəş açırlar ki, beləliklə yeni bir möminin dünyaya gəlməsini heç cürə istəməyən şeytanı qorxutsunlar.

Tatarlar belə bir inanc vardır guya ana bətnində uşaqla bərabər dünyaya gəlməmişdən uşaqları yeyən bir əjdaha da vardır. Əgər ana bətnində uşağı boğmaq ona müyəssər olmursa o, caynaqları ilə ondan yapışaraq onun qanını sormağa çalışır. Lakin bu vaxt mamaça uşaqdan ayıraraq onu yeyilmək üçün itlərə atır. Deyilənə görə bu qorxunc məxluqun çox kiçik ayaq və əlləri açıq ağızlı çox böyük başı vardır.

Tatar qadınlarının söylədikləri beşik nəğmələri müxtəlifdir. Örnək olaraq onlardan ikisini gətirərəm.

## BEŞİK NƏĞMƏLƏRİ

Tatar qadınları müxtəlif beşik nəğmələri oxuyurlar:

a) Oğlanlar üçün oxunan beşik nəğməsi.

b) Qızlar (üçün) oxunan beşik nəğməsi.

Beşik nəğmələri olduqca müxtəlifdir və hər ana öz uşağının beşiyinin yanında öz həyatının şərtləri (şəraiti) şərtlərindən çıxış edərək (şərtlərini düşünərək) nəğmələr yaradır və ya həmin dəqiqədəki əhval-ruhiyyəsindən çıxış edərək ( uyğun olaraq nəğmələr qoşur).

Bir dəfə mən çox böyük qoz ağacının kölgəsi altında dizləri üstündə öz uşağını yırğılayaraq zümzümə edən ( pəsdən) astadan ona nəğmələr oxuyan bir kəndli tatar qadını gördüm (застать.) Onun nəğməsində acı taleydən şikayət ifadə edilirdi, lakin bu poetik şəkilə salınmış idi (poetik

şəkildə) ifadə edildim və o, elə canlı boyalarla onun sevinsiz ( ürək açmayan) taleyini təsvir edirdi ki, mən bir sözü belə ötürməkdən (buraxmaqdan) belə qorxaraq mən tərpənmədən duraraq onun nəğmə oxumasını qurtarmasını (onun nəğməsini oxuyub qurtarmasını) gözləyirdim. Mən həmən nəğməni yazıya almaq düşüncəsi ilə yaxınlaşdıqda və nəmin məni təkrar oxumasını xahiş etdikdə o, təəccüblə mənə baxdı, başını buladı və kəskin şəkildə dedi ki, öz nəğməsindən yadında heç bir şey qalmayıb ( xatırlamayır). O, dedi:

– Məgər uşağa söylədiyini və ya ağlına gələni yadda saxlamaq mümkündürmü?

Məlum oldu ki, o, bu nəğməni döşdən ( bədahətən) söyləyirmiş.

**Beşik nəğmələri**

Yat, əziz oğlum, lay, lay oxuyum[1]
Yat, qəşəng ağam, lay, lay oxuyum
Ayaqlarının tozuna mən qurban olum
Gözlərini bağla, padşahım mənim!
Bəd nəzərdən və bəd ruhlardan
Sənə molladan tilsim almışam
Sənin bütün yatağına güllər döşəmişəm
Əmin Xorasanda, atan isə haccda
Sənə zərbaftalı araxçın almışlar.
Sənə kəmər, güləbətinli arxalıq almışlar
Yat, qəşəng oğlum, lay,lay oxuyum
Çinar boylu cavan oğlan olacaqsan
Düşmənlərim paxıllıqdan partlayacaqlar
Sən vəzirgan varlı tacir olacaqsan.
Düşmənlərim paxıllıqdan partlayacaqlar?

1 Lay, lay, "lə ilahə illəl-lahın (Allahdan başqa ilahə yoxdur)ın qısaldılmış .əkli olub rus "bayuşki bayusun"a uyğun gəlir.

Sən bəzirgan, varlı tacir olacaqsan.
Tiflisə, Moskvaya və Təbrizə gedəcəksən
Yat, gözəl sultanım lay, lay oxuyum

**Qız üçün oxunan beşik nəğməsi**

Yat, qızcığazım, lay, lay oxuyum
Qaragözlüm, lay, lay oxuyum
Gözlərin qaradır və alnında xalın var.
Qorxuram, qara geyinməyəsən, sən.
Ananın döşündən qan axır, pis adamların sevincinə!
Yat, rahat lay, lay oxuyum.
Daxmanın damına qarğalar uçuşub gəldilər.
Bəd xəbər gətirərək uçuşub qara qarğalar gəldilər
Amma qara çalağan onların hamısını qovub qaçırtdı.
Sakit yat, balam mənim, lay, lay oxuyum
Anan səni özünə bir böyüdəcək,
Bir qoca hacıya qismət olacaqsan
Məxmər və zərxara geyib bəzənəcəksən,
Qoca hacını əyləndirəcəksən
İndi sakit yat, lay, lay oxuyum

Küçələrdə analarının qucağında ənlik-kirşanlı körpə uşaqlar tez-tez rast gəlmək olur. Hətta məşhur Molla Nəsrəddin qadınların bu düşkünlüyün hədəfinə çevirmişdir.

Mollanın Lətifə arvadı hamilə idi. Molla uca səslə dedi:

– Allah, mənə ya al bir oğlan uşağı, ya da qaraüzlü bir qız uşağı ver!

Tanışları ondan xəbər aldılar:

– Molla, niyə qaraüzlü qız uşağı istəyirsən?

Molla cavab verdi:

– Ənlik-kirşan ötrü var-yoxdan çıxmamaq üçün..........

## FALA BAXMAQ (VƏSFİ-HAL)

Gənc qızlar bir yerə yığılanda onların ən sevimli məşğələlərindən biri fala baxmaq olur. Həmən qızlardan biri buradakı qızlardan üçük, kiçik açar, sikkə? və.s bu kimi əşyalar yığır və onları kiçik bir torbada gizlədir və ya dəsmala bağlayır. Elə burada o, kiçik qız uşağını oturdur və onun üzünü dəsmalla örtür. Qızlar növbə ilə bəndlər oxuyur və hər oxunmuş bənddən sonra kiçik qız burada olan qızlardan birinə məxsus olan hər hansı bir şeyi torbadan çıxarır. Gənc qızlar oxunmuş bəndə görə taleni müəyyən edirlər. Aşağıdakı bəndlərə misal olaraq baxaq:

Qız, bax, budur deyiklin gəlir,
O, əlində al dəsmalını tutmuşdur
O, əlində yaşıl dəsmalın tutmuşdur
Budur, sən axır al-yaşıl gözlədin[1]

Çayın kənarında bütün dalğalar şappıldayır,
Dalğa bizə qırmızı almalar gətirir.
Qız, qırmızı almaları tut
Qız, qara saçlı oğlanı tut!

Günəş artıq dağların arxasında gizlənmişdir,
Dağların arxasında, qaranlıq meşələrin arxasında
Meşədən bir dəliqanlı göründü
O, kəhər atının belində çaparaq gəlir

Kürün sərt sahillərinə
Qazlar, qu quşları uçub gəldilər
Öz gözəlini qucmaq üçün
Qara qıvrım saçlı çaparaq gəlir.

Qız ağlayır, sızlayır
Ata-anasını lənətləyir:

1 Al-yaşıl rənglər toy əlamətidir

“Əzizlərim, görüm siz cənnəti görməyəsiniz
Nədən siz məni bir qocaya ərə verdiniz”?

Qara saçlı qıvrım saçlı oğlanı rədd edərək
Əzizlərim, siz məni məhv etdiniz,
Qoca hacının pulları sizi aldattı,
İyrənc hacının qızılı ələ aldı.
Bizim qapının yanından sən keçmə
Zalım atam məni başqasına vəd etmiş,
Mənim gözəl bu gün və ya sabah
Sənin nişanlın qara geyinəcək!
Sən bir daha qara gözlərə baxmayacaqsan,

Amansız kədər (qüssə, qəm, dərd) məni artıq öldürmüşdür.

***Zaxarov. Batum sənət məktəbinin***
***müəllim nəzarətçisi, Batum 1894-cü il***

Gənc qızların xorla oxuduqları nəğmələr məzmun və məntiqi əlaqə (bağlılıq) ilə seçilmir. Ümumiyyətlə, qızlar xorla nadir hallarda oxuyurlar. Xorla oxunan uşaq nəğmələrindən örnəklər verməyi artıq iş saymırlar.

## XORLA OXUNAN UŞAQ NƏĞMƏLƏRİ

Gün çıx, sən çıx!
Kəhər atın belində çıx!
Gənclər ova toplaşmışlar
Qızlar damlara çıxmışlar
Qarı arvad isə bizə plov bişirdi
Qazanın altından siçan çıxıb qaçdı.

Gün, göyə çıx!
Bizə (Bizim üçün) qızıl, çıx!
Atam və anam bizə gəlmişlər
Və iti bıçaq gətirmişlər,

Onu ağır daşın altına qoymaq üçün
Budur , qarı nənənin evi dağıldı,
Birdən evin altından su axdı

Oynadım, ha oynadım
Ayağım ilişdi və yıxıldım
Birdən burnumdan qan açıldı
Qanı torpağa verdim
Torpağın verdiyi otu
Mən qoşa verdim
Qoç isə mənə quyruq verdi
Quyruğu mən qarıya verdim,
Qarı mənə piroq verdi
Piroqu mənə mollaya verdi,
Molla mənə tilsim verdi,
Tilsimi mən Allaha gətirdim,
Allah mənə qardaş bağışladı
Mənim əziz qardaşım, qardaşcan!
Öz bacını sən külə
Öz çirkli çuxanı
Mən sənə yenisini tikdim
Moskva mahudundan tikdim!

Onun çöldə işləməyindən, evdə təsərrüfatla məşğul olmayaraq asılı olmayaraq həzin monotor, yeknəsək səslə bayatı oxuyur. Tatar qadının bütün həyatı, onun bütün dünyagörüşü, dünyaya baxışı əks edilir.

Bayatıda acı taledən şikayət, məişət şəraitindən sıxılmış, əzilmiş, ruhun, üryin, kədəri eşidilir.

Yazıq ki, bu nəğmələr toplamaq çox asan bir iş olan gənc tatar müəllimlərindən heç biri bu haqda düşünməmişdir. Bu nəğmələrin ümumiyyətlə, tatar həyatını və xüsusən də tatar qadının həyatını öyrənmək üçün zəngin material ola bilərdilər.

Zəhmətləri ağırlığı altında tatar qadın süst, olgün olur. O, nadir hallarda nəğmə oxuyur və nəğməsinin həzin kədərli nəğməsinin onun vəziyyəti ilə bağlı insanda təəssüf hissi oyadır. Örnək üçün rus dilində tərcümədə bir neçə bayatıya nəzər salaq:

Aşıq, mən bədbəxt gündə dünyaya doğuldum,
Aşıq bədbəxt bizi bir –birimizdən ayırdılar.
Amma sən mən bədbəxt üçün kədərlənmə!

Məni ağır kədər öldürdü!
Artıq birçəklərim mənim ağarmış!
Kafirin mənə ürəyi yanmasın deyə,
Sən mən bədbəxtə ürəyin yansın, yazığı gəlsin.

Aşıq, dünya yalnız sən!
Mənə bircə ölmək qalır.
Ayaqlarının tozuna qurban olum,
Tək sən həyatın ləzzətini al!

Ox artıq ürəyimi dəlmiş (dəlib keçmiş)
Ölürəm anam mənim!
Gözlərimi ört, əzizimə de
De ki, mənim həyatım uçur!

Yaşıl otun üstünnə məni qoy,
Yumşaq otun üstünə məni qoy,
Başımın altına ipək yastıq da qoy.
Parça yorğan üstümə ört(əcək)
Mənə al köynəyi geyindir.
Təbriz xınası ilə qırnaqlarımı boya,
Qara qaşlarımda sürmə çək!
Ölü mən həyatımı artıq apardı!

Əzizim gələcək, mən baxacaq.
Gözlərindən yaşlar axacaq.
O, məni bağrına basacaq,
Amma soyumuş meyiti qusacaq!

Adətən qız (qız uşağı) heyrətləndirici (valehedici) səbrlə öz müstəbid (qaniçən) qardaşının zərbələrinə dönür o, şikayət etmir və onu söymür. Tatar qadınlar deyirlər! Əgər qız öz qardaşın söysə, onun dili qoruyur.

Bacının qardaşa olan sevgisi məsələ çevrilmiş və çox sayda nağıl və əfsanələrin mövzusu olmuşdur.

Günlərin bir günü bir xan bir qadının ərini, oğlunu və qardaşını edam etdirmək əmrini verdi. O, xanın ayaqlarına düşərək gözyaşı şivənlə əfv etmək üçün ona yalvarmağa başladı. Xan onun gözyaşlarından təsirlənərək ona ölümə məhkum edilmişlərdən birini onun istəyinə görə bağışlayacağını söz verdi. Qadın qardaşı üçün ona xahiş etdi. Xan ondan xəbər aldı:

– Sən nəyə görə ərin üçün v ə ya qardaşın üçün xahiş etmirsən?

O, cavab verdi:

– Əri küçədə taparam, oğulu bətndə taparam, qardaşı isə heç yerdə tapmaram.

## SÖYLƏYİCİLƏR, AŞIQLAR

Nağıllarda nə qədər olsa, onun (tatar qadının) daha çox xoşuna gəlir. Qısa müddətdə belə olsa da, gündəlik həyatdan ayrılmaq təxəyyülün (xəyalın) gücü ilə möcüzələr və fantastik xülyanın nağıl dünyasına getmək onun üçün xoşdur.

Yalnız qadınlar deyil, kişilər də nağıllarla çox maraqlanırlar.

Mahir söyləyicilər tatarların yanında böyük hörmət və ehtiram sahibidirlər. Hər kənddə yaddaşlarında tamamilə toxunulmaz şəkildə uzaq keçmişin rəvayət və əfsanələrinin qo-

ruduğu bir neçə qoca vardır. Uzun qış gecələrində daha geniş evində toplanıb hər hansı bir nağıl və ya əfsanəni dinləyirlər.

Qışda bəzən gəzərgi aşıqlar müğənnilər kəndlərə gələrək kəndliləri məşğul edir və əyləndirirlər.

Aşıq şərq təxəyyülünün özünün son dərəcə böyük (müdhiş) gözəlliyi ilə işıq saçdığı yüzlərlə nağıl, dastan və lətifələr bilir. O, bir dəfə söyləməyə başladığı nağılı (dastanı-tərtibçilər) bir neçə gün söyləməyə davam edir. O, çox maraqlı şəkildə Koroğlunun məcaraları, Şah İsmayılın igidlikləri, Kərəmin Əsliyə məhəbbəti, Leyli və Məcnunun fədakar sevgisi, Fərahdın talesiz sevgisi və yüzlərlə digərləri haqqında dastanlar söyləyir. Aşıq özü öz nağıllarının (dastanlarının-tərtibçilər) yaratmır.

Öz sələflərindən eşitdiklərini təkrar edir. Qəhrəman və qəhrəman qızların danışıqlarını şer şəklində verir. Tatar dastanlarında iştirakçılar danışmırlar, oxuyurlar.

Tatarların satirik nəğmə, hekayət və nağılları onların digərlərinə necə acı-acı güldüklərini və ictimai əksikləri qamçıladıqlarını ustalıqla göstərir.

Aşıqların söylədikləri nağıllar nağıl qəhrəman və qəhrəman qızlarının obrazlarını tez qəbul edən qadınlara xüsusilə güclü təsir bağışlayır. Bax budur, qadınlar buna bənzər şəraitdə öz qış gecələrini keçirirlər.

## 21-ci buraxılış. 1896-cı il

## BATUM PEŞƏ MƏKTƏBİNİN MÜƏLLİM - NƏZARƏTÇİSİ A.ZAXAROV

## MÜQƏDDƏS BALIQ
### (tatar nağılı)

Çox keçmişlərdə Misirdə bir kasıb balıqçı yaşayırdı. Hər gün o, Nil çayında balıq tutur, balığı satıb ailəsini dolandırırdı. Bir gün o, on beş yaşlı oğlu Camaləddini də özü ilə balıq tutmağa apardı. Həmən gün balıq çox pis tutulurdu. Axırda əldən düşmüş balıqçı axırıncı dəfə toru çaya atdı, onun heç vaxt görmədiyi gözəl bir balıq tora düşdü. Balıqçı çox sevİndi, o, balığı oğluna verdi və dedi:

– Onu yaxşı saxla, bu günkü ov əvvəlkilərdən yaxşıdır. Bu balığı mən xəlifənin oğluna hədiyyə aparacağam, o, da mənə onun qarşılığında çoxlu pul verər.

Amma oğlanın tir-tir əsən balığa yazığı gəldi və onu yenidən suya atdı. Qoca bunu bilib yazıq oğlanı döydü və ona dedi:

– Mən səni, nankor yaramazı bu vaxtadək gedirdim, içirdim ki, sən mənə işində kömək edəsən, İndi sən bax gör sən mənə nə qədər zərər verdin. Get və bir daha gözümə görünmə!

Camaləddin atasına nə qədər yalvardısa, ondan üzr istədisə heç nə kömək etmədi. Axırda o, qəm-qüssə içində baş götürüb getdi. O, çaya yaxın gəldi və gördü ki, sahil bir nəfər oturur və dua edir. Camaləddin ona yaxınlaşanda o, ayağa qalxdı aşağı baş əydi və ondan hara getdiyini xəbər aldı. Camaləddin başına gələnləri ona nəqletdi, həmən adam ona dedi:

– Əziz Camaləddin, mən də bədbəxtəm çünki heç kimim yoxdur, adım İbrahimdir, gəl qardaşlaşaq və Çin dövlətinə gedək və orada nə qazansaq yarı bölərik.

Camaləddin razılşdı və onunla Çinə getdi.

Bu dövlətin paytaxtına gəlib bir qarının evində qaldılar və onunla belə danışdılar ki, hər həftə ona dörd dinar verəcəklər. Bir neçə gündən sonra həkimlərdən xəbərdar olan İbrahim qarıdan şəhərdə xəstə olub-olmadığını öyrənsin. Qarı qonaqlara nəql etdi ki, müddətdən bəri elə padşahın özünün qızı lal olub, danışa bilmir və imperator car çəkdiribdir ki, kim onun qızını sağaltsa onu həmən adama ərə verəcəkdir. Amma bir iş var ki, kim onu gəlib də sağalda bilməsə, həmən adamın başı vurulacaqdır. Belə ki, sarayda olan qaydaya görə kişilərdən heç kim padşah qızının üzünü görməməlidir. Buna görə də onu sağalmağa gələn bir çox həkimin, təbibin boynu vurulmuşdur.

İbrahim bunu eşidib qarıya dedi ki, o, hökmən saraya gedəcək və qızı sağaldacaqdır. Yazıq Camaləddin çox ağladı, yoldaşına çox yalvardakı ki, belə təhlükəli işə baş qoşmasın, o, qulaq asmadı və padşahın hüzuruna getdi. Padşah ona qəbul edib qızının nədən lal olduğunu ona başa saldı, onu belə təhlükəli işə girişməkdən çəkİndirdi. Bir də ona padşah sözü verdi ki, əgər qızını sağaldsa onu qızına evləndirəcək. İbrahim ona təzim etdi və şahzadə qızın otağına girən kimi padşah adamalarına əmr etdi ki, qapının arxasından qulaq asıb görsünlər şahzadə qız yeni həkimlə danışacaqmı?

İbrahim şahzadə qızın otağına girərək ona baş əydi və quş qəfəsində oturan tutuquşuya dedi:

– Mən bura səninlə çox mühüm bir məsələ barəsində məsləhətləşməyə gəlmişəm, məlumdur ki, tutuquşular ağıllı quşlardır.

Tutuquşu dedi:

– Danış!

Onda İbrahim danışmağa başladı:

– Bir vaxtlar İranda iki şah doğma qardaşlar yaşayırdılar. Birinin üç oğlu, o, birisinin isə çox ağıllı və gözəl bir qızı var idi. Bu üç qardaşdan hər biri gözəl şahzadə qızla, əmiləri qızı

ilə evlənmək istəyirdi. Lakin ataları onların hamısının qızı eyni dərəcədə sevdiklərini görüb bunu etməyi onlara icazə vermirdi, bir də o, bilirdi ki, onlardan birinin onunla evlənməsi digər iki qardaşın narazılığına səbəb olacaq. Şahzadələri atası öləndə bu üç qardaşdan hər biri gözəl şahzadə qızla evlənmək istədi və əmilərindən xahiş etdilər ki, qızı ona versin. Lakin ağıllı şah belə qərara gəldi ki, qardaşlar digər ölkələrə oxumağa getsinlər və bir vaxtda qayıtsınlar onlardan kim qayıdanbaş daha yaxşı olsa, o, qızını həmən qardaşa verəcək.

Səkkiz ildən sonra onlar bir şəhərdə yığışdılar və bir-birindən kimin nə öyrəndiyini xəbər aldılar. Böyük qardaş dedi:

– Mən uzaq bir yerdə nə baş verdiyini öyrənə bilərəm.

Ortancıl qardaş dedi:

– Məndə bir xalça var ki, kim onun üstündə otursa, ildırımsürətilə istədiyi yerə edə bilər.

Kiçik qardaş dedi:

– Mən elə bir dərman bilirəm ki, hətta ölən adamı da sağalda bilərəm.

Onda kiçik qardaşlar böyük qardaşdan xahiş etməyə başladılar ki, əmilərinin qızı necə xilas olduğunu öyrənsin. Böyük qardaş fikrə getdi və birdən rəngi ağarmış halda dedi ki, şahzadə qız xəstədir, ölüm ayağındadır və molla onun başı üstündə dualar oxuyur. Onda kiçik qardaş dedi:

– Əgər mən orada olsaydım onu sağaldardım.

Ortancıl qardaş dedi ki, o, elə İndi onları oraya aparacaq. Qardaşların üçü də xalçanın üstündə oturdular. Onlar gözlərini belə açıb yummağa macal tapmamış əmilərinin sarayını gördülər. Onlar saraya getdilər və gördülər ki, şahzadə qız ölür. Kiçik qardaş xəstəyə lazım olan dərmanı verdi və onu sağaltdı. İbrahim tutuquşundan xəbər aldı:

– İndi bir de şah öz qızını üç şahzadədən kimə ərə verməlidir?

Tutuquşu bilə-bilə dedi:

– Əlbəttə, onları oraya gətirənə.

Bütün bu vaxt ərzində şahzadə qız səssiz-səmirsiz onlara baxırdı, amma tutuquşunun düz demədinyini gördükdə o, böyük çətinliklə də olsa var qüvvəsini toplayıb dedi:

– Ağılsız canlı məxluq, şahzadə qızı onu sağaldana vermək lazımdır.

İbrahim sevincək padşahın yanına getdi və ondan öz vədini yerinə yetirməyi xahiş etdi. Amma saray adamları padşaha dedilər:

– Məgər şahzadə qızı adi bir adama vermək olarmı? Ona bir neçə rubl vermək lazımdır və o, bundan razı qalacaq, əgər o, bizdən xəbər alsa, onda biz deyərik ki, şahzadə qızın sözlərini heç eşitməmişik. Əgər o, şahzadə qıza evlənmək istəsə, qoy onu bir dəfə də danışdırsın.

Padşah saray əyanlarının məsləhətilə razılaşdı və İbrahimin xahişini qəbul etmədi. İbrahim padşahın ədalətsizliyini görüb ona dedi:

– Qibleyi-aləm, əgər sən mənə inanmırsan, onda özün get qulaq as, amma şahzadə qız səni görməsin.

Padşah razı oldu və özü qulaq asmağa getdi.

İbrahim ikinci dəfə şahzadə qızın yanına gələndə o, gördü ki, qız ona diqqətlə baxır. O, yenə şahzadəyə təzim etdi, sonra isə tutuquşuna müraciət edib dedi:

– Mən ikinci dəfə yenə də mühüm bir məsələ ilə bağlı sənin yanına gəlmişəm. Onda tutuquşu dedi:

– Danış, biz də qulaq asaq.

İbrahim danışmağa başladı:

– Bir gün bir molla, dülgər və dərzi bir yerdə yol, gedirdilər. Onlar bir meşədən keçməli oldular. Çox keçmədi gecə düşdü və onlar bura gecələməli oldular. Onlar meşədəki canavar və həramilərdən qorxduqları üçün növbə ilə var-yoxlarının

qaravulunu çəkməli oldular. Dülgər birinci qaravul çəkməli oldu. O, uzun müddət qaravul, çəkdi, axırda yuxu onu üstələməyə başladı. O, başını qatmaq üçün baltasını əlinə alıb ağac parçasından adam heykəli yonub bir tərəfə qoydu, sonra yatan yoldaşını oyatdı, qaravul çəksin. Dərzi adam heykəli görüb bildi ki, bu dülgərin işidir, o, da bir paltar tikib heykələ geyİndirdi. O, beləliklə heykəli geyİndirib keçİndirib mollanı yuxudan oyatdı. Molla yuxulu durub qaravul çəkməyə başladı, o, adam heykəlini görüb çox qorxdu. Amma bir az diqqətlə baxanda gördü ki, bu, onun yoldaşalarının işidir, canlı adam deyil, heykələ yaxın gəldi. Yoldaşalarının işi onun xoşuna gəldi və o, Allaha dua edib dedi:

– Ey, Böyük Yaradan, yoldaşalrımın qabağında mənim qızarmağıma razı olma, bu heykələ həyat ver!

Onun sidq ürəkdən gələn duası Allahın xoşuna gəldi və o, heykələ həyat verdi, həyat asqırıb gözəl bior qız oldu. Dərzi və dülgər yuxudan durdular və gördülər ki, taxta heykəl-gözəl bir qıza çevrilmişdir. Onlar öz aralarında mübahisə etməyə başaldılar ki, qız kimə çatmalıdır.

İbrahim tutuquşuna dedi:

– Bir de, bu üç nəfərdən kimi qıza daha çox haqqı çatır?

Tutuquşu bu dəfə də bilərkdən dedi:

– Əlbəttə, dərziyə!

Şahzadə qız bu dəfə də güclə dedi:

– Sən ağılsız quşsan, qız mollaya çatmalıdır!

Padşah bu sözləri eşitdi. İbrahimi padşahın yanına apardılar. Padşah İbrahimə qızını və çoxlu qiymətli hədiyyələr verdi.

İbrahim şahzadə qızı özü ilə götürüb şad-xürrəm qardaşlığı Camaləddinin yanına getdi. O, da çox sevİndi və onlar öz vilayətlərinə geri qayıtmağa qərar verdilər. Razılaşdılar və getdilər. Onlar Cəmaləddinin İbrahimlə raxtlaşdığı yerə çatanda İbrahim dedi:

– Əziz qardaş biz burada ayrılmalıyıq. İndi isə gəl öz var-dövlətimizi, həm də şahzadə qızı yarıbayarı bölək, çünki belə şərt bağladıq ki, hər şeyi yarı bölürük.

Camaləddin ucadan dedi:

– Bu necə ola bilər! Var-dövləti yarıbayarı bölək, sən isə şahzadə qızı götür, mən onu istəmirəm.

Amma İbrahim öz sözünün üstündə durdu və o, şahzadə qızı ağaca bağladı, qılıncını əlinə aldı və dedi:

– Qardaş, bax onu yarı bölmək lazımdır.

O, bunu deyib əlində qılınc şahzadə qıza tərəf qaçdı. Qorxuya düşmüş şahzadə qız ucadan qışqırdı və bu vaxt onun ağzında balaca bir kərtənkələ (ilan) çıxdı. İbrahim kərtənkələni öldürdü və dedi:

– Şahzadə qızın su içərkən su ilə birlikdə udduğu kərtənkələ ona damışmağa mane olurdu. Əgər o, qorxmasa idi, kərtənkələ düşməzdi. İndi isə şahzadə qızı və bütün var-dövləti özünlə götür, mən isə burada qalacağam. Mən səni suya buraxdığın həmən balığam. Sənin rəhmdilliyin Allahın xoşuna gəldi və o, məni insan cildində sənin yanına göndərdi ki, sənin xeyirxah işin müqabilində səni mükafatlandırsın. Bunu yadında saxla, kasıb və bədbəxtləri unutma.

İbrahim bunu deyib qeyb oldu. Camaləddin bütün bu görüb eşitdiyindən huşunu itirib yerə yıxıldı. O, haçandan-haçana gözlərini açıb özünə gələndə şahzadə qızı gördü. Şahzadə qız onunla mehribancasına danışmağa başladı, onlar sevincdən qucaqlaşdılar və ağladılar.

Cəmaləddin evinə qayıdanda ata-anası onu görüb şad oldular və o, göəzl şahzadə qızla evləndi. Cəmaləddin bir müddət öz vilayətində yaşadıqdan sonra öz ailəsi və ata-anası ilə Çinə getdi. Çin padşahının qızı Məryəmdən başqa bir övladı yox idi və onun ölümündən sonra Cəmaləddin Çində

padşah oldu, o, gözəl arvadı ilə uzun ömür sürdü və xoşbəxtlik içində padşahlıq etdi.

Göydən üç alma düşdü, biri nağıl danışanın, digəri nağılı dinləyənlərin, üçüncüsü isə dərvişin.

***Yelizavetpol quberniyasının qazax qəzasının Ağköynək kəndində Ağalar Qiyasbəyov tərəfindən yazıldı.***

## ZAQAFQAZİYA MÜƏLLİMLƏR SEMİNARİYASI YETİRMƏLƏRİNİN TOPLADIĞI NAĞILLAR

## PƏHLƏVAN HƏSƏN

Bir nəfərin bir oğlu və qızı var idi, o, bu uşaqlarını çox sevirdi, amma div onları onun əlindən aldı. Ata çox darıxırdı və elə uşaqlarını necə geri qaytarmaq haqqında düşünürdü. Bu hadisənin üstündən iki il keçəndən sonra Allah bir oğul uşağı verdi. Bu uşaq elə kiçikliyindən qeyri-adi gücü ilə seçilirdi. Əvvəl o, yumurta sonra toyuq və axırda at və inək oğurladı. Qonşular Həsənin ata-anasına ondan şikayət etdilər.Ata-ana Həsənə nə qədər desələr də özgənin malına toxunmaq olmaz o, oğurluqdan əl çəkə bilmədi.

Bir dəfə Həsənin yaşadığı şəhərdə bir karvan dayandı. Həsən bu karvanın dayandığı yerə getdi və gördü ki, bir neçə adam bir dəvənin yükünü yerdən qaldıra bilmir. Həsən onlara dedi:

– Əgər mən təkbaşına bu yükü qaldırsam, siz mənə verərsiniz?

Onlar gülüşdülər və əgər o, yükü qaldırsa, ona elə yükün özünü verməyi söz verdilər. Həsən heç nə olmamış kimi yükü yerindən yuxarıya qaldırdı sarvanlar karvan başılar sözlərinə əvvəl xilaf çıxmadılar və iyirmi pud dəmirdən ibarət olan yükü Həsənə verdilər. Həsən dəmiri götürüb dəmirçinin yanına getdi, ona tapşırdı ki, bu dəmirdən bir dəyənək və ona çəkidə bərabər olan zəncir düzəltsin. Bir vaxtdan sonra dəyə-

nəklə zəncir hazır oldu Həsən dəyənəklə zənciri evə gətirəndə gördü ki, anası ağlayır. O, anasından xəbər aldı:

– Ana, niyə ağlayırsan?

Anası cavab verir:

– Əzizim oğul sənin qardaş və bacın var idi, sən hələ anadan olmamışdan iki il əvvəl dev onları əlimizdən aldı.

Həsən dedi:

– Əziz anam, mənim üçün yol tədarükü gör və devin qardaş və bacımı hansı tərəfə apardığını mənə göstər.

Anası oğlunun dediyini yerinə yetirdi. Həsən dəyənəyi, zənciri çörəklə yağ ehtiyatını özü ilə götürdü və yola düşdü. Yolda o, ağırlıq hiss etdi və ürəyində dedi:

– Ən yaxşısı budur ki, ağırlığı belimdə daşımaqdansa, oturum və hamısını yeyim.

O, elə də etdi. Bir bulağın başında oturdu və özü ilə götürdüyünün hamısını yedi.

Həsən çoxmu getdi, azmı getdi, demək çətİndir, axırda o, yaşadığı yerə çatdı. Həsən burada gördü ki, eşşək su daşıyır, həyətdə isə bir qız oturub . Qız Həsəni görüb xəbər aldı:

– Sən kimsən, haradan gəlib, hara gedirsən?

Həsən cavab verdi:

– Mən sizin qardaşınızam və sizi bu lənət olmuş devin əlindən qurtarmağa gəlmişəm.

Qız doğurdan da onun qardaşı olduğunu bilib dedi:

– Əziz, qardaşım, yaxşısı budur ki, sən get öz işinlə məşğul ol, yoxsa, dev gəlib səni öldürər, sənə yazığım gəlir.

Həsən xəbər aldı.

– Bəs qardaşımız hardadır?

Bacısı cavab verdi:

–Devə su daşıyan o eşşək bizim qardaşımızdır. Bura da bizm qardaşı ovsun oxuyub eşşəyə çevirən bir cadugər arvad var.

Bu vaxt dev ovdan qayıdır, evində çağırılmamış qonağı görüb arvadından xəbər alır:

– Bu kimdir? O, necə cürət edib bura gəlib?

Arvadı cavab verdi ki, bu adam onun qardaşıdır. Dev bunu eşidib sakitləşdi və arvadına əmr etdi ki, yaxşı bir yemək bişirsin. Həsən yemək vaxtı devə dedi ki, o, bacı və qardaşını aparmaq üçün gəlmişdir. Dev hirsləndi, yerindən qalxdı və Həsənə yaxınlaşdı. Amma Həsən cəld yerindən qalxdı və devlə güləşməyə başladı. Onlar çox güləşdilər heç biri o birini yıxa bilmədi. Axırda dev var gücünü toplayıb Həsəni yerə yıxdı, amma rəqibinin başını kəsməyə macal tapmadı, Həsən onun altında sıçrayıb çıxdı və Allaha dua edib devi öldürdü. Sonra o, bacısı ilə cadugər qarının yanına getdi. O, devin öldüyünü eşidib o saat Həsənin qardaşını eşşəkdən adama çevirdi.

Ertəsi gün Həsən qardaş və bacısını da özü ilə götürüb yola düşdü. Onlar yolda gecələmək üçün dayandılar. Yatmamışdan qabaq Həsən dedi ki, onun yuxusu üç gün çəkəcəkdir, əgər istəsələr onlar evə gedə bilərlər. Hər üçü yıxılıb, yatdılar. Səhər qardaş və bacı yuxudan oyandılar, Həsən isə hələ də yatırdı. Kinli və yaxşlıq bilməyən qardaş bacısına deyir:

– Gəl, Həsəni öldürək, özümüz isə evə gedək.

Bacısı qardaşını nə qədər yola gətirmək istədi ki, onları devin əsirliyindən qurtarmış Həsənə, toxunmasın, qardaşını durdura bilmədi, o, Həsəni öldürdü və onun meyidini ağaca bağladı. Sonra bacısını götürdü, evə qayıtdı və başına gələn hər şeyi anasına nəql etdi. Anası Həsənin ölümünə sevİndi, çünki camaat onun oğurluq etməsindən narazı idi. Üçüncü gün üç göyərçin uçub gəldi və Həsənin bağlı olduğu ağaca qondular. Göyərçinlərdən kiçiyinin Həsənə yazığı gəldi, o, böyük göyərçinə ( Cəbrayıl böyük göyərçin cildində idi) deyir:

– Bu yazıq Həsənə kömək etmək lazımdır.

Cəbrayıl cavab verir:

– Əgər sən aşağı uçub başla bədəni birləşdirsən və lələyini yaranın üstünə çəksən, Həsən dirilər. Kiçik göyərçin elə də etdi. Və nə oldu? Həsən bir-iki dəfə asqırdı, oyandı və görür ki, o, ağaca bağlanıbdır. O, bir təhər ipi açıb evinə yollandı.

Həsən evə gəlib özünün kinli, yaxşılıq bilməz qardaşını öldürdü. Anası bu vaqiəni padşaha xəbər verdi. Padşah Həsəni hüzuruna çağırdırdı və onu odun dalınca keçilməz meşəyə göndərdi ki, vəhşi heyvanlar orada onu parçalasınlar. Həsən dəyənəyini, zəncirini, iki öküz arabası götürüb yola düzəldi. O, gəlib meşəyə yaxınlaşdı və birdən görür ki,iki aslan onan arxasınca gəlir. O, odunları arabalarına yüklədi və ertəsi günü aslanları da özü ilə götürdü. Bütün camaat Həsənin igidliyini eşidib təəccübləndi. Axırda burada yaşamaq Həsəni bezdirdi və o, buradan baş götürüb getdi.

Yolda o, çayın kənarında duran və bir neçə verstə su sıçradan cavan oğlana rast gəldi. Həsən ondan xəbər aldı:

– Sən niyə bunu edirsən?

O, cavab verdi ki, o, Həsəni gözləyir və onunla güləşmək istəyir. Onun adı Ağakərim idi. Həsən dedi:

– Həsən mənəm, gəl güləşək!

Onlar güləşməyə başaldılar. Həsən qalib gəldi və Ağakərimi öldürmək istədi, amma o, yalvardı ki, onu öldürməsin və təvəqqe etdi ki, özü ilə götürsən. Həsən razı oldu və onlar yollarına davam etdilər. Yolda onlar Gülməmməd adlı başqa bir adama rast gəldilər, o, qayaları qazıb çıxardır və çox böyük daşları göyə atırdı. Həsən ondan xəbər aldı ki, o, nə üçün belə edir. Gülməmməd də Ağakərim kimi ona cavab verdi. Həsən ona qalib gəlib, onun təvəqqesinə görə onu da özü ilə yola götürdü. Axır onlar bir çöllü-biyabanda ayaq saxladılar, özlərinə bir ev tikib Allahın əmr etdiyi kimi yaşamağa başladılar. Hər gün onlardan biri yemək hazırlamaq üçün evdə qalır, ikisi isə maral

ovlamağa gedirdilər. Bir dəfə evdə Ağakərim qalmalı olanda özü yarım arşın, saqqalı bir arşın olan bir qoca gəldi. Bu qoca Ağakərimdən yemək üçün bir şey istədi. Ağakərim ona balaca və qoca olduğu üçün az yemək verdi. Qoca bununla kifayətlənməyib saqqalından bir tük çıxartdı və onu Ağakərimin əl-ayağını bağladı, hazırlanmış yeməklərin hamısını yedi və evinə getdi. Həsən və Gülməmməd ondan qayıtdılar və gördülər ki, Ağakərim yemək hazırlayır. Onlar ondan xəbər aldılar ki, o, niyə belə gec yemək hazırlayır. Ağakərim onlara xəstələndiyini dedi:

Ertəsi gün evdə Gülməmməd qaldı, Ağakərimin başına gələn onun da başına gəldi. Üçüncü gün evdə Həsən qaldı. Həmən qoca yenə gəlib ondan yemək istədi. Həsən yox deməyib pay diləyən balacaboy qocaya bir az yemək verdi. Qocanın səbri tükəndi, o, onun əl-ayağını bağlamaq istədi, amma Həsən çömçə ilə onun boynundan vurdu və qocanın başı bədənindən ayrıldı və yerə düşdü, sonra isə onun başı və bədəni evdən dığırlanıb yox oldu.

Həsən yoldaşları qayıtdıqdan sonra onları da özü ilə götürüb qanın izi ilə getdilər və gəlib bir quyuya çatdılar. Həsən yoldaşlarını quyunun başında buraxıb özü quyuya endi. O, quyunun dibi ilə gedərkən bir neçə otaq gördü. Həsən birinci qapını açdı və gördü ki, otaqda bir qız oturub. O, Həsəni devlə qorxuzub tez buradan çıxıb getməsini təvəqqe etdi. Həsən onu burada qoyub ikinci otağa girdi, burada da bir qız oturmuşdu. Axırda o, üçüncü otağa girdi, burada da çox gözəl bir qız var idi, qızın yanında həmən qoca uzanmışdı və o, qıza baxıb həzz alırdı. Qoca Həsəni görüb gizləndi. Həsən bu qızları özü ilə götürüb quyunun dibi ilə geri qayıtdı, quyunun başında yoldaşları onu gözləyirdilər. Onlar əvvəlcə birinci iki qızı çəkib çıxartdılar. Gözəl qızın növbəsi gələndə o, yuxarı çıxmaq istəmədi və dedi:

– Qoy əvvəlcə səni çəkib yuxarı çıxartsınlar onlar məni görüb səni burada qoyub geçəcəklər.

Həsən razı olmadı, onda o, dedi:

– Əgər onlar səni çəkib çıxartmasalar, onda bax gör nə etməlisən.

Səhər buradakı qoç döyüşək, biri ağ, o biri üstünə atacaq, ağ isə səni yuxarıya işıqlı dünyaya çıxaracaq.

Qızın dediyi kimi də oldu. Amma Həsən qara qoça minməkdənsə, ağ qoça mİndi, o da onu qara qoçun üstünə atdı, qara qoç isə onu qaranlıq yeraltı dünyaya apardı.

O, az getdi, dərə təpə düz getdi, axır gəlib bir qarının evinə çatıb burada qaldı. O, qarıdan su istədi, qarı su yerinə ona süd verdi. Həsən xəbər aldı:

– Məgər sizdə su yoxdur?

Qarı cavab verdi:

– Bizim bulağın başında bir əjdaha yaşayır. Biz ona hər gün bir adam verməliyik ki, o, bizə bulaqdan su götürməyə imkan versin. Bu gun şahzadə qızın növbəsidir, bir azdan o, burada olacaq.

Bir vaxtdan sonra şahzadə qız gəlib çıxdı və camaat su götürmək üçün toplaşmağa başladı. Həsən əli qılınclı şahzadə qızın yerinə əjdahaya tərəf atıldı. Əjdaha gətirilən qurbanı udmağa hazır olanda Həsən onu öldürdü. Şahzadə qız əlini əjdahanın qanına batırıb, əlini Həsənin kürəyinə vurdu. Şahzadə qız sap-sağlam evinə qayıdıb vaqiəni atasına nəql etdi. Padşah əmr etdi ki, şəhər əhlinin hamısı meydana toplaşsın amma şahzadə qızı azad edən onların arasında yox idi. Onda vəzirlərdən biri padşaha dedi ki, bir qarının yanında bir yad adam var. Həsəni gəlib padşahın hüzuruna apardılar və şahzadə qız onu görüb tanıdı. Padşah Həsənə təşəkkür edib azru etdi ki, o, onun qızı ilə evlənsin. Həsən bu təklifə razı olmadı, o, yalnız təvəqqe etdi ki, ona işıqlı dünyaya çıxmağın yolunu göstərsinlər.

Padşah fikirləşib dedi:

– Şəhərin yaxınlığında baobab ağacı vardır və bu ağacın üstündə Ruxxu quşu (qeyri-adi gücü olan quş) yaşayır. Timsah hər dəfə onun balalarını yeyir, təkcə o, sənə kömək edə bilər.

Həsən həmən ağacın olduğu yerə getdi və gəlib ağacın altında oturdu. Bir vaxtdan sonra timsah gəlib çıxdı və ağaca çıxmaq istədi. Həsən bunu görüb timsahın üstünə atıldı və onu öldürdü və ağacın altında uzanıb yatdı. Bir azdan Ruxx quşu uçub gəldi və o, yuxuda olan Həsəni öldürmək istədi, amma balaları ona xəbər verdilər ki, o, onları ölümdən qurtarmışdır. Ruxxu uçub Həsənin yanına gəldi, onu yuxu olanı oyatdı və ona təşəkkür etmək istədi. Amma Həsən Ruxx quşundan təkcə onu təvəqqe etdi ki, ona işıqlı dünyaya çıxmaq üçün kömək etsin. Həsənə dedi ki, yol azuqəsinin tədarükünü görsün. Həsən onun təvəqqesini yerinə yetirdi. Ertəsi gün Ruxx Həsəni yol azuqəsi ilə belinə mİndirdi və yola düşdü. Yol da azuqələr qurtardı, onda Həsən bıçağı əlinə alıb budundan bir parça ət kəsdi və Ruxxa verdi. Amma Ruxx bu əti udmadı, dilinin altında saxladı, belə ki, bu ət ona çox şirin göründü. Ağ dünyaya çıxıb Ruxx Həsəni buraxdı, amma Həsən yaraya görə gedə bilmirdi. Onda Ruxx ağzından əti çıxartdı, yerində qoydu və ləlayini yaranın üstündə gəzdirdi, lələyi. Sonra lələyi ona verərək dedi:

– Bir neçə vaxt keçəndən yara sağaldı və o, bir dukançının yanında işə düzəldi.

Bir neçə vaxt keçəndən sonra Həsən eşitdi ki, Ağakərim və Gülməmməd toy eləməyə hazırlaşırlar. O, fikriləşməyə başladı ki, qızları keçmiş yoldaşlarından necə qaçırtsın. Birdən Ruxxun sözləri onun yadına düşdü. Həsən lələyi oda tutdu və heç bir dəqiqə belə keçməmiş Ruxx onun qarşısında hazır oldu. Həsən dedi:

– Əziz Ruxx bahalı yüyən yəhərli və yaraq əsləhəli bir gözəl at gətir!

Ruxx onun istəyini yerinə yetirdi. O, geyinib keçİndi, ata süvar oldu və atını yoldaşlarının yaşadıqları yerə sürüb getdi. Ertəsi gün Ağakərim və Gülməmməd toy etməyə başladılar. Toy on gün davam etdi. Toyun axırıncı günü onlar atlarına suvar olub başlarındakı adamalarla çöldə at çapmağa getdilər. Həsən bunu eşidib atına süvar olub həmən çölə getdi. At çapan vaxt Həsənin atı Ağakərim ilə Gülməmmədin atlarını ötüb keçirdi. Onlar belə böyük təhqir olduqları üçün Həsəndən təvəqqe etdilər ki, yenə də onlarla at yarışına qoşulsun. Həsən razı oldu və yarış vaxtı hər ikisinin boynunu vurdu. Bundan sonra Həsən qızların ikisini başqalarına ərə verdi, özü isə gözəl qızla muradına çatdı.

Göydən üç alma düşdü, biri mən söyləyicinin, o biri dinləyicilərin, üçüncüsü də pay istəyən dərvişin.

***Əbdülkərim bəy Vəlibəyov tərəfindən Yelizavetpol quberniyası Şuşa qəzasının Ağdam kəndində yazıya alındı.***

## ŞAHZADƏ ASLAN VƏ DEV

Bir padşahla və bir padşah arvadı vardı. Onların bir oğlu vardı. Bu oğlan çox güclü olduğundan onu Aslan adlandırmışlar. Bir dəfə padşah arvadına hirsləndi və onu edam edilməyə məhkum etdi. Aslan bunu eşidib anasını qurtarmaq qərarına gəldi. O, qaranlıq gecədə anasını gizlicə atasının evindən götürüb baş alıb getdi.

Oğul anası ilə az getdilər, üz getdilər, dərə təpə düz getdilər gəlib bir vilayətə çatdılar. Bu vilayətdə qırx qardaş dev yaşayırmış. Bu devlərin Dünya gözəli adında bir bacıları var idi, qız elə gözəl idi ki, yemə-içməmiş xətti camalına bax! Bu devlərdən biri qardaşlarına hirsləndi və onlardan ayrılıb özünə ayrı bir yerdə ev tikmişdir. Bizim səyyahlarda gəlib elə həmən evə çatdılar. Dev evdə yox idi, evə giriş isə bir ağır daşla tutulmuşdu. Aslan bir böyük daşı bir əli ilə tutub gözlə görülə-

cək qədər uzağa atdı. Dev evinə böyük daşın belə atıldığını görüb evə girməyə cürət etmədi və öz-özünə fikirləşdi. "Bu çağırılmamış qonaq kimdir görəsən". Padşahın arvadı bu vaxt onu gördü. Dev onun xoşuna gəldi və o, ondan ötrü gözünün ağı, qarası olan oğlunun başını batırmaq qərarına gəldi. O, dev çağırır və deyir ki, o, tez bir yerdə gizlənsin, yoxsa Aslan gələr və onların ikisi də ölümdən yaxa qurtar bilməzlər.

O vaxtdan dev və padşahın arvadı can deyib can eşitməyə başladılar. Şahzadə oğlanın xəbəri yox idi ki, onlar onun başını batırmaq qərarın gəldilər. Padşahın arvadı devin məsləhətinə qulaq asıb özünü xəstəliyə vurdu və Aslan anasından xəbər alanda: "Xətrin nə istəyir?" o cavab verdi ki, əgər o, ona üç salxım qızıl üzüm gətirsə, o, bəlkə də sağalar. Qızıl üzümü iki əkiz qardaşın bağından əldə etmək olardı. Bu bağı aslan dişi, aslan qoruyurdular və quş quşluğu ilə də bu bağın üstündən uçub keçə bilməzdi, nə də bir heyvan ovun yanından keçib qaça bilməzdi. Bir çox bahadırlar, pəhləvanlar öz nişanlı qızları üçün həmən bağban qızıl üzüm gətirməyə getmişlər, amma heç kim aradan sağ salamat qayıtmamışdı. Aslan bütün bunlara baxmayaraq üzümün dalınca yola düşdü. Bir çox məcaralaradan sonra, o, gəlib bağın olduğu yerə çatdı. O, burada aslan dişi aslanı öldürdü, amma onların balaları ona elə aldılar ki, bir dəqiqəliyə belə olsun onu buraxmırdılar və sonralar onlar ona böyük köməkliklər etdilər. Aslan üzümü əldə edib evə yola düşdü. Yolda otuz səkkiz dev ona hücum etdi. Aslan balalarının köməyi sayəsində o, devlərə qalib gəldi və çox keçmədən üzümü anasına çatdırdı. O, heç sağalmadı, əksinə daha ahıldamağa ufuldamağa və xəstəlikdən şikayətlənməyə başladı və oğlunu çətin işə – yuxarıda bəhs edilən qırx devin bağından qarpız gətirməyə göndərdi.

Ertəsi gün Aslan qarpız gətirməyə yollandı, Aslan balaları da onunla getdilər. Bağa çatar-çatmaz yolun uzunluğun-

dan yorulmuş Aslan yaşıl otun üsütnə uzandı və bahadır yuxusuna getdi.

Bu vaxt devlər aralarından birini bağa göndərdi ki, orada hər şeyin yerində olub olmadığını öyrənsin. Bağa gələn kimi dev aslan balaları ilə döyüşməyə başlayır və onları parçalayırlar. Devlər görəndə ki, göndərdikləri devlər gəlmədi. bu dəfə başqa bir dev göndərdilər ki, işin nə yerdə olduğunu öyrənsin. Birincinin başına gələnlər bunun da başına gəlir. Onda devlər üçüncü devləri göndərirlər. Otuz doqquz devin hamısı bir-bir bağda oldular və aslan balaları onların hamısını çaladılar. Aslan yuxudan oyanıb aslan balalarını başdan ayağa qan içində gördü, o, çox təəssüfləndi ki, onlara kömək etmək üçün çox tez oyana bilməyib. Sonra o, özünə gəlib devlərin evinə bağa baxmağa getdi və burada çoxlu gözəl otaqlar gördü. Çoxlu otaqlardan keçib böyük zala girdi, burada o qədər qapılar var idi ki, o, bilmədi hansı qapıdan içəri keçsin. Birdən onun gözünə qızıldan qayrılma və qiymətli daş-qaşlarla bəzədilmiş qapılar dəydi. O, sakitcə onları itələdi, onlar açıldılar. Otağa girib, o, valehedici gözəlliyi olan bir cavan qız gördü. Bu devlərin bacısı Dünya gözəli idi. Qızın Aslanda buraxdığı təəssürat elə güclü idi ki, özündən gedib yerə yıxıldı. Dünya gözəli ona yaxınlaşdı və ən mehriban arvad kimi onunla keçİndi, rəftar etdi.

Ertəsi gün Aslan geriyə qayıtmağa hazırlaşdı. Dünya gözəli Aslandan təvəqqe etdi ki, onu tərk etməsin. Amma Aslan dedi ki, anası xəstədir və o, ona qarpız aparmalıdır. Əgər o, üç gündən sonra geri qayıtmasa, deməli ölmüşdür. Onlar ər-arvad andı içərək bir-birlərinə öz üzüklərini verdilər və aslan geri yola yollandı. O, çox keçmədən qarpızı anasına çatdırdı və o, sağaldı. Ertəsi gün o, oğlundan təvəqqe etdi ki, onunla oyun oynasın. Oyun vaxtı o, Aslanın əllərini ən möhkəm iplərlə bağladı, amma Aslan bir balaca hərəkəti ilə onları parça-parça etdi. Onda padşahın arvadı Aslandan xəbər aldı ki, onun nəyə gücü çatmaz.

Aslan cavab verdi ki, əgər onun əllərini girişlərlə bağlasalar o, onları parçalaya bilməz. Padşahın arvadı yoxlamaq üçün onun əllərini girişlərlə bağladı və gerçəkdən də o, onları parça-parça edə bilmədi. Onda anası devi çağırdı ki, köməksiz Aslanı öldürsün. Ancaq devin pəhləvana yazığı gəldi. O, yalnız onun gözlrini çıxartdı və onun yaxınlığındakı yarğana atdı. Onun aslan balaları ona yeyəcək və su gətirdilər.

Təsadüfən bu ovrağın yaxınlığından karvan keçirdi. Sarvanlar bədbəxt əzab çəkmişi görüb onu özləri ilə götürdülər. Bu vaxt Dünya gözəli üç gün gözləyib Aslanı ölmüş bildi və onun üçün ehsan verdi. Onun evinin qapıları gecə və gündüz hamı üçün açıq idi, belə ki, hər gün onun yanına müxtəlif adamlar gəlirdilər, kasıblara hətta pay da verirdilər. Sarvanların yolu Dünya gözəlinin evinin yanından keçirdi. Oradan pulsu yemək yeməyin mümkün olduğunu eşidib onlar yola çıxmamışdan kəmərin altını bərkitmək üçün evə yollandılar. Onlara o saat yeyəcək və içəcək verdilər, keçmişdə olduğu kimi onlar əllərini və ayaqlarını yuduqdan sonra masanın arxasında oturudlar yeməyə və içməyə başaldılar. Aslan harada olduğunu anladı və ona görəə də ona şərab gətirəndə o, stəkanın yarısına qədər içib ora Dünya gözəlindən aldığı üzüyü saldı, sonra xidmətçidən təvəqqe etdi ki, stəkanı xanıma aparıb versin ondan təvəqqe etsin ki, o, stəkanı dibinədək içsin. Dünya gözəli stəkanı dibinədək içib, Aslana vermiş olan öz üzüyünü gördü. O, dərhal ona stəkanı göndərən adamı onun yanına gətirmələrini əmr etdi. Nökər kor Aslanı onun yanına gətirdilər. Dünya gözəli bir müddət bundan əvvəlin qəhrəmanını kor olduğunu görüb bir söz deyə bilmədi. Sonra özünü ələ alıb onunla bağa getdi. Kölgəli ağacın altında oturub Aslan ona öz məcaralarını nəql etməyə başladı. O, onu diqqətlə dinləyirdi. Elə bu vaxt Dünya gözəli iki qurbağanın öz aralarında necə vuruşduqlarını gördü, qurbağalardan bir-birisinin vurub gözünü çıxartdı. Onda qalib gələn

qurbağa gözü çıxarılmış qurbağanın gözlərini yerinə qoydu, nəsə bir ot tapdı, onu çeynəyib qurbağanın gözlərinə sürtdü, bundan sonra qurbağa görməyə başladı. O, gördüklərini Aslan nəql etdi və həmən otları onun gözünə sürtdü. Aslan görməyə başladı. Onların necə sevİndiyini hər bir kəs təsəvvür edə bilər.

Ertəsi gün Aslan öz anasının yanına getdi. O, orada onu və devi öldürdü, onların meyidlərini yandırdı, küllərini isə dörd tərəfə sovurdu. O, intiqam alıb öz sevgilisinin yanına qayıtdı. Və onunla xoşbəxt həyat sürdü.

***Tiflis quberniyası Borçalı qəzasının Beştaşen kəndində və A.S. Haşımbəyazov tərəfindən yazıya alındı.***

## QIZIL BALIQ

Biri var idi, biri ox idi, çox əyyami-qədimdə bir şah var idi. Bir gün şah yaman xəstələndi, o, vilayətinin hər yerindən loğman təbibləri çağırdı bunun dərdinə bir çarə etsinlər. Şah onu sağaldacaq təbibə şahlığının yarısını verəcəyini vəd etdi. Təbiblər çox düşündülər-daşındılar heç biri onun dərdinə çarə eyləyə bilmədi. axırda bir münəccim şaha dedi ki, dənizdə bir qızıl balıq var ki, o, onun dərdinə çarə ola bilər. Şah vilayətindəki bütün balıqçılara əmr etdi ki, dənizin bütün sahilinə tor atsınlar. Şahın oğlu da balıqçılarla dənizə getmişdi. O, da dənizə bir tor atdı və xoşbəxtlikdən həmən qızıl balıq onun toruna düşdü. Qızıl balıq dil açıb ona yalvarmağa başladı ki, onu dənizə buraxsın, əvəzində ürəyi nə istəsə yerinə yetirəcəyini söz verdi. Şahzadənin balığa yazığı gəldi və balığı yenidən dənizə buraxdı.

Bu vaxt şahın yatağının başında bir münəccim durmuşdu. Şah ona əmr etmişdi ki, baxıb görsün qızıl balığı tutublar ya yox? Münəccim ulduzlarnan fal açıb, kitabına baxıb dedi:

- Qibleyi-aləm, sənin oğlun həmən balığı yenidən dənizə buraxdı. Onda şah hirsindən cin atına mİndi və əmr etdi ki,

oğlunu vilayətindən qovulsun. Şahın arvadı oğlunun başına gələndən xəbər tutub onu yanına çağırdı, öpüb dedi:

– Əlvida, əziz oğlum, ayrılıq vaxtı gəldi. Allah sənə kömək olsun işin avand olsun. Sənə bir sözüm, gərəyin olar. Özünə elə bir adamı yoldaş seçginən ki, nə olursa, olsun hər vədə yanında olsun və sənə düşən payı səninlə yarıbayarı bölmüş olsun.

Anası bunu deyib oğlunu bir də öpdü və xeyir-duasını verdi. Şahzadə baş götürüb getdi. O, az getdi, üz getdi, dərə təpə düz getdi, axır gəlib bir nəfərə tuş oldu. Həmən adam da ona qoşulub yol getdilər. Bir xeyli yol gedəndən sonra oturdular Allahın verdiyindən yeməyə. Yemək vaxtı şahzadə çörəyi verdi həmən adama bölsün. O, çörəyin böyük parçasını özünə götürüb ona dedi ki, buradan onların hərəsi öz yolu ilə getsin. Şahzadə bunu deyib yoluna davam etdi.

O, az getdi, üz getdi, dərə təpə düz getdi, axırda Əhməd adında bir nəfər adama rast gəldi. Yemək vaxtı gəldi. Əhməd çörəyi əlinə alıb iki tən yarıya böldü, biri şahzadəyə birini də özünə götürdü. Şahzadə baxıb gördü bu ona dost ola bilər və onlar ikisi bir-birinə qoşulub yollarına davam etdilər. Axır onlar gəlib bir vilayətə çatdılar. Burada Əhməd zərgərlik etməyə başladı, şahzadə isə onun düzəltdiklərinə küçə və bazarlarda satırdı. Bir gün adəti üzrə bazara gələndə gördü ki, camaat hara isə qaçır. Şahzadə də camaata qoşulub getdi və gəlib bu vilayətin şahının həyətinə çıxdı.

O baxıb nə gördü? Gözəl-göyçək şahzadə qız eyvanda oturur və susur, onun qarşısında isə bir cavan oğlan durub onu danışdırmağa çalışır, nə qədər əlləşirsə danışdıra bilmir. Axırda şah əmr edib oğlanın boynunu vurdurdu. Şah bir neçə gün bundan əvvəl car çəkmişdi ki, kim adama ərə verəcək, kim bunu edə bilməsə, boynu vurulacaq.

Camaat dağılıb gedəndən sonra şahzadə evə gəldi və şahın həyətində gördüyü bütün əhvalatı Əhmədə nəql elədi. Onda Əh-

məd şahzadəyə dedi ki, o, şahzadə qızı nə olursa, olsun danışdıracaq və onunla evlənəcəkdir. O, elə niyyətlə şahın hüzuruna getdi və məsələni ona açdı. Müəyyən olunmuş vaxtda Əhməd gəldi və vəzirlərə dedi ki, onun qızla söhbətini qapının dalında durub dinləsinlər. Əhməd bunu deyib şahzadə qızın otağına keçdi, gördü ki, qız bir yastığın üstündə oturub. O, yastığa deyir:

– Salam yastıq.

Yastıq cavab verir:

– Salam!

Şahzadə qız bu yastığın danışmasına çox təəccübləndi və səssiz-səmirsiz qulaqlarını şəklədi. Əhməd deyir:

– Yastıq, bilirsənmi mən nə deyəcəyəm?

Yastıq cavab verir:

– Yox bilmirəm.

Onda Əhməd nəql etməyə başladı:

– Biri var idi, biri yox idi, bir vilayətdə üç doğru adam var idi. Bunlardan biri dülgər, o birisi dərzi, digəri isə molla idi. Onların çoxlu qoyunu var idi, buna görə də onlar növbə ilə öz sürülərini növbə ilə otarmalı və qarovulunu çəkməli idilər.

Bir gün dülgər gecə vaxtı qaravul çəkir, yoldaşları isə yatırdılar. O, işsizlikdən darıxıb bir ağacı kəsdi, ondan adam heykəli yonub düzəltdi. O, heykəli ayağı üstə qoydu, özü isə yıxlıb yatdı. Sonra dərzi keşik çəkməyə başaldı. O, da işsizlikdən darıxdı, amma birdən qaranlıqda yaxınlıqda ayağı üstə dimdik durmuş insan heykəli gördü. O, yaxınlaşdı və gördü ağacdan bir insan heykəli dir durur. Onda dərzi bir paltar tikib ona geyİndirdi. Sonra mollanı yuxudan oyadıb özü isə yıxılıb yatdı. Molla qaravulda durandsa gördü ki, bir adam heykəli ayağı yoxdur. O, Allaha dua etməyə başladı ki, ağac heykəli diriltsin və Allah onun duasını yerinə yetirdi.

– İndi ey yasdıq bir de görüm bu adam üç nəfərdən kimə-dülgərə, dərziyə, yoxsa mollaya məxsus adamlardır?

Yastıq deyir:

– Dülgərə məxsus olmalıdır.

Əhməd şahzadə qızın etirazına səbəb olmaq üçün deyir:

– Yox, dərziyə məxsus olmalıdır.

Əhməd və yastıq öz dediklərinin üstündə durmaqda idilər və onların arasında mübahisə qızışdı. Onların mübahisəsi belə çox çəkəndə şahzadə qızın səbr kasası aşdı və birdən uca səslə dedi:

– Bu ot adam nə dülgərə, nə də dərziyə məxsus ola bilməz o, mollaya məxsus olmalıdır.

Onda vəzirlər böyük şadyanalıq içində içəri keçib Əhmədi şahzadə qızın adaxlısı elan etdilər.

Əhməd şahzadə qızla evə gəlib şahzadəyə dedi:

– Mən şahzadə qızı alıram, mən ömürlük səninlə bir yerdə olmaq istərdim, amma hayıf ki, tale elə qərar verdi ki, biz gərək ayrılaq. İndi isə bağladığımız şərtə görə bütün var-yoxumuzu yarıya bölməliyik.

Şahzadə razı oldu və onlar bütün mallarını öz aralarında yarıbayarı böldülər. Sonra Əhməd dedi:

– Gəl, şahzadə qızı da tən yarıdan bölək, belə ki, o, da bizim əmlakımızın bir hissəsidir.

Şahzadə bu fikrindən çox daşındırmaq istədisə də, olmadı. Əhməd şahzadə qızı ağacdan ayaqları yuxarı asdı, xəncərinin çıxartdı və onu qızın başı üstündə güclü yellətdi. Şahzadə qız qorxudan qusdu və onun ağzından bir ilan çıxdı sən demə bu ilan onu danışmağa qoymurmuş.

Bundan sonra Əhməd şahzadə qızı şahzadə dostuna tapşırdı və dedi:

– Bu ilan onun danışmağına mane olurdu, İndi o, sərbəst danışa bilər. İndi isə qardaş, əlvida! Bir de görüm məni tanıyırsanmı? Mən sənin bir vaxt tutduğun həmən balığam amma yazığın gəldiyi üçün onu yenidən sərbəst buraxdın.

Şahzadə Əhmədin dedyinə çox təəccübləndi, balıq necə adama çevrilə bilərdi. Əhməddən eşidəndə ki, o, Allahın yerə göndərdiyi mələkdir onun təəccübü daha da artdı.

Sonra Əhməd damarından qan buraxdı və onu şahzadəyə verib dedi:

– Bu, dərmandır, atanın yanına gedəndə onu sağalamaz xəstəlikdən əziyyət çəkən atana ver, bu ona kömək edəcəkdir.

Əhməd bunu deyib qeyb oldu, şahzadə isə öz cavan arvadı ilə evinə gəldi, dostunun qanı ilə onu sağaltdı.

Padşah çox ömür sürdükdən sonra öldü və o, taxtını və şahlığını oğluna verdi.

***Bu Nağılı Səməd Acalov yazıya aldı.***

## PƏHLƏVAN HÜSEYN (60-68)

Biri var idi, biri yox keçmiş vaxtlar da məşhur iranlı padşah Şah Abbasın şahlığında Hüseyn adlı çox yaxşı bir pəhləvan vardı. O, kürd tayfasının adı-sanı olmayan nəslindən idi və hansısa bir kənddə doğulmuşdu. O, böyüyüb boya başa çatdıqda çobanlıq etməyə başladı, çünki atası kasıb idi.

Onun məşhur pəhləvan olmasına bax bu hadisə səbəb oldu. Bir gün kəndin kəndxudasının qızını gördü, bir könüldən min könülə ona vuruldu, atasına dedi ki, kəndxudanın yanına gedib ondan qızını istəsin. Atası ona nə qədər and aman edib onu fikirdən daşındırmaq istəyib kəndxudanın qızını çobana verməyəcəyini desə də olmadı, Hüseyn elə dediyini dedi axırda atası onun təvəqqəsinə razı olub kəndxudanın yanına getdi. O, təzim edib kəndxudaya dedi:

– Bədbəxtliyindən bir oğlum var o, da axmaqdır, mənə dinclik vermir, məndən tələb edib ki, yanına gəlib qızını ona istəyim İndi bilmirəm nə edim, özüm yaxşı bilirəm ki, oğlum ona layiq deyil.

Kəndxuda onun sözlərinə gülüb dedi:

– Evinə get, ona de ki, bu niyyətinin yerinə yetməsi üçün 50 rubl lazımdır ki, o, sən də yoxdur, onda o, bu fikrindən vaz keçər....

Hüseynin atası evinə qayıtdı, hər şeyi olduğu kimi ona nəql etdi, amma Hüseyn heç halını pozmadı və sürüsünü axtarmağa getdi.

Günlərin bir günü o, gecə sürünü başlı başına buraxdı və şəhərdə daha tez pul qazana biləcəyini düşünərək yola düşdü. Hüseyn şəhərə gəlib çıxıb hara gedəcəyini bilmədi və axırda bir yeməkxanaya girdi, yeməkxana sahibi ondan xəbər aldı ki, bir şey yemək istəyirmi, amma Hüseyn cavab verdi ki, o, toxdur. O, bütün bu vaxtı yeməkxana sahibinin xidmətçilərinə göz qoyurdu. Yeməkxana sahibi onun kasıbçılığını görüb onu yedizdirib doyurdu, odun lazım olanda ondan təvəqqe etdi ki, odun doğrasın, Hüseyn sevincək razı oldu. O, baltanı əlinə aldı və çox keçmədən həyətdəki tiri xırda girdələrə çevirdi. Yeməkxana sahibi bunu görüb çox təəcübləndi və ondan onun yanında işləmək istəyib-istəmədiyini xəbər aldı. Onda Hüseyn dedi:

– Mən elə bunun üçün də bura gəlmişəm məni işə götürəndə sən gərək başqalarını işdən çıxarmalı olacaqsan, çünki hamının əvəzinə iş görmək istəyirəm. Yeməkxana sahib razı oldu və onu ili 50 rubldan işə götürdü.

Bu işin üstündən bir qədər vaxt keçdi və Hüseyn səbirsizliklə ilin bitməsini gözləyirdi.

Bu vaxt bir pəhləvan başqa şəhərdən bura gəlib çıxdı. Bu pəhləvan bir pəhləvanın güləşmək üçün onun qabağına çıxmasını istədi. Bu şərtlə ki, məğlub olan ona pul ödəməli idi. O, meydana çıxıb pəhləvanı gözləməyə başladı. Meydanda üç stul qoyulmuşdu. Stulun birində gəlmə pəhləvan oturmuşdu, qalan iki stul isə canişin və başqa pəhləvan üçün qoyulmuşdu.

Caamat səhərdən axışıb meydana gəldi, yeməkxana sahibi də ora gəlməyə hazırlaşdı. Hüseyn ondan hara getdiyini xəbər aldı. O, dedi ki, meydanda iki pəhləvan güləşəcək, onlar güləşməyə başlayanda o onu da götürəcək, İndi isə hələ qoy gözləsin. Amma yeməkxana sahibi gedən kimi Hüseyn o saat yeməkxananı bağladı və onun dalınca çıxıb yola düzəldi, Hüseyn gəlib meydana çatdı canişin qoyulmuş stula oturdu, həmən stul da sındı. Xəbər gedib canişinə çatdı o, əmr elədi ki, daha iki stul qoysunlar-özü üçün bir də pəhləvan üçün . Pəhləvan Hüseynin boy-buxununu güclü bədənini görüb karıxdı, amma onun bir qədər qəribəliyini görüb sakitləşdi. Çox keçmədən canişin öz pəhləvanı ilə gəlib çıxdı. Pəhləvanlar yerlərində oturub bir-biriləri ilə mübahisə etməyə , sonra isə güləşməyə başladılar. Onlar uzun müddət güləşdilər amma heç kim qalib olmadı, ona görə də onlar güləşməyi dayandırdılar və ertəsi günədək təxirə saldılar.

Yeməkxananın sahibi ilə Hüseyn evə gəldiklərində o, Hüseyni məzəmmət etməyə başladı ki, bəs o, lazım olmayan yerə soxulur.

Ertəsi gün yeməkxananın sahibi Hüseynə əmr etdi ki, o, özü onu çağırmayınca heç bir yerə getməsin. Amma Hüseyn o saat yeməkxananın sahibinin arxasınca getdi, o, ora gəlib bir gün əvvəl oturduğu stulda oturdu. Pəhləvanalar yenə də güləşməyə başladılar, yenə də heç kim qalib olmadı, onda onlar qılınca əl atdılar. Heç iki saat keçməmişdi ki, iranlı pəhləvan qışqırmağa başladı.

– Ya başqa bir pəhləvan gətirin, ya da danışdığımız məbləği gətirin!

Camaat dağılışıb getdi, canişimin qanı qaraldı və o, nə edəcəyini bilmirdi. Axırda o, pəhləvandan 40 gün möhlət istədi. Hüseyn evə gəlib yeməkxanın sahibinə dedi:

– Get, və canişinə de ki, sənin bir nökərin var və o, bu pəhləvanla güləşmək istərdi.

Yeməkxanın sahibi gedib canişini məsələdən agah etdi çox sevİndi və Hüseynin dərhal onun yanına gəlməsini tələb etdi. Hüseyn gəlib çıxanda canişin əmr etdi ki, ona yaraq-əsləhə versinlər və aparıb ona pəhləvan fəndləri öyrətsinlər. Hüseyn 40 günün içində bütün bunları öyrəndi. O, qırxıncı gün meydana çıxdı. Gəlmə pəhləvan Hüseyni görüb tutuldu, 40 gün bundan əvvəl stulu sındıran pəhləvan tanıdı, istər istəməz onun onunla güləşməyə başladı. Çox keçmədən Hüseyn onu yıxdı və başını kəsdi.

Canişin bu qələbədən sonra Hüseyni Şah Abbasın hüzuruna apardı. Şah Abbas onun gücünü yoxlayıb ona bir neçə tapşırıq verdi, Əyyar Mirzə adlı birisini də ona qoşub ona yol yoldaşı etdi. Şah Abbas isə Əyyar Mirzəni belə axtarıb tapmışdı. Günlərin bir günü o, əmr etdi ki, küpəgirən qarını onun yanına gətirsinlər. Küpəgirən qarı gəlib onun hüzurunda hazır olanda Şah Abbas ondan xəbər aldı:

– Ey küpəgirən qarı, bir de görüm, Hüseynə kim yol yoldaşlığı edə bilər?

Qarı ona cavab verdi:

– Qibleyi-aləm, İsfahan şəhərində Şamancı oğlu Mirzə adında bir Əyyar Mirzə var, olsa-olsa o, Hüseynə yol yoldaşı ola bilər.

Onda Şah Abbas əmr verib onu axtarıb tapdırdı. O, gəlib şahın hüzurunda duranda o, ondan xəbər aldı:

– Adın nədir?

Mirzə dedi:

– Mənim saysız-hesabsız adım var.

Şah Abbas dedi:

– Bir neçə adını bir-bir mənə say!

O, şaha bir-bir adlarını saymağa başladı və hətta bir məharətini saymağa başladı və hətta bir məharətini də işdə ona göstərdi belə ki, birdən o, gözdən itdi, səsi isə sarayın damından gəldi:

Şah Abbas onlara çoxlu pul verdi qonşu bütpərəst vilayətə yola saldı ki, gedib bac-xərac alsınlar və Buxtunnas padşahın bacısını da özləri ilə gətirsinlər. Hüseyn əyyarla bərabər yola düşdü. Bir vaxtdan sonra onlar Buxtunnasın şəhərinə çatdılar. Şəhərin kənarında onlar bir mağara axtarıb tapdılar və orada qaldılar. Hava qaralanda adət üzrə qüllələrdən qışqırıq səsləri ucaldı:

– Buxtunnasın padşahlığı və Qarquşun zamanı! (Qarquşa Baxtunnasın pəhləvanı idi). Bu vaxt Mirzə gizlincə qülləyə yaxınlaşdı və bu sözləri qışqırdı:

– Şah Abbasın şahlığı və Hüseynin zamanı!

Adamlar bu qışqırığı eşidib onu tutmaq istədilər amma bacarmadılar çünki Mirzə quşlar kimi uça bilirdi.

Ertəsi gün Mirzə yola düşdü və öyrəndi ki, hamı onlardan danışır. Mirzə lazım şeylərdən alıb evə qayıtdı və şəhərdə eşitdiklərinin hamısını Hüseynə nəql etdi. Axşam düşən kimi Hüseyn yaraq-əsləhəsini geyİndi və meydana yollandı. Bu vaxt şəhər darvazaların da qırdı. Hüseyn yol gedərkən şəhər qaravulu ona rast gələndə o, adamın boğazından tutur, o, özündən gedib yerə yıxılanadək onu buraxmırdı. Beləliklə, onlar Qarquşun və onun şagirdlərinin onları gözlədikləri meydana gəlib çıxdılar. Hüseyn özünün gəlib çıxdığını bildirmək üçün yerdən bir qayma torpaq götürdü və meydana atdı, sonra isə özü ora qalxdı. Mirzə isə bir küncdə gizləndi. Qarquş əmr etdi ki, Hüseyn üçün bir stul gətirsinlər. O saat stul gətirdilər, Hüseyn stulda oturanda o sındı. Onda Qarquş hirsləndi və əmr etdi başqa bir stul gətirsinlər bu stul da qırıldı. Qarquş Hüseynin bu gücünü görüb karıxdı dedi:

– Mən bilirəm sən nə üçün bura gəlmisən, sənə yazığım gəlir. Ən yaxşısı sən bizim dini qəbul et və burada qal. Mən padşahdan xahiş edirəm ki, səni baş pəhləvan təyin etsin və sənə yaxşı maaş kəssin.

Hüseyn cavab verdi:

– Mən burada qalmaq üçün yox, sizin padşahın bacısını armaq və bac-xərac almaq üçün gəlmişəm.

Onlar bir-biri ilə mübahisə etdilər və axırda yerlərindən qalxıb güləşməyə başladılar. Onlar nə qədər güləşsələr də bir-birinə qalib gələ bilmədilər və bir-birindən heç nəsiz aralandılar. Hüseyn Mirzə ilə mağaraya qayıtdılar.

Ertəsi gün eyni hadisə baş verdi, amma bu dəfə hər iki pəhləvan qılınca əl atdı. Hüseyn bir dizi üstə durdu və əlində qalxanı tutub Qarquşa dedi:

– Bizim, qanuna görə rəqib birinci vurmalıdır, buna görə də İndi sən vur.

Qarquş əvvəl istəmədi, amma sonra var gücünü toplayıb qılıncla elə vurdu ki, qılınc onun qalxanını yarıb keçdi və Hüseynin qaşlarınadək işlədi. Mirzə bunu görüb ağappaq ağardı, vaxt artıq gec olduğundan o, o saat bütün fənərləri söndürdü və onlar sağ-salamat aradan çıxdılar.

Ertəsi gün Mirzə şəhərdə həkim axtarmağa getdi. Özü də hər həkimi yox, ona yerli olanını axtarmağa getdi. Şəhərdə o, eşitdi ki, bəs Qarquş gəlmə bir pəhləvanı yaralayıb və o, qaçıb gizlənib, şəhərdə öz dükanında qanı-qara oturmuş bir dükançıdan başqa hamı şadyanalıq edildi. Mirzə onun iranlı olduğunu öyrəndikdə ona yaxınlaşdı və hər şeyi ona nəql etdi.

Gecə onlar mağaradan çıxdılar və Hüseyni sağaltmağa boyun olmuş həmən iranlının evinə getdilər. Bir aydan sonra Hüseyn sap-sağlam oldu. O, yenə meydana gəldi və ikinci dəfə Qarquş onu yaraladı . Onlar şəhərdən çıxıb yenə həmən iranlının evinə gəldilər. Yara biraz bitişdikdən sonra, Hüseyn iranlının bağına getdi və çox ağladı, çünki o, nə Qarquşun əlində ölmək, nə də bir qəhrəmanlıq göstərməmiş evə qayıtmaq istəyirdi, axırda burada yuxuya gedib yatdı. Yuxuda gördü ki, kimsə ona deyir:

– Ağlama və kədərlənmə, nəinki onunla səninlə güləşəcəksən hətta hamıya qalib gələcəksən.

Hüseyn yuxudan oyanıb ürəklənmiş halda evə getdi. O, çox vaxt keçmədən sağaldı və bir axşam yenə meydana yollandı. Burada o, yenə Qarquşa ona birinci zərbəni vurmağı təklif etdi. Qarquş var gücünü topalıyıb qılıncla ona bir zərbə endirdi, qılınc qalxanı yarıb geri sıçradı. Hüseyn onda ayağa qalxdı və Qarquşa elə bir zərbə endirdi ki, onu iki yerə parçaladı. Hüseyn Qarquşun şagirdlərinə əmr etdi ki, gedib padşaha bacısını verməsini və bac-xəracı ödəməsini demələrini əmr etdi. Bu vaxt Hüseyn Mirzə ilə bir neçə dükanı qarət edib şəhərdən çıxdılar.

Ertəsi günün gecəsi Mirzə padşahın sarayına getdi, hamı yatan vaxtı onan yataq otağına girdi və ona dedi ki, onlara verməli olduğunu elə İndi versin. Padşah ondan təvəqqe etdi ki, bir az gözləsin.

Buxtunnas qərara gəldi ki, Hüseynə qarşı başqa bir pəhləvan çıxarsın. O, həmən pəhləvanın arxasınca başqa şəhərə adam göndərdi və əmr etdi ki, o, öz əyyarı ilə gəlsin. Bahadır gəlib çıxdı və bir axşam Mirzə qulləyə çıxıb qışqırmaq istəyəndə padşahın əyyarı ona hücum etdi, amma Mirzə hiylə işlədib düşmənin əlinə keçmədi. Hüseyn bunu eşidib yeni gəlib çıxmış pəhləvanla güləşməyə getmədi.

Bir dəfə Mirzə şəhərdə olanda başqa əyyar yolun yaxınlığında çala qazıdı və yola ipək kəmənd atdı, özü isə çalada gizləndi. Mirzə qayıdıb yoldan keçəndə yolun üstündəki ipək kəməndi gördü və onu yerdən götürmək istədi. Birdən kəmənd onun ayaqların dolandı və Mirzə yerə yıxıldı. Elə o saat Mirzə başının üstündə onu öldürmək istətəyən başqa əyyarı gördü. Mirzə ondan təvəqqe etdi ki, onu öz qılıncı ilə öldürsün. Düşmən razı oldu, o, qılıncı qınından çıxardanda özündən getdi, Mirzə bundan istifadə edib özünün təhlükəli rəqibini öldürdü.

– Pəhləvanın əyyarı öldükdən sonra Hüseyn Mirzə ilə meydana yollandı və yeni pəhləvanla güləşməyə başladı, çox keçmədən Hüseyn onu yerə yıxdı və öldürdü.

Ertəsi günün gecəsi Mirzə padşahın sarayına yollandı və padşaha dedi ki, bacısını və pulları versin . Buxtunnas xahiş etdi ki, ona 40 gün möhlət versin, Mirzə razı oldu və çıxıb getdi.

Padaşah əmr etdi ki, şəhərin yaxınlığındakı düzə çoxlu odun gətirsinlər. Padşahın əmrini yerinə yetirdilər. Sonra o, əmr etdi ki, odunları yandırsınlar. Odunlar alışanda Hüseyn və Mirzə tonqal yanında çala qazdılar və orada gizləndilər. Bu vaxt padşah bacısı və bacısının adamları ilə gəlib çıxıdlar. Padşah əmr etdi ki, bacısını tonqala atsınlar. Onda Hüseyn və Mirzə çaladan çıxdılar və gələnlərin üstünə hücum etdilər və onlarla döyüşməyə başladılar.

Üç gün onlar padşahın adamları ilə vuruşdular və imkan vermədilər ki, padşahın bacısını oda atsınlar. Şah Abbas bu işdən xəbərdar olub ordusu ilə gəlib çıxdı və üç günlük mühasirədən sonra şəhəri aldı və şəhər sakinllərindən çoxunu qırıb-çatdı. Döyüş vaxtı Buxtunnas bacısını öldürməyi əmr etdi, amma özünü iranlılar öldürdülər. Qalib gəldikdən sonra Şah Abbas Hüseyni bu şəhərin canişini təyin etdi, Mirzəyə də böyük maaş kəsdi.

Şah Abbas öz şəhəri İsfahana qayıtdı, şəhər əhli təmtəraqla öz şahını qarışdı.

***Yelizavetpol quberniyası Qazax qəzasının Dağkəsəmən kəndində Mehrəli Muradov tərəfindən yazıya alındı.***

## YOXSUL PATAM
## (tatar nağılı)

Keçmişdə Dəməşq şəhərində Patam adında bir yoxsul adam yaşayırdı. O, o qədər yoxsul idi ki, soyuqdan və yağışlı havadan özünü qorumaq üçün bir evi belə yox idi, yayda o,

küçədə və ya damda açıq havada yatırdı. Qış gəlirdi və yazıq Patam pis havanın acısını çəkməli olurdu.

Axırda Patam özünə bir dəyə qazımaq qərarına gəldi və şəhər əhlindən təvəqqe etdi ki, ona bel və kürək versinlər şəhər əhlinin ona yazığı gəlib onun təvəqqesini yerinə yetirdilər. Onda yoxsul şəhərin kənarına yola düşdü, orada özünə uyğun bir yer seçib torpağı qazımağa başladı. Patam torpağın bir arşın dərinliyində qızılla dolu yeddi küp tapdı. Yoxsulun sevincinin həddi-hüdudu yox idi. O, bir qızıldan bir ovuc götürdü, sonra isə küplərin üstünü torpaqla örtdü və tez bazara yollandı. Patam orada qızılı satıb. Patam fəhlələr tutdu, onlar yoxsulun qızıl tapdığı yeri daş hasara aldılar. Sonra ustaları çağırdıb və onlara böyük məbləğdə pul ödəyəcəyini vəd edib bir bina tikmələrini əmr etdi ki, öz gözəlliyi ilə şəhərin bütün binalarını ötüb keçsin. Tikinti bir il davam etdi. Elə bir gözəl bina tikmişdi ki, Dəməşqə gələn bir bir səyyahı məftun edirdi. Camaat Patamın bu halından çox təəccübləndi, dünənədək sədəqə yığan adam şəhərin ən varlısı olmuşdu. Hər dəfə ondan necə belə varlandığını xəbər alanda o, adətən belə cavab verirdi.

– Bildiyiniz kimi mən bütün həyatımı kasıbçılıqla keçirmişəm, səbrlə soyuğa, aclığa hər cür çətinliklərə dözmüşəm və heç vaxt taleyimdən şikayət etməmişəm, əksinə hər vaxt Allaha şükr etmişəm. Belə bir böyük səbrə görə Allah məni var-dövlətlə mükafatlandırdı və qara günlərimi işıqlı günlərlə əvəz etdi.

Bundan sonra çox keçmədən Patam varlı bir tacirin qızı ilə evləndi. O, onu belə bolluca, səxavətlə mükafatlandıran Allaha təşəkkür əlaməti olaraq yeddi qapılı xüsusi bir ev tikdirdi dilənçilər sədəqə üçün onun yanına gəldiklərində onlar bu qapıların hər birindən içəri girib onu alıb gedirdilər.

Günlərin bir günü dilənçilər, o cümlədən də bir dərviş Patamın yanına gəldilər. Patam adəti üzrə onlara sədəqə verdi.

Dilənçilər sədəqələrini alıb getdilər, amma dərviş qaldı. Patam qapının yanında duran dərvişi gördü və ona dedi.

– Dərviş axı sən sədəqəni aldın, sənə daha nə lazımdır? əgər sənin bir şeyə ehtiyacın varsa, mənə söylə və mən sənin istəyini yerinə yetirərəm.

Dərviş cavab verdi:

– Mənim heç bir şeyə ehtiyacım yoxdur. Mən bütün həyatımı səyahətlərdə keçirirəm və İndi isə məşriqə tərəf gedirəm. Bu şəhərdən ötüb keçərkən, buradakı həyatla tanış olmaq istədim. Şəhər meydanında harasa gedən dilənçi kütləsini gördüm. Onlabir adamlardan hara getdiklərini xəbər aldım. Dilənçilər mənə cavab verdilər ki, onların şəhərində Patam adlı varlı – dövlətli bir adam bir ev tikmişdir və o, burada onlara sədəqə verir. Budur biz İndi sədəqə almaq üçün onun yanına gedirik. Mən də bu kütləyə qoşuldum və onlarla birlikdə sənin yanına gəlib çıxdım. Mən İndi artıq yoluma davam etmək iqtidarında deyiləm mən çox yorulmuşam və buarada heç kimi tanımıram, harada gecələcəyimi bilmirəm. Buna görə də səndən təvəqqe edirəm ki, mənə evində gecələməyə icazə verəsən.

Patam məmnuniyyətə razılaşdı və ona evində gecələməyə icazə verdi. Dərviş səyahət etdiyi ölkələrdən və başına gələn müxtəlif əhvalatlardan ona nəql edirdi. Dərvişin bu hekayətləri Patama güclü təsir etdi. Axırda Patam ona bu sözlərlə üz tutub dedi:

– Artıq neçə ildir ki, mən bu evi tikmişəm, hər gün bir neçə yüz yoxsul sədəqə üçün bura gəlir və onlardan hər biri məndən yeddi dəfə pul alıb gedir. Sən çox səyahətlər etmişsən və ömründə çox adamlarla görüşmüsən. Mənə bir söylə, dünyada hardasa mənim təkin bir adama rast gəlmişsənmi?

Onun bu sözünə dərviş cavab verdi:

– Doğurdan da sən səxavətinlə seçilirsən və yoxsullara kömək edirsən. Amma məndən səxavətdə sən üstün olan bir

nəfərə rast gəlmişəm. Diyarbəkir şəhərində Fərhad adında bir nəfər yaşayır. O, hər həftə cümə günləri öz evində məclis qurur və bu məclisə yoxsul və dilənçiləri dəvət edir. O, öz qonaqlarına iri qızıl nimçələrdə plov verir, həm də hər iri nimçədə iki nəfər yemək yeyir. Yeyib qurtardıqdan sonra ev sahibinin əmrinə görə onlardan biri isə həmən iri nimçənin qapağını özü ilə götürür.

Patam bu xəbərdən o qədər təəccübləndi ki, bir müddət heç nə deyə bilmədi. Maraq ona əziyyət verir o, öz gözləri ilə bu qeyri-adi adamı görmək istəyirdi. Əvvəllər o, fəxr edirdi ki, dünyada səxavətinə görə onun tayı-bərabəri yoxdur, amma İndi isə o, razılaşdı ki, Fərhad ondan da səxavətlidir.

Patam dərvişə dedi:

– Mən çox istərdim bu gözəl insanı öz gözlərimlə görüm və sabah mütləq Diyarbəkir şəhərinə gedəcəyəm. Amma mənim səndən iki təvəqqem var, birincisi budur ki, mən geri qayıdanadək evimdə qal, və mən özüm etdiyim kimi sən dilənçilərə sədəqə var.

Bunu deyib Patam pulların olduğu sandığın açarını da ona verdi.

Ertəsi gün səhər tezdən Patam yerindən qalxdı dərviş libasını geyİndi və dərvişlə vidalaşıb yola düşdü. Dərviş onunla sağollaşıb, ona uğurlar dilədi.

Patam azmı getdi, çoxmu getdi, bunu heç kim bilmir amma yalnız bir neçə həftədən sonra Diyarbəkirə gəlib çatdı. Şəhər meydanında var gücü ilə qışqıran bir adamı gördü:

– Bədbəxtlər və dilənçilər Fərhadın məclisinə gəlin!

Yoxsullar hər tərəfdən gəlin qışqıranın ətrafına yığıldılar, hər dəqiqə onların sayı getdikcə də artırdı. Patam göz açıb yumunca bir neçə yüz dilənçi yığıldı. Patam da bu yığına qoşuldu. Dilənçilərin yığını qışqıranın dalınca düşüb getdilər.

Beləliklə, yoxsul Patam gəlib ağ mərmərdən tikilmiş son dərəcə böyük bir yeddi mərtəbəli çatdı. Hər bir yad adam

bu şəhərə gəldiyində düşünə bilərdi ki, bu padşah sarayıdır. Patam da belə düşünürdü. Onlar ipək xalçaların döşənmiş olduğu böyük bir zala girdilər. Patamın bahalı xalçalara ayaq basmağa heyfi gəldi. Zal o qədər böyük idi ki, üç yüz adamın hamısı ora yerləşdi. Yeməkdən əvvəl müsəlman adətinə görə qonaqlar əllərini yumalı idilər. Bu adətin icrası üçün xidmətçilər su ilə əlüzyuyan və qızıl tas gətirdilər. Qonaqlar əllərini yuyub qurtardıqda xidmətçilər qızıl qapaqlı iri qızıl nimçənin qarşısında iki nəfər ot vurmuşdu. Yeməkdən sonra qonaqlar öz aralarında iri qızıl nimçələri və qızıl qapaqları öz aralarında bölüşdürməli idilər. Bölüşdürmə vaxtı Patamın payına qızıl qapaq düşdü. Yolçular dağılışıb getdikdə Patam Fərhaddan təvəqqe etdi ki, onun evində gecələməyə icazə versin. O, Fərhadla təkbətək qaldıqda ondan xəbər aldı:

– Mənim üçün sənin bu qədər qızılı haradan əldə etməyin çox maraqlıdır. Bu gün burada üç yüz adam var idi və onlardan hər biri ya iri qızıl nimçə, ya da qızıl qapaq aldı. Mənə öz hekayətini nəql et, sən bu qədər qızılı necə aldın?

Fərhad dedi:

– Filan şəhərdə yaşayan dövlətli tacir Zöhhak öz hekayətini nəql etməyənədək, mən sənə öz hekayətimi nəql etməyəcəyəm. O, alıcılara öz malını mənfəətlə satır, onlar öz aldıqlarını götürüb dükandan çıxdıqda Zöhhak onları geri çağırır, satdığı malı geri alır, alıcılara isə ödədikləri pulu qaytarır,sonra isə o, malını yandırır və alova baxıb həzz alır. Əgər o, sənə nə üçün belə hərəkət etdiyini nəql etsə onda mən də sənə öz hekayətimi nəql edərəm.

Ertəsi gün səhər tezdən Patam yola düşdü. Beş gün yol getdikdən sonra Fərhadın sözünə görə Zöhhakın yaşadığı şəhərə çatdı.

Patam onu dükanında oturan gördü. Onun dükanı hər cür toxuculuq malları ilə dolu idi. Alıcılar yığnaqlar halında

onun dükanına axışıb gəlirdilər. Patam tacirin öz malını satdıqdan sonra, onları yenidən öz dükanına çağırdığını, onlara satdıqlarını geri aldığını və onları necə yandırdığını gördü.

Bu qeyri-adi tamaşadan özünü itirmiş Patam tacirin nə üçün belə hərəkət etməsinin səbəbini tapa bilmədi. Axşam o dükanını bağlayıb evinə gedəndə Patam ona yaxınlaşıb xəbər aldı:

– Mən, dərvişə icazə ver bu gecə sənin evində qalım, alicənab ol, təvəqqemi rədd etmə!

Zöhhak yad adamın təvəqqesini iltifatla dinləyib ona onun ardınca getməyi əmr etdi.

Axşam maraqdan üzgün olan Patam Zöhhakdan xəbər aldı:

– Sən nə üçün malını yaxşı qazancla satıb, onu geri alırsan və yandırırsan?əgər sən belə etməyə davam etsən, sənin var-dövlətin azalacaq və sən yoxsullaşacaqsan. Görünür burada əgər sən özün mənə öz hekayətini nəql etməsən mənim hələ bilmədiyim başqa bir səbəb vardır.

Zöhhak dedi:

– Sən dəmirçi İskəndərin hekayətini nəql edəndə, mən sənə başıma gələni nəql edəcəyəm. Şəhərlərin birində İskəndər adlı bir dəmirçi yaşayır. O, çox gözəl bir həyat yaşayır, onun yaxşı bir dəmirçixanası və bir neçə şagirdi vardır. O, dəmir parçasını sobaya atır, o qazanda onu dəmir kəlbətinlə tutur və zindanın üstünə qoyur, amma qızmış dəmiri döymək üçün əlinə çəkici götürər-götürməz o, dərhal çəkic və dəmiri bir tərəfə atır, özü isə qəbirstanlığa qaçır və oradakı üç məzarı qucaqlayır və acı-acı ağlayır. Bu iş hər gün bir neçə dəfə təkrar olunur. Beləliklə, o, nəinki heç bir iş görmür, əksinə boş yerə pullarını xərcləyir. Əgər sən məni bu sirdən agah etsən, mən də sənə öz hekayətimi nəql edəcəyəm. Yorulmuş Patam elə buradan geriyə, evinə qayıtmaq istəsə də, amma bu qədər uzun səyahətdən sonra əliboş evə qayıtmaq ona ağır gəlirdi.

Ertəsi gün dan yeri ağararkən bizim səyyah yola düşdü. Bizm səyyah çoxmu getdi, qısamı getdi, bunu Allah bilir, amma bir neçə gündən sonra o, artıq həmən şəhərdə idi. Patam dəmirçi İskəndəri Zöhhakın nəql etdiyi halda tapdı, ondan onun evində gecələmək üçün icazə istədi və razılıq aldı. Gecə axşam yeməyi ortaya gələndə Patam dəmirçi İskəndərə dedi:

– Sən məni öz sirrindən agah etməyənədək əlimi çörəyə vumayacağam. Nə üçün sən dəmiri zindanın üstünə qoyanda çəkici və dəmiri atır və qəbirstanlığa qaçırsan? Nə üçün sən şagirdlərinə və kömür üçün boş yerə pul xərcləyirsən. Sən axı bunu səbəbsiz etməyirsən.

Dəmirçi İskəndər cavab verdi:

– Sən hələlik yeməkdən ye, sonra mən öz hekayətimi sənə nəql edərəm.

Şadlanmış Patam qeyri-adi səbirsizliklə İskəndərin hekayətini nəql etməyə başladı:

– Bir neçə il bundan qabaq mən məsciddə müəzzin idim. Mənim səsim o qədər gözəl idi ki, mən oxuyandan quşlar sürülərlə hər tərəfədən uçub gəlir, hər tərəfdən minarəni əhatəyə alır və səsinə qulaq asırdılar, səsimin sayəsində bu şəhərdə hamı mənə hörmət edir və yaxşı maaş verirdilər.

Bir dəfə mən adətim üzrə minarəyə qalxdım ki, günorta duasını oxuyum. Bu vaxt mən saata baxdım və gördüm ki, saat on ikiyə dörddə bir saat qalıb. Buna görə də mən vaxtı gözləməli idim. Bu vaxt birdən mənim yanıma minarəyə ağ rəngli çox gözəl bir quş uçub gəldi, o, uçub gələndə az qala başıma toxunacaqdı. O, mənim çox xoşuma gəldi və mən əlimi uzatdım ki, onu tutum. Əlim elə ona toxunmuşdu ki, o, yerindən uçub qalxdı, məni də özü ilə qaldırdı. Onun məni yer üzündən nə qədər uzaq qaldırdığını deyə bilmərəm, amma mən yüksəklikdən aşağı baxanda o, mənə bir balaca nöqtə şəklində göründü. Qorxudan mən daha yerə baxa bilmərəm. Necə və harada yerə endiyimi

bilmirəm, bircə onu bilirəm ki, çox gözəl çöldəyəm. Bu çöldə mən bir cığır gördüm, həmən cığırı tutub getdim. Birdən gözlərimin qarşısında çox gözəl bir mənzərə açıldı, qarşısında qızıl kərpiclərdən tikilmiş yeddi mərtəbəli böyük bir saray gördüm. Mən bu sarayın kimin olduğunu çox bilmək istədim və bu məqsədlə də ora girdim. Mən mərmər mərtəblərlə bir mərtəbədən digərinə qalxırdım və hər yerdə möcüzələrə təəccüblənirdim. Bu sarayda hər şey gözəlliyin ən yüksək dərəcəsində idi.

Ən yüksək mərtəbədə bir otaqda qızıl taxtda yatan gözəl bir qız gördüm. O, elə gözəl idi ki, yemə, içmə bircə xətti camalına bax. Mən yatmaqda olan çariçənin qarşısında bir növ donub durmuşdum. Onun gözəlliyinin əsiri olub bir anlığa qəlbimə hakim ola bilmədim və bir qədər ona yaxın, aşağı əyildiki, onu öpsün, amma işin tərsliyindən ayağı sürüşdü və onun üstünə yıxıldı.

Çariçə o saat yuxudan oyandı və ucadan qışqırdı. Onun qışqırıq səsinə saray əyyan və xidmətçiləri dərhal qaçıb gəldilər.

Onda çariçə məni göstərib onlara dedi:

– Bu adam məni öpmək istəyirdi, siz buna nə deyirsz?

Əyanlardan biri dedi:

– Belə bir caninin boynuna vurmaq lazımdır.

O birisi dedi:

– Belə bir adamı yandırmaq lazımdır.

Üçüncü əyan isə dedi:

– Belə bir nadanı vəhşi heyvanlara atmaq lazımdır ki, onu parça-parça etsinlər.

Bu vaxt mən qorxudan tir-tir əsirdim və fikirləşirdim ki, əgər çariçə bütün bu deyilənləri həyata keçirsə, mənim halım nə olacaq?

Axırda çariçə özü dedi:

– Mən onu bağışlayıram, məni gördükdə onun qəlbində məhəbbət alovlandı və o, öz hisslərinin əsiri olub belə bir

cəsarətli hərəkətə qərar verdi. Qoy onu buraya gətirən elə özü də onu öz vilayətinə aparsın.

Onun əmri dərhal yerinə yetirildi, məni saraydan çıxardılar. Çox keçmədən mən birinci dəfə olduğum yerdə oldum. Məni buraya gətirən quş uçub gəldi, o, məni qanadlarına mİndirdi və yerdən qalxdı. Bir neçə dəqiqədən sonra mən dörddəbir saat bundan əvvəl olduğum minarədə idim. Mən saata baxdım və gördüm ki, saat elə on ikidir. Mən dua oxumağa başladım, amma səsimi elə dəyişmişdim ki, adamlar mənə gülməyə başladılar və deyirdilər:

– Sən necə də axmaq insansan, belə pis səslə hələ də bizim müəzzinin yerinə tutmaq istəyirsən. Bir vaxtlar bizim müəzzin oxuyanda bütün quşlar onun səsini dinləməyə uçub gəlirdilər. Bu bizim müəzzin deyildir, göy yerdən uzaq olduğu qədər sənin səsin də bizim müəzzinin səsindən də o qədər uzaqdır.

Belə bir ağır kədərlə mən belə sözləri dinləyirdim. Səsimi itiridkdən sonra bu şəhərdə yaşamaq istəmədim. Doğma şəhərimi tərk etmək qərarına gəlib cavan arvadımı (evlənməyimdən heç altı ay keçməmişdi) anama tapşırdım və həmçinin geri qayıtmamağıma qədər xərcləmək üçün pul da verdim. Anam mənə xeyir-dua verdikdən sonra mən doğma şəhərimdən yola düşdüm. Başqa şəhərə gəlib dəmirçiliklə məşğul olmağa başladım. Mən orada on beş il qaldım. Bu vaxt ərzində mənim əvvəlki səsim tədricən qayıtmağa başladı. Ağır zəhmətlə qazandığım var-dövləti yığıb öz vilayətimə geri döndüm. Öz şəhərimizə yaxınlaşanda hava artıq qaralmışdı və bu səbəbdən də şəhər darvazaları bağlanmışdı. Buna görə də mən darvazanın arxasında açıq havada gecələmək və ertəsi günü gözləmək məcburuiyyətində qaldım. Amma qəlbim bu uzun sürən ayrılıqdan sonra çox həyacanlı idim və nə olursa-olsun şəhərə girmək qərarına gəldim. Atımı və əşyalarımı darvazanın arxasında buraxıb özüm şəhər divarından aşdım öz evimə tərəf yönələrək bütün ailəmi

yatmış gördüm. Birdən baxıb gördüm ki, arvadımın yanın da on beş yaşında gənc oğlan yatır. Bu mənzərəni gördükdə mən özümdən çıxdım və qəzəbləndim mən çox heyifsiləndim:

– Doğurdanmı anam mənə xəyanət etmişdir, doğurdanmı mənim sədaqətli arvadım məni unutmuşdur və yoxluğumdan istifadə edib özünə bir sevgili tapmışdır! Allahım!

Qılıncımı sıyırıb hamısını yatdıqları halda doğradım, əvvəlcə anamın, sonra arvadımın və axırda gənc oğlanın başını kəsdim. Onları öldürdükdən sonra qılıncımı qınına qoydum və öz evimdən baş götürüb getdim. Yenidən şəhər divarını aşdım və darvazanın nə vaxt açılacağını gözlədim. Ertəsi gün səhər darvazalar açıldı və mən şəhərə girdim. Şəhəri ağlasan qohumlarımın yığnağı məni qarşıladı və gecə baş vermiş hadisədən məni xəbərdar etdilər. Onlar mənə dedilər:

– Bu gecə hansısa allahsız cani sənin evinə girmiş və sənin ananın, arvadının və oğlunun başını kəsmişdir.

Mən yalnız İndi səhvimi başa düşdüm, ağlayıb hönkürməyə, saçlarımı yolmağa başladım, amma nə etməli sonrakı peşmançılıq fayda verməz.

Gecə-gündüz ağladım, gözyaşları ilə dərdimi yüngülləşdirmək mümkün olmadı. Sonra mən gördüyün dəmirçixananı açdım. Zindanın üstünə qızmış dəmiri qoyan kimi anam, arvadım və oğlum gözümün qabağına gəlirlər. Bu vaxt mən əlimdəki çəkici, kəlbətin və dəmiri bir tərəfə atıb onları tutmaq istəyirəm amma onlar qaçıb gedirlər, mən də onların ardınca qaçıram. Beləliklə, qaçhaqaç gəlib qəbirstanlığa çatırıq onların hər biri öz qəbrində gizlənir. Mən isə ürəyimə bir yüngüllük gələnədək qəbirləri qucaqlayıb ağlayıram, sonra da öz dəmirçixanama geri dönürəm. Mən hər dəfə qızdırılmış dəmiri zindanın üstünə qoyanda bu başıma gəlir. Vicdanım mənə əziyyət verir qəlbimdə sağalmaz yara əmələ gəlibdir. Mənim bu hərəkətimin sirri də budur.

Yoxsul Patam dəmirçi İskəndərin hekayətindən çox təsirləndi.

O, biri gün Patam İskəndərlə vidalaşıb evinə yola düşdü. O, Zöhhakın yanına gəlib dəmirçi İskədərin eşitdiklərini ona nəql etdi. Zöhhak diqqətlə Patamın hekayətinə qulaq asdı və dəmirçi İskəndərin bu taleyindən dəhşətə gəldi:

– Mən sənə dediyimi yerinə yetirdin və mən sənə öz sirrimi aça bilərəm. Mənim atam bu şəhərin ən dövlətli adamı idi.Bizim ev şəhərin mərkəzində idi digər evlərdən gözəl və böyük idi. Evimizin həyətində gül bülbülü, bülbül gülü çağıran bir gözəl bağımız vardı, burada ürəyin istəyən meyvə ağaclarını görərdin, bir cənnət bağidi.

Mənim hurilər padşahının qızları ilə tanışlıq edən bacım var idi. Onlar hər il göyərçin cildində bizim bağa uçub gəlirdilər, onlar bizim bağda yeyib içir, bacımla deyib gülür, hovuzda çimirdilər. Onlar uçub gələndə mənə bağda gəzməyi qadağan edirdilər.

Bir dəfə hurilər padşahının qızları həmişə olduğu kimi yenə bizim bağa uçub bacımın yanına gəlməlidilər. Mən səhər tezdən bağa getdim və durub bir kolun arxasında gizləndim. Birdən üç göyərçinin göydən bizim bağa endiklərini gördüm. Bacım öz yoldaşları ilə onları gözləyirdi.

Göyərçinlər quş cildlərini misli bərabəri olmayan gözəl qızlara döndülər. Üç qızdan kiçik çox xoşuma gəldi və nə olursa olsun ona sahib olmaq qərarına gəldim. Hurilər padşahının qızları çimmək üçün hovuza girəndə mən fürsət tapıb kiçik bacının cildini oğurladım və əvvəlki yerimdə gizləndim. Şahzadə qızlar çimib hovuzdan çıxdılar və cildlərini geyinməyə başladılar. Iki böyük bacı cildlərini geyİndilər amma kiçik bacı özünün göyərçin cildini tapa bilmədi. Belə olduqda o, üzünü bacıma çevirib dedi:

– Məgər biz sənə deməmişdik ki, biz burada olanda heç kimi bağa buraxmasınlar? Görünür burada mənim cildimi oğurlayan bir kimsə vardır.

Bacım şahzadə qıza nə deyəcəyini bilməyərək çox susdu. Onlar kolları axtarmağa başladılar. Çox keçmədən onlar məni qızılgül kolları arasında uzanmış halda axtarıb tapdılar. Bacım məni görüb məni məzəmmət etməyə danlamağa başladı. O, cildi məndən almaq istəyirdi. Şahzadə qız onun sözünü kəsib dedi:

– Yaxşısı sən onu rahat burax, onun bu işdə təqsiri yoxdur, görünür mənim taleyim belədir. Bir cadugər qadın bunu mənə əvvəlcədən demişdi. Bir də ki, göyərçin cildi artıq öz əhəmiyyətini itirmişdir, çünki bəni-adəm əli ona toxunmuşdur.

Sonra bacılarına dedi:

– Əziz bacılar, məndən ata-anama salamlar çatdırın və onlara deyin ki, məndən ötrü nə etməli, Allahın təqdirinə boyun əymək lazımdır, deməli Allah bunu istəyirmiş!

Bacılar görüşüb öpüşüb ayrıldılar. İki bacı yenidən göyərçinə çevrildilər və uçub getdilər.

Şahzadə qız mənə yaxınlaşdı, əlimdən tutub dedi:

– İndi mən səninəm, sən isə mənim ərimsən, mən isə sənin arvadınam. Gedək sənin atanın yanına onun xeyir-duasını alaq, sonra isə kəbinimizi kəsdirək.

Bir bağdan çıxıb evimizə yollandıq. Mənim kinli bacım əhvalatdan atamı xəbərdar etmişdi və atamın qarşısında məni onun qız yoldaşlarını təhqir etmək də günahlandırdı. Atam məni yanına çağırdı və hirslə səslə dedi:

– Birincisi sən qonaqpərvərlik qaydalarını pozmusan və həyasızcasına bacının yoldaşları olan huruilər padşahın qızlarını təhqir etmisən. Ikincisi mən sənin atan olaraq səni istədiyim kimi evləndirməliyəm, amma sən öz zövqünə görə özünə nişanlı qız seçmisən, sən heç də fikirləşməmisən ki,

mən sənin evlənmənə razı olmaya bilərəm. Sən məni özünə ata saymırsan, deməli mən də səni özümə oğul saymıram və səni mənim varisim olmaq hüququmdan məhrum edirəm. Öz seçdiyin nişanlını götür və istədiyin yerə də get. Tez buradan rədd ol ki, gözlərim bir də sən satqını görməsin.

Mən boşuna atamın ayaqlarına düşdüm, mən boşuna ona yalvarırdım ki, o, məni bağışlasın o əvvəlkindən daha bərkdən qışqırmağa başladı. Əgər siz elə bu gün bu evdən çıxıb getməsəniz, mən öz nökərlərimə əmr edəcəyəm ki, sizi ən qəddar şəkildə buradan qovsunlar.

Mən nişanlımın yanına gəlib onu hal-qəziyyədən halı etdim. O, məni sakitləşdirərək dedi:

Əzizim, bu pullları götür və şəhərdəki ən yaxşı evi al! Sən atanın əmrini yerinə yetirməlisən.

Mən pulları götürüb, dərhal getdim və özümə ev aldım. Yeni evə köçüb şahzadə qızla evləndim. Bu vaxt o, mənə dedi:

– Əgər sən həmişə məninlə olmağımı istəyirsənsə, bizim uşağımız dünyaya gələndə sən onu əllərinə alma, əks halda ömürlük biz ayrılacağıq.

Mən onun təvəqqesini yerinə yetirəcəyimə söz verdim. Sonra o mənə çoxlu pul verdi və mən sən gördüyün dükanı açdım və ticarətlə məşğul olmağa başladım. Bir ildən sonra arvadım çox gözəl bir qız uşağı dünyaya gətirdi. Mən uşağı çox sevirdim, onu əllərimə almaq, öpmək istəyirdim, amma vaxtında arvadımın sözlərini yadıma salıb bunu etmirdim. Bir dəfə arvadımın evdə olmadığından istifadə edib uşağı qucağıma aldım, birdən arvadım otağa girdi. O, bunu görüb qeyzlə dedi:

– Məgər mən sənə əmr etməmişdim ki, körpəni əllərinə almayasan? Məgər mən səni xəbərdar etməmişdim ki, əgər sən mənə əmr etdiyim tərzdə hərəkət etməsən çox əzab çəkəcəksən.

O bu sözləri deyib yazıq uşağı əlimdən aldı və parçaladı. Uşaq o saat quşa çevrildi və otaqdan uçub getdi. Arvadım dedi:

– Bu dəfə mən səni bağışlayıram, əgər bu bir də baş versə, sən həyatımdan çox sevəndən ömrünün sonunadək məhrum olacaqsan.

Bir ildən sonra çox gözəl bir oğlan uşağı doğdu. Mən bu uşağı da çox sevdim, onu qucağıma alıb öpmək istəyirdim. Amma bir dəfə özümü saxlaya bilmədim, fürsət tapıb uşağı qucağıma alıb öpdüm. Bu vaxt birdən arvadım haradansa gəlib çıxdı. O, hirsli-hirsli uşağı əlimdən alıb ac qurd kimi parça-parça etdi. Uşaq anında quşa çevrildi və uçub getdi. Sonra arvadım mənə dedi:

– Hə, İndisə tək qal, başına gələn bədbəxtliyin səbabkarı sənsən.

O, bunu deyib göyərçinə çevrildi və uçub gözdən itdi. Bu ayrılıq mənə elə əsir etdi ki, bir neçə gün və gecə mən nə yedim, nə içdim, bütün vaxt ağladım. Bir müddət keçdikdən sonra mən öz işimə davam etdim, mən hər gün dükana gəlib ticarətlə məşğul oluram. Hər yerdən dəstə-dəstə alıcılar dükanıma gəlir. Mən satdığım şeylər müqabilində onlardan pul alar-almaz arvadım öz körpələri ilə gözümə görünür. Arvadım başımıza gələnlərdə məni günahlandırır və məndən tələb edir ki, alıcılara satdığım malları onlardan geri alıb yandırım. Buna görə də mən onun əmrini yerinə yetirərək satdığım malları alıb yandırıram. O, yandırdığı malların alovuna baxıb gedir. Mən bu işdən çox razıyam, çünki belə etdiyimdə sevimli arvadımı görürəm. Bax mənim başıma gələn budur.

Patam Zöhhaka təşəkkür edib. Diyarbəkirə geri döndü. O, ora gələn kimi Zöhhakın nəql etdiklərindən onu halı etdi. Fərhad diqqətlə onu dinlədi, o, nəql edib qurtardıqdan sonra Fərhad ona dedi:

– Doğurdan da sən mənə maraqlı əhvalat nəql etdin İndi isə mən başıma gələnləri sənə nəql edəcəyəm.

Mən var-dövlətli ata-ananın tək oğluyam. Əcəli çatanda o, məni yanına çağırıb dedi:

– Əziz oğlum mənim, əcəlim gəlib çatıb, mənə diqqətlə qulaq as!

Mən öləndən sonra o qədər də qəm-qüssə etmə, ruhdan düşmə, bununla sən Allahı qəzəbləndirə bilərsən. Mən sənə bu vaxtadək heç bir atanın buraxmadığı var-dövləti qoyub gedirəm.

Vəsiyyətimə qulaq as!

Birincisi sınaqdan keçirmədiyin heç bir kəsə etibar etmə.!İkincisi yaman adamlarla yoldaşlıq etmə! Üçüncüsü, unutma ki, mən bu şəhərdən deyiləm, mən hələ on beş **yaşımda** olandan buraya Yəməndən köçmüşəm. Mən analığımla dalaşdım və bir qaranlıq gecədə ata evini tərk edib buraya gəldim. Deməli bu şəhərdə mənim heç bir qohumum yoxdur, bütün qohumlarım vətənimdədir. Əgər mən öldükdən sonra burada qohumlar peyda olacaqlar, amma sən onlara inanma, onların yəqin ki, gizli bir məqsədi olacaq. Amma şəhərdə mənim də bir dostum var idi hər vaxt dərdini, sevincini onunla məsləhətləşə bilərsən. Mənim vəsiyyətimi unutma. Bu sözləri deyib Allah rəhmətinə getdi. Atamın ölümü mənə çox pis təsir etdi, yemək-içməkdən əlimi çəkdim. Atam öləndən sonra qırx nəfərlik bir dəstə evimizə şərik oldular, atamın qohumlarından olduqlarını söylədilər. Mən bunu eşidib öz-özümlə fikirləşdim:

– Atam, nə üçün məni aldadıb deyib ki, burada heç bir qohumu yoxdur.

Onlar mənə təsəlli verərkən deyirdilər:

– Gedəni qaytarmaq olmaz. Sənin hıçqırtı və gözyaşların əbəsdir.

Bir dəfə onlar yanıma gəlib dedilər:

– Sənin səbrinə təəccüblənirik, sən arvad kimi evdə oturub bir yana, çıxmırsan. Gedək bizimlə gəzib dolaşaq, təbiətdən həzz alaq.

Biz gəzməyə getdik. Onlar başımı elə qatdılar ki, mən bu yaxınlarda atamın öldüyünü də unutdum.

Biz hər gün gəzintilər və yeyib-içmək məclisləri təşkil edir və bura musiqiçi və müğənniləri də bura dəvət edirdik. Yaman yoldaşlarımın təsiri altında vaxtımı əyyaşlıqda keçirməyə başaldım. Neçə illər belə bir həyat sürdüm. Atamdan mənə miras qalan var-dövləti çox tezliklə itirdim. Günlərin bir günü anam bu halımı görüb dedi:

– Oğul, sən nə tez rəhmətlik atanın vəsiyyətini unutdun?

Anamın sözləri elə bil məni yuxudan oyatdı, yoldaşlarımı bir-bir sınaqdan keçirməyə başladım, gördüm ki, onlar məni aldadırlarmış, fikirləri məni müflis etmək imiş.

Yalnız İndi mən atamın sözlərinin mənasını başa düşdüm. Atamın sonuncu vəsiyyəti yadıma düşdü.

- Oğul, çətin vəziyyətə düşdüyündə mənim köhnə yoldaşıma məsləhət üçün müraciət et! O, sənə birtəhər kömək edər.

Atamın köhnə yoldaşının yanına getdim, hal-qəziyyəni, başıma gələnləri ona nəql etdim.

Qoca məni dinləyib dedi:

– Oğul, sənin xoşbəxtliyin üçün mən hər cür tədbir görməyə hazıram, yalnız bir şey sənə kömək edər.

Bir qalada yeddi başlı dev yaşayır. Bu devin hesaba gəlməz var-dövləti var. Bir də onun çırağı var, bir qızıldandı, o biri isə görmüşdən. Qızıl çıraq yananda ondan iri damlalarla qızıl, o biri lampa yananda isə onda iri gümüş damlalar axıb tökülür. Gün ərzində bir neçə pud qızıl və gümüş əmələ gəlir. Sən çalış ki, birinci çırağı əldə edə biləsən ki, əvvəlkindən də daha dövlətli olasan. Ora gedən yolu çoxlu əjdahalar gözləyir. Bir çoxları o çıraqları əldə etmək istəyiblər, amma heç kim geri dönməmişdir, əjdahalar onları məhv etmişlər. Bax, ehtiyatlı ol, bu iş sənin də başına gələ bilər.

Mən qocaya dedim:

– Heç nə olmaz, gedib bəxtimi sınayaram, ya əjdahalarla yem olaram, ya da məqsədimə çataram. Səndən bir təvəqqəm var, əgər geri, dönməsəm, gözün anamın üstündə olsun.

Qoca məni təskinlik verdi:

– Anan üçün narahat olma. Mən işi elə quraram ki, o, sənin yoxluğunu hiss etməz. Allah qoysa, məqsədinə çatıb sağ-salamat geri dönərsən.

Qoca mənə xeyir-dua verdi və mən yola düşdüm.

Üç gün yol getdikdən sonra mən yolun üç yerə ayrıldığı yerə gəlib çıxdım. Yolun biri məşriqə, biri məğribə o biri isə düz gedirdi. Çaşıb qaldım, bilmədim hansı yolu seçim. Yoldan yorulduğum üçün yatmaq qərarına gəldim. Yuxuda gördüm ki, kimsə mənə deyir:

– Cavan oğlan tərəddüd etmə, cəsarətlə orta yolu seçib get, əmin ol ki, heç bir təhlükə ilə qarşılaşmayacaqsan və öz məqsədinə çatacaqsan.

Bu yuxudan ürəklənib ertəsi gün səhər tezdən orta yolu seçib yola düşdüm.

İnsan və heyvanların meyitləri yolun tərəfində qalaq-qalaq atılıb qalmışdı. Birdən baxıb görürəm ki, böyük xoşqoxulu gül kolları ilə kəsilibdir, kollar o dərəcədə bir-birinə bitişmiş idi ki, gün işığı belə buraxmırdılar. Onda mən öz-özümə fikirləşdim:

– Onlar nə gözəl qoxuyurlar, əgər vaxtım olsa idi, onda onları qoxulardım.

Elə bu an kollar bir kənara çəkildilər, mənə yol verdilər və mən sərbəst şəkildə onların arasından keçib getdim. Mən bir neçə addım onlardan aralandıqdan sonra onlar yenidən bir-birlərinə bitişdilər. O, yoluna davam etdi və qanla axan çay gördü. O, dedi:

– Necə də təmiz və şəffaf sudur. Əgər vaxtım olsa idi, susuzluğumu söndürərdim. Elə həmən an çaydakı qan yox

olub getdi və yalnız quru çay yatağı qaldı. Mən çayın o biri sahilinə keçən kimi çay yenidən qanla doldu. Mən yoluma davam etdim. Birdən baxıb görürəm ki, yolun hər iki tərəfində dirəklər dəmir zəncirlərlə, bir tərəfdən isə nəhəng at bağlanmışdır. Itin qabağında saman, atın qabağında isə ət var idi. Mən samanı götürüb atın qabağına, əti isə itin qabağına qoydum. Elə həmən an onlar kənara çəkildilər və mənə yol verdilər. Lap yolun ortasında iki qapı var idi, bir açıq, o birisi isə bağlı idi. Birincini mən açdım ikincini isə bağladım və yenidən öz yolumla getdim. Sonra görürəm yolun üstündə iki xalça var, onlardan biri açıq idi, o birisi isə yığılmışdı. Birinci xalçanı yığdım, ikincini isə açdım, sonra yenə yoluma davam etdim. Axır ki, bir qala gördüm və bu qalada bir gözəl şahzadə qız gördüm. O, məni görəndə həm də çox sevİndi. O, dedi:

– Sən bura necə gəlib çıxmısan, artıq neçə illərdir ki, bu qalanın sahibi yeddi başlı dev məni qaçırtmışdır. Mən qüdrətli bir padşahın qızıyam. Bir dəfə mən həmyaşıdlarım olan rəfiqələrimlə gəzməyə getmişdim. Bu vaxt yeddi başlı dev mənə vurulub məni qaçırdıb öz qalasına gətirdi. O vaxtdan mən buradayam bir dəfə də olsun insan üzü görməmişəm, çünki bura heç kim gələ bilmir. Qalanın yolu müxtəlif nəhənglərlə doludur. Bura cürət edib gələn hər bəni-insan bu nəhənglərin əlində ölür. Sənə çox yazığım gəlir, bir azdan dev ovdan gələcəkdir, o, səni görüb parça-parça edəcək.

Mən ona bura necə gəldiyimi, nə üçün gəldiyimi nəql etdim, təskinlik verdim və dedim:

– Qorxma, yaxın vaxtda səni azad edəcəyəm. O, çox sevİndi, o, mənə qızıl çırağın olduğu yeri göstərdi. Çırağı götürüb bir devin ən yaxşı atı Qıratı yəhərlədim. Qırat həmən atdır ki, bir saat dünyanın bu şahzadə qızla bu ata minib çaparaq getdim. Dev qalaya geri dönəndə şahzadə qızın yox olduğunu gördü və var gücü ilə qışqırdı:

– Mənim döşənmiş xalçam, onları tut!

Döşənmiş xalça cavab verdi:

– Sən məni döşədiyimin üstündən bir neçə on illik keçmişdir, amma o isə məni yığdı, mən yaxşlığın haqqını pisliklə ödəmək istəmirəm. Sonra dev ikinci, üçüncü, dördüncü və.i. nəhənglərə əmr etdi ki, qaçqınları tutsunlar. Onların hamısı da ona eyni cavabı verdilər. Bir kamandan atılmış ox kimi bərk çapdıq.

Evə gələn kimi mən çıraqdan əldə etdiyim qızılla borclarımı verdim və ev aldım. Bundan sonra mən gözəl şahzadə qızla evləndim. Çıraq üçün də xüsusi bir otaq ayırıb orada saxlayıram və hər gün ondan bir neçə pud qızıl əldə edirəm. Allaha təşəkkür əlaməti olaraq mən hər həftə beşinci günlər qonaqlıq edirəm və ora yoxsul və dilənçiləri dəvət edirəm. Yeməkdən sonra mən onlara iri qızıl boşqab və qızıl qapaqları onlara paylayıram ki, onları satıb öz ailələrini yedirtsinlər. İri boşqabların hazırlanması üçün qızılla işləyən ustalar tutmuşam. Bu ustalar iri qızıl boşqabları və onların qızıl qapaqlarını hazırlayırlar. Bax bu da mənim hekayətimdir.

Patam Fərhada təşəkkür etdi və ertəsi gün səhər tezdən öz şəhərinə yollandı. Patam evinə çatıb görüb eşitdiklərini ona nəql etdi, ona bahalı hədiyyələr verdi, çünki onun sayəsində o, maraqlı hadisələrdən xəbərdar odu və yer üzündə onun özündən də daha əliaçıq adamların olduğunu öyrəndi.

Əbdülqəmi Əfəndiyev tərəfindən Bakı quberniyasının Şamaxı şəhərində yazılmışdır.

## YELİZAVETPOL VƏ ONUN ƏTRAF YERLƏRİNDƏ VƏZİYYƏT VƏ YERLİ TATARLARIN QUŞLARLA BAĞLI BƏZİ RƏVAYƏTLƏRİ

Yelizavetpol (Gəncə) sənət məktəbinin müəllimi V. Yemelyanovun yuxarı adı çəkilən məqaləsinin başlığından da göründüyü kimi Gəncə və onun ətraf yerlərindəki quşlar

aləmindən bəhs edilir. Məqalə müəllifi bu arada haqqında bəhs etdiyi bəzi quşlarla bağlı tatarlar (azərbaycanlılar) rəvayətlərdən örnəklər verməyi unutmur. Məsələn:

– Sığırçın.

Tatarlar bu müqəddəs hesab edirlər, çünkü o böyük səylə çəyirtkələri qırır.

– Qaranquş

Bu quşla bağlı yerli müsəlmanlar arasında aşağıdakı rəvayət vardır:

Allah peyğəmbər İbrahimxəlilə Məkkəyə getməyi və onun düzənliklərindən birində nə vaxtsa Musanın Yerusəlimdə (Qüds) tikdiyi məbədin eynisini tikməyi əmr edir. İbrahimxəlil Allahın əmrini yerinə yetirdi, məbəd tikilib qurtardı və zəvvarlar dəstə dəstə ora axın etməyə başladılar. O vaxtlar bu ölkədə də. Adı ilə tanınan xüsusi bir tayfa yaşayırdı (məskun idi). Bu ölkənin şahı məbədin tikilməsindən xəbər tutub qoşunun toplanılmasını və bütün mbədin özülünədək dağıdılmasını əmr etdi. Şahın iradəsinə uyğun olaraq qoşun toplandı və Yerusəlimə (QÜDSƏ – R.Xəlilov) lakin elə bu vaxt o öz hökmdarının yerinə yetirməyə hazırlaşanda İbrahim Xəlilin duası Allah tərəfindən eşidildi və qoşunun sayı qədər qaranquşlar dimdiklərinə daş alıb uçub gəldilər və onlardan hər biri bir döyüşçünün başına bir daş atdı, beləliklə, şahın yanına hadisə ilə bağlı xəbər aparmış döyüşçüdən başqa bütün döyüşçülər qırılmışdı. Şah deyilənə inanmadı, bu vaxt qaranquş canını qurtarmış döyüşçünün başı üzərindən uçub gedirdi və döyüşçü:”Şah, budur, daha biri” elə demişdi ki, quşun dimdiyindən daş düşdü və onu öldürdü.

Şah belə bir qeyri-adi hadisənin şahidi olub qorxdu və dərhal öz əmrini ləğv etdi.

Bu hadisədən sonra Allah qaranquşlara dua oxumağı öyrətdi, bu dualar insanları onları öldürməkdən çəkİndirir, ona görə ki, Allah qaranquş öldürəni ölümlə cəzalandırır.

## HOP-HOP, ŞANAPİPİK[1]

Hoh-hopla bağlı tatarlarda aşağıdakı əfsanə vardır:

Usub və Nəsib adında iki-qardaş varmış, onların başında şana gəzdirməyi adət etmiş Fatma adında bacıları varmış.

Bir gün onların atı itdi və qardaşlar onu axtarmağa gedəndə bacılarına tapşırdılar ki, onlar gələnə yemək hazırlasın. O, da südlü aş bişirib qardaşlarını gözləməyə başladı. O, onları çox gözlədi, səbri tükəndi, narahat olmağa başladı və axır qərara gəldi ki, özü gedib onları axtarsın. Uzun və boş axtarışlardan sonra o, Allaha dua edib yalvarır ki, onu quşa çevirsin ki, istəkli qardaşlarını tapmaq ona asan olsun. Onun duası eşidildi və Allah onu hop-hopa çevirdi, qızın başındakı darağın yerində kəkil əmələ gəldi. Hop-hop İndi də "Op-op, gül tap, Usub, Nəsib süddü aş çağıraraq qardaşlarını axtarır. Bacı hop-hop quşuna çevirildikdən sonra irsən ona çatan miras yerdə qalır.

Ondan: "Hop-hop, sənin var-dövlətin haradadır", soruşduqda o, dimdiyini yerə vurur, sanki bununla ata var-dövlətinin yerdə qaldığını demək istəyir.

– Yerli əhali arasında onun (qarğa) haqqında belə bir xürafat gəzib-dolaşmaqdadır ki, elə bil ki, o öz qanadına baxaraq özünün əsas qidası olan leşin harada olduğunu müəyyənləşdirir.

– Xalq inancına görə qarğanın qarıldaması bədbəxtlikdən qabaqcadan xəbər verir.

– Yerli tatarlarda qırğı və xoruz haqqında belə bir rəvayət vardır:

Bir dəfə qırğı bu sözlərlə xoruza müraciət etdi:

– Xoruz, sən nə üçün insanları sevmirsən və onlara qulaq asmırsan halbuki, onlar səni sevir və səni ən ağıllı

---

1 Tatar dilində hop-hop Fatma bacı adlanır.

quşlardan biri hesab edirlər? Onlar səni tutmaq istəyəndə, sən qaçırsan və bir damdan o birinə uçaraq gizlənmək istəyirsən.

Amma mən isə, vəhşi quş olsam da adamlar məni tutanda və əhilləşdirəndə mən onlara tabe oluram və hər zaman onlarla ova gedirəm. Əgər ov vaxt mən kənara uçsam da onların çağırışı ilə onların yanına yenidən geri qayıdıram.

Xoruz qırğıya belə cavab verir:

– Baxıb görürəm sən necə də səfehsən. Əgər hansı məqsədlə onların tutduqlarını bilsəydin, bunu deməzdin. Sən mənim yerimdə olsan sən nəinki damdan dama uçardın uçub uca dağları aşardın ki, gözdən itəsən və adamlardan gizlənəsən. Axı sənə məlumdur ki, deyəsən hələ heç kim qızardılmış qırğılar görməmişdir, xoruzların isə tez-tez görmüşdülər.

– Müsəlman

Yaqub sevimli oğlu Yusifin itkin düşməsini eşdib özünün iki nökəri Usub və Nəsibi Yusifi axtarmağa göndərdi. Nökərlər onu çox axtardılar lakin tapa bilmədilər, onda onlar Allahdan onlara qanadlar, əta etməsi xahişi ilə ona dua ilə müraciət etdilər. Belə ki, onlar Yusifi tapmağa ümid edirdilər. Allah onların duasını yerinə yetirdi. Qanadları əldə edib onlar havaya qalxdılar və bir-birlərini itirməmək üçün öz aralarında haylaşmağa başladılar: Usub?, Nəsib?, Usub?, Nəsib?

– Tatarlar bayquşu bütün quşların ən müdrüyü və bəyi hesab edirdilər.

Tatarların rəvayətinə görə bayquş çox qədim dövrlərdə üv quşu olmuşdur. Insanların peyğəmbərləri öldürdüklərini gördükdə onların onu öldürəcəklərindən qorxaraq onlardan uzaqlaşır. Insanlardan uzaqlaşaraq o, tərk edilmiş binaların damları altında , köhnə qüllələrdə, qayaların yarıqlarında və s. yaşamağa başladı. Xarabalıqlar bayquşların sevimli yerlərindən olduğundan bir dəfə adamlar ondan xəbər aldılar:

– Dünya, ada nə çoxdur xarabalıqlar yoxsa tikililər?

O cavab verdi:

– Xarabalıqlar. Çünkü vaxt gələcək bütün tikililər xarabalıqlara çevriləcəkdir.

– Dünyada kim çoxdur: kişilər yoxsa qadınlar?

– Qadınlar, çünkü qadınlara tabe olan kişilərdə qadındılar.

Müsəlmanların etiqadına görə bayquşun çığırtısı gah şərdən, gah da xeyirdən xəbər verir.

O evin üstündən çığıranda ev sahibi bədbəxtlikdən qaçmaq üçün ona taxta qabda yemək verirlər.

– Yerli tatarlar turacın yaz çığırtısını aşağıdakı şəkildə ifadə edirlər:

Turac həmişə oxuyur:
Dit-didi, dit-didi!
Ah, məni tutacaqlar,
Şişdə bişirəcəklər
Dit-didi, dit-didi!
Ətimi yeyəcəklər,
Sümüyümü atacaqlar.
Dit-didi, dit-didi!

***Yelizavetpol şəhəri 1895-ci il***

## VƏFASIZ ARVAD VƏ VƏFALI GƏLİN
## (tatar nağılı)

Bir dəfə İranın məşhur hökmdarı Şah Abbas (1585-1628) rəiyyət paltarına təğyir-libas olub Tehranda nələr baş verdiyini və onun təbəələrinin özlərini necə apardıqlarını öyrənmək üçün adəti üzrə şəhərdə gəzməyə yollandı. O, küçələrdən keçərkən bir evdən gələn xoş qadın səsi eşitdi. Şah evə yaxınlaşdı və dinləməyə başladı. Sən demə, ər-arvad öz aralarında söhbət edirdilər. Gənc və çox gözəl arvad öz ərinə müraciətlə deyirdi:

– Əziz dost, mən səni bir neçə saat görmədiyimdə necə də kədərləndiyimi bilirsənmi?

Yalvarıram ən azından yanımda olanda …… və …. əmin qızını kədərli görüşünlə mən yazığı. Allah xatirinə mənə həqiqəti söylə, mən yazığı daha sevmirsənmi?

Əri dedi:

– Ay Allah, yaxşısı məni öldür, sevimlim mənə əziyyət vermə, hər gözyaşın dünyada mənə hər şeydən daha qiymətlidir, hörüyündən bir tük belə sənin əmioğlun üçün şahın belə edamından belə ağırdır. Məgər mən səni sevməyə bilərəmmi. Yox, yox, əzizim, həyatdan məhrum olmaq, səni sevməmək daha yaxşıdır. Allah eləsin biz ayrılıq acısın dadmayaq!

Şah bu sözləri eşidib çox sevİndi onun tələbələri arasında belə mehriban ər-arvad var. O, evə qayıdıb ər-arvadın hər ikisini sınamaq istədi və bu məqsədlə əvvəlcə ərin yanına öz adından bir edam göndərdi. Həmən edam ondan tələb etdi ki, öz arvadını boşasın əks halda onu ölüm cəzası ilə hədələdi. Qasid şahın sözlərini ona çatdıranda o, cavab verdi ki, o, hər cür məhrumiyyətlərə hazırdır heç bir vəchlə arvadını boşamayacaq. Sonar şah bir qarını arvadın yanına göndərdi. Qarı ona təklif etdi ki, o, öz ərini öldürsün və şaha ərə getsin. Xain arvad şahın niyyətini bilib qarıya cavab verdi:

– Şaha de ki, mən onun istəyini yerinə yetirməyə hazıram.

Şah bunu eşidib gecə təğyir-libas oldu və onun edəcəyinə baxmağa getdi. Şah onların evinə yaxınlaşıb çatdıqda otağa baxdı və gördü ki, ər başını onun dizinə qoyub yatır, o, isə fikirə qərq olmuşdur. Sonra arvad ərinin dərin yuxuya getdiyindən əmin olub onun xəncərini çıxartdı və elə xəncəri tez onun boğazına sapladı ki, şah heç qışqırmağa və cinayəti durdurmağa macal tapmadı, sonra arvad qapını bərk-bərk örtdü. Günahsız qurbanın al qanı qapının arxasından həyətə axdı. Şah beş barmağını qana batırdı və onları qapıya yapış-

dırıb sanki onların üzərinə möhür vurdu. Sonra o, sarayına qayıtdıvə bütün gecəni hirsindən yata bilmədi. O, səhər öz sərkərdələrindən birinə şəhirin gecə cinayətin baş vermiş olduğu hissəsinə getməsini qapılarında qanlı möhürün evin xanımını götürüb yanına gətirməsini əmr etdi. Sərkərdə göstərilən yerə getdikdə gördü ki, şəhər bu hissəsində qapıların üstündə qanlı möhürləri vardır. Sərkərdə şahın yanıa qayıtdı və gördüyünün hamısını ona nəql etdi. Qeyd etmək lazımdır ki, hiyləgər qadın ölünün qanını bir kuzəyə doldurdu və qapıya eyni möhür vurdu, ölünü isə parça-parça etdi və bir çalaya atdı, sonra isə üstünü qumla örtdü . Şah qadının hiyləsindən xəbərdar olub qeyzləndi. Lakin o, bu vaxt Türküstana müharibə etməyə getməli idi, ona görə böyük xana (vəzirə) tapşırdı ki, özününküləri, hətta şahın ailəsini istisna etmədə bütün qadınları qırıb çatsın. Şah onu da əlavə etdi:

– Əgər əmrlərimi yerinə yetirməsən mən səni və sənin bütün nəslini də məhv edəcəyəm.

Şah belə əmr verib Türküstana yola düşdü. Böyük xan dərd-qəm içində evinə qayıtdı. Evdə yüz yaşlı atası xanın kədərli halını gördü və ondan kədərinin səbəbini xəbər aldı. Şah xanın əmrini atasına nəql etdi. Onda atası xana dedi:

– Oğlum, kədərlənmə və heç kimə əl vurma, şah səni yanına çağıranda de ki, bu əmrlə bağlı olaraq onu görmək istəyən yüz yaşlı atam, sənə onun əmrini yerinə yetirməyə icazə vermədi.

Xan atasının təvəqqesini yerinə yetirdi. Yeddi ildən sonra səfərdən qayıdanda küçələrdə gəzib dolaşan qadınların onların sayının əvvəlkindən də çox olduğunu görən şah çox təəccübləndi.

Şah saraya gəlib əmr etdi ki, böyük xanı onun yanına gətirsinlər. O, şahın hüzuruna gəlib təzim etdikdə, şah elə qeyzlə onun üstünə qışqırdı ki, ətrafdakı əyanlar qorxudan əsməyə başladılar. Böyük xan dedi:

– Böyük hökmdarım, sənin əmrini yerinə yetirməyə hazır idim, lakin, sənin bu əmrinlə bağlı olaraq səni görmək istəyən yüz yaşlı atam ona icazə vermədi.

Şah eşidib bir qədər yumşaldı və qocanın hüzuruna gətirilməsini əmr etdi.

Qocanı o saat gətirdilər və şahın icazəsi ilə onun yanında otuzdurdular. Şah qocaya müraciət etdi və nə üçün oğluna onun əmrini yerinə yetirməyə icazə vermədiyini xəbər aldı. Onda qoca ona təzim etdi və dedi:

– İranın böyük hökmdarı, sənin əmrinin yerinə yetirilməsi bir çox səbəbdən mümkün deyildir. Əgər sən bütün qadınların öldürülməsini əmr etsən xalq sənə qarşı qalxar, üsyan edər, əgər üsyan etməsə, çox keçməz ki, sənin dövlətin qadınlarsız məhv olar. Nəhayət, bir xain qadına görə bütün qadınların xain olduğunu düşünmək olmaz. Mən bir çox cəsur kişilərdən daha yüksəkdə duran qadınlar haqqında çox eşitmişəm. Sübut üçün vaqiəni sənə nəql edəcəyəm. Sənin rəhmətlik atanın qırx pəhləvanı var idi bu pəhləvanların başında isə onlardan ən güclüsü, ən cəsuru kimi mən dururdum. Günlərin bir günü mənə xəbər verdilər ki, pəhləvanlardan birini gecə öldürmüşlər, lakin kimin bunu etdiyi məlum deyildi. Onda mən yerdə qalan pəhləvanlar yığdım və biz kimin bunu etdiyini fikirləşməyə başladıq. Amma bir şey nəticə hasil olmadı. Ertəsi gün mənə xəbər verdilər ki, gecə yenə bir pəhləvanı öldürmüşlər. Sözün qısası 39 günün içində bütün pəhləvanlar mən istisna olmaqla öldürmüşlər. Qırxıncı günün ertəsi gecəsi eşitdim həyətdə kimsə məni adımla çağırır. Mən yatağımdan qalxdım və bir köynəkdə elə həyətə çıxmaq istəyirdim arvadım məni saxlayıb dedi:

– Hara gedirsən? Hər şeydən əvvəl geyinib keçin, özünün yaraq-əsləhəni götür, mən isə gedib tövlədən atını gətirərəm.

O, getdi və mənə atımı gətirdi mən ata mİndim və tam yaraqlı tanımayan qonağın qarşısına getdim. Tanış olmayan adam məni tam yaraqlı görüb mənə onun ardınca gəlməyimi əmr etdi. Yolda fikirləşməyə başaldım ki, görəsən o məni hara aparmaq istəyir və qərara gəldim ki, o, məni böyük ehtimalla mənim bütün qalan yoldaşlarıma etdiyi kimi məni də öldürmək istəyir. Təhlükənin qarşısını almaq üçün mən özümün ağır toppuzumu götürdüm atın üstündə ayağa qalxdım və var gücümlə tanış olmayan adamın başına vurdum. Arxaya döndü və acıqlı bir halda dedi:

– Zarafat etməyin vaxtı deyil.

Bir neçə saatdan sonra mən yenə də var gücümü topladım və əvvəlkindən də daha güclə onun başına vurdum. O, ikinci dəfə arxaya döndü və dedi:

– Səməd, vaxtsız zarafat edirsən.

Axır mən Allahı çağırıb üçüncü dəfə də vurdum. Onda ona atının başını döndərib məni tutan kimi yəhərdən qaldırdı və papaq kimi havada silkələyərək dedi:

– İstəyirsən səni yerə elə çırpım ki, sümüklərin parça-parça olsun!

Mən yarpaq kimi əsirdim və heç bir şey deyə bilmədim. Sonra o, məni yəhərə oturtdu və əmr etdi ki, bir daha ona əl dəyməyim. Gecə yarısı biz gəlib bir keçilməz meşəyə çatdıq. Tanış olmayan adam atdan endi və mənə dedi:

– Bax, budur, yəhərə qızıllarla dolu bir torba bağlanıb, atımı saxla, məni isə gördüyün işıq yanan yerə gedəcəyəm. Mənim ən qəddar düşmənim orada qoşunu ilə durub. Mən onunla döyüşmək üçün piyada gedəcəyəm. Əgər sən eşitsən ki, məni üç dəfə Allahın adını çağırdım, onda bil ki, mən onu öldürdüm, əgər yox onda bil ki, o, məni öldürüb. Belə olduqda atımı da qızılı da özünə götür və uğurlar olsun evinə get!

Mən oturub nə olacağını gözləyirdim. Birdən mən elə səs-küy eşitdim ki, sanki iki düşmən ordusu vuruşurdu. İki dəfə Allahın adını eşitdim, axırda üçüncü dəfə də eşitdim. Bir neçə saatdan sonra baxıb görürəm tanış olmayan adam əlində bir böyük adam başı tutub mənə tərəf gəlir. Biz atlarımıza suvar olduq və mən tanış olmayan adamın arxasınca yola düşdük. Bir müddətdən sonra bir yerdə və mənə atdan enməyimi əmr etdi. Mən tabe oldum. O, ağacın altındakı ağacdan abidəsi olan qəbirə yaxınlaşdı və kəlləni parça-parça edərək qəbirə müraciətlə dedi:

– Əziz nişanlım, budur səni xaincəsinə öldürən caninin başı!

O, bunu deyib xəncərini sıyırdı, onun ağzı yuxarı yerə sancdı və elə güclə onun üstünə düşdü ki, xəncərin ucu onun belindən çıxdı. Sonra tanımayan adam mənə müraciətlə dedi:

– Mən bu yaş qəbirdə yatan pəhləvanın nişanlısıyam. Onu kəlləsini parçaladığım adam öldürmüşdür o, mənim evlənmək istəyirdi, mən öz ilk nişanlıma xəyanət etmədim. Onun naminə mən düşmənini öldürdüm və özüm də həyatdan ayrılıram. İndisə get və məni lazım olan şəkildə basdırmaq üçün adamları çağır və mənim qızıllarımın hamısını ehsana xərclə. Atı özünə götür və sənə etdiyim narahatlığa görə məni bağışla. Mən sənin yoldaşlarını ona görə öldürdüm ki, onlardan heç birini tam yaraqlı görmədim. Əgər sən də yaraqsız qarşıma çıxsaydın, onların başına gələn sənin də başına gələrdi.

O, bu sözləri deyib öldü. Xanın yüz yaşlı atası Şah Abbasa dedi:

– Qibleyi-aləm, yer üzündə sən gördüyün belə qadınlar və mən gördüyüm belə qadınlar vardır. İndi özün qərar ver. Sənin tələbələrindən bir kimsə cəsurluğuna və vəfalılığına görə mənim gördüyüm qadınla müqayisə edilə bilərmi?

Şah Abbas qocanın hekayətindən çox mütəssir olmuşdu, o, nəinki onun oğlunu bağışladı, hətta hər ikisini mükafatlan-

dırdı və əvvəlkindən daha artıq onlara hörmət etməyə başladı, qadınların öldürülməsi haqqındakı əmrini də ləğv etdi.

***Yelizavetpol quberniyasının Qazax qəzasında Ağalar Qiyasbəyov tərəfindən yazıya alınmışdır.***

## İKİ QARDAŞIN NAĞILI

Biri var idi, biri yox idi, bir vilayətdə iki qonşu, dost var idi. Əvvəllər onlar var-dövlətli idilər, amma sonra kasıbladılar, borca düşdülər. Bu iki qonşu öz aralarında şərtləşib olan-qalan əmlaklarını satdılar, borclarını ödədilər, sonrada öz arvadlarına dörd yüz manat verib uzaq vilayətlərə getdilər.

Çoxmı getdilər, azmı getdilər bunu Allah bilir amma bir müddətdən sonra gəlib elə bir yerə çatdılar ki, yolun biri məşriqə, o birisi isə məğribə ayrılırdı. Dostlar yolun kənarında oturub məsləhət etdilər ki, kim hara getsin. Axır onlar belə qərarlaşdılar ki, onlardan biri məşriqə, o birisi isə məğribə getsin. Öz aralarında belə vədələşdilər ki, əgər orada onların dolanışıqları yaxşı olsa orada evlənsinlər, əgər birinin oğlu, birinin isə qızı olsa, onlardan birinin oğlu gərək o birinin yanına gedib onun qızı ilə evlənməlidir.

Bundan sonra onlar qucaqlaşdılar qardaşlaşdılar, halallaşıb hərəsi öz yolu ilə getdi.

Az getdilər, üz getdilər, axırda biri məşriqdə bir vilayətə, o birisi isə məğribdə bir vilayətə gəlib çıxdı. Onlardan hər biri qan-tər içində işləyir və deyirdi:

– Ya Allah, sən verə də bilərsən, ala da bilərsən.

Bu sözlər Allah Təalanın xoşuna gəldi və o, Cəbrayıla əmr etdi ki, onlardan birini məşriqdəki vilayətdə, o birisini isə məğribdəki vilayətdə padşah etsin, amma bu şərtlə ki, bu vilayətlərin padşahın canına dəyməsin. Cəbrayıl bu əmri yerinə yetirməkdə çətinlik çəkdi. Onda Allah Taala dedi:

– Oradakı padşahlardan birini dəli et, o birisinin isə qoy qarnı şişsin və o, vilayətə hökmranlıq etmək halında olmasın.

Əvvəlcə iki qardaşdan məğribə gedəni padşah oldu. O, taxta oturandan sonra qardaşını heç xatırlamayıb gününü eyş işrətdə keçirirdi.

Bu arada məşriqə gedən qardaşlar isə bir ailədə nökərçilik ediridi.

Günlərin bir günü onun yanına bir adam gəlib ona qiymətli bir daş verib dedi ki, bəs bu daşı vicdanlı filan dükançıya xırdalatdırarsan. Bu qardaşın yanına gələn adam sən demə, Cəbrayıl imiş. Cəbrayıl gedəndən sonra o, daşı xırdaladı və özünə əyin baş aldı, dolanışığı düzəldi. Çox keçmədən məşriqdəki vilayətin padşahının qarnı şişdi və vilayətə hökmranlıq edə bilmədi.

Xalq şəhər meydanına yığılıb yeni padşah seçməyə başladı. Dövlət quşunu uçurtdular, quş gəlib bu qardaşın başına qondu. Bu qardaş da padşah oldu. Bu işin üstündən bir il keçdi. Məğribdəki padşah qardaşını yadına saldı. O, məşriq padşahına bir məktub yazdı ki, əgər sənin vilayətində bu adda, bu biçimdə bir adam varsa, ona kömək et, o, mənim qardaşımdır, nə xərcin çıxsa, mən sənə əvəzini verəcəyəm. Məktubu yazıb qasidə verdi. Məşriqdəki padşah da ona təşəkkür edib padşahlığını təbrik etdi və onun özünün məşriqdə padşah olduğunu yazdı. Onlar beləcə bir neçə il yaşadılar.

Bir neçə müddətdən sonra məğrib padşahı qardaşına yazdı ki, o, evlənir və ona da təklif etdi ki, o, da evlənsin. Qardaşların hər ikisi də evləndi. Evləndikdən sonra məşriq padşahının bir –birinin ardınca üç qızı oldu Leyli böyüyüb boya başa çatanda bir çox padşahlar öz oğulları üçün ona elçi düşdülər. Qızın atası isə onlara eyni cavabı verdi ki, onun qardaş oğlusu gəlib onunla evlənəcək. Leylinin on üç yaşı olanda atası qardaşına yazdı:

– Mənim qızım artıq gəlinlikdir, oğlunu göndər.

Bu məğrib padşahın çox pərt etdi və heç bilmədi nə etsin ona görə də pərt və kədərli gəzirdi. Onun qızları artıq böyüyüb həddi-buluğa çatmışdılar. Qızları ondan nə üçün belə qəm-qüssə içində olduğunu xəbər alsalar da, o, onlara bir şey demirdi. Qızlar ondan o qədər israrla xəbər aldılar ki, axırda o, məsələdən onlar halı elədi:

– Qızlarım, sizin bir əminiz var. Biz onunla belə şərtləşmişik ki, əgər birimizin oğlu, o birisinin qızı olsa, onda bizim uşaqlar evlənməli olacaqlar. Bax İndi qardaşım yazır ki, onun qızı İndi gəlinlik həddinə çatıb və xahiş edir ki, mən oğlumu göndərim onun qızı ilə görüşsün, amma mənim isə oğlum yoxdur İndi mən bilmirəm nə edim.

Onda onun böyük qızı dedi:

– Ata, mənə rüxsət ver, kişi libası geyinim və gedib bacımla görüşüm və səndən də onlara salam aparım.

Padşah vəzirini çağırıb məslədən onu halı etdi və qızının sözünü də ona çatdırdı. Vəzir dedi:

– Qibleyi-aləm, qoy sənin qızın geyinsin və getsin. Mən isə bir neçə adamla ona hücum edərəm, əgər o, qorxmasa, bu o deməkdir ki, o, sənin qardaşının yanına gedib çatacaq, işdir əgər qorxsa, geri qayıdacaq.

Vəzirin dediyi kimi edildi. Padşahın qızı yolda naməlum adamları görüb qoxdu, qorxudan qışqırdı və evə qayıtdı. Padşahın ortancıl qızı ilə də həmən hadisə oldu.

Bundan sonra padşahın kiçik qızı atasından xahiş etdi ki, onun da səfərə çıxmasına icazə versin. Padşah dedi:

– Qızım, sənin böyük bacıların da getmək istəyiridlər, amma bacarmadılar, sən hara gedirsən?

Amma şahzadə qız atasından rüxsət ala bildi, kişi libası geyinib, yaraq əsləhə götürdü, ən yaxşı ata mİndi. Sonra da

ata-anası ilə halallaşıb yola düşdü. Vəzir öz adamlarına dedi ki, onu çox da qorxutmasınlar, çünkü hələ uşaqdır.

Vəzir öz adamları ilə yolun yaxınlığında gizləndilər. Bir müddətdən sonra onlar gördülər ki, təğyir libas olunmuş şahzadə qız gəlir.

Vəzirin adamlarından biri yolu kəsib dedi ki, o, (yəni şahzadə qız) geri qayıtsın, yoxsa onu öldürəcəklər. O, ona heç fikir vermədən onlara yaxınlaşdı. Onda onların hamısı ona tərəf gəldilər, artıq şahzadə qızı tutub saxladılar və dedilər ki, onlar onun atasının düşmənləri olduqaları üçün onu öldürəcəklər. O, onlara dedi:

– Mən sizə heç bir şey etməmişəm və buna görə də təvəqqe edirəm buraxın,öz yolumla gedim, yoxsa bu sizə baha başa gələr.

Onlar dedilər ki, onun kimiləri burada çox öldürüb basdırıblar. O, dedi:

– Onlardan birinin qəbrini mənə göstərin ki, mən onlar üçün dua edim.

Onlar çox sözləşdilər amma qəbirləri göstərə bilmədilər. Axırda onlardan biri ağacla onun atını vurdu. At şaha qalxdı, qız qeyzləndi qılıncını çıxartdı, onların hamısının ölüsünü salıb yoluna davam etdi.

Məğrib şahlığından məşriq şahlığına iki il çəkdi. Vəzirin öldürülməsi xəbəri gəlib padşaha çatdı, heç kim bilməsə də, o, qatilin kim olduğunu bilirdi. Padşahın vəzirə yazığı gəlsə də, o, bir tərəfdən sevinirdi ki, qızı qardaşı ilə görüşəcək.

Padşah burada qalmaqda olsun, görək şahzadə qız necə oldu. On dörd ay sonra o, əmisinin şahlığına gəlib çatdı. Əmisi səbirsizliklə onu gözləyirdi. O, əmisinin şahlığına varid olub bir qarının evində qonaq düşdü. Qarı bu gözəl cavan oğlanı görüb onu çox sevdi. O, qonağı Allahın verdiyi ilə qonaq edib kim olduğunu, haradan gəldib, hara getdiyini xəbər aldı. O dedi:

– Mən sizin padşahın gələcək kürəkəniyəm, get, gəlməyimlə onu təbrik et!

Qarı sevincindən özünü unutmuş halda padşahın sarayına qaçıb getdi və onun qardaşoğlunun gəlib çıxması ilə muştuluqladı. Hədiyyələr qarının üstünə yaz yağışı kimi səpələndi.

Padşah bütün əyanları, saray adamları, qoşunu və nökərnaibilə kürəkənini qarşılamağa çıxdı. O, qarının daxmasından saraya qədər sərilmiş xalıların üstü ilə və musiqilə padşahın sarayına yola düşdü.

Bir neçə gündən sonra padşah qardaşı oğlunun gəlməyi münasibəti ilə qonşu vilayətələrin hökmdarlarını qonaq çağırdı ki, şahzadəyə xoş gəldin eləsinlər. Şahzadəni görənlər bir ağızdan dedilər ki, gözəl şahzadə Leyli ilə şahzadə elə bir biri üçün yaranmışlar.

Bunun üstündən bir neçə ay keçdi. Bir gün, əmisi oğluna bir könüldən min könülə vurulmuş, gözəl şahzadə Leyli anasına dedi:

– Əziz ana, əmim oğlu gəlib, bəs toyumuz nə vaxt olacaq?

Qızın anası əri ilə danışdı və saxta adaxlıya dedi ki, o, onu özünün kürəkəni görmək istərdi. Amma adaxlı dedi:

– Mən birinci dəfə Leyliyə əl verəndə ona bacı dedim və buna görə də mən onunla evlənə bilmərəm.

Bu vaxt eyvanda durub, bunu eşidən Leyli huşunu itirib yerə yıxıldı. Padşah hər yerdən təbiblər , həkimlər çağırdı, amma heç kim onu sağalda bilmədi.

Bir vaxtlar öz oğlu üçün Leylini istəyən padşahlardan biri padşahın qardaşı oğlunu aradan götürmək üçün bir həkimi öyrətdi ki, qızın onun sağalması üçün elə dərman yazsın ki, onun dalınca gedən sağ salamat qayıtmasın. Həmən həkim gəlib padşaha dedi ki, Leylinin sağalması üçün təzə şir südü lazımdır.

Yalançı gənc əmisinin evdə qalmaqla bağlı çox saylı xahişlərinə baxmayaraq şir südü gətirmək üçün yaraq-əsləhə

geyinib, ata mİndi və şəhərdən çıxdı. O, çox kədərli idi və öz bədbəxtliyi haqqında fikirləşərək hara getdiyini bilməyərək elə hey uzaqlara at sürüb gedirdi. O, quru bir səhraya gəlib çıxdı mehriban bir səs eşitdi:

– Dayan!

O, dayandı. Qarşısında bir əlində atın yüyənin tutaraq, o biri əli ilə isə qılıncı qaldıraran bir pəhləvan durmuşdu:

– Sən burada nə axtarırsan, bu vaxtadək buradan nə bir quş uçub gedib, nə də bir heyvan qaçıb gedib?

O, dedi ki, yolu azıb və bura necə gəlib çıxmağını heç özü də bilmir. Onun bu sözünə pəhləvan gülümsədi, və o, ondan gülümsəməyinin səbəbini xəbərə aldıqda o, dedi ki, belə bir cavan qızın bu qədər igidliklər göstərməsinə gülür. Cavan oğlan onun qızın olduğunu nədən bildiyini xəbər aldı. Tanış olmayan adam dedi:

- Mən yol azanlara yol göstərən, ehtiyacda olanlara kömək edən egənəm, mən Xıdırellər peyğəmbərəm.

Qız bu sözləri eşitcək atın belindən sıçrayıb onun qarşısında diz çökdü və başına gələnlərin hamısını açıqdan açığa nəql edib ağladı. Xıdırellər ona təskinlik verdi və dedi:

– Bax, o qayanın üstündə mağarada bir dişi aslan yatır, mən elə edəcəyəm ki, sən onu sağıb qabı doldurana kimi o, heç bir şey hiss etməyəcək.

Peyğəmbər bunu deyib onu səhəng şəklində bir qab verdi. Qız peyğəmbərin dediyi kimi də etdi. O, öz qabını doldurduğu vaxt peyğəmbər bir göz qırpımında onu şəhərə çatdırdı, onunla vidalaşıb qeyb oldu. O, dişi aslanın südü ilə dolu səhənglə geri qayıtdı. Bədbəxtçilikdən bu dərman da kömək etmədi. Onda həkim dedi:

– Filan yerdə alnında ağ xalı olan kəhər dəniz ayğırı var. Əgər onu öldürüb böyrəyini xəstə qıza versələr, onda o, sağalar. Yazıq qız yenə yola düşməli oldu. Bir qədər at sürdükdən o,

yenə peyğəmbərə rast gəldi. O, qızdan hara getdiyini xəbər aldı və o, peyğəmbərlərə səfərinin səbəbini dedi. Peyğəmbər bunun xəstəyə heç bir xeyri olmayacağını desə də, o, yenə də yoluna davam etdi. Onlar dəniz sahilinə çatdıqda peyğəmbər dedi:

– Bir ip götürüb ilgəg elə və onlar su içməyə gələnədək gözlə. Ayğır ilgəyə girəndə sən ipi dart, mən isə gəlib sənə kömək edərəm.

Necə deyilmişdi, elə də edildi. O, ayğırı özü ilə apardı. Peyğəmbər necə demişdi elə də oldu bu da xəstəyə kömək etmdi.

Həkim nə qədər etdisə adaxlının başını batıra bilmədi və çıxıb getdi. Belə olduqda bir küpəgirən qarını tapıb çağırdılar, ona əgər adaxlını öldürsə, ona çoxlu qızıl vəd etdilər. Küpəgirən qarı bu işə razılıq verdi.

Bir adam oturub çay içərkən küpəgirən qarı gəlib çıxdı. O, onunla ordan-burdan danışdı və dedi ki, bir alma ağacı var. Bu ağacın üstündə üç alma ağacı var. Əgər bu almalardan birini şahzadə qıza versələr, o, sağalar. O, qarıdan bu alma ağacının yerini xəbər aldı və xahiş etdi ki, oranın yolunu ona göstərsin. Küpəgirən qarı dedi ki, onun böyük bir küpü var və onların hər ikisi ora yerləşər, əgər hər ikisi o küpə minsələr, küp onları həmən yerə aparıb çıxardar. Adaxlı bez geyinib keçİndi, əmisinə bir namə yazdı ki, o, Leyliyə yeni dərman gətirmək üçün yola çıxır. O, sonra gizlicə saraydan çıxdı, küpəgirən qarı ilə küpə minib havaya qalxıb uçdular. Bir müddət uçduqdan sonra onlar yerə enib küpdən düşdülər və küpəgirən qarı dedi:

– Bax, bu daş yığınlarını görürsən, onların içində (arasında) möcüzəli almaları olan ağacın olduğu təpəyə bir başa cığır gedir. Almaları dər və geri qayıt, mən isə səni burada gözləyəcəyəm.

Küpəgirən qarı bunu deyib getdikcə küpəyə yaxınlaşırdı, amma adaxlı ağıllı idi, o, o saat başa düşdü ki, küpəgirən

qarı qaçmaq istəyir, o, qılıncını əlinə alıb onu öldürdü, sonra isə küpəni də sındırdı.

Bir qədər keçəndən sonra o, geri qayıda bilməyəcəyini görüb ümidsizliyə qapıldı. O, namaz qılıb Allahdan kömək istədi. O, arxaya nəzər salıb peyğəmbərlərin gülümsəyən üzünü gördü. O, gülümsəmə ilə ondan xəbər aldı:

– Ümidini kəsmə!

O, hıçqıraraq dedi:

– Ata, mənə nə dedim, mən necə də bədbəxt qızam. Mən bura əmimi sevİndirmək üçün gəldim, amma belə bir bədbəxtlik verdi. Mən nə qədər meşə və düzlərdə sərgərdan dolaşmışam!

Onda peyğəmbər onu sakit etməyə başladı ki, sehrli alma Leylini sağaldacaq və onun taleyi yaxşı olacaq. Sonra peyğəmbər onun diqqətini daşlara yönəldib dedi:

– Bu daşları görürsənmi? Onlar bir vaxt insan imişlər, lakin, bir mələk bu ölkənin padşahına hirslənmiş və bu ölkənin əhalisini daş, padşahın özünü isə yarıyadək daşa çevirmişdir və hər gün müəyyən vaxtda mələk iki saat ərzində onu tikanlarla döyür, padşahın sarayı bu təpənin başında yerləşir. Küpəgirən qarının sənə göstərdiyi yol təhlükəlidir, çünkü kim bu yolla getsə, daşa çevriləcəkdir. Mən səni ora təpənin başına, həmən padşahın yanına apararam, qalan iş səndən asılı olacaq. Padşah əlbəttə sənə kömək edəcək.

Bu sözlərdən sonra peyğəmbər qızı təpənin başına apardı və ona padşahın yanına getmək üçün yolu göstərdi. Qız həmən yolla getdi və çox keçmədən padşahın ah-ufu eşidildi. Padşahın otağının qapısını açanda onun yanıqlı səsini eşitdi, o, içəri daxil olan adama yalvarırdı ki, onu vurmasın.

Qız onu vurmayacağını deyərək onu sakitləşdir. Padşah öz gözlərindən qanı sildi və ona baxaraq xəbər aldı:

– Sən kimsən, sən nə üçün bu lənətlənmiş yerə gəlmişsən?

Libasını dəyişmiş qız dedi:

– Mən adi adamam və məni bura bədbəxt taleyim gətirib çıxarmışdır.

Padşah ucadan qəh-qəhə çəkərək dedi:

– Sən padşah balasısan, həm də qadınsan. Belə olduqda şahzadə qız xəbər aldı:

– Sən nədən bilə bilrsən ki, mən padşah balasıyam, həm də qadınam?

Padşah cavab verdi:

– Əgər sən padşah balası olmasaydın, sən də məni döyərdin, əgər sən kişi olsaydın, içəri girəndə "salam" deyərdin.

Qız onun sözlərini etiraf edib başına gələnləri nəql etdi və ondan məsləhət istədi. Padşah dedi :

- Orada mənim otağımda çoxlu iplər var. Ən qalın ipi götür, onun ucunu belinə bağla və pəncərə altından aşağı düş. Birazdan mələk göyərçin cildində uçub gələcək. O, özünün göyərçin cildini çıxardıb pəncərədə qoyacaq və məni vurmağa başlayacaq, onda sən cəld pəncərə altına qalx və cildi götür. Bundan sonra sən ona nə desən o, sənin üçün edəcəkdir.

Deyilən yerinə yetirildi. Mələk bir dəstə tiknalarla uçub gəldi, padşahı vursun, amma padşah gözlənilmədən ucadan gülməyə başladı. Mələk padşahın bu hərəkətindən çox heyrətləndi və əli qaldırılmış dayanıb durdu. Belə olduqda padşah dedi:

– Vur, nəyə durmusan, deyəsən cəzalandırılacağını qabaqcadan hiss edirsən.

Mələk ona dedi ki, bu gün onu vurmayacaq. Bu vaxt o, gördü ki, cildi yoxdur, otağın küncündə pəhləvan cüssəli yaraq-əsləhəsli bir nəfər durur. Mələk özünü itirdi, sonra isə şahzadə qızı tanıyıb öz cildini ona qaytarmaq şərtilə onun bütün xahişlərini yerinə yetirməyə hazır olduğunu vəd etdi. Bu vaxt peyğəmbər gəldi. Mələk peyğəmbərə dedi:

– Kim peyğəmbərlə birlikdə dua etməsə Allah onu duasını qəbul edər. Mən dua edəcəyəm sən isə “amin” de və Allah şahzadə qızı kişiyə çevirəcəkdir.

Deyildi edildi və şahzadə kişi oldu. Allah onun böyük əzab-əziyyətlərinin qarşılığında onun gözəlliyini saxlayıb özünü kişi etdi.

Bundan sonra mələk yeni şahzadəyə dalınca bura gəldiyi almanı verdi padşahı və onu rəiyyətini cəzadan azad edilmiş şəhərə gətirdir və məclis qurub şadyanalıq etdilər. Ziyafətdən sonra şahzadə əmisinin yanına getdi. Yolda o, arxası ona tərəf yolun ortasında oturmuş peyğəmbəri gördü. Şahzadə bundan təəccübləndi, atdan düşdü və peyğəmbər yanına qaçdı ki, onu qucaqlasın. Peyğəmbər onu görüb sevİndi və dedi:

– Mən səni sınamaq istədim, sən artıq öz məqsədinə çatmısan və İndi mən bilmək istəyirdim sən mənə diqqət edəcəksən, yoxsa, ötüb gedəcəksən.

Bu sözlərdən sonra şahzadə onun qarşısında diz çökdü və gözlərində yaş ona təşəkkür etdi. O, sonra peyğəmbərlə vidalaşdı və Leylini sağaltmaq və sonra isə onunla evlənmək üçün əmisinin yanına getdi.

Gecə toy ərəfəsində yeni şahzadənin atasının yanına bir nəfər gəldi və dedi:

– Mən peyğəmbər Xıdırelləröm, qızının kişi olması ilə səni təbrik edirəm və o, sənin qardaşının qızı ilə evlənir.

Səhər şahzadənin vilayətində onun toyunu bayram etdilər.

Göydən üç alma düşdü biri mənə, söyləyiciyə, digəri qulaq asana, üçüncüsü isə qapıda durub pay istəyən dilənçiyə.

***Yelizavetpol quberniyasının Qazax qəzasının Dağkəsəmən kəndində İsrafil Muradov yazıya alındı.***

## KITABIN İÇİNDƏKİLƏR

**13-cü buraxılış, 1892-ci il.**
**Qriqorev N. Tatev kəndi. Makedoniyalı İsgəndər haqqında tatar əfsanəsi.............................. 3**

**Babalyants A. Baki şəhərində yazılmış əfsanə və rəvayətlər**
1. Ulu baba İbrahim haqqında əfsanə ................ 4
2. Müdrik Süleyman haqqında əfsanə ............... 6
3. Böyük Pyotr haqqında rəvayət....................... 7
4. Şah Abbas haqqında rəvayət.......................... 9

**Qiyasbəyov N. Şah Abbas və Fərəc (nağıl) ........... 14**

**M.Mahmudbəyov. Aşıq Qərib (dastan).................. 19**

**M.Quliyev. "Tatar nəğmələri"**
1. Yaylaxla aranın deyişməsi ................................ 65
2. Yerlə göyün mübahisəsi.................................... 67

**A.İsmayilov. Arı haqqında nəğmə.......................... 68**

**Tatar nağılları və rəvayətləri**
1. Qorxaq ........................................................... 70
2. Varlı Əziz və onun qulu Musa haqqında .............. 72
3 Böhtancı .......................................................... 76
4. Xəsis.............................................................. 78
5. Xarxarı ........................................................... 79
6. Məlik Məmməd ................................................ 82
7. Gülçü xanım ................................................... 91

**17-ci buraxılış, 1893-cü il.**
**Əfəndiyev M. Şamaxı qəzası tatarlarının inanclarından ........................................................ 95**

**18-ci buraxılış, 1894-cü il.**
**Kalasev A. Vardavar (Yelizavetpol quberniyası Çaykənd kəndi) ........................................................ 105**

**Kalaşev A. və Hakimov A. Tatar mətnləri**
Beşik nəğmələri ........................................................ 107
Ağılar ........................................................ 108
Uşaq nəğmələri ........................................................ 110
Tapmacalar (tappacalar) ........................................................ 113
Məsəllər ........................................................ 114
Ağılar ........................................................ 115
Uşaq nəğmələri ........................................................ 116
Tapmacalar (tappacalar) ........................................................ 118
Məsəllər ........................................................ 119
Tapmacalar (tappacalar) ........................................................ 120
Aşiqin nəğmələri (şikəstələr) ........................................................ 121
Vida nəğmələri ........................................................ 122

**A.Kalasev. Tatar nəğmələri.**
Günəşi dəvət ........................................................ 123
Günəşi çaöırma ........................................................ 125

**19-cu buraxılış, 1894-cü il.**
**Zaqafqaziyada tatar xalq ədəbiyyatı.**
**A. Nağıllar**
Rüstəm və Fatma ........................................................ 126
Murgi-Güli Xəndan quşu haqqında ........................................................ 136
Molla Qasım ........................................................ 151

**Magmudbəyov M. Atalar sözləri və məsəllər ............ 167**

**20-ci buraxılış, 1894-cü il.**
**Zaxarov A. Zaqafqaziya tatarları qadınlarının ev və sosial məişəti**

İnanclar, sınamalar ........ 184
Beşik nəğmələri ........ 185
Fala baxmaq ........ 188
Xorla oxunan uşaq nəğmələri ........ 189
Söyləyicilər, aşıqlar ........ 192

**21-ci buraxılış, 1896-cı il.**
**Batum peşə məktəbinin müəllim-nəzarətçisi A.Zaxarov. Müqəddəs baliq (tatar nağılı) ........ 194**

**Zaqafqaziya müəllimlər seminaryasının yetirmələri tərəfindən toplanmış nağıllar**
Pəhləvan Həsən ........ 200
Şahzadə Aslan və div ........ 207
Qızıl balıq ........ 211
Pəhləvan Hüseyn ........ 215
Yoxsul Patam ........ 222

**Yelizavetpolda və onun ətrafında yaşayan quşlar və yerli tatarların quşlar haqqında bəzi rəvayətləri ........ 240**
Hop-hop, şanapipik ........ 242
Vəfasız arvad və vəfalı gəlin ........ 244
İki qardaşın nağılı ........ 250

**SMOMPK-da Azərbaycan**
**folkloru materialları,**
**2-ci cild.**
Bakı, Elm və təhsil, 2019.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/ 16
Mətbəə kağızı: №1
Həcmi: 264 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.